Fəxri Valehoğlu

# TİFLİS QUBERNİYASINDA AZƏRBAYCANLILARA QARŞI 1905-ci İL KÜTLƏVİ QIRĞINLARI



AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ
**A.A.BAKIXANOV ADINA TARİX İNSTİTUTU**

Azərbaycan Milli Elmlər Akademiyası
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
TARİX İNSTİTUTU

**Fəxri Valehoğlu**

# TİFLİS QUBERNİYASINDA AZƏRBAYCANLILARA QARŞI 1905-ci il KÜTLƏVİ QIRĞINLARI

Turxan
Bakı – 2013

Azərbaycan Milli Elmlər Akademiyası
A.A.Bakıxanov adına Tarix İnstitutu
Elmi Şurasının qərarı ilə çap olunur.

Azərbaycan Milli Elmlər Akademiyası AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu TARİX İNSTİTUTU

Elmi məsləhətçi: **Yaqub Mahmudov,**
*AMEA-nın müxbir üzvü*

Redaktor: **Elxan Poluxov,**
*tarix üzrə fəlsəfə doktoru*

Rəyçilər: **İradə Bağırova,**
*tarix elmləri doktoru*
**Gültəkin Nəcəfli,**
*tarix üzrə fəlsəfə doktoru*

**F.Valehoğlu. Tiflis quberniyasında azərbaycanlılara qarşı 1905-ci il kütləvi qırğınları.** Bakı, 2013. - 240 səh.

1905-1906-cı illərdə Cənubi Qafqazda ermənilərin fitnəsi ilə XX əsrin ilk qanlı erməni-azərbaycanlı münaqişəsi baş verir. Bu zaman Bakı, İrəvan, Naxçıvan, Şuşa, Yelizavetpol (Gəncə), Aleksandropol (Gümrü), Zəngəzur qəzalarında tüğyan etmiş qanlı hadisələr Tiflisdən və Borçalıdan da yan ötmür.

Fəxri Valehoğlunun (Fəxri Hacıyevin) bu monoqrafik tədqiqatında ilkin yazılı mənbələr əsasında 1905-ci ilin noyabr ayında Tiflis quberniyasının Tiflis və Borçalı qəzalarında baş vermiş erməni-azərbaycanlı toqquşmaları ətraflı şəkildə araşdırılmışdır. Ermənilər tərəfindən türk-müsəlmanlara qarşı həyata keçirilmiş qanlı aksiyalar və qətliam faktları Gürcüstan Milli Tarix Arxivində saxlanılan rəsmi sənədlərə və 1905-1906-cı illərdə Tiflisdə nəşr olunan gürcüdilli və rusdilli mətbuat orqanlarına istinadən üzə çıxarılmış, bununla da XX əsrdə Qafqaz arealında ilk kütləvi qətllərin müəlliflərinin ermənilər olduğu bir daha sübut olunmuşdur. Kitabda eyni zamanda Borçalı türklərinin cəsurluğu, ermənilərin amansız hücumuna məruz qalmış Tiflisdəki soydaşlarına silahlı dəstələr göndərərək arxa durmaları və sərgilədikləri digər həmrəylik nümunələri geniş təsvir edilmişdir.

$T\frac{0502000000-003}{(TNP)2013}$

© Turxan NPB, 2013

Azərbaycan Milli Elmlər Akademiyası
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
TARİX İNSTİTUTU

# AZƏRBAYCAN XALQINA QARŞI KÜTLƏVİ SOYQIRIMLARININ YENİ SƏHİFƏLƏRİ AÇILIR...

## Fəxri Valehoğlunun «Tiflis quberniyasında azərbaycanlılara qarşı 1905-ci il kütləvi qırğınları» kitabına

## ÖN SÖZ

XIX yüzilliyin əvvəllərində Rusiya imperiyasının Cənubi Qafqaz siyasətində yeni mərhələ başlandı. I Pyotrun vəsiyyətlərini silah gücünə həyata keçirən Çar Rusiyası Qacarlar dövlətinə və Osmanlı imperiyasına qarşı apardığı müharibələrin gedişində Cənubi Qafqazı türk-müsəlman əhalisindən təmizləmək siyasəti yeritdi. Bu diyarı bütünlüklə xristianlaşdırmağa çalışan işğalçılar erməniləri kütləvi surətdə Osmanlı imperiyası və Qacarlar dövləti ərazisindən köçürüb Cənubi Qafqazın azərbaycanlılar yaşayan ərazisinə yerləşdirməyə başladı. Beləliklə, Çar Rusiyası işğal etdiyi Cənubi Qafqazın ənənəvi etnik mənzərəsinə və demoqrafik durumuna da təcavüz etdi: Cənubi Qafqazın aborigen türk-müsəlman əhalisi olan azərbaycanlıların ata-baba torpaqlarına yeni xristian etnosunu köçürüb gətirdi. Gələcəkdə ermənilərə oyuncaq dövlət yaratmaq siyasəti yeridən çar müstəmləkəçiləri Azərbaycan torpaqlarında əvvəlcə ermənilərdən ötrü «Erməni vilayəti», sonra isə «İrəvan quberniyası» adlanan bir quberniya yaratdılar.

Ermənilərin Cənubi Qafqaza köçürülməsindən sonra bu diyarın ən qədim yerli əhalisi olan azərbaycanlılara qarşı qanlı qırğınlar dövrü başlandı. İşğalçılar tərəfindən silahlandırılan və hərtərəfli müdafiə olunan gəlmə ermənilər dinc, əliyalın azərbaycanlıları və

digər türk-müsəlman xalqlarını kütləvi sürətdə məhv etməyə başladılar. Cənubi Qafqazın tarixində türk-müsəlman əhaliyə qarşı kütləvi soyqırımları və deportasiyalar dövrü başlandı.

Çoxsaylı ilk mənbələrin, o cümlədən arxiv sənədlərinin araşdırılması nəticəsində bütün Azərbaycan torpaqlarında – İrəvanda, Naxçıvanda, Qarabağda, Zəngəzurda, Gəncədə, Bakıda, Şamaxıda, Qubada, Göyçayda, Kürdəmirdə, Salyanda, Lənkəranda, Urmiyada və digər ərazilərdə, həmçinin Şərqi Anadoluda yüz minlərlə türk-müsəlman əhalinin ən dəhşətli üsullarla məhv edilməsinə dair saysız-hesabsız faktlar aşkar olunmuşdur.

1918-1920-ci illərdə həm Stepan Şaumyanın başçılıq etdiyi daşnak-bolşevik rejimi, həm də Ararat (Ermənistan) Respublikası Azərbaycan xalqına qarşı dövlət səviyyəsində dəhşətli soyqırımları törətdi. Bütün bu kütləvi qırğınlar tarixdə dövlət tərəfindən həyata keçirilən ən dəhşətli soyqırımı cinayətləridir.

İstedadlı tədqiqatçı Fəxri Valehoğlunun oxuculara təqdim olunan **«Tiflis quberniyasında azərbaycanlılara qarşı 1905-ci il kütləvi qırğınları»** kitabında Azərbaycan xalqına qarşı soyqırımları tarixinin yeni səhifələri açılır. Alim ilk dəfə olaraq ermənilərin Tiflis quberniyasında, o cümlədən Tiflisin özündə azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırımlarının tarixini ayrıca bir tədqiqat mövzusu kimi qələmə alır. Məhz bu baxımdan Fəxri Valehoğlunun "Tiflis quberniyasında azərbaycanlılara qarşı 1905-ci il kütləvi qırğınları" kitabı olduqca gərəkli bir əsərdir. Əsərdə çox qiymətli və oxuculara indiyədək məlum olmayan fakt materialları verilir. Müəllifin 1905-1906-cı illərdə gürcü və rus mətbuatında dərc olunmuş materiallar və arxiv sənədləri əsasında aşkara çıxardığı çoxsaylı və olduqca qiymətli faktlar sübut edir ki, bəhs olunan dövrdə Cənubi Qafqazın başqa yerlərində olduğu kimi, Tiflis quberniyasında da azərbaycanlılara qarşı dəhşətli soyqırımları həyata keçirilmişdir. Həmin faktlardan aşağıdakılar diqqəti daha çox cəlb edir:

***Pəmbək və Zəngəzur mahallarında azərbaycanlılara qarşı soyqırımı:*** 20 sentyabr 1905-ci ildə Pəmbək mahalının Qursalı,

Xancığaz və Gözəldərə kəndlərinin çörək dalınca yaxınlıqda yerləşən Cəngi kəndinə gedən 20 azərbaycanlı sakini erməni silahlıları tərəfindən güllələnərək quyuya doldurulur.

Yenə həmin ildə Zəngəzur qəzasının Sisyan kəndində 190, Dərəbas kəndində 278, Kürtlər kəndində isə 120 azərbaycanlı sakin ermənilər tərəfindən qətlə yetirilir.

***Azərbaycanlılara qarşı Tiflis soyqırımı:*** Cənubi Qafqazın digər bölgələrində (Bakı, Şamaxı, Quba, İrəvan, Naxçıvan, Qarabağ, Zəngəzur, Gəncə və s.) azərbaycanlılara qarşı baş vermiş kütləvi qırğınların həmin dövrdə erməni millətçiliyinin mərkəzi olan Tiflisə də keçməsinin qarşısını almaq üçün şəhərin azərbaycanlı ziyalıları nə qədər səy göstərsələr də (erməni ziyalılarının tam əksinə olaraq!) bu, mümkün olmur. 22 noyabr 1905-ci ildə ermənilər şəhərdə çaxnaşma yaradır. Əvvəlcədən düşünülmüş plana uyğun olaraq, "Daşnaksutyun" terror təşkilatının silahlı dəstələri Tiflis yüksəkliklərində mövqe tutub şəhərin azərbaycanlılar yaşayan Şeytanbazar məhəlləsini gülləboran edirlər. Şəhər küçələrində sərbəst gəzib-dolaşan silahlı daşnaklar hakim dairələrin gözləri qarşısında guya "qanun mühafizəçiləri", "gözətçilər" kimi özbaşınalıqlar edir, yoldan keçənlərin üstlərini yoxlayır, azərbaycanlıları isə gördükləri yerdəcə güllələyirlər. "Daşnaksutyun"un rəhbərlərindən olan "məşhur" terrorçu Armen Qaronun (Qaregin Pastırmacyanın) başçılıq etdiyi 500 nəfərlik silahlı quldur dəstəsi xüsusi amansızlıq göstərir. **Soyqırımları** noyabrın 23-də daha dəhşətli xarakter alır. Şəhərin küçələri vəhşicəsinə qətlə yetirilmiş dinc, əliyalın və günahsız azərbaycanlı sakinlərin meyitləri ilə dolur. Hadisələrin canlı şahidi olan tanınmış gürcü publisistləri və ictimai xadimlərinin soyqırımlarının qarşısını almaq üçün etdikləri müraciətlər də heç bir nəticə vermir. Daşnakların qəddarlığından heyrətə gələn gürcü ictimaiyyəti nümayəndələrinin "barbarcasına qırğında" iştirak edənlərin cəzalandırılması və "Daşnaksutyun"un əsl simasının təhqiq olunması tələbi ilə mətbuat vasitəsilə siyasi təşkilatlara ünvanlanmış açıq məktubları Cənubi Qafqazı qan ça-

nağına döndərənlərin gerçək sifətini üzə çıxarırdı.

Gürcü ictimai xadimləri mətbuatda dərc olunmuş daha bir müraciətlərində isə 29 noyabrda gürcüdilli "*Tsnobis purtseli*" qəzetinin redaksiyası önündə, onların gözü qarşısında silahsız-suçsuz azərbaycanlıların daşnaklar tərəfdən öldürülməsinə cavab verilməsini tələb edirdilər. *Müraciətin bir yerində deyilirdi*:

"Dünən bizim redaksiyanın qarşısında dəhşətli qətl hadisəsi baş verdi. İki tatar fəhləsi canlarını qurtarmaq üçün gizlənməyə yer axtarırdı... Bizim mətbəənin işçiləri biçarələri çağırırdılar: " - Buraya gəlin!". Amma, nə faydası, bu zaman erməni "gözətçiləri" tatarları gördülər və güllələdilər… İki silahsız tatarı … silahlanmış güruh … rəhmsizcəsinə öldürdü. Öldürməklə ürəkləri soyumadı, ruhsuz cəsədləri dəyənəklərlə döyməyə və bıçaqlamağa başladılar, cəsədləri təhqir etdilər. Sonra "gözətçilər" cəsədin birini götürüb Kürə atdılar... Bütün bunlar "Daşnaksutyun" partiyasının adı ilə baş verir...".

1905-ci il noyabrın 27-də Borçalının cənubunda – Lorudakı Allahverdi-Elyar misəritmə zavodunda azərbaycanlı fəhlələrə qarşı kütləvi qətllər törədilir. Zavodda çalışan erməni işçilər törədiləcək qətliam barədə əvvəlcədən məlumatlandırılır və işə çıxmırlar. Həmin gün böyük bir silahlı erməni dəstəsi zavodu mühasirəyə alır və onun 16 nəfər azərbaycanlı işçisini qətlə yetirir. Bu soyqırım aktı, həm də, erməni fəhlələrinin öz iş yoldaşlarına xəyanətkar münasibətinin göstəricisi idi.

Tiflis azərbaycanlılarına qarşı soyqırımının daha böyük miqyas almasının qarşısını Borçalıda erməni quldurlarına qarşı baş qaldırmış xalq hərəkatı alır. Xalq hərəkatının iştirakçıları Qarayazıda, Başkeçiddə və Sarvan ətrafında "Daşnaksutyun"u maliyyələşdirən tiflisli varlı erməni sahibkarlarının obyektlərini (fermaları, xutorları, zavodları və s.) dağıdırlar. Ancaq bu zaman bir nəfər də olsun dinc erməniyə xəsarət yetirilmir! Çox keçmədən hərəkat genişlənir. Dərhal mahalda yaşayan döyüşkən qarapapaqlar tərəfindən könüllü süvari müdafiə dəstələri toplanır və Tiflisdəki soydaşlarına kömək üçün göndərilir. Borçalıların

Tiflisə gəlib Şeytanbazarda döyüş mövqeyi tutması və erməni silahlı dəstələrilə açıq döyüşə girməsi Tiflis ermənilərini vəlvələyə salır. Erməni məhəllələri panikaya düşüb boşalır, onların sakinləri isə rus və gürcü məhəllələrinə sığınır. Azərbaycanlı özünümüdafiə dəstələri ilə açıq silahlı döyüşə girməyə cəsarət etməyən erməni-terrorçu dəstələri 29 noyabrda Şeytanbazarda böyük yanğın törədirlər. Yeri gəlmişkən, bu zaman azərbaycanlılara məxsus evlər və mülklərlə yanaşı yunan kilsəsi də yandırılır.

Borçalıların Tiflisə yürüməsi nəticəsində hadisələrin gedişində gözlənilmədən dönüşün baş verdiyini görən və bundan əvvəl azərbaycanlılara qarşı soyqırımına göz yuman yerli hakimiyyət strukturları dərhal "sülh təşəbbüsü" ilə əl-ayağa düşür. Danışıqlar başlanır, eyni zamanda, şəhərə əlavə hərbi qüvvələr yeridilir. Müsəlman və erməni məhəllələrində sülh çağırışlı mitinqlər təşkil edilir. Dekabrın 1-də barışıq əldə olunur.

Tiflisdə və Borçalıda erməni terrorçularına qarşı özünümüdafiə dəstələrinin təşkil edilməsində general-leytenant İsrafil bəy Yadigarovun oğlulları – general-mayor Həsən bəy Yadigarov və poruçik Hüseyn bəy Yadigarovun başçılığı ilə Borçalı ağaları və bəyləri aparıcı rol oynayırdı. Hüseyn bəy Yadigarov özünün Şeytanbazardakı Vorontsov küçəsində yerləşən evindən şəhərin azərbaycanlı özünümüdafiə dəstələrinə rəhbərlik edirdi. Həsən bəy Yadigarov isə Borçalıda baş qaldırmış xalq hərəkatına başçılıq edirdi.

Tiflis soyqırımı zamanı şəhərin azərbaycanlı əhalisinin xeyli hissəsi məhv edildi. Şəhərin azərbaycanlı əhalisi, həm də, çox ağır ruhi-mənəvi zərbəyə də məruz qaldı. Təsadüfi deyil ki, barışıq əldə olunduqdan az sonra Zaqafqaziya şeyxülislamı Axund Əbdüssəlam Axundzadənin 18 yaşlı qızı aldığı əsəb sarsıntısından dünyasını dəyişdi, şeyxülislamın özü isə baş verən qanlı hadisələr nəticəsində ağır xəstələnib vəzifəsini tərk etmək məcburiyyətində qaldı...

Fəxri Valehoğlunun araşdırmaları bir daha sübut edir ki, 1905-ci il Borçalı xalq hərəkatı xalqımızın erməni təcavüzünə qarşı müqavimət və mübarizə tarixinin şərəfli səhifələrindəndir.

**«Tiflis quberniyasında azərbaycanlılara qarşı 1905-ci il kütləvi qırğınları»** kitabı gərəkli və qiymətli tədqiqatdır. Əsərin uğurlu çıxmasında onun müəllifinin elmi səriştəsi, istedadlı qələm sahibi olması, çox qiymətli arxiv sənədləri üzərində səylə çalışması az rol oynamamışdır. Əsərin müəllifi Fəxri Valehoğlu, eyni zamanda, Borçalı-Qarapapaq ellərinin hərb və qəhrəmanlıq tarixi ilə bağlı da maraqlı elmi araşdırmalar aparır. Onun bu istiqamətdə apardığı tədqiqatları da izləyirəm. Qeyd etmək yerinə düşər ki, Fəxri Valehoğlunun və atası görkəmli alimimiz, uzun illər Tiflis Dövlət Universitetinin Azərbaycan bölməsinə rəhbərlik etmiş mərhum professor Valeh Hacıların Gürcüstan arxivlərində Azərbaycan tarixinə dair mühüm sənədlərin aşkar olunub üzə çıxarılmasında böyük xidmətləri vardır. Yeri gəlmişkən, hazırda xarici işlər nazirinin müavini Xələf Xələfovla birlikdə həmin sənədlərin surətlərinin sistemləşdirilərək çap olunması üçün müvafiq tədbirlər görürük. Bu məqsədlə AMEA-nın Tarix İnstitutu və Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Birgə İşçi Qrupu fəaliyyət göstərir. Fəxri Valehoğlu bu işçi qrupun da əlaqələndiricisidir.

Nəhayət, Fəxri Valehoğlu **«Tiflis quberniyasında azərbaycanlılara qarşı 1905-ci il kütləvi qırğınları»** əsəri ilə Azərbaycan xalqına qarşı soyqırımları tarixinin yeni səhifələrini açmağa başladı. Kitab bu istiqamətdə uğurlu başlanğıc və tarixşünaslığa ilk töhfədir. Müəllifin elmi tədqiqat üslubu, tarixi faktlara tənqidi və məsuliyyətli münasibəti aydın göstərir ki, onun bir istedadlı alim kimi daha böyük uğurları hələ irəlidədir. Mən buna şübhə etmirəm. Ona da dərindən inanıram ki, alimin **«Tiflis quberniyasında azərbaycanlılara qarşı 1905-ci il kütləvi qırğınları»** kitabını mütəxəssislər və geniş oxucu kütləsi böyük maraqla qarşılayacaqdır.

**Yaqub Mahmudov**
*Əməkdar elm xadimi,*
*AMEA-nın müxbir üzvü*

## REDAKTORDAN

Təkcə XX əsrdə müəyyən fasilələrlə bir neçə dəfə qığılcımlanmış erməni-azərbaycanlı münaqişəsi bizi bu münaqişələrin yaranma səbəblərini ciddi tədqiq etməyə və bir daha təkrarlanmasın deyə nəticə çıxarmağa vadar edir. Çünki tarix bizə göstərir ki, yaşadığımız regionda cərəyan edən hər siyasi kataklizmdən sonra erməni fitnəsi baş qaldırır və hər dəfə də biz bu fitnələrə hazırlıqsız yaxalanaraq itkilərlə üzləşirik.

Yuxarıda qeyd olunanlar baxımından həmkarım Fəxri Valehoğlunun qarşınızda duran əsəri olduqca aktual və zəruridir. Kitabda Tiflisdə və Borçalı qəzasında 1905-ci ildə baş verən erməni-azərbaycanlı münaqişəsi tam təfərrüatı ilə geniş şəkildə araşdırılır, bunun üçün elmi dövriyyəyə ilk dəfə gətirilən arxiv mənbələri, o dövrün gürcüdilli və rusdilli mətbuatı süzgəcdən keçirilir ki, bu da tədqiqatın akademik dəyərini artırır və ona xüsusi çəki verir. Üzə çıxarılan qətliam faktları bir daha ermənilərin əsl simasını ortaya qoyur.

Cənubi Qafqazda öz başlanğıcını təqribən iki əsr bundan öncə götürmüş qlobal etnosiyasi proseslər və bu proseslərin fonunda süni demoqrafik istiqamətləndirmələr hələ də bitməyib. Tarixi Azərbaycan torpaqlarında özlərinə dövlət quran ermənilərin ərazi iddiaları yenə də qonşu olan xalqların torpaqlarına yönəlir. Bütün proseslər kor-təbii deyil, planlı, məqsədyönlü və düşünülmüş şəkildə həyata keçirilir. Ermənilərin dənizdən dənizə "Böyük Ermənistan" dövləti qurmağı hədəflədikləri yol ilk növbədə "Erməni vilayəti"ndən başlayıb Ermənistan respublikası kimi monoetnik ərazi vahidinin yaranmasına qədər uzanan və bir-birinə zəncirvari şəkildə bağlı olan aşağıdakı mərhələlərdən adlayıb:

- Cənubi Qafqaza kütləvi şəkildə məskunlaşdırılmaları (XIX əsrin birinci qərinəsi);

- İlk etnik inzibati ərazi vahidinin – "erməni vilayəti"nin yaradılması (1828-ci il);
- İdarəetmə və kommersiya strukturlarında mühüm vəzifələrə yiyələnməklə əsas siyasi və iqtisadi mövqelərin ələ keçirmələri (XIX əsrin II yarısı);
- XIX əsrdə və XX əsrin əvvəllərində Cənubi Qafqazın mərkəzi şəhəri Tiflisdə əhali üstünlüyünə sahib olmaları;
- Radikal siyasi təşkilatlar və bu təşkilatlar nəzdində peşəkar terror dəstələri yaratmaları (XIX əsrin II yarısı);
- Milli zəmində qarşıdurmaların baş verməsinə səbəbkar olmaları, nəticədə etnik sıxışdırma və təmizləmə yolu ilə yalnız ermənilərin yaşadığı vahid etnik tərkibə malik ərazilərin yaradılması (1905-1906-cı illər erməni-azərbaycanlı qarşıdurması, 1918-1920-ci illərdə erməni-azərbaycanlı və erməni-gürcü müharibəsi, 1943-1952-ci illərdə azərbaycanlıların deportasiyası, 1988-ci ildən öz başlanğıcını götürən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində).

Göstərilən mərhələləri keçməklə ermənilər keçmiş İrəvan xanlığının ərazisində özlərinə 1918-ci ildə tarixdə ilk dəfə olaraq Ararat respublikası adlanan dövlət qurdular, sonra onu genişləndirərək Ermənistan respublikasını yaratdılar, ardınca isə Dağlıq Qarabağı və ətraf rayonları işğal etdilər (şübhəsiz ki, müvəqqəti olaraq). Hələ həyata keçirilməyib növbə gözləyən sonrakı mərhələlərdə Cavaxetiya və Naxçıvanın durduğunu heç bir millətçi erməni təşkilatı gizlətmir. Daha sonra isə yəqin ki, "Böyük Ermənistan"ın paytaxtı kimi düşünülən Tiflis yolu üzərində başlıca maneə kimi dayanan Borçalı mahalı, Türkiyənin şərq bölgələri hədəfə alınacaq, dənizə çıxış məsələsi qaldırılacaq... Əlbəttə ki, dediklərimiz ilk baxışdan bir az qeyri-real görünür və yaxın perspektivdə reallaşdırılması çətin olan məsələlərdir. Lakin digər tərəfdən tarixin gedişi göstərir ki, ermənilər məqsədlərinə çatmaq üçün illərlə gözləmək və əl altından öz siyasətlərini yürüt-

mək qabiliyyətinə malikdirlər, münasib bir tarixi məqam yetişəndə isə fürsəti əldən vermirlər.

Ruhumuzun, mənəviyyatımızın ana şəhərlərindən biri olan Tiflis XIX əsrin sonlarında və XX əsrin əvvəllərində erməni millətçi-şovinist ideologiyasının mərkəzinə çevrilmişdi. 1905-ci ildə Tiflisə səyahət etmiş italyan tarixçisi və diplomatı Luici Villari (1876-1959) 1906-cı ildə Londonda yayımlatdığı "Qafqazda od və qılınc" kitabında yazırdı:

"Ermənilər şəhərin kommersiya aktivlərinə bütün səviyyələrdə nəzarət edirdilər. Bir gün baş küçədə gəzərkən aşkar etdim ki, böyük mağazaların və ya önəmli şirkətlərin hamısı ermənilərin mülkiyyətindədir. Gürcülər isə öz var-dövlətini itirirlər... Demək lazımdır ki, Tiflis yavaş-yavaş erməni millətçiliyinin mərkəzinə çevrilir"[1].

XX əsrin əvvəllərində ermənilər Cənubi Qafqazda ən güclü mövqeyə Tiflisdə sahib idilər, şəhərin əhalisinin çoxu, şəhər şurasının üzvlərinin əksəriyyəti ermənilərdən ibarət idi. Buna baxmayaraq, F.Valehoğlunun tədqiqat işindən görünür ki, 1905-1906-cı illərdə onların planları Cənubi Qafqazın digər şəhərlərində və bölgələrində olduğu kimi, hər sahədə böyük üstünlüyə malik olduqları Tiflisdə də iflasa uğramışdır və bu, Borçalı azərbaycanlılarının çevikliyi və mərdliyi sayəsində mümkün olmuşdur.

Yeri gəlmişkən bu dəyərli elmi əsərin müəllifi Fəxri Valehoğlu barəsində, onun peşəkar və insani keyfiyyətləri haqqında da bir neçə söz demək istərdim. Fəxri perspektivli gənc diplomatlarımızdandır və bu sahədə böyük uğurlara imza atacağına əminəm. O, riyazi analizin ən çətin, abstrakt sahəsi üzrə elmi iş müdafiə etməklə yanaşı, əldə etdiyi riyazi nəzəri bilikləri yüksək peşakarlıqla humanitar sahələrə praktiki tətbiq etməyi bacaran riyaziyyatçı-alimdir. Və ən önəmlisi, bu bacarıqların üzə çıxmasında onun böyüdüyü ailə mühiti böyuk rol oynayıb. Fəxri, atası – unudulmaz böyük alimimiz, Borçalı folklorunun toplanması

[1] L.Villari. Fire and Sword in the Caucasus, London, T.F.Unwin, 1906, p. 110.

və tədqiqi sahəsində ən aparıcı mütəxəssis, professor Valeh Hacıların yaratdığı elmi məktəbin davamçısı, bu məktəbdən yetərincə mayalanmış və onun ruhundan qidalanmış gözəl tarix tədqiqatçısı, populyar elmi monoqrafiya və məqalələrin müəllifidir.

İnsani dəyərlərə gəldikdə isə, Fəxri hər şeydən öncə bütün varlığı ilə vətəninə, xalqına bağlı olan səmimi insan və etibarlı dostdur. Təqribən iki il Gürcüstandakı səfirliyimizdə birgə çalışdığımız müddətdə bunun şahidi olmuşam. Fəxrinin yaranan ilk fürsətdəcə arxivə üz tutması, bayram tətillərini, hətta məzuniyyətlərini belə yorulmadan bu darıxdırıcı, soyuq və tozlu məkanda keçirməsinin də canlı şahidiyəm. Üzə çıxardığı yeni arxiv dosyeləri və əhəmiyyətli faktlar barədə böyük həvəslə məlumat verdiyi ilk şəxslərdən biri də mən olurdum. Bir neçə dəfə özüm də onunla Gürcüstan Milli Tarix Arxivinə getmiş və burada iş şəraitinin nə qədər çətin olduğunu gözlərimlə görmüşəm.

Bununla yanaşı qeyd etmək istərdim ki, tariximizə dair Gürcüstan arxivlərində saxlanılan bir sıra mühüm sənədlərin kataloqlarını hazırlayıb (professor Valeh Hacıların başçılığı altında), səfirliyimiz vasitəsilə elektron surətlərini götürməyə müvəffəq olduq. Ümidvarıq ki, bu istiqamətdə növbəti uğurlu layihələrdən biri sözügedən sənədlərin surətlərinin kitab şəklində nəşri olacaq.

Sonda onu söyləmək lazımdır ki, gənc alim-diplomatımız Dr. F.Valehoğlunun ortaya qoyduğu bu kitab böyük əməyin məhsuludur. Müəllif bir tədqiqatçı kimi qarşısına qoyduğu məqsədin öhdəsindən uğurla gəlmişdir. Tədqiqatı yüksək qiymətləndirir və hesab edirəm ki, bu əsər Qafqazda erməni məsələsinin kökünə dair həqiqətlərin və 1905-1906-cı illərdə baş vermiş erməni-azərbaycanlı münaqişəsi barədə tarixi reallıqların dünya ictimaiyyətinə çatdırılmasında mühüm rol oynayacaqdır.

**Elxan Poluxov,**
*tarix üzrə fəlsəfə doktoru,*
*fövqəladə və səlahiyyətli səfir*

# GİRİŞ

Azərbaycanlı-erməni münasibətləri tarixinin dərindən tədqiq olunub hərtərəfli şəkildə öyrənilməsi tarixşünaslığımız qarşısında duran ən aktual və önəmli məqsədlərdəndir. Çünki Sovetlər Birliyi dönəmində bəlli obyektiv səbəblərə görə, bu münasibətlər tarixinə dair həqiqətlərin üzə çıxarılması mümkün olmamış, hakim ideologiyanın təsiri altında tarixi hadisələrin izahı və şərhi saxtalaşdırılmış, bir sözlə, səmərəli elmi axtarışların aparılmasına imkan verilməmişdir. Nəticə etibarilə, Qafqaza XIX əsrdə kütləvi surətdə İrandan və Türkiyədən köçürülmüş erməni etnosu sovet vətəndaşına regionun və bütövlükdə dünyanın ən qədim, eyni zamanda ən əzabkeş və məzlum xalqlarından biri kimi təlqin edilmişdi.

Fəqət Sovetlər Birliyinin dağılmasından sonra üzə çıxarılan yeni tarixi faktlar və inkarolunmaz həqiqət, ideologiya əsasında yazılmış tarixi nəzəriyyələri və müddəaları alt-üst etdi. Bu məsələdə Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutu başda olmaqla ölkəmizin elmi qurumlarının məhsuldar fəaliyyətini xüsusi qeyd etmək yerinə düşərdi. Buna baxmayaraq, etiraf etmək lazımdır ki, bu istiqamətdə görüləcək işlər hələ də az deyil.

XX əsr kənardan qızışdırılan azərbaycanlı-erməni münasibətlərinin açıq silahlı və qanlı qarşıdurmalara keçdiyi bir dövrdür. Bu yüzildə ilk ağır münaqişə 1905-1906-cı illərdə baş vermişdir. Həmin zaman Rusiya İmperiyasında hökm sürən gərgin daxili sosial-siyasi durumdan öz çirkli məqsədləri naminə yararlanmağa çalışan erməni mürtəce şovinist təşkilatları Cənubi Qafqazın böyük şəhərlərində inzibati-bürokratik və iqtisadi-ticari səviyyələrdə üstünlüklərindən istifadə edərək, türk-azərbaycanlı etnik faktorunun regiondan sıxışdırılması üçün bütün vasitələrə,

o cümlədən, fiziki zorakılıqlara, ən qanlı qeyri-insani üsullara əl atmaqdan belə çəkinməmişlər. Nəticədə 1905-ci ilin fevral ayında Bakı şəhərindən baş götürmüş qanlı olaylar ardıcıl olaraq İrəvan, Naxçıvan, Şuşa, Zəngəzur, Gəncə, Tiflis, Borçalı və digər bölgələrdə davam etmiş, minlərlə günahsız azərbaycanlı sakin erməni silahlı dəstələrinin qurbanına çevrilmişdir.

Sovet tarixşünaslığında sinfi mübarizə kimi səciyyələndirilmiş 1905-1906-cı illər münaqişəsi azərbaycanlı-erməni münasibətləri tarixinin ən çox maraq doğuran və araşdırmaya ehtiyacı olan dövrlərindən biridir.

Diqqətinizə təqdim olunan bu kitabın əsas məqsədi ilkin tarixi mənbələr və materiallar − Gürcüstan Milli Tarix Arxivində saxlanılan sənədlər, rəsmi yazışmalar, Tiflisdə 1905-1906-cı illərdə nəşr olunan gürcüdilli "İveriya", "Tsnobis Purtseli" ("Məlumat vərəqəsi") və rusdilli "Vozrojdeniye" ("Dirçəliş"), "Tiflisskiy listok" ("Tiflis vərəqəsi"), "Novoye obozreniye" ("Yeni icmal"), "Kavkaz" qəzetləri, eləcə də həmin dövrdə yaşamış tanınmış ictimai xadimlərin xatirələri əsasında 1905-ci ildə Tiflis quberniyasında baş vermiş erməni-azərbaycanlı münaqişəsi haqqında tarixi gerçəkliklərin üzə çıxarılmasından, onun səbəb və nəticələrinin öyrənilməsindən ibarətdir. Kitab bu mühüm mövzunun monoqrafik şəkildə tədqiq olunması yönündə ilk cəhddir və indiyədək 1905-ci ildə Tiflis şəhərində və Borçalı qəzasında baş verən qanlı hadisələr barədə bu və ya digər şəkildə ayrıca tədqiqat işlənilməmişdir.

Müasir dövrdə, regionda milli münasibətlərin çağdaş mərhələsində daha çox aktuallıq və əhəmiyyət kəsb edən mövzunun araşdırılması zamanı aşağıdakı xüsusiyyətlər diqqət mərkəzində olmuşdur:

- 22-30 noyabr 1905-ci ildə Tiflis şəhərində baş vermiş qanlı hadisələrin geniş işıqlandırılması zamanı hadisələrin xronologiyasının təmin edilməsi;
- Tiflis qırğını ərəfəsi və sonrası cərəyan etmiş ictimai-siyasi proseslər və hadisələr barədə ətraflı bilgi verilməsi;

- Tiflis olaylarının Cənubi Qafqazın digər şəhər və bölgələrində, xüsusən də ətraf qəzalarda baş vermiş erməni-azərbaycanlı toqquşmaları ilə bağlılığının müəyyən edilməsi;
- Olaylarda adları çəkilən tarixi şəxslərin kimliyinin, tərcümeyi-halının dəqiqləşdirilməsi;
- Baş verənlərə dair gürcü ziyalılarının və gürcü ictimaiyyətinin mövqeyinin aydınlaşdırılması;
- Mövzunun tədqiqinə maksimal dərəcədə bitərəf yanaşılması və bunun üçün istinadlarda birbaşa münaqişə tərəfi hesab olunmayan qurumlara məxsus gürcüdilli və rusdilli mənbələrə üstünlük verilməsi;
- Neytral yanaşmanın təmin olunması və oxucunun fikrinə təsir göstərilməməsi məqsədilə faktların bacardıqca az şərh və təhlil edilməsi;
- Dəqiqliyin və orijinallığın qorunması üçün tərcümə mətnlərində punktuasiyanın və orfoqrafik xüsusiyyətlərin saxlanılması.

Tədqiqat işi “Birinci rus inqilabı və ilk qanlı erməni-azərbaycanlı münaqişəsi”, “Qərbi Azərbaycanda qətliamlar”, “Tiflis qırğınları”, “Borçalıda xalq hərəkatı”, “Sülh qurultayı (20 fevral – 6 mart 1906-cı il)”, “1905-1906-cı il hadisələri yazarlarımızın gözü ilə”, “Gürcü və erməni qəzetlərinin söz atışması” adlanan 7 bölümdən ibarətdir. Sonda Tiflisin küçə, prospekt və meydanlarının XX əsrin əvvəllərindəki və indiki adları təqdim olunur ki, bu da Tiflisi tanıyan tədqiqatçı və oxucuların hadisələrin gedişatını və baş verənləri dəqiq şəkildə göz önünə gətirib, qavramalarına imkan yaradır.

Tədqiqat işində elmi dövriyyəyə ilk dəfə gətirilən materiallar əsasında Azərbaycan türklərinə qarşı erməni zülmünə dair çox sayda yeni önəmli faktlar ortaya çıxarılır. Bu faktlardan erməni şovinizminin genezisinin, XX əsrin əvvəllərində Cənubi Qafqazda cərəyan edən proseslərin öyrənilməsində istifadə oluna bilər. Monoqrafiya bu istiqamətdə ilkin addım olmaqla yana-

şı, burada gələcək araşdırıcıların diqqətini cəlb edə biləcək məsələlər qaldırılır, yeni-yeni tədqiqatlara geniş üfüqlər açılır. Tədqiqat əsərindən həm də, Qafqaz tarixinə və azərbaycanlı-erməni münasibətlərinə dair dərs və metodiki vəsaitlərin hazırlanmasında, proqramların tərtibində, xüsusi kursların və seminarların tədrisində yararlanmaq mümkündür.

Müəllif kitabın ərsəyə gəlməsində göstərdikləri dəstəyə və dəyərli məsləhətlərini əsirgəmədiklərinə görə Azərbaycan Respublikasının xarici işlər naziri E.Məmmədyarova, müavini X.Xələfova, görkəmli alimlərimiz − millət vəkili, Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Y.Mahmudova, Valeh Hacılar Elmi-Mədəni Araşdırmalar Vəqfinin başqanı, professor C.Alyılmaza, professor C.Həsənliyə, AMEA-nın "Qafqaz tarixi" şöbəsinin müdiri, tarix elmləri doktoru İ.Bağırovaya, AMEA-nın "Azərbaycanın beynəlxalq münasibətlər tarixi" şöbəsinin aparıcı elmi işçisi Dr. G.Nəcəfliyə, Azərbaycan Respublikasının Cənubi Afrika Respublikasındakı səfiri Dr. E.Poluxova və AR XİN-in müşaviri Dr. C.Vəkilova öz dərin təşəkkürünü bildirir.

# I Bölüm

## BİRİNCİ RUS İNQİLABI VƏ İLK QANLI ERMƏNİ - AZƏRBAYCANLI MÜNAQİŞƏSİ

XX əsrin əvvəllərində yaranmış dünya iqtisadi böhranının nəticələri Rusiya İmperiyasından da yan ötüşmür. İmperiya ərazisində yüzlərlə istehsal müəssisəsi bağlanır, yüz minə yaxın adam işsiz qalır. Bu böhran illərində fəhlə tətilləri, nümayişlər mütəmadi hal alır. Ağır iş şərtlərindən, iri sənayeçilərin istismarından təngə gəlmiş fəhlələrin əsas tələbləri sosial hüquqlarının təmin olunması ilə yanaşı söz, mətbuat və sərbəst toplaşmaq azadlığı, kilsənin dövlətdən ayrılması və s. idi. Paralel olaraq ölkənin qəzalarında torpaqların tədricən kəndlilərə paylanması tələbi ilə kəndli hərəkatı başlanır. Rusiya İmperiyası əhalisinin ən böyük zümrəsini, 3/4-nü təşkil edən kəndlilər həmçinin vergi verməkdən və mükəlləfiyyətlər daşımaqdan imtina edirdilər.

"Qanlı bazar" − 1905-ci ilin 9 yanvar tarixində, həftənin bazar günü Sankt-Peterburqda keşiş Georgi Qaponun başçılığında fəhlələrin dinc nümayişinin imperator qoşunları tərəfindən güllələboran edilməsi siyasi şüarlarla kütləvi çıxışların və bununla da tarixi mənbələrdə "1905-ci il rus inqilabı" və ya "Birinci rus inqilabı" adlanan hadisələrin başlanmasına təkan verdi. İmperiya hüdudlarını, o cümlədən Qafqazın cənubunu üsyan dalğası, kütləvi tətillər və nümayişlər bürüdü.

Cənubi Qafqazın imperiyadaxili inqilabi proseslərdə fəal iştirakı bu regionda iqtisadi və sosial şərtlərlə yanaşı, XIX əsrdə süni şəkildə yaradılmış "erməni amili"ndən dolayı millətlərarası münasibətlərin kəskinləşməsindən də irəli gəlirdi. Belə ki, XIX yüzilin 20-ci illərinin sonlarında imzalanmış Türkmənçay və Ədirnə sülh müqavilələrindən sonra Cənubi Qafqaza kütləvi şəkildə məskunlaşdı-

rılan ermənilər artıq həmin yüzilin sonlarında burada təşkilatlanaraq radikal formada fəaliyyət göstərir, XX əsrin başlarında muxtariyyət tələbləri irəli sürür, bir sözlə xülyasını qurduqları "Böyük Ermənistan" dövlətinin (paytaxtı Tiflis şəhəri olmaqla) yaradılmasına onlara qucaq açan qonşularının – azərbaycanlıların və gürcülərin torpaqları hesabına elə yeni məskunlaşdıqları ərazilərdən başlanmasını mümkün görürlər. İlk mərhələdə onlar dövlət idarəetmə orqanlarında əsas və aparıcı mövqelərə yiyələnir, regionun bütün gəlirli sahələrini, azərbaycanlılara və gürcülərə məxsus mülkləri və iri torpaq paylarını öz əllərinə keçirirlər. Minlərlə belə faktlardan biri barədə Tiflisdə gürcücə yayımlanan "Tsnobis purtseli" qəzeti məlumat verirdi: "Borçalı qəzasının Baydararx kəndində Tiflisli varlı vətəndaş Mirzoyev tərəfindən böyük torpaq sahələri alınıb. O, öz torpağını balaca-balaca hissələrə bölüb və İrəvanın əhalinin sıx məskunlaşdığı yerlərindən 60 ailəni oraya yerləşdirmək istəyir. Şərtlər isə belədir: kəndlilər əkib-becərdiklərinin bir hissəsini Mirzoyevə verəcək, qalanlarını isə özlərinə götürəcəklər"[1].

Təbii ki, ermənilərə bu münbit şəraiti yaradan çar hakimiyyəti idi və bu hakimiyyət düşünürdü ki, ermənilər Cənubi Qafqazda onlara həmişə sadiq qalacaq və əllərində ən etibarlı oyuncaq ola biləcək bir etnik faktordur. Halbuki çox keçmədən ermənilər onlara qoyulmuş etibar limitini aşırlar və bu, hökuməti 1903-cü ildə erməni məktəblərini və kilsələrini bağlayıb, onların mülk varlığına əl qoymağa məcbur edir. Hökumətin bu addımı erməniləri həm onların özünə, həm də düşmən gözündə gördükləri digər xalqlara qarşı daha da aqressivləşdirir. Bu nöqteyi-nəzərdən ermənidilli mətbuat orqanları xüsusi radikallıqları ilə seçilirlər. 14 oktyabr 1903-cü ildə "Hnçak" ("Zəng") erməni sosial-demokrat partiyası tərəfindən təşkil olunmuş sui-qəsd nəticəsində rus çarının Qafqazdakı canişini Qriqori Qolitsın başından bir neçə xəncər yarası alır və 1904-cü ilin sonunda səhhətindəki problemlərlə bağlı istefaya getməyə məcbur olur.

[1] "Tsnobis purtseli"qəzeti, 1905, 25 avqust (№ 1563), s. 3.

Ermənilərdən fərqli olaraq, azərbaycanlıların və ümumiyyətlə müsəlmanların ən elementar hüquqları belə təmin olunmurdu; ana dilində qəzet, jurnal və ya kitab nəşrinə, idarəetmə orqanlarında təmsil olunmalarına, maarif və xeyriyyə cəmiyyətləri yaratmalarına, təhsil almalarına və pedaqoji fəaliyyətlə məşğul olmalarına ciddi məhdudiyyətlər qoyulmuşdu. Şəhər dumalarının müsəlman üzvlərinin, eləcə də şəhər idarələrinin müsəlman məmurlarının sayı xristianların sayının yarısından çox olmamalı idi. Ali təhsilli müsəlmanlar orta təhsil müəssisələrində pedaqoji fəaliyyətdən kənarlaşdırılmışdılar. 25 il idi ki, müsəlmanlar xeyriyyə cəmiyyəti qura bilmirdilər[1]. Bir sözlə, ermənilər hökumətə nə qədər doğma və yaxın etnik ünsür gözündə görünürdülərsə, azərbaycanlılar bir o qədər yad və uzaq idilər. Məhz bu amil ermənilərə hər yerdə anti-azərbaycanlı təbliğatı aparmağa, onları vəhşi və geridə qalmış bir toplum kimi qələmə verib ləkələməyə və nəzərdən salmağa cəhd göstərmələrinə maneəçilik törətmirdi. Yeri gəlmişkən bununla bağlı belə bir faktı qeyd edək ki, Qori seminariyasında təhsil alan Mustafa adlı bir Borçalı azərbaycanlısı onu "vəhşi asiyalı" ifadəsi ilə təhqir etdiyinə görə Ter-Arutyunov soyadlı bir erməninin həyatına son qoymuşdu[2].

Yuxarıda vurğulanan məsələlər 1905-ci ilin aprel ayında Cənubi Qafqazın azərbaycanlı-müsəlman liberal ziyalılarını sosial-siyasi və iqtisadi tələblərlə hökumətə petitsiya (ərizə) göndərməyə məcbur edir. Petitsiyanın müəllifi görkəmli hüquqşünas və ictimai-siyasi xadim Əlimərdan bəy Topşubaşov idi[3]. Bundan sonra 1905-ci ilin 10 iyun tarixində Rusiya imperatorunun Qafqazdakı canişini qraf İlarion İvanoviç Vorontsov-Daşkov Bakı və Yelizavetpol quberniyalarının, Tiflis quberniyasının Borçalı qəzasının, eləcə də Batum və Dağıstan vilayətlərinin müsəlmanlarından ibarət nümayəndə heyətini qəbul edir. Bu görüşdə Bor-

---

1 "Kaspi" («Каспий») qəz., 1905, 19 iyun (№ 6).

2 "Mədəniyyət" qəz., 2008, 27 sentyabr, s. 7.

3 И.Багирова. Политические партии и организации Азербайджана в начале XX века. 1900 – 1917, Баку, 1997, с. 139-140.

çalı qəzasını mülkədar Hüseyn bəy İsrafil bəy oğlu Yadigarov təmsil edirdi[1].

Çar II Nikolay əhalinin təzyiqləri qarşısında güzəştə gedərək 17 (30) oktyabr 1905-ci ildə qanunverici hakimiyyət və liberal azadlığın verilməsi haqqında manifest imzalamağa məcbur olur. Manifestdə xalqa vicdan, söz, mətbuat, sərbəst toplaşmaq azadlığı vəd edilir, qəzet-jurnal nəşrinə icazə verilməsi üçün tələb olunan bürokratik əngəllər azaldılır, seçki islahatları aparılmasına söz verilir. 17 oktyabr manifesti müsəlmanların da təhsil və digər vətəndaş hüquqlarının təmin edilməsinə, onların siyasi partiya və təşkilat yaratmalarına əsas verir və bu yöndə müəyyən irəliləyişlər əldə olunur. Buna rəğmən bütün millətlərin hüquqlarının bərabərləşdirilməsi məsələsində problemlər yenə də öz həllini tapmır.

Bu arada ermənilər arasında muxtariyyət tələbləri durmadan artır. Misal üçün, 1905-ci ilin noyabr ayında Tiflisdə ermənicə nəşr olunan və şovinist-təxribatcıl mövqeyi ilə fərqlənən "Mşak" ("Zəhmətkeş") qəzeti Konstitusiya-Demokrat Partiyasına keçdiyini və bütün Zaqafqaziya üçün ümumi muxtariyyət arzu etdiyini bəyan edirdi[2].

Qeyd olunanlarla bağlı "Kavkaz" qəzetində ayrıca məqalə ilə çıxış edən A.Dementyev imzalı publisist-yazar sözügedən məsələyə ümumi kontekstdə yanaşır, yəni ki, ümumilikdə Zaqafqaziya xalqlarına muxtariyyət verilməsinin mümkün olub-olmamasını təhlil edir və belə bir nəticəyə gəlir ki, bu diyarda etnosların çox qarışıq yaşamaları səbəbindən muxtar üsul-idarə sisteminin tətbiqi qeyri-mümkündür. Yazısında Cənubi Qafqazda məskunlaşmış 3 ən böyük xalqın − azərbaycanlıların, gürcülərin və ermənilərin yaşadıqları inzibati-ərazi dairələrində sayları və mövqeləri barədə ayrı-ayrılıqda məlumat verən Dementyev ilk olaraq öz şərhini ermənilərdən başlayır. O, statistik göstəricilərə istinad edərək bildirir ki, ermənilər Qafqazda yığcam deyil,

[1] И.Алиева. Политическое и социально-экономическое положение азербайджанцев Тифлисской губернии (1846-1917), Баку, 2009, с. 92.
[2] "Vozrojdeniye" («Возрождение») qəz., 1905, 20 noyabr (№ 32).

çox səpələnmiş halda yaşayırlar. Ermənilərin Tiflis quberniyası istisna olmaqla, Zaqafqaziyada yalnız İrəvan quberniyasının 3 qəzasında − Aleksandropol, Yeni-Bəyazid və Eçmiədzin qəzalarında əhali üstünlüyünə malik olduğunu vurğulayan yazar bu qəzalardan birincidə − 165 min əhalidən 135 mininin, ikincidə − 122 mindən 81 mininin, üçüncü qəzada isə − 124 mindən 76 min nəfərin ermənilərdən ibarət olduğunu açıqlayır, eyni zamanda Tiflis və Kutais quberniyalarını, eləcə də Zaqatala dairəsini çıxmaqla Zaqafqaziyanın digər bölgələrində ermənilərin sayının təqribən 850 min nəfər olduğunu vurğulayaraq belə bir nəticəyə gəlir ki, onlara hansısa formada muxtariyyət verilməsi barədə söz belə ola bilməz və bunu anlamaq üçün Zaqafqaziyanın etnik xəritəsinə baxmaq kifayətdir.

Məqaləsinin davamında A.Dementyev yazır ki, gürcülər əsasən Tiflis və Kutais quberniyalarında yaşayırlar və onlar 1897-ci il siyahıyaalınmasına görə bu iki quberniyanın birlikdə 1 milyon 777 min nəfərdən ibarət əhalisinin yarıdan bir azca çoxunu təşkil edir, Tiflis quberniyasını ayrıca götürdükdə isə bu quberniyanın 939 min əhalisindən yalnız 426 mini gürcülərdir, yəni bu quberniyada gürcülər azlıqdadırlar, bu qeyd olunanlardan başqa "xatırlansa ki, Gürcüstanın ürəyində − Tiflisdə ağalıq edənlər gürcülər deyil, ermənilərdir, onda aydın olacaq ki, gürcülərə kağızda muxtariyyət verilməsi bunun gerçəkdə də belə olacağı anlamına gəlməyəcək".

Yeri gəlmişkən qeyd edək ki, Rusiyanın Cənubi Qafqazda hakimiyyətinin ilk illərindən, yəni XIX əsrin lap əvvəlindən etibarən ermənilərin Tiflisə kütləvi şəkildə yerləşdirilməsinə start verilmişdi. 1804-cü ildə buraya 2000-dən çox, 1807-1808-ci illərdə isə 1906 nəfər (əsasən Avlabar məhəlləsinə) erməni məskunlaşdırılmışdı[1]. Statistik göstəricilərə görə, bundan təqribən bir əsr sonra − 1905-ci ildə Tiflisin 240323 nəfərlik əhalisinin 35%-i − ermənilər, 23.8%-i − ruslar, 22.7%-i − gürcülər, qalanı

[1] Ş.Tetvadze, O.Tetvadze. Gürcüstanda ermənilər, Tiflis, 1998, s.54 (*gürcücə*).

isə azərbaycanlılar, yunanlar, yezidi kürdləri və digər millətlərdən ibarət idi[1]. 1902-ci ildə Tiflis şəhər dumasının 80 üzvündən 51-i – erməni, 15-i – gürcü, 9-u – rus, 2-si – alman, 2-si – polyak, 1-i də müsəlman idi.

A.Dementyev məqaləsinin gürcülərlə bağlı bölümündə müsəlman gürcüləri də unutmur və sayı təqribən 100 min nəfərdən ibarət olan bu toplumun xristian gürcülərlə ortaq heç nəyinin olmadığını qeyd edərək, onları ümumi hesaba almadığını yazır.

Cənubi Qafqazın əhalisinin böyük əksərini təşkil edən müsəlmanlar (əsasən azərbaycanlılar və digər kiçik müsəlman etnik qruplar) barədə də bilgi verən publisist onların sayının 2 milyon 740 min nəfər olduğunu ifadə edir və onlara muxtariyyət verilməsinin mümkünsüzlüyünü "aralarındakı təriqət fərqliliyi bir yana qalsın, kəskin və səciyyəvi tayfa fərqlilikləri" ilə izah edir[2].

Azərbaycanlılar öz adi hüquqlarının peşində ikən, erməni mürtəce şovinist təşkilatları "qanlı bazar"dan sonrakı ölkədaxili gərginliyi və qeyri-stabilliyi öz mənfur məqsədləri üçün istifadə etmək, yəni ki, bulanıq suda balıq tutmaq istədilər. Dövlət strukturlarında mühüm vəzifələr daşıyan, Tiflis və Bakı kimi böyük şəhərlərdə sənaye və ticarət müəssisələrinin çoxuna nəzarət edən bu təşkilatların tərəfdarları və fəalları onlara ruslar tərəfindən yaradılmış bu üstünlüklərdən istifadə edərək, yuxarıda qeyd olunan məqsədlərinə çatmaları yolunda qarşılarında başlıca maneə olan Qafqazın ən böyük xalqına – azərbaycanlılara qarşı kin və nifrət püskürməyə başladılar. Yaşından və cinsindən asılı olmayaraq əliyalın dinc insanlar sadəcə azərbaycanlı olduqları üçün qətliama məruz qaldılar. Bu məsələdə 1890-cı ildə Tiflisdə yaradılmış "Daşnaksutyun" partiyasının fəalları xüsusilə fərqlənirdi.

""Daşnaksutyun"un, digər adı ilə "Erməni İnqilabi İttifaqı"nın 1904-cü ildə Vyanada keçirilən 3-cü qurultayında kəşfiyyat funksiyaları olan "Deli" terror təşkilatı yaradıldı, habelə daş-

---

[1] Кавказский календарь на 1915 год, Тифлис, 1907, с. 325.
[2] "Kavkaz" («Кавказ») qəz., 1906, 13 yanvar (№ 10).

nakların müharibə etmək hüququ olan mütəşəkkil hərbi təşkilatının əsasını qoyan hərbi nizamnamə qəbul olundu”[1].

Məhz bu qurultaydan sonra daşnakların canfəşanlığı sayəsində Rusiya İmperiyası hüdudlarındakı sosial münaqişə və qarışıqlıq Qafqazın cənubunda milli münaqişəyə, erməni-azərbaycanlı çarpışmalarına çevrildi, bölgə qan çanağına döndü. Bakıda, İrəvanda, Naxçıvanda, Qarabağda, Zəngəzurda, Pəmbəkdə, Gəncədə, Qazaxda, Tiflisdə, Borçalıda və digər yerlərdə rus hakim dairələrinin gözü qarşısında minlərlə günahsız insan öldürüldü, 158 azərbaycanlı kəndi dağıdılıb yerlə yeksan edildi.

Milli zəmində ilk kütləvi toqquşmalar 1905-ci ilin fevral ayında Bakı şəhərində baş verdi. Fevralın 6-da erməni kilsəsi qarşısında Məşədi Ağarza Babayev adlı şəhərdə nüfuz sahibi olan bir azərbaycanlının ermənilər tərəfindən vəhşicəsinə öldürülməsi nəticəsində Bakıda sonradan bütün Cənubi Qafqazı ağuşuna alan kütləvi iğtişaşlar başlandı və fevralın 10-a qədər davam etdi.

Erməni terrorçu təşkilatları Bakı qubernatoru knyaz Mixail Nakaşidzeni şəhərdə baş vermiş qanlı olaylarda azərbaycanlıların tərəfini saxlamaqda ittiham etmiş və ona ölüm hökmü çıxarmışdılar. 1905-ci ilin may ayının 11-də Bakıda qubernator M. Nakaşidzeyə sui-qəsd olunmuşdur. Erməni daşnaklarının liderlərindən olan Dro (Drastamat Kanayan) qubernatorun faytonuna bomba atıb onu və ətrafındakı bir neçə nəfəri öldürmüşdür. Qeyd edək ki, knyaz Nakaşidzenin öldürülməsi ilə bağlı məhkəmə işinin materialları “Tsnobis purtseli” qəzetinin 1905-ci il oktyabr saylarında çap olunmuşdur.

Bakı hadisələrinin analoqu çox keçmədən İrəvanda cərəyan etmişdir. Bu şəhərdə fevralın 20-də başlayıb 23-də səngimiş erməni-azərbaycanlı toqquşmaları üç ay sonra 23-26 may tarixlərində yenidən təkrarlanmışdır. Həmin dövrdə Tiflisdə gürcücə nəşr olunan “İveriya” qəzeti İrəvanda birinci qırğının 20 fevralda iki azərbaycanlının bir-biri ilə dalaşıb revolverlə atışması və

[1] Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası, I cild, Bakı, 2004, s. 299.

yoldan ötən bir ermənin bunu görüb “erməniləri öldürürlər”, – deyə vay-həşir salması nəticəsində başlandığını yazırdı[1]. İkinci qırğın isə ermənilərin şəhərin azərbaycanlılar yaşayan hissəsinə hücum edib xeyli adamı qətlə yetirmələri sonucunda törənmişdi.

Naxçıvanda iğtişaşlar 12-15 may 1905-ci il tarixlərində baş vermiş və buna bir azərbaycanlı sakinin ermənilər tərəfindən öldürülməsi səbəb olmuşdu. Ən dəhşətli faciə azərbaycanlıların və ermənilərin birgə ömür sürdüyü Cəhri kəndində yaşanmışdı. Kazaklarla birləşən ermənilər bir neçə ailəni qətlə yetirdikdən sonra kəndi xarabalığa çevirmişdilər.

Şuşa toqquşmaları 1905-ci ilin 16 avqust tarixində ermənilərin şəhərin azərbaycanlı məhəllələrinə hücum edib qırğınlar törətməsindən sonra başlayır. Buradakı çarpışmalarda Tiflisdən gəlmiş yüz erməni silahlısı da iştirak edirdi. Həmin ilin oktyabr-noyabr aylarında Şuşa qəzasına qonşuluqda yerləşən Cavanşir qəzasının azərbaycanlı kəndləri dəhşətli qırğına məruz qalır. Ümumiyyətlə Qarabağda vəziyyət məktəb təmiri ilə məşğul olan cənubi azərbaycanlı 17 fəhlənin ermənilər tərəfindən işgəncə ilə qətlə yetirilməsilə gərginləşmişdi. Burada Hamazasp Srvantstyanın dişlərinə qədər silahlanmış quldur dəstəsi azərbaycanlılara qarşı xüsusi amansızlığı ilə seçilirdi[2].

1905-ci ilin avqust-sentyabr aylarında Bakıda iğtişaşlar yenidən alovlanır. 20 avqustda 3 nəfər erməninin konkaya[*] atəş açması, nəticədə konkanı sürən bir əsgərin və azərbaycanlı sərnişinlərin həlak olması bu şəhərdə milli zəmində yeni toqquşmalara rəvac verir[3].

Gürcüstan Milli Tarix Arxivində (GMTA) saxlanılan və 1905-ci ildə Bakıda baş vermiş ikinci erməni-azərbaycanlı iğtişaşları dönəminə aid olan rəsmi sənədlərdən ermənilərin azərbaycan-

---

[1] «İveriya» qəz., 1905, 28 fevral (№ 12), s. 4.
[2] Gürcüstan Milli Tarix Arxivi (GMTA), fond 83, siyahı 1, iş № 32, vərəq 58.
[*] konka – vaqonları atla sürülən şəhər dəmir yolu və onun vaqonu.
[3] E. Əzizov. «DİFAİ»: XX əsrin əvvəllərində erməni-azərbaycanlı münaqişəsinin ilkin tarixi şərtləri və səbəbləri, Bakı, 2009, s. 64.

lılara və hətta kazaklara qarşı cinayətlərini üzə çıxaran faktlara rast gəlinir. Onlardan bəziləri barədə bilgi vermək istərdik:

– Bakı Quberniya Jandarm İdarəsinin məlumatından bəlli olur ki, 1905-ci ilin 16 sentyabr tarixində Bakıda Bondarnaya küçəsində Hacıbaba Aşurov və Məşədi Meydanəli Muxtarov adlı iki azərbaycanlı ermənilərin hücumuna məruz qalır. M.Muxtarovun üstünə cuman Mnatsakanyan soyadlı birisi onun kürəyinə behbudla zərbə vurur, Avetisov soyadlı erməninin evinin pəncərəsindən isə başqa bir erməni − Bakı şəhəri II Barışdırıcı şöbəsinin məhkəmə pristavı Arumov revolverlə atəş açaraq H.Aşurovu yaralayır. Kazaklar hadisə yerinə gələrək Mnatsakanyanı və onun dostu Petrosyanı həbs edirlər. Bu kazaklardan Zolotaryev Avetisovun evinə yaxınlaşır ki, görsün kim atəş açıb. Ona da iki dəfə atəş açırlar, amma güllə dəyməyir. Arumov həbs olunur. Aydın olur ki, o, 1901-ci ildə jandarmın gizli nəzarətində olub. Səbəb onun erməniləri tərifləyib rusları pisləməsi, xüsusilə də «Loris-Melikov (erməni əsilli rus generalı, rus imperatoru II Aleksandrın hakimiyyətinin son illərində daxili işlər naziri vəzifəsini tutub – *F.V.*) imperiyada hamıdan üstün olub, onun sayəsində imperator II Aleksandr öldürülüb», − söyləməsi olub. Ancaq o zaman Arumov barədə cinayət işi açılmayıb və o gizlicə izlənib[1].

– Polismeyster[*] məlumat verirdi ki, 24 sentyabr 1905-ci ildə Bakıda Suraxanı küçəsində Aşurbəyovun evinin yanında postda duran Bender alayının sıravisi İosif Perqamentşik onun tüfəngini əlindən almağa cəhd göstərən İran təbəəli Stepan İsacanyantsı tüfəngdən atəş açaraq hər iki ayağından yaralamışdır[2].

Arxiv sənədləri göstərir ki, ermənilərin azərbaycanlılarla yanaşı başqa millətlərə, o cümlədən onlara qol-qanad verən ruslara qarşı da zorakılıq əməllərinin həddi-hüdudu yox imiş. O dövrdə Rusiya İmperiyası tərkibinə daxil olan Qars vilayətinin hərbi qu-

[1] GMTA, f. 83, s.1, iş № 32, v. 70.
[*] polismeyster – şəhər polis idarəsinin müdiri.
[2] GMTA, f. 83, s.1, iş № 32, v. 25.

bernatoru bildirirdi ki, 13 sentyabr 1905-ci ildə 12 nəfər silahlı ermənidən ibarət quldur dəstəsi furqonla gedən Şürəgəl nahiyəsinin Odintsovo kəndinin sakini Yakov Jukovu saxlamış, onun boynunu kəndirlə bağlamış və kəndirin bir ucunu da furqonun təkərinə bərkidərək atları sürmüşdür. Jukov yalnız kəndirin təkərə sürtünərək tez qırılması sayəsində sağ qalmışdır[1].

1905-ci ilin 18-20 noyabr tarixlərində Gəncədə də çətinliklə qorunan kövrək sabitlik pozulur. "Tsnobis Purtseli" qəzeti öz səhifələrində Gəncədəki hadisələr barədə məlumat verərək yazırdı: "Deyilənlərə və bəzi qəzetlərin yazdığına görə, toqquşma 3 müsəlmanın öldürülməsindən sonra başlayıb"[2]. Gəncəli soydaşlarına yardım etmək üçün dağlardan enmiş, Aşıq Ələsgərin

*Dəli Alı bir sədd açır,*
*Şah Abbas dövranı kimi,*
*Yanında yoldaşları var,*
*Azərbaycan xanı kimi,* –

deyə vəsf etdiyi məşhur qaçaq Dəli Alı (1875-1917) şəhərin azərbaycanlı özünümüdafiə dəstələrinin önündə dayanmışdı. Onunla bağlı gürcü inqilabçı yazarı İrodion Evdoşvili Qazağa, Ağstafa stansiyasına və Gəncəyə səfəri zamanı qələmə aldığı və "İveriya" qəzetində çap etdirdiyi "Gözlərimlə gördüyüm" başlıqlı məqaləsinin son abzasında yazırdı: "Yenə bizim idarəçilərimiz barədə bir əlamətdar fakt. Gəncədə* mənim gözlərim qarşısında məşhur qaçaq Dəli Alı at oynadırdı. Bu qaçağın ələ keçirilməsi üçün dəfələrlə bir neçə sotnya (yüzlük) kazak və çapar göndərmişik. İndi isə o, şəhərin ortasında onların gözü qarşısında tüfəng atırdı və tatarların* önündə gedirdi. Ona heç kəs heç nə deyə bilmirdi"[3].

---

[1] GMTA, f. 83, s.1, iş № 32, v. 25.
[2] "Tsnobis purtseli", 1905, 23 noyabr (№ 2956).
* Gəncə o vaxt rəsmən Yelizavetpol adlandırılsa da, gürcü mətbu orqanlarında yenə də qədim adı ilə işıqlandırılırdı (*F.V.*).
* **rus və gürcü mənbələrində "tatar" – azərbaycanlı, Cənubi Qafqaz türkü** (*F.V.*).
[3] "İveriya", 1905, 9 dekabr (№ 222).

“Xanzadə” imzalı müəllif “Tiflisskiy listok” qəzetinin 12 mart 1906-cı il (№ 57) tarixli sayında Dəli Alının xəlvətdən güllə atmağa alışmış bir soyğunçu olmadığını, köhnə adətlərə riayət etdiyini, xeyirxahlığı ilə seçildiyini, ehtiyacı olanlara yardım göstərdiyini və arxasızlara arxa durduğunu dolayı yolla qeyd edərək, onun əfv olunmasının zəruriliyini dilə gətirirdi.

Gəncə hadisələri erməni-azərbaycanlı münaqişəsinin Tiflisə də sirayət etməsini tezləşdirdi. 1905-ci ilin noyabr ayının 22-də bir neçə ermənininin faytonla şəhərin müsəlman məhəlləsinə gəlib burada bir azərbaycanlını yaralaması Tiflisdə bir neçə gün davam edən qanlı olaylarla müşayiət olundu. Şəhərin azərbaycanlı əhalisi silahlı erməni dəstələrinin güllə hədəfinə alındı və ciddi itkilərlə üzləşdi. Yalnız Borçalı azərbaycanlılarının fəallığı və çox vaxt itirmədən soydaşlarına kömək üçün süvari dəstələr göndərmələri Tiflis azərbaycanlılarını qaçılmaz böyük faciələrdən xilas etdi.

Borçalının özündə də böyük bir xalq hərəkatı başlandı və erməni var-dövlət sahiblərinə qarşı qisas tədbirləri həyata keçirildi. Tiflisdə və Borçalıda azərbaycanlıların səfərbər olunmasında və düşmənə qarşı müqavimətinin təşkilində general-leytenant İsrafil bəy Yadigarovun (1818-1884) əkiz övladları Həsən bəy və Hüseyn bəy xüsusi fəallıq göstərdilər.

1905-1906-cı illərdə Qərbi Azərbaycan (indiki Ermənistan respublikası) mahallarında da azərbaycanlılara qarşı olmazın vəhşətlər edilir, qətliamlar törədilir (Onların bəziləri barədə növbəti bölümdə ətraflı bəhs edəcəyik).

1906-cı ilin 20 fevral – 6 mart tarixlərində Tiflisdə canişin Vorontsov-Daşkovun sədrliyi ilə Cənubi Qafqazın azərbaycanlı və erməni nümayəndələrinin sülh qurultayı keçirildi. Ancaq bu qurultay da konkret nəticələr vermədi və regionda gərginlik 1906-cı ilin sonuna qədər davam etdi. Ermənilərlə danışıqlar yolu ilə razılığa gəlməyin və məsələni çözməyin mümkünsüzlüyünü görən Azərbaycan ictimaiyyətinin fəal nümayəndələri “Difai” milli özünümüdafiə təşkilatını yaratmağa məcbur oldular.

# II Bölüm

## QƏRBİ AZƏRBAYCANDA QƏTLİAMLAR

Erməni silahlı dəstələrinin 1905-1906-cı illər qarşıdurması zamanı dinc azərbaycanlı əhaliyə qarşı xüsusi amansızlıq və qəddarlıq göstərdiklərini, hətta azğınlaşaraq kütləvi qətl üsullarına əl atmaqdan belə çəkinmədiklərini ilk növbədə rəsmi arxiv mənbələri təsdiqləyir. Belə mənbələrdən biri Gürcüstan Milli Tarix Arxivində saxlanılan "Ermənilər və müsəlmanlar arasında silahlı toqquşmalar haqqında canişinə hesabat məruzəsi" adlı qovluqdur [fond 83, siyahı 1, iş № 32]. Bu arxiv qovluğundan Qərbi Azərbaycan (indiki Ermənistan respublikası) mahallarında, daha dəqiq desək, 1905-ci ilin 20 sentyabr tarixində Pəmbək mahalında, oktyabr ayının sonlarında isə Dərələyəz və Zəngəzurda silahsız azərbaycanlı əhalinin qətliama məruz qoyulduğu bəlli olur.

Belə ki, Aleksandropol (Gümrü) qəza rəisi müvafiq inzibati dairələrə ünvanladığı 21 sentyabr 1905-ci il tarixli teleqramla bir gün əvvəl − 20 sentyabrda arabalarla çörək dalınca Cəngi adlanan qonşu erməni kəndinə gedən Qursalı, Saral və Arçut kəndlərinin 27 azərbaycanlı sakinindən yalnız 4-ünün geri qayıtdığı, qalanları haqqında isə heç nə bilinmədiyi və mahalın azərbaycanlı kəndlərinin həyəcan içində olduğu barədə məlumat verirdi (Sonradan Cəngiyə gedənlərin Qursalı, Xancığaz və Tatar-Gözəldərəsi kəndlərinin sakinləri olduğu və onların saylarının 24 nəfərdən ibarət olduğu təsdiqlənir − *F.V.*)[1].

Bundan sonra qəza rəisi baş verənlərə aydınlıq gətirmək üçün hadisə yerinə yola düşür, eyni zamanda oraya Aleksandro-

[1] GMTA, f. 83, s. 1, iş № 32, vərəq 3.

pol qarnizonundan 1 eskadron draqun* göndərilir.

24 sentyabrda eskadron Cəngiyə yetişir. Dərhal istintaq tədbirlərinə başlanılır. İşlə bağlı maddi sübutlar əldə olunur, 25 erməni həbs olunur[1].

Daha təfərrüatına varsaq, ilkin əməliyyat tədbirləri nəticəsində Cəngi kəndinin yaxınlığındakı quyuda qazıntı işləri aparılır və 14 arşın (təqribən 10 metr – *F.V.*) dərinliyində eybəcər hala salınmış, bəzilərində güllə izləri olan 19 kişi və 1 qadın meyiti tapılır. Bu meyitlərin Qursalı, Xancığaz və Gözəldərə kəndlərinin itkin düşmüş “tatar” sakinləri olduğu aşkar olunur. Quyu qazılan zaman cəsədlərin üzə çıxarılacağından təşvişə düşən Cəngi ermənilərinin çoxu kənddən qaçır.

Dindirilən Cəngi sakinlərinin sözlərindən bəlli olur ki, qonşu xəyanəti ilə qarşılaşacaqlarını ağıllarının ucundan belə keçirməyən bu zavallı azərbaycanlı kəndlilərdən bir qədər əvvəl onların kəndinə 12 erməni silahlısı gəlib dükançı Sumbat Krikorovun evində dayanıbmış. “Tatarlar” Cəngiyə çatanda 40 nəfərlik silahlı dəstə tərəfindən mühasirəyə salınırlar. Onların ehtiyat üçün üstlərində gəzdirdikləri xəncər-bıçaqları əllərindən alınır, özləri isə çarəsiz vəziyyətdə Cəngi sakini Arşak Barseqovun evində bağlı qapılar arxasında saxlanılırlar.

Qaranlıq düşəndə cəngili ermənilər Arşaq Barseqovun evində qapadılan “tatarları” aldadırlar ki, kəndə pristavla** starşina*** gəlib və hazırda Sumbat Krikorovun dükanındadırlar, onlarla sülhə dair sənəd imzalamaq üçün içlərindən nüfuzlu, hörmətli bir şəxs seçsinlər. “Tatarlar” Sumbatın dükanına Tanrıverdi Vəli oğlunu göndərmək qərarına gəlirlər. Bundan sonra bu yolla aldanaraq içlərindən daha bir nəfəri Məhəmməd Qurban oğlunu seçib göndərirlər. Çox keçməmiş Barseqovun evində ki-

* draqunlar - xüsusi atlı qoşun hissələri.

[1] GMTA, f. 83, s. 1, iş № 32, v. 62.

** pristav – nahiyənin polis idarəsinin rəisi.

*** kənd starşinası - kəndxuda.

lidlənmiş "tatarlar" həyətdə Tanrıverdi Vəli oğlunun və Məhəmməd Qurban oğlunun öldürülməmələri barədə yalvarışlarını eşidirlər və hiss edirlər ki, nə isə yaxşı bir iş baş vermir. Qapıları sındırıb qaçmaq istəyirlər. Fəqət Əlləz (İlyas) Mustafa oğlu, Taqar Məhəmməd oğlu və Bünyad Qasım oğlundan başqa heç kəs yaxasını qurtara bilmir, hamısı vəhşicəsinə öldürülür[1].

Pəmbəkin azərbaycanlılar yaşayan Saral kəndinin sakinləri bu qətliamı törədənlərin cəzalandırılmayacağı təqdirdə intiqam alacaqlarına and içirlər. Barseqovun evindən sağ-salamat canını qurtara bilən "tatarlar" istintaq prosesində hadisədə iştirak edən 21 Cəngi ermənisini tanıyırlar. Bu ermənilər tutularaq İrəvan həbsxanasına göndərilirlər. Dükançı S.Krikorov isə qaçıb cəzadan yaxasını qurtarır.

Eyni arxiv bəlgəsindən bəlli olur ki, 1905-ci ilin 27 oktyabrında Şərur-Dərələyəz qəzasının 6 erməni kəndindən yığılmış 700-ə yaxın silahlı azərbaycanlılar yaşayan Hors kəndinə hücum edərək 40 nəfər dinc sakini qətlə yetirir, evləri yandırıb-yağmalayıb mal-qaranı özləri ilə aparır[2]. Bu bəlgədə həmin ilin 30 oktyabr tarixində ermənilərin Horsa hücum edib qadın və uşaqlara belə rəhm etməyərək 53 "tatarı" öldürdüyü və 255 evi yandırdığı da qeyd olunur. Horsdakı hadisələrlə əlaqədar İrəvan və Yeni-Bəyazid qəzalarının müsəlmanlarını həyəcan dalğası bürüyür[3].

Eyni ərəfədə Zəngəzur qəzasının 10 erməni kəndinin silahlı sakinləri qəzanın başqa bir "tatar" kəndi olan Sisyana hücum edir. Arxiv sənədlərinə görə bu zaman 75, "Novoye obozreniye" qəzetinin "Araç" erməni qəzetinə istinadən yayımladığı xəbərə görə isə 190 nəfər Sisyan sakini öldürülür və yaralanır. Yalnız kazakların özlərini yetirməsi nəticəsində qətliam və talanın daha böyük miqyas almasının qarşısı alınır[4].

O dövrün mətbuat xəbərlərindən ermənilərin 1905-ci ilin

---

[1] GMTA, f. 83, s. 1, iş № 32, vv. 86-87.
[2] GMTA, f. 83, s. 1, iş № 32, v. 176.
[3] GMTA, f. 83, s. 1, iş № 32, v. 221.
[4] GMTA, f. 83, s. 1, iş № 32, v. 260, "Novoye obozreniye" («Новое обозрение»), 1906, 12 yanvar (№ 7).

sonlarında Zəngəzurun Darbas (Dərəbas) kəndində 278, Kürtlər kəndində isə 120 azərbaycanlı sakini qətlə yetirdikləri bəlli olur[1].

GMTA-da saxlanılan digər bir arxiv sənədindən Borçalı qəzasının Loru nahiyəsinin (Güney Borçalı) pristavının protokolundan məlum olur ki, 27 noyabr 1905-ci ildə 35 nəfər silahlı erməni Loru nahiyəsinin Şaqal (Şahalı) stansiyasında yerləşən Allahverdi-Elyar misəritmə zavodunun binasını əvvəlcə mühasirəyə alır, daha sonra isə yaylım atəşi açaraq oraya daxil olub səlmaslı Lütfəli Fətəli oğlunu güllələyir. Əslən Cənubi Azərbaycandan olan digər fəhlələrdən Salman Fətəli oğlu, Əli Qafar oğlu, Əli Mərdanbəy oğlu, Allahverdi Cəfər oğlu, Cabbar Mustafa oğlu və Murad oğlu (adı bilinmir) isə hücumçular tərəfindən meşəylə naməlum istiqamətə aparılaraq vəhşicəsinə öldürülürlər. Protokoldan o da bəlli olur ki, bu cinayətkar dəstənin üzvləri Lütfəli Fətəli oğlunun meyitini də özləri ilə meşəyə aparıb orada yandırırlar. Daha sonra onlar Həbib Murad oğlunun 24 baş qoyununu aparırlar[2].

Bu fakt barədə həmin illər nəşr olunan "Tsnobis purtseli" qəzetinin dekabr saylarında daha dəqiq və ətraflı məlumat verilirdi. Bu qəzet 8 dekabr 1905-ci il tarixli sayında "Borçalıda toqquşma" başlığı altında fransızların Borçalı qəzasının Şaqal kəndində yerləşən misəritmə zavoduna ermənilərin hücum etdiklərini və 2 azərbaycanlı fəhləni zavodun içində, qalan 14-nü isə aparıb meşədə qətlə yetirdiklərini yazırdı. Qəzet zavod sahibinin Fransanın Tiflisdəki konsulluğuna müraciət etdiyini və nəticədə məsələni araşdırmaq üçün konsulluğun katibi Eberin hadisə yerinə yollandığını da bildirirdi[3].

"Tsnobis purtseli"nin növbəti 9 dekabr sayında misəritmə zavodunda nələrin baş verdiyi yerli-yataqlı zavod sahiblərinin dilindən açıqlanır[4]:

---

[1] "Novoye obozreniye", 1906, 11 yanvar (№ 6).
[2] GMTA, f. 115, s. 1, iş № 522.
[3] "Tsnobis purtseli", 1905, 8 dekabr (№ 2966).
[4] "Tsnobis purtseli", 1905, 9 dekabr (№ 2967), s. 2-3.

"Şaqal-Elyar zavodunda baş verənlər barədə dünən yazmışdıq. Bu zavod fransızların cəmiyyətinə məxsusdur. Sahibləri Tomit Franq və Emil Kabaldır, hazırda onlar Tiflisdədirlər. Hadisə barədə bizə bunları dedilər:

26 noyabr axşam erməni fəhlələr – 130 nəfər (zavodda cəmi 150 fəhlə işləyirdi) işi buraxıb getdilər. Hər şənbədəkindən fərqli olaraq, heç pullarını da istəmədilər. Bu, zavodda işləyən tatarları və rusları düşünməyə vadar etdi. Onlardan da bəziləri harayasa gizləndi. Zavodda 1 gürcü gözətçi və 16 tatar qaldı.

Səhəri gün zavoda 60-dan çox yaraqlı erməni gəldi. Atəş açmağa başladılar. Yaxında duran erməni dedi ki, çıxmayın, öldürəcəyik! Mən onun sözlərinə məhəl qoymadım, çıxdım. Dedim – dayanın, nə istəyirsiniz?, deyin, pul verim, mal verim, təki atəşi kəsin. Bu dəstəyə 26-28 yaşlı, Avropa geyimində, köynəyi kraxmallı bir adam başçılıq edirdi. O, mənim dediyimi qulaq ardına vurdu. Onlar tez zavoda tatarların yanına girdilər. Tatarlar zavoddan çıxıb meşəyə qaçışdılar. Ermənilərin bir hissəsi onların dalınca getdi.

Zavodda 75 yaşlı bir tatar kişi və bir də tatar qadın qaldı. Bu ixtiyarı bir neçə nəfər xəncərlə öldürdü. Bu adam mənim yanımda çoxdan işləyirdi və o, yığdığı 500 manatı geyməsinin iç hissəsinə qoymuşdu. Hücumçular bu pulu da götürdülər. Bu işi bitirəndən sonra tatar qadını aparıb getmək istədilər. Yenidən işə qarışdım və qadını zavodda saxladım.

Bir müddət sakitlik oldu, sonra yenə tüfəng səsləri eşidildi. Anladım ki, gizlənmiş tatarları güllələyirlər. Bir saat sonra bir yaralı fəhlə gəldi, ayaqlarıma düşüb yalvarmağa başladı, ancaq onu təqib edənlər gəlib öldürdülər.

28 noyabrda erməni fəhlələr gəldilər və veş-vüşlərini yığıb həmişəlik getdilər, çünki tatarların hücumundan qorxurdular. Mən isə Tiflisə yola düşdüm"*.

---

* Burada və sonrakı bütün tərcümələrdə orijinal mətnin punktuasiyasını və orfoqrafik xüsusiyyətlərini saxlamağa çalışmışıq.

Misəritmə zavodunda baş vermiş qətliama "Tiflisskiy listok" qəzeti də öz səhifələrində yer ayırmışdı[1].

Əslində insanlıq çərçivəsinə sığmayan bütün bu yuxarıda qeyd olunan tükürpədici faktlar ermənilərin Qafqaz mədəniyyətinə və mənəviyyatına yad bir xalq olduqlarını, eləcə də XX əsrdə ilk kütləvi qətllərin və qırğınların məhz onlar tərəfindən törədildiyini bir daha təsdiqləməkdədir.

---

[1] "Tiflisskiy listok" («Тифлисский листок»), 1905, 8 dekabr.

# III Bölüm

## TİFLİS QIRĞINLARI

1905-ci ildə Cənubi Qafqazın Bakı, İrəvan və Yelizavetpol (Gəncə) quberniyalarında tüğyan etmiş qanlı hadisələrdən sonra azərbaycanlıların və ermənilərin yan-yana yaşadığı Tiflis quberniyasında da vəziyyət ən gərgin həddə çatır. Burada da hamı hər an yeni bir münaqişənin, qırğının gözləntisi içərisində idi.

Həmin dövrün mətbuatına göz gəzdirdikdə görünür ki, artıq 1905-ci ilin oktyabr ayından etibarən Tiflis şəhərində və ətraf nahiyələrdə erməni təşkilatlarının üzvləri və onlarla əlbir olan qüvvələr tərəfindən azərbaycanlılara qarşı təxribat xarakterli cinayətlər törədilir, onlar təhqir olunur və hətta heç bir səbəb olmadan öldürülürlər. Tiflisdə nəşr olunan "İveriya" (redaktor-naşiri: İ.Q.Çavçavadze), "Tsnobis purtseli" (redaktoru: A.Q.Cabadari), "Tiflisskiy listok" (redaktoru: M.Cabar, naşiri: X.Q.Xaçaturov), "Novoye obozreniye" (redaktor-naşiri: K.İ.Kalantarov) və "Vozrojdeniye (redaktor-naşiri: P.A.Qotua) qəzetlərinin 1905-ci il oktyabr-noyabr saylarında haqqında məlumat verilmiş bu tipli faktlardan bir neçəsi:

– 6 oktyabrda Tiflisin Vorontsov küçəsinin Qarpız ("Arbuznaya") meydanına birləşən hissəsində bir kazak heç bir səbəb olmadan iki güllə ilə Qazax qəzasından özünün Ortacala məhəlləsində yaşayan qohumlarıgilə qonaq gəlmiş azərbaycanlını öldürür[1].

– Borçalının ermənilər yaşayan Durnuk kəndindən "İveriya" qəzetinə məlumat verirdilər ki, durnuklular bir yana çıxa bilmir, çünki kənd 80 yaraqlı azərbaycanlı tərəfindən mühasirəyə alınıbdır. Bunun səbəbi noyabr ayının başlarında Durnukda iki

---

[1] "İveriya", 1905, 9 oktyabr (№ 184).

azərbaycanlının öldürülməsindən irəli gəlirdi[1].

– 13 noyabrda Tiflisin Şeytanbazar məhəlləsindəki Noraşen küçəsində ermənilər tərəfindən üç azərbaycanlı öldürülür. Yerli müsəlmanların həyəcanına səbəb olan bu hadisə məhəllə nəzarətçisinin gözləri qarşısında baş versə də canilər yaxalanmır. 15 noyabrda öldürülənlərdən İran təbəəli Məşədi Məmmədəlinin, 18 noyabrda isə adı barədə məlumat verilməyən bir seyidin dəfn mərasimi keçirilir. Bununla bağlı azərbaycanlılar və ləzgilər bir günlüyünə şəhərdəki ticarət obyektlərini bağlayırlar.

Həmin gün qlasnılar[*] N.İ.Kokçayev, A.İ.Xatisov və Q.N.Stepanov Zaqafqaziya şeyxülislamı Əbdüssəlam Axundzadəni ziyarət edib ona baş verən cinayətin milli zəmində olmadığını anlatmağa çalışır və öz nüfuzundan istifadə edərək şəhərin müsəlman əhalisi arasında gərginliyin azaldılmasında yardımçı olması üçün rica edirlər. Şeyxülislam hüzurunda olanlara həmişə xalqlar arasında dostluğun tərəfdarı olduğunu deyir və əhalini sakitləşdirəcəyinə söz verir, ancaq eyni zamanda onlardan müsəlmanların siyasi baxışlarına, adət-ənənələrinə kifayət qədər hörmət etməyən şəxslərə təsir göstərmələrini xahiş edir. Elə bu görüş zamanı şeyxülislamın yanına iki azərbaycanlı gəlib bildirir ki, erməni bazarında əlində bebut olan bir erməninin onlara hücumundan zorla qaçıb canlarını qurtarıblar. Qlasnılar həm bazardakı o bebutlu ermənínin, həm də bundan qabaq baş vermiş ölüm hadisələrinin günahkarlarının üzə çıxarılmasında köməklik göstərəcəklərini söyləyib razılıqla ayrılırlar[2]. Tiflis polismeysteri D.A.Tsıs da şeyxülislamı 1-17 noyabr 1905-ci il tarixlərində şəhərdə baş vermiş bütün ölüm-itim faktları barədə yazılı surətdə məlumatlandıraraq, 13 noyabrda törədilmiş qətllərin təxribat xarakterli olduğunu sübut etməyə çalışır[3].

---

[1] "İveriya", 1905, 10 noyabr (№ 202).

[*] qlasnı – şəhər dumasının üzvü.

[2] "Vozrojdeniye", 1905, 17 noyabr (№ 29).

[3] "Tiflisskiy listok", 1905, 23 noyabr (№ 235); "Novoye obozreniye", 1905, 19 noyabr (№ 241).

Bu arada öldürülən azərbaycanlıların qohumları Təbrizə, Tiflis müsəlmanları arasında böyük hörmət sahibi olan bir müştəhidə teleqram vururlar ki, onlara mövcud halda necə davranmaları üçün məsləhət versin. Bu barədə məlumat verən "Vozrojdeniye" qəzeti yazırdı: "Biz inanırıq ki, təbrizli müştəhid bu məsələyə bizim hörmətli Axundzadə (şeyxülislam nəzərdə tutulur – *F.V.*) kimi yanaşacaq"[1].

16 noyabrda Tiflisin küçələrində sosial-demokrat partiyasının üzvləri olan fəhlələrin aşağıdakı məzmunda intibahnamələri (proklamasiyaları) yayılır: "Üç gün əvvəl Şeytanbazarda cinayətkarlar tərəfindən 3 tatar öldürülüb. Şayiələr yayılıb ki, yerli ermənilər tatarlar əleyhinə silahlanıblar və onları qırmağa hazırlaşırlar. Rusiya Sosial-Demokrat partiyasının Tiflis fəhlə təşkilatı Tiflis vətəndaşlarını xəbərdar etməyi özünə borc bilir ki, bu təxribatçıların işidir, onlar milli qırğın törətməklə, xalqları bir-birinin üzərinə qaldırmaqla Rusiyadakı azadlıq hərəkatının qarşısını almağa, əksinqilabi hərəkata başlamağa çalışır. İnanın ki, Tiflisdə müsəlmanlar və ermənilər arasında heç bir milli qarşıdurma yoxdur. Yaşasın milli həmrəylik, xuliqanlara və hakimiyyətin təxribatına ar olsun"[2].

– "Novoye obozreniye" qəzeti 17 noyabrda təqribən axşam saat 6-da Tiflisdə çərkəzi geyimdə naməlum bir şəxsin faytonla Şeytanbazara gələrək, səbəbsiz-filansız göyə bir neçə dəfə atəş açdığını və sonra da Metex körpüsünü keçib Peskaya doğru getdiyini bildirirdi. "İveriya" qəzeti isə həmin gün axşam saat 7-də şəhərin Vorontsov körpüsü yanında "tatar" qiyafəsində bir şəxsin avropalı geyimli başqa bir şəxsi revolverlə güllələdiyi barədə məlumat dərc edərək yazırdı: "Şahidlər deyir ki, tatar əlbisəsində olan şəxs müsəlman deyildi. Görünür ki, o, təxribatçı olub və ermənilərlə tatarlar arasında qırğın salmaq istəyir"[3].

– 18 noyabrda Qazax qəzasının 37 kəndindən 150 nümayən-

[1] "Vozrojdeniye", 1905, 20 noyabr (№ 32).
[2] "İveriya", 1905, 19 noyabr (№ 210).
[3] "Novoye obozreniye", 1905, 19 noyabr (№ 241).

də Tiflisdə canişinin qəbulunda olub qəza rəisi Arnoldu ermənipərəstlikdə suçlayır və vəzifəsindən azad olunmasını xahiş edir. Canişin şikayətçilərin xahişinin yerinə yetiriləcəyinə söz verir[1].

– 19 noyabr səhəri Avcala tramvayının Nekrasov küçəsindəki dayanacağında vağzal istiqamətində hərəkət edən tramvay vaqonuna biri əsgər paltarında olan dörd erməni qalxır və vaqonda oturan iki azərbaycanlı fəhləyə yaxınlaşıb onların üstünü yoxlamaq istəyir. Bu azərbaycanlılar isə müqavimət göstərərək deyirlər, "sizə kim icazə verib bizi yoxlayırsınız, indi azadlıqdır, heç hökumət də adamların üst-başını yoxlamır, siz kimsiniz?!" Buna rəğmən ermənilər zorən azərbaycanlı fəhlələrin üstlərini arayırlar və pullarını əllərindən alırlar. Ətrafa xeyli adam yığılır. Hadisəni seyr edən bir neçə nəfər gərginlik içərisində olan azərbaycanlı fəhlələrə yaxınlaşıb yalvarır ki, sizinkilərə heç nə deməyin. Tikiş maşınları ticarəti ilə məşğul olan Aqaronov onlara 9 manat verir və digər ətrafdakılar kimi xahiş edir ki, öz soydaşlarına bu barədə heç nə deməsinlər[2].

– "İveriya"nın məlumatına əsasən, 21 noyabrda günün günorta çağı Tiflisin erməni bazarında böyük bir çaxnaşma düşür. Revolverlərdən atəş səsləri eşidilir və qorxuya düşmüş camaat təlaş içində ora-bura qaçmağa başlayır. Dükanlar və mağazalar bağlanır. Nə baş verdiyini heç kəs bilmir. Bəziləri deyir ki, erməni-azərbaycanlı qırğını başlandı, digərləri isə deyir ki, cibgirlər bir-birilə dalaşıb və revolverlərdən də onlar atəş açıblar. Bir az sonra bəlli olur ki, "tatar" bazarında kimsə bir azərbaycanlının revolverini oğurlayıb qaçıbdır. Həmin azərbaycanlı bununla bağlı qorodovoya[*] müraciət edibdir. Qorodovoy da bir imeretiyalının üstünə düşüb: azərbaycanlının revolverini sən oğurlayıbsan, tez ol gətir! Bu vaxt haradansa 6 revolver gülləsi atılıb və qorodovoy yerə yıxılıb. Heç kəs bilmir atəş açan kim olub. Yaralı qorodovoyu Mi-

---

[1] "Novoye obozreniye", 1905, 19 noyabr.
[2] "Tsnobis purtseli", 1905, 27 noyabr (№ 2957).
[*] qorodovoy – çar Rusiyasında polis.

xail xəstəxanasına aparırlar. Bir az keçəndən sonra camaat yavaş-yavaş yenidən bazara yığışır və mağazalar açılır[1].

Az sonra şayiələr yayılır ki, İrəvan (Erivan) meydanında azərbaycanlıları kəsib-doğrayırlar. Bu xəbər Şeytanbazar azərbaycanlıları arasında narahatçılığa səbəb olur və onlar baş verənləri ayırd etmək üçün dükanlarını bağlayıb meydanda toplaşırlar. Buraya təcili polismeyster və VI polis məhəlləsinin[*] pristavının köməkçisi Morqayevski gəlirlər. Onlar əhalini sakitləşib yenidən öz işləri ilə məşğul olmağa razı salmağa müvəffəq olurlar[2].

– 22 noyabr gündüz saat 11-də Vorontsovun heykəli yaxınlığında Avcala konkasında kommersiya məktəbinin tələbələri tərəfindən bir azərbaycanlı fəhlənin üst-başı aranır və revolveri əlindən alınır, həmin gün axşam saatlarında "Soldat" ("Əsgər") bazarında başqa bir azərbaycanlıya hücum olunur və onun da revolveri əlindən alınır[3].

Yuxarıda qeyd olunan faktlar açıq-aşkar Cənubi Qafqazın başqa şəhərlərində baş vermiş toqquşmaların və qırğınların bunda marağı olan erməni təşkilatları və onların himayədarları tərəfindən Tiflisə də keçirilməsi cəhdindən xəbər verirdi. Gözlənilən təhlükə barədə gürcü mətbuatı da həyəcan təbili çalırdı.

Bu ərəfədə yerli azərbaycanlı ziyalılar boş dayanmır, bütün ermənilərin katolikosunun Tiflisdə olmasından istifadə edərək, qarşılıqlı etimadın gücləndirilməsi istiqamətində tədbirlər hazırlanması üçün hər iki xalqın ziyalı və ruhani zümrəsinin iştirakı ilə yığıncaq keçirməyə çalışırdılar[4]. Onlar mümkün təhlükənin aradan qaldırılması yönündə gərgin fəaliyyət göstərməklə, mütə-

---

[1] "İveriya", 1905, 23 noyabr (№ 212).

[*] VI polis məhəlləsinin inzibati ərazi dairəsinə əsasən azərbaycanlıların yaşadığı Şeytanbazar (Meydan, "Tatar meydanı"), Xarpux, Ortacala məhəllələri daxil idi. Ermənilərin yaşadığı Avlabar isə VII polis məhəlləsinə tabe edilmişdi.

[2] "Tiflisskiy listok", 1905, 23 noyabr.

[3] "Vozrojdeniye", 1905, 23 noyabr (№ 33).

[4] "Vozrojdeniye", 1905, 20 noyabr (№ 32).

madi toplantılar keçirməklə erməni ziyalılarından fərqli davranış ortaya qoyurdular. Söylənənləri 1905-ci ildə mətbuat səhifələrində əks olunmuş aşağıdakı faktlar təsdiq edir:

13 noyabr 1905-ci ildə Tiflisdə müsəlman klubunun açılması ilə bağlı yüz nəfərə yaxın azərbaycanlı-müsəlman ziyalının, o cümlədən ruhanilərin qatıldığı toplantı keçirilir. Axşam saat 10-da tədbir keçirilən əraziyə müsəlmanlardan ibarət izdiham yaxınlaşıb toplantı iştirakçılarına Avlabarda və VI polis məhəlləsində ermənilərin üç müsəlmanı yaraladığını bildirir (yuxarıda təqdim etdiyimiz faktlardan göründüyü kimi, sonradan bu yaralıların hər üçü dünyasını dəyişir – *F.V.*) və bundan sonra necə hərəkət etmək barədə məsləhət verilməsini istəyirlər. Toplantı təcili olaraq məsələni müzakirə edir və yekdilliklə belə bir qərara gəlir ki, baş verənlərdə milli zəmin axtarmaq lazım deyil, çünki bu, təxribat ola bilər, sadəcə polisdən cinayətkarların aşkar olunub qanun çərçivəsində məsuliyyətə cəlb olunmasını tələb etmək lazımdır. Toplantının bu qərarı izdiham qarşısında açıqlanır[1].

16 noyabrda Tiflisdə müsəlman qəbiristanlığı yaxınlığında azərbaycanlıların izdihamlı siyasi mitinqi keçirilir[2]. Həmin gün Axalsıx (Ahıska) qəzasının Azqur kəndində də sosial-demokrat Ömər Faiq Nemanzadənin təşkilatçılığı ilə müsəlmanların mitinqi təşkil olunur.

18 və 20 noyabrda Tiflisin azərbaycanlı-müsəlman ziyalılarının müsəlman klubunun açılmasına həsr olunmuş növbəti toplantıları keçirilir. Podporuçik Hüseyn bəy Yadigarovun Vorontsov küçəsində yerləşən evində keçirilən bu toplantılarda ziyalıların 200-ə yaxın nümayəndəsi iştirak edir. Bu tədbirlərin iştirakçısı olan Cəlil bəy Zeynalov "Vozrojdeniye" qəzetinin redaktoruna məktub ünvanlayaraq, bu qəzetin 1905-ci il 28-ci sayında Tiflisdə müsəlmanların "müsəlman siyasi klubu"nun açılması ilə bağlı toplanacaqlarına dair məlumatın dəqiq olmadığını və mü-

[1] "Vozrojdeniye", 1905, 15 noyabr (№ 27).
[2] "Vozrojdeniye", 1905, 17 noyabr (№ 29).

səlman ziyalıların bu şəhərdə siyasi təmayüllü klub yaratmaq fikrindən uzaq olduqlarını açıqlayır[1].

20 noyabrda Tiflis müsəlmanlarının daha bir yığıncağı keçirilir. Yığıncaqda erməni təxribatlarının qarşısının alınması istiqamətində fəaliyyət göstərəcək iki komissiyanın yaradılması qərara alınır. Tərkibinə Hacı Mir (Seyid) Həsən ağa, Mir Məmmədhüseyn ağa, Əliqulu, Qasım, Usta Tağı və Paşa Sadıq oğlu kimi hörmətli şəhər sakinləri daxil olan birinci komissiya hər bir cinayət hadisəsinin və təxribatın protokolunu tərtib edib onu ətraflı araşdırmalı; Vəli bəy Topçiyev, Rəhim bəy Ağalarov, Hüseyn bəy Yadigarov, Hacı Axund Mollazadə, İbrahim bəy Vəkilov, Mirzə Şərif Mirzəyev, M. Mərdanov, Mustafa bəy Eminov, Babayev, Rzayev və Məşədi Yəhya kimi nüfuzlu ziyalıların təmsil olunduğu digər komissiya isə vəziyyətin gərginləşməsinin qarşısını almaq üçün ermənilərlə danışıqlar aparmalı idi[2]. Qeyd edək ki, adları çəkilən ziyalılardan podpolkovnik Rəhim bəy Məmmədhüseyn oğlu Ağalarov Qafqaz Hərbi Dairəsinin İdarəsində (QHDİ) II Qafqaz Ordu Korpusunun Şamaxı yerli ehtiyat batalyonunun rəisi, podpolkovnik İbrahim ağa Paşa ağa oğlu Vəkilov QHDİ-nin hərbi topoqrafiya şöbəsinin zabiti, Mirzə Şərif Mirzəyev QHDİ dəftərxanasının tərcüməçisi idi. Onlardan başqa QHDİ-də adları aşağıda sıralanan azərbaycanlılar da yüksək rütbəli zabit qismində hərbi xidmət keçirdilər:

- general-leytenant İsmayıl xan Ehsan xan oğlu (Kəngərli-Naxçıvanski) – kavaleriya zabiti;
- polkovnik Əliəşrəf ağa Şəmsəddinov – leyb-qvardiya kazak alayının zabiti;
- podpolkovnik Məmməd bəy Əhməd bəy oğlu Əhmədbəyov – II Qafqaz Ordu Korpusunun 77-ci Təngə piyada alayının zabiti;

[1] "Vozrojdeniye", 1905, 23 noyabr (№ 33).
[2] "Vozrojdeniye", 1905, 23 noyabr (№ 33); "Tiflisskiy listok", 1905, 27 noyabr (№ 236); "Kaspi", 1905, 26 noyabr (№ 229).

- podpolkovnik Əsəd bəy Talışxanov – II Qafqaz Ordu Korpusunun 21-ci artilleriya briqadasının 1-ci batareyasının komandanı[1].

Bu arada Gəncədə azərbaycanlılar və ermənilər arasında 18 noyabrda başlamış silahlı qarşıdurma tam gücü ilə davam edirdi. Tiflis polismeysteri 19 noyabr 1905-ci il tarixli raportunda yazırdı: "Yelizavetpoldakı erməni-tatar toqquşmaları barədə şayiələrin gəlib çatması nəticəsində Tiflisdə vəziyyət çox gərginləşib, hər bir təsadüfi atəş qan tökülməsinə gətirib çıxara bilər"[2].

Gəncə iğtişaşları ilə bağlı 21 noyabrda Tiflis şəhər idarəsində şəhər başçısı vəzifələrini icra edən Vasili Çerkezovun başçılığı altında Tiflis ermənilərinin və müsəlmanlarının birgə toplantısı keçirilir. Toplantı qırğının qarşısının alınması üçün tədbirlər görmələri məqsədi ilə əvvəl ezam olunmuş digər nümayəndələrə kömək olaraq, müsəlmanlardan 2 nümayəndə (Hüseyn bəy Yadigarov və Hacı Seyid Həsəni) seçib Gəncəyə göndərməyi qərarlaşdırır. Hər iki nümayəndə vaxt itirmədən həmin gün gecə saat 12-nin yarısında Gəncəyə yollanır[3]. Yığıncaqda, eyni zamanda, erməni-azərbaycanlı toqquşmalarının Tiflisə də keçməməsi üçün mümkün ehtiyat tədbirləri, o cümlədən hansısa şəxsi mübahisə zəminində baş vermiş ölüm hadisəsini təxribatçıların xalqa başqa cür çatdırmasının qarşısının alınması barədə müzakirələr aparılır. Həmçinin 22 nəfərdən (qazı Hacı Axund Mollazadə, Hüseyn bəy Yadigarov, Yusuf bəy Tahirov, Mirzə Şərif Mirzəyev, Mustafa bəy Eminov, Nadir bəy Yadigarov, Ələkbər Məmməd ağa oğlu, Ələskər Yəhya xan oğlu, M.N.Veselovzorov, N.N.Ostroqorski, T.A.Fefelov, A.S.Babov, Q.N.Stepanov, V.M.Artsruni, A.A.Melik-Azaryants, İ.Y.Amirxanov, A.İ.Xatisov, A.A.Kalantar, S.S.Arutyunov, V.N.Çerkezov, A.N.Purtseladze və S.İ.Vatsadzedən) ibarət qarışıq barışdırma bürosu seçi-

[1] Кавказский календарь на 1905 год, Тифлис, 1904.
[2] GMTA, f. 17, s. 2, № 557.
[3] "Novoye obozreniye", 1905, 23 noyabr (№ 243).

lir. Büroya tapşırıq verilir ki, hər bir ölüm hadisəsinin səbəbini ətraflı araşdırsın və bu barədə təxribatçıların yalan şayiələrinin qarşısının alınması üçün hər üç millətin (azərbaycanlılar, gürcülər və ermənilərin) nümayəndələrini məlumatlandırsın[1].

Həmin gün Gəncədən Tiflisə 200-ə yaxın erməni gəlir və bununla da Tiflisdəki zərif sükunət pozulur. Bilavasitə bu ermənilərin dili ilə şəhər əhalisi arasında yalan və qorxunc şayiələr yayılır[2]. Buna qədər küncdə-bucaqda baş verən cinayət hadisələri və ümumi gərginlik öz yerini qızğın döyüşlərə buraxır. Beləliklə, öncədən gözlənilən qanlı olaylar millətçi-terrorçu erməni təşkilatlarının dəst-xətti ilə Tiflisə də sıçrayır.

22 noyabr axşam saatlarında Şeytanbazarda bir azərbaycanlının ermənilər tərəfindən güllə ilə yaralanması Tiflisdə həmin gün başlayıb 1 dekabradək davam edən qanlı olaylara səbəb olur.

Həmin gün ermənilərin yığcam yaşadığı Avlabar (yerli azərbaycanlılar Hallavar da deyir) məhəlləsindən azərbaycanlıların yığcam yaşadığı Şeytanbazar (Meydan) məhəlləsi gülləboran edilir. Şeytanbazardan cavab atəşləri açılır. Hadisələrin bu cür gedişinə hazır olan "Daşnaksutyun" partiyasının silahlı dəstələri şəhərin bütün mühüm nöqtələrində, xüsusən də Şeytanbazar ətrafındakı yüksəkliklərdə mövqe tuturlar.

23-24 noyabrda da Şeytanbazar və Avlabar məhəllələri arasında şiddətli atışmalar davam edir.

Şeytanbazar Kür çayının sağ sahilində çökəkdə, Avlabar isə üzbəüz, çayın sol sahilində yüksəklikdə yerləşirdi. Avlabardan Şeytanbazarın bütün evləri, küçələri və döngələri çox aydın görünürdü ki, bu da ermənilərə mövqe üstünlüyü verirdi. Ermənilərin şəhərdəki say çoxluğu və silah-sursat üstünlüyünə əlverişli yerləşim mövqeyinin də əlavə olunması azərbaycanlıların ağır itkilərə uğramasını qaçılmaz edirdi. Azərbaycanlılarla ermənilərin üzləşdikləri ölü və yaralı sayları müqayisə olunmaz idi. Bun-

[1] "İveriya", 1905, 23 noyabr (№ 212); "Tiflisskiy listok", 1905, 27 noyabr (№ 236).
[2] "İveriya", 1905, 23 noyabr.

dan başqa, hökumət qüvvələrinin dəyib-toxunmadığı və bu baxımdan özlərini olduqca sərbəst hiss edən erməni silahlıları şəhərin küçələrində dinc azərbaycanlı sakinləri təqib edərək əllərinə keçən yerdə, hətta günün günorta çağı belə heç kəsdən çəkinib qorxmadan, hamının gözü qarşısında qanlarına qəltan edirdilər. Azərbaycanlıların mağazaları və dükanları talan olunurdu.

Tiflisdə azərbaycanlılara qarşı cinayətlərdə məşhur erməni terrorçusu, "Daşnaksutyun" partiyasının rəhbərlərindən olan Armen Qaronun (Qaregin Pastırmacyanın) başçılıq etdiyi 500 nəfərlik silahlı dəstə xüsusi fəallıq göstərirdi.

Tiflis azərbaycanlılarının amansız qırğını ətraf bölgələrdə – Borçalı və Qazax qəzalarında, Tiflis qəzasının Qarayazı nahiyəsində yaşayan qarapapaq* türklərini hiddətləndirir. Qarapapaqlar süvari dəstələr toplayıb Tiflisə doğru istiqamət götürürlər və hökumət rəsmilərinin onların şəhərə daxil olmasının qarşısını kəsmək üçün giriş yollarına seçmə qoşun növləri göndərməsinə rəğmən, müxtəlif vasitələrlə qruplar halında Tiflisdəki soydaşlarının imdadına yetişə bilirlər. Belə ki, 25 noyabr axşamı Tiflis ətrafında düşərgə salan Borçalı döyüşçülərinin bir hissəsi artıq 26 noyabr səhəri Şeytanbazarda ön mövqelərdə, müdafiə postlarında dayanmışdılar. Tiflisə daxil olan borçalılar təcili surətdə "Daşnaksutyun"dan sülh zəmanəti tələb edirlər. Zəmanətin şərtlərindən biri şəhərin küçələri boyunca azərbaycanlıların silahlı yürüşünə şərait yaradılması idi. Bu, erməni terror dəstələrinə azərbaycanlıların özlərini müdafiəetmə qabiliyyətində olduqlarını göstərmək üçün vacib idi.

Artıq qüvvələr nisbətində ermənilərin üstünlüyü aradan qaldırılmışdı və 27-28 noyabrda baş verən atışmalar bunu açıqca göstərirdi. Regionda baş verən böyük müharibələrdə həmişə ön

* Qarapapaqlar – Azərbaycan türklərinin subetnik qolu, Cənubi Qafqazda əsasən Borçalı və Qazax bölgələrində, Türkiyədə Qars, Ərdahan, Ağrı və Sivas vilayətlərində, İranda isə Urmiyə gölünün cənubundakı Sulduz mahalında yaşayırlar.

xəttə yer alan[1] və qaçaq hərəkatında fəal iştirak edən[2] cəsur və qorxmaz Borçalı azərbaycanlılarının döyüş təcrübəsi öz sözünü deyirdi. Hətta bəzən vəziyyət o dərəcəyə gəlib çatırdı ki, borçalıların sərrast atəşlərinin və həmlələrinin qarşısının alınmasında aciz durumda qalan ermənilər çar ordusunun əsgərlərinin xidmətlərindən yararlanırdılar.

Şəhərin erməni əhalisi də vəlvələyə düşmüşdü. Borçalıların hücuma keçib erməniləri qıracağı barədə şayiələr şəhəri bürümüşdü. Avlabarda, eləcə də Şeytanbazara qonşuluqda yerləşən və sakinlərinin əksəri ermənilərdən ibarət daha bir məhəllədə – Sololakda evlərin çoxu boşalmışdı. Bu məhəllələrdə yaşayan ermənilər Tiflisin gürcü və rus məhəllələrinə sığınmışdılar. Digər tərəfdən də canişinlik və şəhər idarəsi binalarının qarşısı qorxuya düşmüş və sülhün bərqərar olması üçün hökumətdən təcili qəti tədbirlər görməyi tələb edən ermənilərlə dolmuşdu.

Vəziyyətin kəskinləşdiyini görən hakimiyyət 28-29 noyabrda Tiflisə əlavə qoşun yeridib Şeytanbazar və Avlabar məhəllələri arasında yerləşdirir. Bundan sonra şəhərdə durum yavaş-yavaş stabilləşir. 29 noyabr axşamından etibarən Borçalı azərbaycanlıları tədricən şəhəri tərk etməyə başlayır.

1 dekabrda Tiflisin nüfuzlu azərbaycanlı və erməni ziyalılarının toplantısı olur və bu tədbirdə barışıq əldə olunur.

Tiflisdə baş vermiş qanlı toqquşmalar barədə daha geniş və ətraflı bilgiləri arxiv sənədlərinə və həmin dövrün gürcüdilli və rusdilli mətbuatına istinadən xronoloji ardıcıllıqla təqdim edirik:

## 22 noyabr

22 noyabrda axşam təqribən saat 8 radələrində şəhərin əsasən azərbaycanlılar yaşayan VI məhəlləsindəki "Tatar meyda-

---

[1] Bu barədə ətraflı bax: F.Valehoğlu. Qarapapaqlar və onların XIX əsr hərb tarixi, Bakı, 2005, 248 s.

[2] Bu barədə ətraflı bax: V.Hacılar. XIX yüzillikdə Borçalıda qaçaqlıq hərəkatı, Tiflis, 2003, 92 s.

nı"nda iki erməni azərbaycanlı qəssablara revolverdən atəş açıb Kürün sol sahilinə – Avlabar məhəlləsinə qaçır. Güllə azərbaycanlılardan birini yaralayır. Bundan sonra şəhərin bu hissəsində azərbaycanlılarla ermənilər arasında fasilələrlə bir saat yarım davam edən atışma başlanır. IV məhəllənin pristavının köməkçisinin verdiyi məlumata görə, bu atışma nəticəsində iki azərbaycanlı və bir erməni ölür, bir azərbaycanlı (İran təbəəli) və bir erməni isə yaralanır[1]. Bütün dükanlar, mağazalar, restoranlar, dərnəklər və digər iş yerləri bağlanır. Küçələrdə əsgərlərdən və draqun-kazaklardan başqa heç kəs görünmür.

"Tiflisskiy listok" qəzeti 22 noyabrda Avlabar yüksəkliyindən nüfuzlu şəhər sakini M.Y.Ələsgərovun, podporuçik Hüseyn bəy Yadigarovun və Ağalarovun VI məhəllədə yerləşən evlərinin atəşə tutulduğunu yazırdı. M.Ələsgərovun Sumbatov küçəsində yerləşən evinin eyni zamanda üç istiqamətdən gülləboran edildiyini vurğulayan qəzet, H.Yadigarovun Vorontsov küçəsindəki evinə atəş edildiyi zaman bir müəllimin yaralandığını bildirirdi[2].

Müqəddəs Georgi (və ya Surp-Karapet) kilsəsinin yaxınlığındakı qəhvəxananın qarşısında da toqquşma olur. Burada bəzi mənbələrə görə beş, bəzilərinə görə isə yeddi nəfər azərbaycanlı və erməni öldürülür[3].

Atışma həmin gün gecə boyu ara vermədən davam edir. "Kavkaz" qəzetinin yazdığına görə, gülləri əsasən Xarpux və Avlabarın dalanlarından və evlərindən atırdılar.

Tiflisdə milli zəmində qarşıdurmanın, küçə döyüşlərinin və azərbaycanlıların qırğınının başlanğıcı olan 22 noyabr hadisəsi və onun səbəbləri barədə "Tsnobis purtseli" qəzeti yazırdı:

> "Düşməni sevindirəcək bir iş baş verdi Tiflisdə. Dəhşətli və yazı ilə ifadə oluna bilinməyəcək fəlakət oldu. Ermənilər və müsəlmanlar arasında tükənməyən düşmənçilik və qırğın Tif-

[1] "Tiflisskiy listok", 1905, 27 noyabr (№ 236).
[2] Yenə orada.
[3] "İveriya", 1905, 27 noyabr (№ 213); "Vozrojdeniye", 1905, 27 noyabr (№ 34).

lisdə də özünü göstərdi. Bu iyrənc hadisə gürcüləri, eləcə də başqalarını düşünməyə vadar etdi.

Necə, nə cür başladı və nə vaxt sona yetəcək bu dəhşət, hələ ki, bunu demək çətindir. Tiflisdə bu hadisələri müsəlmanlar başladı desək, inanılmazdır, çünki sayları çox azdır. Başlayan hər şeyi öz məqsədləri üçün istifadə etmək istəyən bədxah qüvvələrdir, ona görə suyu bulandırmağa çalışırlar. Amma başlananın daha da güclənməsində və qırğının alovlanmasında ümumilikdə hər iki xalqın nümayəndələrinin böyük günahı var, vaxt gələcək onlar tarix qarşısında cavab verəcəklər.

Gəncədə baş vermiş toqquşmalardan sonra Tiflisə çox sayda erməni gəldi və onlar öz soydaşları arasında oradakı dəhşətli hadisələr barədə xəbərlər yaymaqla dözümlülük ipini qırdılar. Tiflis ermənilәri arasında nəsə çaxnaşma yarandı. Əhali qorxu içərisində idi. Bir xuliqanın nə isə bir iş törətməsi barədə səs yayılması bəs edirdi ki, şəhərin dükanları bağlansın. Hər bir məhəllədə iclaslar, yığıncaqlar keçirilirdi və müdafiə tədbirləri görülürdü.

20 və 21 noyabrda gecə yarısı şəhər məhəllələrindən revolver və tüfəng səsləri gəlirdi...

22 noyabrda ilk atəş səsləri VI polis məhəlləsində eşidildi. Axşam saat 8-də Tatar meydanına fayton ilə 2 naməlum şəxs gəldi. Burada bir yerdə tatar qəssabları dayanmışdı. Bu naməlumlardan biri revolverini çıxarıb qrup halında duran tatarlara atəş açdı. Güllə bir tatarı yaraladı. Naməlumlar faytonun ağzını döndərib Avlabar körpüsünə tərəf getdilər.

Tatarlar da revolverlər gətirdilər. Bu gözlənilməz hadisə burada yaşayan sakinləri vahiməyə saldı. Qorxuya düşmüş camaat tez qaçıb dağılışdı. Evlərdən atəş səsləri eşidildi.

Həmin gecə şəhərə qorxulu şayiələr yayıldı. Bəziləri deyirdi ki, filan küçədə filan erməninin evi dağıdıldı, bəziləri – Borçalıdan tatarlar gəlir və s.

Bununla başladı Tiflisdə qırğın"[1].

---

[1] "Tsnobis purtseli", 1905, 27 noyabr (№ 2957).

22 noyabrda şəhərin azərbaycanlı məhəlləsində atışma başlayan zaman cənubi azərbaycanlı Mirzə Axundovun Avçala küçəsində, Zaliyevin evində yerləşən dükanı naməlum silahlı şəxslər tərəfindən qarət olunur. İkisi çərkəzi çuxa, qalanları isə qara palto geyinmiş qarətçilərdən 4-ü dükanın içinə soxulur, qalanları isə qapının ağzında gözləyir. Həmin anda dükanda Mirzə Axundovun özü və qohumu Palava Axundov olurlar. Qarətçilər əllərində xəncər və revolverlə sonuncunun üzərinə tullanıb onu yerə yıxırlar və silah verməsini tələb edirlər. Mirzə Axundov isə birtəhər sivişib qaça bilir və hadisə barədə məhəllə polis idarəsini məlumatlandırır. Ancaq növbətçi məhəllə gözətçisi dükana gələnə qədər cinayətkarlar kassadan təqribən 50 rubl nəqd pul, 30 rubl dəyərində qızıl saat, 5 rubl dəyərində qızıl üzük, 15 rubl dəyərində revolver götürüb aradan çıxırlar[1].

**23 noyabr**

23 noyabr səhəri atışma, azərbaycanlı əhaliyə qarşı silahlı həmlələr yenidən başlanır və günortaya qədər davam edir. Açıq silahlı hücumlar olmasa da, şiddətli atəş səsləri VI, VII, qismən də V və VIII polis məhəllələrindən eşidilir. Şəhərin küçələri ermənilər tərəfindən qəddarsızcasına qətlə yetirilmiş dinc azərbaycanlı sakinlərin meyitləri ilə dolur.

Azərbaycanlılara məxsus dükanlar – Saracev döngəsində Kvizireli-Kopadzenin evində yerləşən baqqal dükanı, eyni küçədə yerləşən xırdavat dükanı, Tutaşvilinin, İvritişvilinin, Peska küçəsində Alxazovun, Tairovun və İmnadzenin evlərində yerləşən xırdavat dükanları, Xosroyevin karvansarası qarət olunur[2]. Çox keçmədən VII məhəllənin polisləri və sərhəd patrulları tərəfindən Xosroyev karvansarasının qarətçiləri yaxalanır və onlardan qarət zamanı apardıqları 3 palaz, 7 xalça, 1 çul, 3 mütəkkə, 3 süfrə, 1 balış və 24 ipək yaylıq geri alınır. Bu mallar müvəqqəti olaraq 16-

[1] "Kavkaz", 1905, 27 noyabr (№ 293).
[2] GMTA, f. 115, s.1, iş № 1044 və iş № 516.

cı meqrel qrenadyor alayının qərargahında saxlanılır[1].

Tiflis polismeysteri də raportunda V və VIII məhəllələrdə azərbaycanlıların mağazalarının qarət olunduğunu yazırdı.

Səhər saatlarında Qolovin prospektində Qaqele Kurtsun və Nikolayev körpüsündə Ter-Sarkisovun silah mağazalarının qarşısına erməni kütləsi yığılır və qapıları qıraraq satışda olan silah-sursatın hamısını ələ keçirir. Bundan başqa erməni bazarında ləzgilərə məxsus silah emalatxanası talan edilir və oradan da bütün silahlar götürülür. Talanların qarşısını almaq üçün ordu hissələri çağırılır.

Günorta saat 2-də Tamamşevin karvansarasının yanında Əhməd adlı bir azərbaycanlı sinəsindən güllə yarası alır, bundan təqribən bir saat sonra isə erməni bazarında bir neçə erməni Kirpiçnı küçəsi ev № 1-də yaşayan İbrahim Osman oğluna hücum edib xəncərlə başından yaralayır və 150 rubl pulunu əlindən alır[2].

Şəhərdə baş vermiş hadisələrlə bağlı günorta saat 12-də Rusiya sosial-demokrat fəhlə partiyasının Tiflis təşkilatı tərəfindən Naxalovkada[*] mitinq təşkil olunur. Mitinq iştirakçıları şəhər küçələri ilə ağ bayraqlarla sülh yürüşünə çıxmaq qərarını verirlər. Yürüş zamanı iştirakçıların sayı get-gedə artır. Dəmir yolu emalatxanalarının fəhlələri də iş yerlərini buraxıb onlara qoşulur. Avçala küçəsini keçərək şəhərin azərbaycanlılar yaşayan hissəsinə istiqamət götürən yürüş iştirakçıları M.Vorontsovun heykəli yaxınlığında general-mayor V.İ.Rılski tərəfindən dayandırılır. Rılski təxribat törədilməsi ehtimalı böyük olduğundan, hansısa xoşagəlməz bir hadisənin baş verməməsi üçün onları yürüşə son qoymağa çağırır. Ancaq çoxminlik kütlənin təkidlə xahişindən sonra məsələ barədə imperatorun Qafqazdakı canişininə məlumat verilir və canişin yürüşün davam etməsinə icazə verir.

---

[1] GMTA, f. 17, s. 2, iş № 557.

[2] "Tiflisskiy listok", 1905, 27 noyabr.

[*] Naxalovka (gürcülər bu məhəllənin adına Nadzaladevi deyir) və sonradan adlarına rast gələcəyimiz Çuğuret, Sololak, Mtatsminda, Vera, Peska (Riğe), Kukiya, Didube, Nəftluq (Naftulluq) Tiflis məhəllələridir .

Knyaz Vorontsovun heykəlinin yanından Aleksandr bağı yaxınlığındakı "Soldat" ("Əsgər") bazarı, Puşkin küçəsi, İrəvan meydanı və erməni bazarı üzərindən keçərək Şeytanbazara, oradan da Ortacaladakı Qarpız meydanına tərəf hərəkət edən izdihamın başında Tiflis qubernatoru Pavel Aleksandroviç Rauş-fon-Traubenberq durur.

Qarpız meydanında mitinq təşkil olunur. Şəhərin azərbaycanlı və erməni sakinlərinin bir hissəsi də yavaş-yavaş bu meydana üz tutur. Mitinqdəki çıxışlarda düşmənçilik edən tərəfləri sülhə səsləyən nitqlər söylənir. Natiqlərin bəziləri baş verənlərin səbəbini təxribatda görür. Qubernator özünün çıxışında səmimi şəkildə kütləni bu mülahizələrin doğru olmadığına inandırmağa çalışır. Sonda azərbaycanlıların və ermənilərin barışığı baş tutur, onlar bir-birlərinə qarşı silah qaldırmayacaqlarına söz verirlər. Buradaca sülhü və qayda-qanunu təmin etmək üçün azərbaycanlı və erməni məhəllələrinə silahlı dəstələr təhkim edilir[1].

Şəhərin küçələrində atışma səngiyəndən dərhal sonra, Naxalovka mitinqinə paralel olaraq, şəhər başçısının müavini (həmin dövrdə şəhər başçısı vəzifəsinin icraçısı) knyaz V. N. Çerkezov (gürcü mənbələrində V.N.Çerkezişvili), şəhər idarəsi nəzdindəki sülh bürosunun üzvləri N.E.Arqutinski-Dolqorukov, A.S.Babov, Şahbudaqov və digərləri, şəhər polismeysteri, eləcə də düşmənçilik edən hər iki millətin ruhaniləri və tanınmış nümayəndələri atışma baş vermiş küçələri təftiş etmək və əhalini sakitləşdirmək üçün azərbaycanlı və erməni məhəllələrinə − Şeytanbazara və Avlabara gedirlər. Onları nüfuzlu gürcü ziyalıları, ruhanilər, yerli dövri mətbuat orqanlarının təmsilçiləri, o cümlədən "İveriya" qəzetinin reaktoru-naşiri İlya Çavçavadze, "Tsnobis purtseli" qəzetinin redaktoru Aleksandr Cabadari, "Tiflisskiy listok"un "Q-burq" imzalı müxbiri də müşayiət edir və sonradan bu gəzinti barədə təəssüratlarını öz qəzetlərində əks etdirirlər. Bununla bağlı hər nə qədər rusdilli "Kavkaz" qəzeti öz səhifələrində

[1] "Kavkaz", 1905, 27 noyabr (№ 293).

"Atışmanın nəyə görə başladığını, birinci atəş açan tərəfi müəyyən etmək mümkün olmadı", "Öz evlərində gizlənmiş tatarlar şikayət edib deyirdilər ki, onlara əsasən ermənilər yaşayan Avlabardan güllələr atılıbdır, ermənilər isə şikayət edirdilər ki, onlara çayın qarşı sahilindən tatarlar atəş açıbdır. Güllə izləri və qırılmış pəncərə şüşələri hər iki hissənin evlərində var"[1] kimi cümlələrlə "neytrallığını" qoruyub saxlamağa və həqiqətləri gizlətməyə çalışırdısa, bir o qədər gürcüdilli "İveriya", "Tsnobis purtseli" qəzetləri hadisələrə daha obyektiv yanaşır və vəhşiliklərin kimlər tərəfindən törədildiyini açıqca üzə qoyurdu.

Tiflisdəki qanlı hadisələrin canlı şahidi olan görkəmli gürcü şairi, yazıçısı, siyasi və ictimai xadimi İlya Çavçavadze redaktoru olduğu "İveriya" qəzetinin 1905-ci il 27 noyabr tarixli sayında 22-23 noyabrda görüb-eşitdikləri barədə aşağıdakıları yazırdı:

> "22 noyabrda tatarların məhəlləsində bütün gecə ərzində tüfəng və revolverlərdən ardı-arası kəsilməyən atəş səsləri eşidilirdi. Ermənilərin məhəlləsindən də atəş səsləri gəlirdi və sakinlər bilmirdi kim-kimə atır.
>
> Axşam saat 9-da Riğedə hansısa naməlum şəxs revolverdən elektrik tramvayının vaqonuna atəş açıbdır. Gecə teatrdan qayıdanlar görüblər ki, Vorontsov körpüsündə fayton ilə gedən iki adama revolverdən atıblar və ətrafda olan adamlar qaçışıb. Yenə axşam saat 9-da Avcala küçəsində bir neçə silahlı şəxs tatarların dükanına (Mirzə Axundovun dükanı nəzərdə tutulur – *F.V.*) hücum edibdir. Dükan sahiblərini öldürə bilməyiblər, amma çox şey aparıblar.
>
> Sonrakı gün səhər təqribən saat 10-nun yarısında belə xəbər yayıldı ki, 5-ci və 6-cı polis məhəllələrində ermənilərlə tatarlar arasında qırğın düşüb. Bu məhəllələrlə hərəkət edən tramvay vaqonlarını tez geri qaytardılar. Qorxuya düşmüş adamlar ümidsiz halda tatar və erməni məhəllələrindən şəhərin orta hissələrinə doğru aralaşırdı.

[1] "Kavkaz", 1905, 27 noyabr (№ 293).

Səhər saat 10-da həqiqətləri bilmək naminə piyada 6-cı məhəlləyə getdim, çünki heç bir faytonçu oraya getmək istəmirdi. Sion küçəsində heç kəs görünmürdü. Atəş səsləri ucdan-bucaqdan eşidilirdi, o da uzaqdan.

Sion küçəsində bir adam öldürülmüşdü. Tatar idi. Noraşen küçəsində beş ölü gördüm. Hamısı tatar idi. Ölənin birinin yanından bir az aralı su çəlləyi dururdu, ikinci ölən tatar çay daşıyıcısı idi, yanında portmanı (pul kisəsi) və gümüş çaydan var idi. Onun qarnından tökülmüş qanının ətrafında it hərlənirdi. Bir az aralıda bir erməni qadını öldürülmüşdü, onu kimlərsə tez-tələsik bir həyətə salmışdılar. Öldürülmüş tatarlar küçədə sahibsiz qalmışdılar.

Bir neçə nəfər birlikdə 5-ci polis bölməsinə girdik, rəisi görünmürdü. Yalnız bir neçə polis nəzarətçisi və aşağı çinli polis var idi. Biz xahiş etdik: öldürülənləri küçələrdən həyətlərə daşıyın, çünki xalqı təşvişə salır, özünüz də küçəyə çıxın və diqqətli olun ki, belə günahsız adamları öldürməsinlər. Öldürülənləri həyətlərə salmağa razı olmadılar, dedilər ki, oğurluqda ittiham edərlər. Küçəyə çıxmağı isə yalnız bir nəzarətçi qəbul etdi və zorla iki polisi də özüylə çıxardı. Qalan polislər isə bir-birinə deyirdilər: müharibə vaxtının qaydalarını tətbiq etməsək belə hadisələr baş verməzdi; indi çıxsaq bizi öldürərlər.

Biz Tatar meydanına tərəf getdik, zaman-zaman bizim qabağımıza bu məhəlləyə doğru gedən 5-6 kazak, və ya draqun keçdi. Dükanlar bağlı idi. Bəzi yarıaçıq dükanlardan gürcülər boylanırdılar. Tatarların məhəlləsindən ara-sıra atəş səsləri eşidilirdi. Nəbatat (Botanika) bağının başında bir dəstə adam gördük, onlar aşağıya atəş açırdılar. Bizdən uzaq olduğu üçün bilmədik ermənilər idi, yoxsa tatarlar.

Tatar meydanında əsgərlərin kiçik dəstəsi dururdu. Bu dəstə bizi o tərəfə buraxmadı. Buradan yaxşı görünürdü ki, evlərin pəncərələrindən tüfənglərdən atəş açılır. Bir ara bizim yaxınlığımızda atəş səsləri çoxaldı. Düşündük ki, gülLədən heç birimiz xilas ola bilməyəcəyik.

Əsgərlər Tatar meydanından o tərəfə bizi buraxmadığı

üçün, geri qayıtmağa məcbur olduq. Günorta saat 12-də şəhər icra idarəsinə baş çəkdim. Buraya Tiflis polismeysteri gəlib şəhər başçısını və idarə heyətinin üzvlərini inandırmağa çalışırdı ki, siz qarışsanız hadisələr tezliklə müsbət istiqamət götürəcək. Polismeyster dedi ki, 6-cı məhəllədən yeni qayıdıb və öz gözü ilə görüb ki, vəziyyət gələn xəbərlərdə bildirildiyi kimi elə də gərgin deyil, yalnız evlərin pəncərələrindən atəş açırlar, o da vaxtaşırı.

Qısa müzakirələrdən sonra polismeyster şəhər icra idarəsinin rəhbərliyi ilə birgə sakinləri sakitləşdirmək üçün şəhərin 6-cı polis məhəlləsinə getmək istəyini ifadə etdi. Hamımız polismeysterlə bir yerdə zorla tapdığımız faytonlarla yola düşdük. Bizi öndə və arxada draqunlar müşayiət edirdi.

Budur, biz Sion küçəsini, harada ki, bir saat əvvəl öldürülmüş bir tatar görmüşdüm, keçdik, cəsəd orada yox idi, ancaq qan torpaq üzərində yenə dururdu. Bəzi yerlərdə ölülər yenə görünürdü. Polismeyster belə yerlərin hamısında dayanıb haradan atəş açıldığı və harada kimin öldürüldüyü barədə bizə məlumat verirdi.

Tatar meydanına yaxınlaşanda tüfəng səsləri eşidildi. Dayanıb müəyyən etdik ki, səs Nəbatat bağındakı təpəlikdən gəlir. Polismeyster qabağımızda getdiyi üçün əsgərlər yolu açıb Tatar meydanından bizi irəli buraxdılar.

Bir az dayandıq. Al.Metreveli adlı bir şəxs dedi ki, 2 nəfərin Kürə atıldığını öz gözü ilə görüb – onlardan biri tatar, o biri isə erməni idi. Erməni sağ qalmışdı və camaat onu böyük çətinliklə sudan çıxardı.

Biz Bakxal küçəsinə gələndə orada ermənilər toplaşmışdı, əsgərləri görəndə təlaş içində ora-bura qaçışmağa başladılar. Biz çox qışqırdıq ki, qorxmayın və zorla onları dayandırdıq. Burada balaca, ancaq mühüm bir hadisə ilə üzləşdik: Bir gənc erməni bu küçədə tatar Hacı Baği oğlunun ("Tsnobis purtseli" və "Tiflisskiy listok"dan bu şəxsin doğru adının Hacı Qəhrəman Vəli oğlu olduğu bəlli olur – *F.V.*) dükanını qırıb içindəki çox şeyi dağıtdı və kassanı oğurladı. Bu ermənini polis nəzarətçisi (deyəsən adı Monastırski idi) tutub polismeysterin yanına gətir-

di və hamı ətrafımıza yığıldı. Diqqəti cəlb edən məqam budur ki, bu erməni bir bu qədər polis və əsgərin arasından canını qurtara bildi və yavaş-yavaş sıyrılaraq başqa ermənilərin arasına qarışdı, sonra onlar birlikdə qaçıb dar bir döngədə gizləndilər. Biz qışqırmağa başladıq ki, niyə bu soyğunçunu buraxdınız. Ancaq polislər dedi ki, nə edək, qaçdı.

Polislərin dediyinə görə, 6-cı polis məhəlləsində səkkiz tatar və bir erməni öldürülmüş, dörd tatar isə yaralanmışdır.

Ermənilərin qeyd etdiyinə görə, Bakxal küçəsi qorxulu yerdir və orada adam öldürmək çox asandır. Ona görə polismeyster bu küçəyə əsgərlər qoydu və əmr etdi ki, nizam-intizama fikir versinlər, mağazalara heç kim hücum etməsin. Sonra irəli getdik.

Bizi gəzdirən faytonçu tatar idi və bu tərəfə (Avlabara – *F.V.*) gəlməyə çox qorxurdu. Biz ona qorxmaması üçün ürək-dirək verirdik.

Vorontsov küçəsində ilk növbədə tatarları gördük. Bir yerdə bağlı dükan açıldı və içindən 10-a yaxın tatar çıxdı. Bizdən onları ailələrinin yanına aparmağı xahiş etdilər. Biz söz verdik ki, qayıdanda bu tərəfdən keçib apararıq, amma bu ərazidən keçmədik.

Vorontsov küçəsində qəflətən bizim gözümüz qarşısında rəngi qaçmış bir erməni peyda oldu, soyadı Qiqo Safarov, və çətinliklə bir-təhər dedi – məni aparın, arvad-uşağım o tərəfdədir, tək gedə bilmirəm, tatarlardan qorxuram. Xahişi yerinə yetirdik.

Sumbatov küçəsində tatarlar rastlaşdı. Bir neçə tatar bizi əmin edirdi: "Bizim xalq sosial-demokrat partiyasından başqa heç kəsə inanmır və onun bu partiyadan başqa heç bir təşkilat, nə polis, nə də digər siyasi partiyalar tərəfindən sakitləşdirilməsi mümkün deyil".

Biz bir tatarın – Ələsgərovun ucsuz-bucaqsız evini gördük. Bu evin divarlarına bir neçə güllə dəymişdi. Görünür güllələr Kürün o üzündən atılmışdı. Evin həyətində bir kişi və iki at öldürülmüşdü. Tatarlar dedi: "Zurabaşev küçəsindən əsgər paltarı geyinmiş adamlar atırdılar, zənnimizcə ehtiyatda olan erməni əsgərləri idilər". Biz soruşduq: "Siz də atdınızmı?" Cavab ver-

dilər: "Bacardığımız qədər biz də atdıq, amma kimisə vurub-vurmadığımızı bilmirik". Bu tatarların tüfəngləri onlara atəş açılan evə qarşı tuşlanmışdı.

Tatarların məhəlləsindən müsəlmanların qazısını və daha bir neçə nüfuzlu müsəlmanı götürüb Kürü keçərək Zurabaşev küçəsinə getdik və tatarlara atəş açılan evə baxdıq. Ev İvan Melikova məxsus idi və içərisində Koyroğyants yaşayırdı. Bu evin divarlarına 7 yerdən güllə dəymişdi, amma heç kəs öldürülməmişdi.

Melikovun evində qalanlardan soruşanda ki, tatarlara atəş açıbsınızmı, dedilər – yox. Polismeyster dedi ki, bu mümkün deyil, belə olmaz, heç olmasa tatarlar birbaşa dedilər ki, biz də atmışıq, onlar da atıblar.

Zurabaşev küçəsindən geri qayıtdıq. Küçə ermənilərlə dolu idi. Atəş səsləri ümumiyyətlə eşidilmirdi. Tatar meydanına gələndə polismeyster dedi:

– Artıq mən məsuliyyət daşımıram. Eşitmişəm ki, Avcala küçəsi ilə buraya silahlı fəhlələr gəlir, onların gəlişi pis nəticələrə səbəb ola bilər.

Biz hamımız bir ağızdan dedik ki, pis heç nə olmayacaq, onlar xalqa təsir edəcəklər. Polismeyster rahatlandı.

Tatar meydanından gördük ki, Nəbatat bağının başında heç kəs yoxdur. Orada yalnız əsgərlər dururdu. Bu gəzinti vaxtı əmin olduq ki, ermənilər və tatarlar arasında qrup halında toqquşmalar olmur, yalnız pəncərələrdən və gizli yerlərdən güllə atırdılar.

Atışma səhər saat 10-nun yarısında başladı və günorta 12-də bitdi.

Tatarların məhəlləsindən biz faytonla bir tatar gətirdik. O, Vorontsov körpüsündə dururdu və tək gələ bilməzdi.

Vorontsov körpüsü tərəfdə 25 minədək fəhlə toplanmışdı. Onlar saat 12-də bu təəssüfləndirici olaylardan dolayı hər yerdə işi dayandırırlar, Nadzaladevidə mitinq keçirirlər və qərara alırlar ki, sakinləri sakitləşdirmək üçün hamısı bərabər 6-cı polis məhəlləsinə getsinlər. Avcala küçəsini, sonra da körpünü

> keçmək istəyirlər, ancaq əsgərlər qoymur. Camaat canişinlə görüş üçün deputasiya (nümayəndələr) göndərir və bu görüşün nəticəsini gözləyir.
>
> Vorontsov küçəsinə elə bu zaman gəldik.
>
> Tezcə qubernator gəldi və xalqa elan etdi ki, keçə bilərsiniz. Qubernator prosessiyaya (yürüşə) qoşuldu, öndəki bir neçə sırada xalqı əsgərlər müşayiət edirdi. Prosessiya tatar və erməni məhəllələrini keçdi və tatar məhəlləsindən o tərəfdə, şəhər qırağında dayandı. Yavaş-yavaş ermənilər və tatarlar yığılmağa başladılar. Gürcü, rus, erməni və tatar dillərində çıxışlar oldu. Ermənilər və tatarlar bir-birinə qardaşlıq andı içdi və bundan razı olan prosessiya axşama yaxın dağıldı. Gecələr qayda-qanunu və sülhü qorumaq üçün tatar və erməni məhəllələrində silahlı dəstələr qaldı.
>
> Hamı əmin idi ki, qırğın sona çatıbdır"[1].

Başqa bir gürcü publisisti, "Tsnobis purtseli" qəzetinin redaktoru A.Q.Cabadari isə 23 noyabrda gözləri ilə gördüklərini bu şəkildə qələmə almışdır:

> "23 noyabrda şəhər cəhənnəmə bənzəyirdi. Dükanlar bağlanmışdı. Ermənilər dəhşətli şayiələr yayırdılar ki, tatarlar erməniləri qırırlar, filan qədər gürcüyə zərər yetiriblər, Borçalıdan bir neçə yüz adam gəlib və s.
>
> Saat 11 oldu. Təhlükənin haradan gəldiyi açıq-aşkar görünürdü. Tatar meydanından bu yana heç bir təhlükə yox idi. Amma bəziləri evlərdən çıxıb haraya gəldi atəş açırdılar. Bu atəş səsləri Sololakın arxa küçələrində daha çox eşidilirdi.
>
> Tək və silahsız idim. Ona görə də 5-ci polis məhəlləsinə gedib oradan polislərlə bir yerdə getməyə qərar verdim.
>
> Sion kilsəsi qarşısında bir öldürülmüş tatar gördüm...
>
> "Cvaris mama" ("Xaç atası") küçəsində Soso İvanişvili və Arto Somxişvili ilə rastlaşdım. Mənə gözləri ilə gördüklərini danışdılar:

---

[1] "İveriya", 1905, 27 noyabr (№ 213).

Saat 10:30-da Moğnis meydanında arabada oturan iki tatarı mühasirəyə aldılar, onlardan biri Radıxov (bəlkə Sadıxov? – *F.V.*) idi. Bu iki nəfərə altmışa yaxın adam revolverlərlə hücum etdi. Tatarların üstlərindən pullarını və bahalı nə var hamısını götürdülər. Sonra öldürmək istədilər. Biz yalvardıq ki, onları öldürməsinlər və təhlükəsiz əraziyə qədər müşayiət etdik.

Bir dəhşətli səhnə mənim gözlərim qarşısında baş verdi – dedi cənab İvanişvili. Moğnisi meydanına bir tuluqçu gedirdi. Bu tatarı meydanda öldürdülər və sonra "Cvaris mama" küçəsinə sürütlədilər. Yekə hay-harayla gəlirdilər, qabaqda atlar gedirdi, arxasınca tatarı sürütləyirdilər və bunları səs-küylə camaat müşayiət edirdi. Beləcə bütün küçəni keçdilər, Yerüsəlim küçəsinə çıxdılar və öldürülən tatarı Sion küçəsiylə Yerüsəlim küçəsinin birləşdiyi yerə atdılar.

"Cvaris mama" küçəsində 68 yaşlı bir çayçını öldürdülər; çay və qaynanmış su ilə bu küçəyə alverə gəlibmiş. Atışma başlananda geri qayıdır və "Cvaris mama" ilə Yerüsəlim küçələrinin kəsişməsində arxasından gələn bir naməlum tərəfindən revolverlə güllələnir. Onun cəsədi Riğenin alt səmtindəki küçədə idi. Görünür kimsə qarət üçün aparıbdır ora. Çay ləvazimatlarını da oğurlamışdılar. Cəsədin ətrafında itlər fırlanırdı...

Artıq buradan irəli getmək təhlükəli idi. Sion küçəsində məhəllə nəzarətçisi Berdzenişvilini gördüm, dörd polislə bərabər idi. Xahiş etdim ki, mənimlə gəlsinlər. Biz Tatar meydanına çatan zaman ordu artıq orada mövqe tutmuşdu. Meydanda iki tatarın və bir kəndlinin meyiti dururdu. Bu sonuncu odun satmağa gəlibmiş...

Avlabar küçəsinin önündə 10-a yaxın erməni Güləhmədovun bahalı qumaş parça və xalça mağazasının qapılarını qırıb içəri girmək istəyirdi. Bizə məhəl qoymayıb qapını qırdılar. Əsgərlər və Berdzenişvili işə qarışıb dedilər ki, nə edirsiniz? Onlar da cavab verdilər ki, oradan revolverlə atıblar. Mağazada tatarlar gizlənmişdi. Bu mağazanın qarşısına qarovul qoyuldu.

Saat 12 oldu. Fayton ilə şəhər mouravının (başçısının) müavini tavad (knyaz) Çerkezişvili, şəhər dumasının üzvləri Babov

və Şahbudaqov, şəhər icra idarəsinin əməkdaşı Arqutinski göründülər. Onları irəlidə polismeyster müşayiət edirdi. Onlarla birlikdə erməni və müsəlman ruhaniləri də var idi. Bunlara qoşuldum və bütün məhəllələri gəzdim. Birinci tatarların məhəlləsinə gəldik. Küçədə heç bir nəfər də yox idi. Sonra tatarlar çıxıb bizi öz məhəllələri boyu müşayiət etdilər.

Ələsgərovun üç mərtəbəli evinin şüşəbəndləri qarşı taydan atılan güllələrlə dəlmə-deşik olmuşdu. Arğutaşvili küçəsində bir tuluqçu öldürülmüşdü.

Vorontsov küçəsi ilə qayıdıb Metex türməsi tərəfə getdik. Avlabar körpüsünə çıxanda gördük ki, yüzədək erməni xuliqanı Bakxal küçəsində Hacı Qəhrəman Vəli oğlunun dükanını yarmağa cəhd edir. Monastırski soyadlı bir polis onlardan birini yaralayıb polismeysterin yanına gətirdi, amma o qaçıb gizlənə bildi. Buradaca eşitdik ki, Mirzoyev hamamlarının yanında üç tatar və bir ermənini ölü və yaralı halda görüblər.

Metex türməsinin yoxuşunu çıxanda bir neçə evə baş çəkdik. İvan Melikovun evinin pəncərəsinə 7 güllə dəymişdi. Buradan tatar məhəlləsi əlinin ovucu kimi görünürdü...

Artıq axşam saat 8 idi. Mixail xəstəxanasının pilləkənlərini qalxırdım. Bir nəfər həkim olduğumu zənn edib mənə yaxınlaşdı ki, sənin qadan alım, icazə ver mən də səninlə keçim, bilmək istəyirəm mənim xilas etdiyim səkkiz yaşlı tatarı gətiriblər, ya yox. Bu adam Coxadze idi. Bərabər yaralıların yanına getdik. Bu balaca tatar ağır yaralanmışdı. Adı Əli Çalmadan Verdi idi. Onun barəsində Coxadze bunları dedi:

"Əli və iki qohumu 23 noyabrda günorta saat 2-də İrakli meydanından tatar məhəlləsinə qayıdırdılar. Mğ. Asatiani yaşayan evin yanında, peşə məktəbi ilə üzbəüz bu üç tatara iyirmiyə yaxın adam hücum edir. Böyükləri öldürürlər, Əli isə yaralanır. Əli yaralı vəziyyətdə Mantaşovun evinin önündəki kərpiclərin arxasında gizlənir".

Coxadze Əlini birtəhər xilas edib Mixail xəstəxanasına aparır...

Xəstəxanada yaralıları gördük:

İsmayıl Hüstin (Hüseyn – *F.V.*) oğlu – Verada yaralanıb;

Həsən İsmayıl oğlu – Tatar meydanında yaralanıb, saatını və paltosunu oğurlayıblar;

Abram Sarkisov – 76 yaşlı kömürçü;

Sandro Mazniaşvili (öldü) – özü sağ ikən dediyinə görə, bir malakan həyətindən furqonla çıxıb Riğe küçəsinə gedərkən bir neçə erməni onu furqondan çıxarıb ayaqları altına alır və revolverlə güllələyir;

Deyrşal oğlu – Ortacalada yaralayıb Kürə atıblar. Bu Həsəni çaydan əsgərlər çıxarıb xəstəxanaya gətirir;

Əli İsmayıl oğlu – sahibi çörək dalınca Çuğuretə göndəribmiş; iki dəfə bebutla, iki dəfə də xəncərlə vurublar;

Qulu Babayevin Didubedə dükanı var imiş. Oqanezov adlı birisi bu dükana girib onu yaralayır;

Viktor Arçvadzeni bazarın ortasında yaralayırlar"[1].

"Tiflisskiy listok" qəzetinin "Q-burq" imzalı müxbirinin polismeysterin başçılığında keçirilən təftiş-reyd sırasında qarşılaşdığı dəhşətli mənzərələr, küçələrə səpələnmiş azərbaycanlıların meyitləri barədə yazdıqları:

"...Gedənləri draqunlar müşayiət edirdi. Onlar Sion kilsəsinin yaxınlığında, Gümüş cərgələrindəki Osipovun mağazası qarşısında 9 nömrəli evlə üzbəüz ilk qan gölməçəsini gördülər. Burada bir tatar-hambal öldürülmüşdü, onun cəsədini yenicə götürmüşdülər. Bu zaman hamının diqqəti dağdan 6-cı məhəllənin evlərinə istiqamətlənən atəşə yönəldi. Gedənlər bir az sonra Serebryannı və Noraşen küçələrinin kəsişməsində 2-ci meyiti gördülər, o da tatar-hambal idi. Üçüncü tatar-hambalın meyiti Tünd cərgələrin yaxınlığındaydı. Kuzanovun mağazasının yanında olan dördüncü və Nikoqosovun mağazasının yanındakı beşinci meyitlər də tatar qara fəhlələrin (hambalların) meyitləri idi. Meydanda körpünün daşları və tramvay relsləri qana bulaşmışdı: – öldürülmüş, fəqət cəsədi artıq aparılmış ta-

[1] "Tsnobis purtseli", 1905, 28 noyabr, s. 1.

tarın beyin iliyi buradaca yerə səpələnmişdi...

Kür üstündə sayca yeddinci tatarın öldürüldüyü və birinin də yaralandığı yerə baxıb hamımız Vorontsov küçəsi ilə yola düşdük. Qarşımızdan yaralı bir tatar aparırdılar. Burada öyrəndik ki, səhər çağı Hamam qapıları ("Bannıye vorota" küç. – *F.V.*) yanında üç tatar və bir erməni yaralanıb, onlar Mixail xəstəxanasına göndəriliblər. Hamam qapıları tərəfdəki aptekin yanında hansısa tatarlar polismeysterə və qəzet işçilərinə müraciət edib yalvardılar ki, onları yaşadıqları Vera məhəlləsinə aparsınlar. Vorontsov küçəsində dayanmış digər tatarlar isə qorxudan dəyişmiş üzləri ilə polismeysterdən onları qorumağı xahiş etdilər. Polismeyster geri qaydanda onlara qoruma dəstəsi verəcəyinə və bəzilərini şəhərin başqa hissələrinə yola salacağına söz verdi.

6-cı məhəllənin bütün küçələrində əsgərlər dururdu. Onların sayı Hamam qapıları tərəfdə daha çox idi. Sonra Vorontsov küçəsində 39 nömrəli evin qarşısında tatarlar dedilər ki, bütün bu yerlər 23 noyabr səhəri və bir qədər əvvəl 2 istiqamətdən – Avlabar dağından, Kür üstündə olan kilsənin həyətindən və şəxsi evlərdən, eləcə də qarşı dağdan atəşə tutulurdu, həm də elə şiddətli atəşə tutulurdu ki, əsgərlər kilsənin həyətinə bir neçə yaylım atəşi açmağa məcbur oldular.

23 noyabr saat 11-də Ələsgərovun evinin yanındakı kiçik meydanda dağdan atılmış güllə ilə bir tatar öldürülmüş, bir tatar oğlan da yaralanmışdı. Buradaca gedənlərə bir tatar yaxınlaşıb dedi ki, bir az əvvəl həyətdə üç tatar və 2 at öldürülüb. Hamı sözügedən evə tərəf getdi və gördü ki, doğrudan da bir susatan tatar (döngə boyu qan izləri təzə idi) və üzərində çəllək olan 2 at öldürülübdür – görünür, onlar iş başında imiş..."[1].

"Kavkaz" qəzetinin 29 noyabr 1905-ci il sayında verilmiş məlumata görə, 23 noyabrda Mixail xəstəxanasındakı ölüxanaya 13 meyit gətirilmişdi, onlardan 10-u azərbaycanlı, 2-si erməni idi, birinin isə milliyyəti bəlli deyildi. Həmin xəstəxanada 12 nə-

[1] "Tiflisskiy listok", 1905, 27 noyabr.

fərə (5 azərbaycanlı – Abdulla Mərdan oğlu, Məmmədəli Cəfər oğlu, Hüseyn Əbduləhəm oğlu, Hasan-Hüseyn İsmayıl oğlu, Məmməd Əli oğlu, 4 gürcü və 3 erməni) ambulator yardım edilmiş və onlar evə buraxılmış, əksəri revolver gülləsindən yaralanmış 23 nəfər (13 azərbaycanlı, 5 erməni, 3 gürcü, 1 ləzgi və 1 alman) isə stasionar müalicə almaq üçün saxlanmışdır. Stasionar müalicə alanlar aşağıdakı şəxslər idi:

1) Əli Çarvadlı oğlu ("Tsnobis purtseli"dəki Əli Calmadan Verdi – *F.V.*) – 10 yaş (azərbaycanlı),
2) Əli İsmayıl oğlu – 19 yaş (azərbaycanlı),
3) İsmayıl Tağıverdi oğlu – 21 yaş (azərbaycanlı),
4) Məmməd Əli oğlu – 25 yaş (azərbaycanlı),
5) Məmməd Sədi oğlu – (azərbaycanlı),
6) Avetis Daraxqyants – 40 yaş (erməni),
7) Qriqori Arutyunov – 21 yaş (erməni),
8) Həsən Geyşan oğlu ("Tsnobis purtseli"dəki Həsən Deyrşal oğlu – *F.V.*) – 40 yaş (azərbaycanlı),
9) Mehdi Ağa Sultanov – 50 yaş (azərb.),
10) İsmayıl Hüseyn oğlu (azərb.),
11) Həsən Vəli oğlu – 45 yaş (azərb.),
12) Vahan Yeqonyan – 15 yaş (erm.),
13) Qulu Babayev – 27 yaş (azərb.),
14) Xeyiristə Baba oğlu – 19 yaş (azərb.),
15) Barat Qeurkov Xanov – 18 yaş (erm.),
16) Abram Sarkisov – 76 yaş (erm.),
17) Məşədi Həsən İsmayıl oğlu – 30 yaş (azərb.),
18) Əli Mahmud oğlu – 28 yaş (azərb.),
19) Feyzulla Ulazgildeyev – 19 yaş (ləzgi),
20) Aleksandr Matsişvili (gürcü),
21) Viktor Arçvadze (gürcü),
22) Aleksey Kotseşvili -20 yaş (gürcü),
23) Qustav Trayman (alman)[1].

[1] "Kavkaz", 1905, 27 noyabr; "Vozrojdeniye", 1905, 29 noyabr.

Yuxarıda adları çəkilən şəxslərdən bəziləri (Xeyiristə Baba oğlu, Feyzulla Ulazgildeyev, Vaqan Yeqonyan) bir neçə gün sonra aldıqları yaralardan dünyalarını dəyişirlər.

Qarpız meydanındakı mitinqdə əldə olunmuş barışığa baxmayaraq, gecə yarısı şəhərdə yenidən atəş səsləri eşidilir. Ermənilər azərbaycanlılar yaşayan küçələri silah hədəfinə almaqdan əl çəkmirlər.

## 24 noyabr

Səhər tezdən azərbaycanlıların məhəllələrinin güllə yağmuruna tutulması davam edir.

Gündüz saat 12:00-da Kommersiya məktəbinin yanında bir qrup erməni yolla gedən bir azərbaycanlının üstünə cumub onu vəhşicəsinə qətlə yetirir[1]. Peska küçəsində ermənilər tərəfindən beş azərbaycanlı öldürülür, onlardan ikisinin cəsədini Mixail xəstəxanasına aparırlar, üçünün cəsədini isə Kürə atırlar[2].

Günorta saat dörd radələrində birinin üstündə bomba və revolver, o birində isə patronlar gizlədilmiş iki erməni Vorontsov küçəsi ilə Şeytanbazar tərəfə keçmək istəyir. Azərbaycanlılar onlardan şübhələnib izinə düşürlər və Xalatov karvansarasının yanında tuturlar. Üstlərini arayarkən ermənilərdən biri o birinin əlindən bombanı alıb qaçmağa müvəffəq olur, bundan sonra o biri erməni yerindəcə öldürülür və meyiti Mixail xəstəxanasına göndərilir[3].

«Kavkaz» qəzetinin məlumatına görə, 24 noyabrda hərbi hospitala bir nəfər ölü və doqquz nəfər yaralı, Mixail xəstəxanasına isə on beş yaralı (Muxtar Əbdürrəhman oğlu, Qarapet Karelyants, Yakov Tairov, Arşak Xaçaturov, Georgi Mqaloblişvili, Aleksandr Qriqoryants, Siro Avdalov, Maqomed Sarkisyants, Poqos Vartanov, Saak Abramov, Saak Xanukov, Venyamin Sergeyev, Timofey İzyumov, Georgi Oskanov və Zeynal Səmədov) gətirilir[4]. “Tsnobis purtseli” qəzeti isə həmin gün ümumilikdə 9

[1] GMTA, f. 115, s.1, iş № 519.
[2] GMTA, f. 115, s.1, iş № 516.
[3] “Tiflisskiy listok”, 1905, 29 noyabr.
[4] “Kavkaz”, 1905, 27 noyabr (№ 293).

nəfərin öldüyünü, 26 nəfərin isə yaralandığını yazırdı[1].

24 noyabrda, əvvəlki iki gündə olduğu kimi, yenə də azərbaycanlılara məxsus ticarət obyektləri və yaşayış evləri ermənilər tərəfindən talan olunur. Gündüz saat bir radələrində Tiflisdə qərar tutan təqribən yüz nəfər Gəncə ermənisi Məşədi Ələsgər Hüseynovun Panaseviç küçəsində, Nalbandovun evində yerləşən mənzilinə hücum edib onu qarət edir[2]. Hücumçulardan heç kəsi ələ keçirmək mümkün olmayır. Surp-Karapet dərəsində Abbasov və Məmmədov soyadlı şəhər sakinlərinin evləri qarət olunur[3]. X məhəllədə bir qrup şəxs silah axtarmaq bəhanəsiylə Ömər Osman oğlunun Sadovaya küçəsində yerləşən qalayçı emalatxanasına soxulur və oradan 100 rubl pul, 2 gümüş saat və başqa əşyalar aparır, eynilə İran təbəəli Məşədi Əlinin Avcala küçəsində yerləşən çayxanası talan edilir[4].

Axşam saat 8-də V məhəllənin nəzarətçiləri tərəfindən Baqxal küçəsində Zubalovun evində yerləşən və Armaqanova məxsus olan çay müəssisəsindən tacir Güləhmədovun Pambıq cərgəsindəki dükanından oğurlanmış 24 ədəd xalça, 522 ədəd ipək yaylıq, müxtəlif məbləğdə 50 ədəd veksel (qiymətli kağız) aşkar olunur[5].

Həmin gün gecə Avçala küçəsində Güney Azərbaycan əsilli bir azərbaycanlıya məxsus çüvəkçi (çusttikilən atelye) talan edilir, Salah Həsən oğlunun Mixail küçəsi 26 ünvanında, Abuladzenin evində yerləşən baqqal dükanından kilidaçan vasitəsilə oğurluq edilir[6], Lazarovun Nikolayev körpüsü yaxınlığındakı hazır geyim mağazası qarət edilir və oradan 100 palto aparılır.

Tiflis Mühafizə Şöbəsinin Tiflis polismeysterinə ünvanladı-

---

[1] "Tsnobis purtseli", 1905, 28 noyabr (№ 2958).
[2] "Kavkaz", 1905, 30 noyabr (№ 295); "Tiflisskiy listok", 1905, 30 noyabr (№ 238).
[3] GMTA, f. 115, s.1, iş № 516.
[4] "Tiflisskiy listok", 1905, 29 noyabr (№ 237).
[5] Yenə orada.
[6] "Kavkaz", 1905, 30 noyabr (№ 295).

ğı 25 noyabr 1905-ci il tarixli, 2402 saylı məktubdan bəlli olur ki, 24 noyabrda günorta saat 15:40-da erməni daşnakları əllərində revolver Yelizaveta küç. 38-də yerləşən həyətə girib burada azərbaycanlıların yaşayıb-yaşamadığını soruşurlar və "yox" cavabı aldıqdan sonra evin nömrəsini yazıb çıxırlar[1].

Azərbaycanlıların onlara hücum edəcəyi barədə şəhərdə yayılmış yalan şayiələrdən təşvişə düşən erməni sakinlər şəhərin gürcü və rus məhəllələrində daldalanırlar. Erqeli imzalı müəllif "İveriya"nın səhifələrində bu barədə yazırdı:

"...Ayın 24-ü səhər açıldı. Sololakdan arabalar bir-birinin ardınca Kukiya və Vera tərəfə gedirdi. Soruşdum ki, bu nədi? Sololak ermənilərinin hamısı qaçıb canını qurtarmağa çalışır, çünki tatarlar onları qırmaq istəyirlər, bəlkə necəsə gürcü və rus məhəllələrində canlarını qurtara biləl追 – cavabını aldım"[2].

Baş verən hadisələrlə bağlı sosial-demokratlar tərəfindən Naxalovkada yenidən xalq mitinqi təşkil olunur. Mitinqdə qətnamə qəbul olunur və aşağıdakı tələblər irəli sürülür:

1. Dinc sakinlərin qorunması üçün xalq drujinalarına* silah verilsin;

2. Şəhərdə qayda-qanun yaradılması həvalə olunmuş əsgərlərin komandanları siyasi partiyalarla əlaqəli şəkildə fəaliyyət göstərsin.

Daha sonra mitinq iştirakçıları qanlı hadisələrin qarşısının alınması məqsədilə bir daha şəhərin VI məhəlləsinə sülh yürüşü etmək istəyirlər. Şəhər başçısı vəzifəsinin icraçısı V.Çerkezov bu yürüşə hərbçilər vasitəsilə müdaxilə edilməsindən və bir bədbəxtliyə başqasının əlavə olunmasından narahat olaraq məsələni qubernatora məruzə edir. Qubernator yenə də fəhlələrin VI məhəlləyə yürüşünün əleyhinə olmur.

Mitinqlə bərabər, başqa-başqa idarələrdə və təşkilatlarda da

[1] GMTA, f. 17, s. 2, № 557, vv. 47.
[2] "İveriya", 1905, 27 noyabr (№ 213).
* drujina – könüllü dəstə.

də məsələnin həlli yolları aranırdı. Şəhər icra idarəsinə tökülüb gəlmiş xeyli adam Çerkezovdan qan tökümünün qarşısının alınması üçün təcili tədbirlər görməyi xahiş edirdi.

Eyni anda "Vozrojdeniye" qəzetinin redaksiyasında ictimaiyyət nümayəndələrinin Tiflisin bütün siyasi təşkilatlarının − sosial-demokratların, droşakistlərin (daşnakların digər adı – *F.V.*), federalistlərin rəhbərləri ilə görüşü keçirilirdi. Tiflis polismeysterinin də iştirak etdiyi tədbirdə Naxalovka mitinqində qəbul olunmuş qətnamə və tələblər dəstəklənir. Sosial-demokratların nümayəndəsi bildirir ki, onların partiyası silah alandan sonra rus ordusu (çar ordusu nəzərdə tutulur – *F.V.*) ilə birləşib bərabər fəaliyyət göstərməyə hazırdı, ancaq bu ordu xalq ordusunun komandanlığına tabe olmalıdır. Droşakistlər deyir ki, onlar hökumətdən silah almayacaq, çünki öz silahları özlərinə yetər. Federalistlər istəyir ki, hökumətin verdiyi silah bütün partiyalar arasında bərabər şəkildə bölünsün, bundan başqa sosial-demokratlardan fərqli olaraq hökumət ordusu ilə birləşməyin əleyhinə çıxırlar. Partiya nümayəndələrini dinlədikdən sonra polismeyster söz alaraq deyir: "Xalqın və partiyaların hökumət ətrafında birləşməsi çox vacibdir. Mən sizin aranızda vasitəçi olacağam. Mən canişinə hər zaman deyirdim ki, sizə silah vermək lazımdır, yoxsa onsuz da xalq özü silah tapacaq və əsgərlərlə xalq arasında qan töküləcək. Canişin bunu dəstəkləmirdi... Gecə-gündüz canişini inandırmağa çalışırdım ki, ordu hissələrini şəhərə çıxarmaq olmaz. Təsəvvür edin, indi canişinin yanında ermənilərin deputasiyası (nümayəndələri) var. Onlar tələb edir ki, Tatar meydanına əsgərlər və toplar göndərilsin, tatarlar güllələnib öldürülsün. Mən canişini inandırdım ki, ordu göndərmək olmaz, yoxsa 22 oktyabrdan daha pis gün olar*. Dedim ki, xalq və partiyalar birləşib bu qan tökülməsinin qarşısını alaq. İndi bundan

---

* 22 oktyabr 1905-ci ildə Tiflisdə dinc manifestantlar çar xəfiyyələri və "çernosotenets"lər (qaragüruhçular – çar Rusiyasında ifrat mürtəce-şovinist, monarxist təşkilatların üzvləri) tərəfindən partlayıcı və odlu silahlar vasitəsilə amansızcasına dağıdılırlar, bu zaman 98 manifestant ölür, 68-i isə yaralanır − *F.V.*

sonra birləşməyinizi xahiş edirəm və onda canişin sizə tüfənglər verilməsi barədə sərəncam verəcək, amma sülh yaranandan sonra bu silahlar yenə geri qaytarılmalıdır".

Partiyaların nümayəndələri polismeysterin təklifini hökumət ordusunun xalq drujinalarının rəhbərliyi altında fəaliyyət göstərməsi şərti ilə razılıqla qarşılayıb qəbul edirlər. Polismeyster partiyalara öz təşəkkürünü bildirib məsələni müzakirə etmək üçün canişinin yanına gedir. Bir müddət sonra xəbər gətirirlər ki, canişin siyasi təşkilatların yaratdığı drujinalara silah verməyə razıdır. Dərhal sosial-demokratlardan İsidor Ramişvili silahları götürmək üçün canişinin yanına göndərilir. Canişin Ramişvilidən silahların sülh bərpa olunandan sonra hökumətə qaytarılacağı barədə şərəf sözü verməsini istəyir. Ramişvili canişinin istəyini yerinə yetirir və axşamüstü silahları təhvil alır.

Həmin gün Tiflisdə bütün siyasi təşkilatlar öz adamlarını silahlandırır. Əvvəlcə kifayət qədər patronla birlikdə 500 tüfəng (berdanka), bir neçə müddətdən sonra isə daha 700 tüfəng paylanılır.

Əldə olunmuş razılığa baxmayaraq, silahlı drujinalar bir-birindən əlaqəsiz, sərbəst şəkildə fəaliyyət göstərməyə başlayırlar. Bir ara hər siyasi partiyadan nümayəndələr seçib xüsusi komitə yaradılmasına cəhd göstərilir. Sosial-demokrat fəhlə partiyasının bu xüsusi komitəyə rəhbərlik etmək iddiası drujinaların birgə fəaliyyətinin təşkili yönündə bütün cəhdləri boşa çıxarır. Digər siyasi partiyalar sosial-demokratların rəhbərliyi altında fəaliyyət göstərmək istəmirlər.

Tiflis Mühafizə Şöbəsinin rəisi öz məruzəsində bildirirdi ki, «Tiflisdə «droşakist»lərin və «hnçakist»lərin (erməni sosial-demokrat «Hnçak» partiyasının üzvlərinin – *F.V.*) drujinaları berdankalarla, «Mauzer» tüfənglərilə və revolverlərlə silahlanıblar. Bununla yanaşı, xüsusi şəhər özünümüdafiə dəstələri təşkil olunur. Onun tərkibinə orta təhsil məktəblərinin tələbələri və başqa-başqa özəl müəssisələrdə işləyənlər daxildir. Artıq bu dəstələrə 800 nəfər yazılıb. Arzu edənlərin sayı üç minə yaxınlaşır. Özünümüdafiə dəstələrinə xüsusi komitə rəhbərlik edir və ona fərqli

inqilab fraksiyalarının hərəsindən iki nəfər daxildir»[1].

Xalq drujinalarının silahlandırılması şəhər həyatını nisbətən canlandırır. Mağazalar, dükanlar və digər müəssisələr açılır. Əhali azacıq rahat nəfəs alır.

Tərkibi əsasən fəhlələrdən ibarət olan "sotnyalar" (yüzlüklər), batalyonlar və başqa tipli silahlı birliklər bellərindən tüfəng asıb küçələrdə patrulluq etməyə başlayırlar. Sülhməramlı drujinaçı-milislər üzərində qırmızı xaç düzəldilmiş və ağ bayraqlar asılmış faytonlarla iki-iki, üç-üç şəhəri dolaşır, yolüstü qarşılarına çıxan şübhəli adamları saxlayıb üst-başlarını arayır, silah tapdıqları təqdirdə əllərindən alırlar.

24 noyabrda axşam saat 7-də belə bir hadisə baş verir: Ruhani məktəbinin yanında bir erməni revolverini çıxarıb havaya iki güllə atır. Bunu görən bir mühafizəçi milis onun arxasınca düşüb Avcala küçəsində tutur və etdiyi hərəkətə görə izahat tələb edir. Erməni özünü doğrultmağa çalışır ki, guya küçə ilə getdiyi zaman kimsə ona atəş açıb və o da özünü müdafiə etmək üçün bir atəşlə cavab verib. Ancaq milislər revolveri yoxlayıb müəyyən edirlər ki, hər iki gülləni erməninin özü atıb. Ona görə də onu həbs edib sosial-demokrat təşkilatına təhvil verirlər[2].

Həmin axşam drujinaçılar tərəfindən sosial-demokrat fəhlə partiyasının qərargahına daha iki nəfər tutulub gətirilir. Onlardan biri Tiflis alayının əsgəri, o biri isə "Droşakist" ("Daşnaksutyun") partiyasının üzvü idi və hər ikisi azərbaycanlıları öldürməkdə şübhəli bilinirdi[3].

24 noyabr gecəsi Tiflisdə sakitçilik olur. Şəhər məhəllələrinin hamısında qayda-qanunu milis dəstələri (drujinalar) təmin edir. Qeyd edək ki, azərbaycanlı və erməni məhəllələrinə başqa məhəllələrə nisbətən daha güclü drujinalar ayrılmışdı. Həmin gecə milislər dükan və mağaza yarmaq istəyən bir neçə cinayətkarı həbs edib öz təşkilat bürolarına aparırlar.

---

[1] GMTA, f. 83, s.1, iş № 32.

[2] "İveriya" qəz., 1905, 30 noyabr (№ 215).

[3] "İveriya" qəz., 1905, 27 noyabr (№ 213).

"Tsnobis purtseli" qəzetinin məlumatına görə, 22-24 noyabrda Mixail xəstəxanasına 19 ölü (15 müsəlman, 3 erməni, 1 gürcü) və 32 yaralı (əksəri azərbaycanlı) gətirilmişdir. Bu yaralılardan Sandro Maziaşvili, Qiorqi Mqaloblişvili və adı müəyyən edilməyən bir azərbaycanlı rəhmətə gedirlər[1]. Üç gün davam edən döyüşlər nəticəsində şəhərin azərbaycanlı sakinləri içərisində itkin düşənlərin, xəstəxanaya aparılmayan ölü və yaralıların sayı da çox olur.

**25 noyabr**

25 noyabrda Tiflisdə vəziyyət əvvəlki günlərlə müqayisədə sabit olur, şiddətli atışmalar baş vermir. Şəhərin müxtəlif hissələrində sülh çağırışlı mitinqlər təşkil olunur.

Şəhər icra idarəsi qarşısında keçirilən mitinqdə şəhər başçısının müavini knyaz V.Çerkezov xalqa müraciət edərək deyir: "Ay camaat! Tatarlarla ermənilərin qarşıdurması çox kədərləndiricidir. İnsanların qırğınının qarşısının alınması vaxtıdır. Kimin – erməninin, tatarın və ya başqasının günahkar olmasını axtarmayaq. İndi bu iki toplumu barışdıraq, çünki daha zəruri və həllivacib işimiz var, bu iş xalqın azad olmasıdır"[2].

Başqa çıxışçılar da xalqı birliyə və qan axıdılmasının qarşısını almağa çağırır. Axırda boğazından qırmızı xaç asılmış bir nəfər çıxıb deyir ki, niyə burada dayanmışıq, niyə vaxt itiririk, gedək hər iki tərəfi xilas edək. Bundan sonra mitinq iştirakçıları hərəkətə keçir və qanlı hadisələrin baş verdiyi məhəllələrə üz tutur.

Sosial-demokratların Naxalovka mitinqində 20 minə yaxın adam iştirak edir. Həmin gün gürcü sosial-federalistlərin azərbaycanlılara və ermənilərə müraciətən bu məzmunda intibahnaməsi yayılır: "İntiqam hissi ilə yaşamayın, onun vaxtı deyil, yoxsa bütün var-gücümüzlə ayağa qalxıb mənasız düşmənçiliklə ümumi işimizi məhv edənləri məhkum etməyə məcbur olacağıq"[3].

---

[1] "Tsnobis purtseli", 1905, 27 noyabr.
[2] "İveriya", 1905, 27 noyabr (№ 213).
[3] "İveriya", 1905, 29 noyabr (№ 214).

Dəmir yolu işçilərinin mitinqində isə aşağıdakılar qərara alınır: 1) Dəmir yolu işçilərinin hərbi və sanitar (tibb) dəstələri yaradılsın; 2) Bu dəstələr sosial-demokrat fəhlə təşkilatının rəhbərliyi altında fəaliyyət göstərsin və 3) Dəmir yolu idarəsinin rəis müavinindən xahiş edilsin ki, təcili onlara silah versinlər. Sonuncu məsələ ilə əlaqədar mitinqçilər dəmir yolu idarəsinin rəisi müavininin yanına nümayəndələr göndərirlər. Bu nümayəndələrə söz verilir ki, onlar üçün canişindən 250 berdanka tüfəngi və revolver istənəcək.

Qırğında zərər görmüşlərə köməklik göstərilməsi məqsədilə keçirilən toplantıda Tiflis şəhər bələdiyyəsinin tabeçiliyindəki müalicəxanaların feldşerlərinə göstəriş verilir ki, yaralanıb zərər çəkənlərə təmənnasız tibbi yardım göstərsinlər.

GMTA-da saxlanılan bir sənəddən 25 noyabrda Cənubi Azərbaycan əsilli dörd azərbaycanlının – Məmməd Cəfər oğlu, Məmməd Həsən oğlu, Məmmədəli Rəhiməli oğlu və Xamməd Cəfər oğlunun erməni güruhu tərəfindən Peska küçəsində öldürüldüyü bəlli olur[1].

Mixail xəstəxanasına əvvəlki gün baş vermiş toqquşmalarda yaralanmış Əziz Əhməd oğlu və Arşak Karapetov adlı şəxslərin və 4 erməninin meyiti gətirilir.

Həmin gün Tiflis dəmiryolu vağzalında milislər bir gürcü və bir ermənini tutub sosial-demokrat fəhlə partiyasının qərargahına verirlər. Onlar vağzala gəlmiş bir azərbaycanlının revolverini əlindən aldıqları üçün suçlu hesab olunurdu. Həmin gün milislər eyni cinayətdə təqsirləndirilən daha bir neçə nəfəri və dükanların qapı-pəncərəsini qırıb oğurluq etmək istəyən bir neçə kürdü həbs edirlər[2].

“İveriya” qəzeti 29 noyabr 1905-ci il tarixli sayında “Tiflisdə qırğın” rubrikası altında qısaca olaraq, 23 noyabr gecəsində və 24 noyabrda Tiflisdə baş verən hadisələrə yenidən toxunur, 25 noyabrdakı durum barədə yazırdı:

---

[1] GMTA, f. 115, s.1, iş № 519.

[2] “İveriya”, 1905, 29 noyabr (№ 214).

"23 noyabrda gecə 6-cı polis məhəlləsində zaman-zaman tüfəng və revolverlərdən istifadə edərək atışırdılar, ancaq buna heç kəs fikir vermirdi, çünki belə hadisələr son zamanlar adi bir hal alıb. Gecə həmin məhəllədə hansısa naməlum şəxslər tərəfindən tatarların dükanları və mağazaları talanmış, mal və pul aparılmışdır.

24 noyabrda səhər yavaş-yavaş şəhərin orta hissəsində yerləşən tatar dükanlarından başqa bütün dükanlar açıldı. Zavodlar, mətbəələr və dəmiryolunun əsas emalatxanaları yenidən işə başladı. Əvvəlki gün qorxuya düşmüş ermənilər 6-cı polis məhəlləsi və Sololakdan şəhərin digər məhəllələrinə qaçdılar.

Saat 9-da Vorontsovun heykəlinin yanına tramvay vaqonları gətirdilər. Konduktorlar dedi: "İndicə yenidən atışma başlandı. İlk əvvəl hamamlar tərəfdən başlayan aramsız revolver və tüfəng atəşlərinin səsi hazırda 6-cı polis məhəlləsinin tamamından eşidilir".

6-cı məhəllədə baş verən atışma şəhərin orta kəsimində də eşidilirdi. Şəhərin bu hissəsində ermənilər bir neçə tatarı öldürdü.

6-cı polis məhəlləsində atışma həmin gün daha güclü idi, nəinki ikinci gün.

Yenidən hamı işləməyin başını buraxdı. 5 saniyəyə bütün dükan və mağazalar bağlandı. Fəhlələr cəld 6-cı polis məhəlləsinə silahlı dəstələr və sanitar qrupu göndərdilər...

Təxribatçıların ermənilərlə tatarlar arasında yenidən qırğın salmağa çox cəhd göstərmələrinə baxmayaraq, 25 noyabr sakitçilik idi. Bu təxribatçıların əksəri xalq tərəfindən tutulub, məsuliyyətə cəlb olunmaları üçün siyasi təşkilatlara verildi...

Şəhərdə çoxlu həyəcanlı sədalar yayılırdı. 25 noyabrda səhər tezdəndən şəhərə səs yayıldı ki, Soğanlıqdan Tiflisə erməniləri öldürmək üçün silahlı tatarlar gəlir. Tatarların qarşısına çıxmaq üçün gecikmədən ictimaiyyətdən nümayəndələr seçib göndərdilər. Eyni zamanda ordu da göndərdilər ki, tatarlar nümayəndələrə inanmayıb şəhərə girməyə can atsalar, güc tətbiq etsin. İş sülhlə yekunlaşdı...

> Axşam Nəftluq həndəvərində yaxın kəndlərdən Tiflisə gələn tatarlar düşərgə qurdu. Ermənilərin məhəlləsində həyəcan siqnalı çalındı. Bununla əlaqədar sosial-demokrat partiyası Nəftluğun o üzünə nümayəndələr göndərdi, Onlar tatarlara başa saldı ki, şəhərdə qırğın-filan yoxdur, şəhərə girməsinlər."[1]

Son günlərdə şəhərdə baş vermiş olayların qarşısının alınması məqsədilə canişinin yanında yaradılmış xüsusi məşvərət şurasına (sədri – Maliyyə Nazirliyinin nümayəndəsi N.F.Cunkovski) şəhər duması ermənilərdən A.İ.Xatisov və S.S.Arutinovu, ruslardan N.N.Ostroqorski və M.N.Veselozorovu, gürcülərdən isə knyaz V.N.Çerkezov və S.F.Çrelayevi seçir. Şuraya müsəlmanların seçimini isə Duma müsəlman icmasının öhdəsinə buraxır. "Kavkaz" qəzetinin 6 dekabr 1905-ci il tarixli sayından bu şuraya müsəlman əhalisi tərəfindən şəhər dumasının qlasnısı, mühəndis Rəhim bəy Axundov və Tiflisdə azərbaycanca yayımlanan "Şərqi-Rus" qəzetinin redaktoru Məhəmməd ağa Şahtaxtinskinin seçildiyi bəlli olur.

Borçalıdan silahlı azərbaycanlıların gəlməsi barədə Tiflisi günlərdir bürüyən şayiələr həqiqətə çevrilir. 25 noyabr axşamı şəhər ətrafında düşərgə salan Borçalı atlılarının bəziləri qarşılarına çəkilmiş ordu sipərinə rəğmən, gecə ikən müxtəlif vasitələrdən və gizli yollardan istifadə edərək şəhərə daxil olurlar. Onların içərisində illərdir ermənilərin qorxulu röyasına çevrilmiş Borçalı-qarapapaq qaçaqları da çox idi.

Borçalıların Tiflisə gəlişi barədə "Vozrojdeniye" qəzeti yazırdı: "Çox sayda Borçalı tatarı Tiflisdə nələr baş verdiyini aydınlaşdırmaq üçün şəhərin tatar hissəsinə yaxınlaşdı"[2].

## 26 noyabr

26 noyabrda Tiflisə səs düşür ki, şəhərə başdan ayağa kimi silahlanmış iki yüzdən çox Borçalı "tatarı" girib və onlar bu gecə erməniləri qırmağa hazırlaşır. Bundan qorxuya düşmüş ermə-

[1] "İveriya", 1905, 29 noyabr (№ 214).
[2] "Vozrojdeniye", 1905, 27 noyabr.

nilər şəhər dumasının önünə toplaşır. Qeyd olunan məsələni müzakirə etmək üçün Dumada qlasnıların müşavirəsi təyin olunur.

"Kavkaz" qəzetinin yazdığına görə, müşavirədə sosial-demokrat fəhlə təşkilatının rəhbəri qlasnıları sakitləşdirməyə çalışır və əmin edir ki, azərbaycanlıların heç bir hücumu olmayacaq. Qlasnılardan bəziləri israrla 200 nəfər silahlı azərbaycanlının şəhərə daxil olduğunu iddia edir. Digərləri isə deyirlər ki, bu hələ avanqarddır (ön dəstədir), onun arxasınca Soğanlıq yaxınlığından 5000 "tatar" gəlir. Məlum olur ki, Borçalı qarapapaqlarının Tiflisə daxil olmasının qarşısını almaq məqsədilə, hökumət tərəfindən şəhərin Borçalı istiqamətdən girişinə öncədən qoyulmuş mühafizə dəstələrindən əlavə, kəşfiyyat və kavaleriya (süvari) dəstələri də göndərilibmiş. Bu sonuncular canişinə məlumat vermişlər ki, şəhər ətrafında heç bir silahlı kütlə aşkar olunmamışdır. Tədbirdə Qars-Gümrü-Tiflis dəmir yolu ilə Tiflisə yeni gəlmiş qlasnı doktor Kyuçaryants çıxış edib deyir ki, Borçalının Candar stansiyasında tatarlar onların qatarını mühasirəyə alıb sərnişinləri, o sıradan onu qarət etmiş, özüylə gələn oğlunu isə az qala öldürmüşdülər. Bir sözlə, müşavirədə bu mövzuda danışılanlar və ümumiyyətlə bir-biri ilə ziddiyyət təşkil edən çıxışlar çox olur. Dumanın zalını doldurmuş kütlə isə vahimə içərisində silah tələb edir.

Qlasnıların çıxışları dinlənildəndən sonra, axşam saat 10-da Dumanın bütün şəxsi tərkibi və şəhər rəhbəri vəzifəsinin icraçısı knyaz V.N.Çerkezov mətbuat nümayəndələri ilə birgə iğtişaşların qarşısının alınması üçün təcili və effektli tədbirlərin görülməsini xahiş etmək məqsədilə, Rusiya imperatorunun Qafqazdakı canişini general-adyutant qraf İ.İ.Vorontsov-Daşkovun hüzuruna yollanırlar. Onlar canişinin yanında iclas getdiyi üçün bir müddət gözləməli olurlar.

Bu arada canişinin qəbulunu gözləyən qlasnıların onları narahat edən mövzu barədə canişinlik dəftərxanasının müdiri ilə də söhbətləri olur. Qlasnılardan biri bəyan edir ki, Tiflisə gəlmiş borçalılar Vorontsov küçəsində yerləşən bir evdə qəbul olunur

və o evin sahibinin (böyük ehtimalla Hüseyn bəy Yadigarovun – *F.V.*) adını çəkir. Dəftərxana müdiri həmsöhbətlərinə yayılan şayiələrin nə dərəcədə doğru olduğunu yerində yoxlamağı məsləhət görür.

Verilən məsləhətə əməl edərək, axşam saat 10:30-da qlasnılar knyaz A.İ.Bebutov və İ.S.Vatsadze şayiələrin dəqiqliyini yoxlamaq üçün şəhərin azərbaycanlılar yaşayan hissəsinə üz tuturlar. Onlar həm hökumət qoşunları, həm də üz-üzə dayanmış azərbaycanlıların özünümüdafiə dəstələri və fəhlə təşkilatının üzvlərindən ibarət milislərlə qarşılaşırlar. Onu da qeyd edək ki, ordu əsgərlərindən fərqli olaraq, fəhlə təşkilatının mühafizləri maneəsiz şəhərin azərbaycanlılar yaşayan hissəsinə keçə bilirdilər. Qlasnıların suallarını cavablandırmaq üçün azərbaycanlı özünümüdafiə patrulları öz başçılarını çağırırlar və o, hər şeyi ətraflı izah edir, xüsusən də çox səmimi şəkildə bildirir ki, həqiqətən də öz soydaşlarını və dindaşlarını ermənilərin hücumlarından qorumaq üçün Tiflisə Borçalı kəndlərindən 150-yə yaxın silahlı azərbaycanlı gəlibdir. Borçalılar qlasnılarla söhbətdə həmçinin Tiflisə gələrkən yolüstü ermənilərə məxsus ot tayalarını yandırdıqlarını və onlara qarşı başqa yönlü fəaliyyətlərini inkarlamayıb, bunu ermənilərin müsəlmanları öldürmələrinə əvəz olaraq etdiklərini, Tiflisə yalnız və yalnız sülh məqsədilə gəldiklərini deyirlər. O da bəlli olur ki, borçalılar həmin gün "Daşnaksutyun"a özlərinin sülh zəmanətinin tələblərini göndəriblər. Bu tələblər şeyxülislamın və erməni katolikosunun bir-birinin hüzuruna gedib hər iki xalqı barışığa səsləyən dini ayinlər yerinə yetirməsi, özlərini qorumaq üçün yetərincə gücə sahib olduqlarını nümayiş etdirmək məqsədilə müsəlmanların şəhər küçələri ilə silahlı yürüşünün keçirilməsinə şərait yaradılması, daşnaklar tərəfindən erməniləri hüzura və sülhə çağıran intibahnamələrin yayılması və sairdən ibarət idi.

Mənbələrdən məlum olur ki, Tiflis azərbaycanlılarının müdafiəsini təşkil edən süvari dəstələrdə borçalılarla yanaşı Qazax mahalından olan atlılar da yer alırdı.

Canişin yanındakı iclas sona yetdikdən sonra axşam saat 12-yə işləmiş şəhər dumasının üzvlərini qəbul edir. Görüşdə Çerkezov və qlasnılar silahlı borçalıların Tiflisə daxil olmasının qarşısının alınmasını və artıq müxtəlif yollarla şəhərə girməyə müvəffəq olanların isə burada yaşayan qohumları ilə birlikdə (onların sonrakı taleyindən narahat olmasınlar deyə) şəhərdən çıxarılmasını tələb edirlər. Duma üzvlərini dinlədikdən sonra canişin bildirir ki, ətraf kəndlərdən azərbaycanlıların silahlı dəstələrinin şəhərə daxil olmaması üçün bütün tədbirlər görülüb və şəhərin müvafiq hissələrində qoşunlar dayanıb, tək-tək adamların isə şəhərə girməsinin qarşısını o, ala bilməz. Vorontsov-Daşkov eyni zamanda yalnız və yalnız silahlı erməni ünsürlərinin şəhəri tərk etməsi müqabilində şəhərə gəlmiş müsəlman silahlılarına şəhəri tərk etməyi təklif edə biləcəyini vurğulayaraq, Tiflisin küçələrində, xüsusən də onun sakitçilik hökm sürən mərkəzi hissəsində silahlı şəxslərin öz silahlarını göstərmək xatirinə boş-boşuna veyllənməsinin onsuz da əsəbi olan bütün əhalidə qorxu yaratdığını və bunun qarşısının alınmasının zəruriliyini ifadə edir. Daha sonra o bildirir ki, elə bu gecə gəlmə müsəlmanlar haqqında bir qərar qəbul edəcək və barışığa nail olmaq üçün 27 noyabrda hər iki millətin ruhanilərini öz hüzuruna dəvət edəcək. Duma üzvlərindən birinin silahı, buna heç bir zərurət olmadığı halda əsasən gimnazistlərin və oğlan uşaqlarının özlərini göstərmək üçün daşıdığını söyləməsinə cavab olaraq isə canişin deyir ki, onlara bunu etməməyi təlqin etmək valideynlərinin borcudur.

Canişinin yanında yarım saat davam edən görüşdən sonra qlasnılar Dumaya qayıdırlar və onları gözləyən camaatı hər şey barədə geniş məlumatlandırırlar. Sonuncuların arasından radikal siyasi təşkilatların nümayəndələri qlasnıların ünvanına gurultulu ittihamlarla çıxış edərək, onların bütün əhali tərəfindən seçilmədiklərini və yararsız olduqlarını, inqilabçı təşkilatlar üçün silah tələb edə bilmədiklərini və yalnız yeni, inqilabi dumanın lazımi dəyişikliklərə nail ola biləcəyini deyirlər. Bütün bu deyilənlərə qlasnı A.İ.Xatisov etiraz edir. Şəhər başçısı vəzifəsinin icraçısı

Çerkezov isə camaatı başa salmağa çalışır ki, silahı cibdə gəzdirmək və evdə saxlamaq olar, amma şəhərlilərin əsəbini qorumaq lazımdır və buna görə də silahı göstərmək, qorxutmaq və s. üçün öz üzərində nümayişkaranə şəkildə daşımaq məqsədəuyğun deyil. Nəticədə qlasnı L.T.Tiqranov bağırır ki, evə getmək və bütün gecəni yatmamaq lazımdır, çünki şəhərlilərin həyatı təhlükədədir!

Gecə saat ikinin yarısında camaat və qlasnılar Duma zalını tərk edirlər[1].

Bu hadisələrlə yanaşı 26 noyabrda hərbi qərargahda inzibati və hərbi idarələrdə yüksək vəzifə tutan zabitlərin və hərbi məmurların yığıncağı keçirilir. Yığıncaq iştirakçıları belə bir ultimativ tələb irəli sürürlər: "Əgər xalq təşkilatlarına paylanmış silah əllərindən alınmasa, toplantıda iştirak edənlər xidmətin başını buraxacaqlar". Bu tələbi gecikmədən canişinə çatdırırlar.

Həmin gün Riğedə naməlum şəxslər tərəfindən tramvay vaqonuna atəş açılır, ölən və ya yaralanan olmur. Bundan doqquz saat sonra revolver gülləsi ilə Qaqnidze soyadlı bir gürcü yaralanır[2].

Qeyd edək ki, yaranmış vəziyyətlə əlaqədar 24-26 noyabrda Tiflisdə heç bir qəzet çap olunmayır və buna görə də şəhərdə baş vermiş qanlı hadisələr barədə məlumatlar qəzetlərin 27 noyabr və sonrakı saylarında dərc olunur.

## 27 noyabr

25-26 noyabr şəhərdə nisbətən sakit keçsə də 27 noyabrda qanlı toqquşmalar yenidən davam edir. Günorta saat 4-də Meydanda başlanan atışma təqribən yarım saat sürür, sonra ara-sıra atəş səsləri eşidilir, axşam saat 9-da atışma səsləri yenidən tam gücüylə artmağa başlayır və fasilələrlə gecə yarısına qədər davam edir. Ölən və yaralananlar olur. "Kavkaz" qəzeti yazırdı:

---

[1] "Kavkaz", 1905, 30 noyabr (№ 295).
[2] "İveriya", 1905, 27 noyabr (№ 213).

"Təqribən axşam saat 10-da Nəftluğun arxasında yanğın şəfəqləri görünürdü. Nəyin yandığı hələ ki, məlum deyil. Meydanda atışmanın başlanma səbəbləri barədə şəhərdə bir neçə versiya yayılıb. Deyirlər ki, İran təbəəli bir şəxsin dükanının yanından keçən drujinaçılardan biri bu iranlı tərəfindən ölümcül yaralanıbdır; başqa bir versiyaya görə Meydanda ön postlarda duran müsəlman mühafizəçiləri neytral xəttə keçmək istəyiblər, ancaq bu xətti tutan sosial-demokrat milisi onları buraxmayıbdır; üçüncü versiyaya görə, drujinaçılardan biri içi doldurulmuş berdankaya söykənib, tüfəng açılıb və drujinaçı özünü buxağından yaralayıbdır. Bu atışmada, deyilənlərə görə, bir tərəfdən müsəlmanların döyüş təşkilatı, digər tərəfdən əvvəlcə sosial-demokratlar və ardınca "Daşnaksutyun" partiyasının Sololak məhəlləsindəki döyüş-mühafizə təşkilatı, əsasən də bu partiyaya qoşulmuş digər partiyaların döyüş təşkilatlarının üzvləri iştirak edirdi...

Atışmanın nəticəsində Mixail xəstəxanasına naməlum tatar aparılıb və o, çoxsaylı yaralardan ölüb. Bu xəstəxanada sosial-demokrat drujinaçı Rajden Sturua da ölüb və buraya yaralı halda sosial-demokrat drujinaçılar İvan Beketov (ayağından yaralı) və Teofil Babinadze (sinəsindən yaralı), həmçinin müsəlman Həsən ağa Həsənov çatdırılıblar.

Meydanda barrikadalar və məftilli çəpərlər qurulmuşdu, Sololak dağının qədim qalanın (Narınqalanın – *F.V.*) yanındakı yüksəklikləri Mauzer tüfəngləri ilə silahlanmış "Daşnaksutyun" təşkilatının üzvləri tərəfindən tutulmuşdu. Sololak dağı və ətrafları boyunca silahlı drujinaçıların postları qoyulmuşdu. Tatarların yerindən tərpədə bilinən barrikadaları var."[1]

"Vozrojdeniye" qəzetinin 29 noyabr 1905-ci il sayından bəlli olur ki, Meydanda atışmaların ortasında qalmış üç gürcü sanitar qadınını döyüş bölgəsindən yerli azərbaycanlılar Yusuf Məmmədov, Ələsgər Hüseyn oğlu, Məmməd Kərim oğlu və

---

[1] "Kavkaz", 1905, 30 noyabr (№ 295).

Əmircan Bədəlov uzaqlaşdırmışlar.

Borçalıların Tiflisə gəlməsindən sonra münaqişə tərəfləri arasındakı qüvvələr nisbətində müəyyən tarazlıq yaranır. Əgər indiyədək şəhərdə yalnız azərbaycanlılara məxsus evlər, dükanlar və digər müəssisələr dağıdılıb tar-mar edilirdisə, 27 noyabrda ermənilərin də mağazaları, fabrik və zavodları talan olunur. Bu barədə şəhər polismeysterinin Tiflis qubernatoruna ünvanladığı 1 dekabr 1905-ci il tarixli, 6404 saylı raportunda məlumat verilirdi. Qeyd olunan raportda həmçinin 27 noyabrda sosial-demokrat milisləri tərəfindən öz evinə yola salınan bir "tatarın" Surp-Karapet yoxuşunda erməni güruhunun hücumuna məruz qaldığı və öldürüldüyü bildirilirdi[1].

Həmin gün "Tsnobis purtseli" qəzetində gürcü sosial-federalist partiyasının ermənilərə və azərbaycanlılara sülh çağırışlı intibahnaməsi yayımlanmış, "İveriya" qəzetində isə tanınmış gürcü ziyalılarının Tiflisdə fəaliyyət göstərən gürcü siyasi təşkilatlarına aşağıdakı məzmunda açıq məktubu dərc olunmuşdur:[2]

*Tiflisin gürcü sosial-federalist, sosial-demokrat*
*və sosial-inqilabçı təşkilatlarına*
***açıq məktub***

*Biz – Tiflisdə yaşayan gürcü vətəndaşlarının bir qrupu sizə – yuxarıda qeyd olunan təşkilatların komitələrinin üzvlərinə müraciət edirik:*

*1) Sizin üzvləriniz arasından seçilmiş komissiyada 22, 23 və 24 noyabrda Tiflisdə baş vermiş erməni-tatar qırğınının səbəbləri ciddi araşdırılsın;*

*2) "Daşnaksutyun" təşkilatının fizionomiyası və bu işdə fəaliyyəti təhqiq olunsun və aşkarlansın;*

*3) Tələb edirik, bu utancverici və barbar qırğında iştirak*

[1] GMTA, f. 17, s. 2, iş № 557, vv. 62-64; "Novoye obozreniye", 1905, 3 dekabr (№ 249).

[2] "İveriya", 1905, 27 noyabr.

*edənlər müəyyən edilsin və belə şəxslər xalqın müstəqil təşkilatları tərəfindən cəzalandırılsın.*

***Gürcü vətəndaşların bir qrupu***

Bu açıq məktubdan görünür ki, gürcü ziyalıları Tiflisdə baş vermiş qırğının səbəbkarları qismində daşnakları şübhəli bilirdilər.

"Tiflisskiy listok" qəzetinin 29 noyabr 1905-ci il tarixli sayında dərc olunmuş məlumatlardan bəlli olur ki, 27 noyabr saat 5-də "Daşnaksutyun" partiyasının məşhur nümayəndələrindən biri faytonda Ortacala istiqamətinə gedən zaman onu müşayiət edən milislərlə Əlibala adlı şeytanbazarlının başçılığında yerli azərbaycanlılardan ibarət xalq könüllü dəstəsinin üzvləri arasında atışma baş verir. Həmin anda "Botanika" küçəsində, VI məhəllənin pristavının köməkçisi Morqayevskinin evi önündə bir qrup azərbaycanlının üstünə bomba atılır; 3 nəfər ölür, çox sayda adam isə yaralanır. Pristav köməkçisinin bacısı baş vermiş partlayışdan huşunu itirib yerə yıxılır. Onu yaxınlıqda olan azərbaycanlılar qaldırıb qonşu evlərdən birinə aparırlar və özünə gəlməsi üçün təcili tədbirlər görürlər.

Mətbuat səhifələrində 27 noyabr səhər saat 10-da Lortkipanidzenin Müştahiddə* yerləşən restoranının yaxınlığında tacirlərin, 28 noyabrda Verada Tiflis poçt-teleqraf işçilərinin mitinqinin təyin olunduğu barədə elanlar çap olunmuşdu.

27 noyabrda Naxalovkada fəhlə təşkilatının, Qarpız meydanında isə müsəlmanların mitinqi təşkil olunur. Sonuncuya VI məhəllənin müsəlmanları, eləcə də şəhərdə olan Borçalı azərbaycanlıları çağırılır. Mitinq başlayana qədər canişin adyutantı vasitəsilə Tiflis müsəlmanlarına onları qorumaq üçün VI məhəlləyə ordu batalyonu ezam etmək istəyini çatdırır və bunu nəzərə alaraq, Borçalı azərbaycanlılarını geri öz yaşayış yerlərinə qay-

* Müştaid – Uzun müddət Tiflisdə yaşamış və burada böyük hörmət sahibi olmuş təbrizli din adamı Mir Fəttah ağa Seyid Müştəhidin XIX əsrin 30-cu illərində saldırdığı və indinin özündə də mövcud olan bağ.

tarmağı təklif edir. Təklif müsəlmanların cari durumunu əhatə edən bir sıra başqa məsələlərlə yanaşı mitinq iştirakçılarının müzakirəsinə çıxarılır. Nəticədə bütün bu məsələlərlə, o cümlədən şəhərdəki borçalılarla bağlı məsələlərin həlli ilə məşğul olmaq üçün adları aşağıda qeyd olunan nüfuzlu ziyalılardan ibarət komitə yaradılır:

Hüseyn bəy Yadigarov, Rəhim bəy Axundov, Hacı Axund Mollazadə, M.Mərdanov, M.Şahtaxtinski, M.Eminov, Sübhanqulov (Ələddin əfəndi), İsmayıl xan, Seyidov, Məmmədquluzadə (Mirzə Cəlil), Mursaqulov, Məşədi Səməd Vəli oğlu, Abd.A.Sultanov, Ömər Faiq əfəndi (Nemanzadə), Kərbalayı Xıdır İrza oğlu, Məşədi Qasım Hacı Həsən oğlu, R.Əliyev, K.İs.Babayev, Osman Şamıxlı, Y.Tahirov*, M.M.Oruc oğlu və Hacı Molla Baba Əliyev[1].

Şəhərdəki mövcud durumla bağlı 2-ci qadın gimnaziyasının pedaqoji şurasının qərarı ilə bu gimnaziyanın bütün siniflərində dərslər qeyri-müəyyən müddətə dayandırılır.

Şuşa küçəsində (Şeytanbazar məhəlləsi) Xarazovun evi xuliqanlar tərəfindən qarət olunur.

27 noyabr axşamı şəhər müalicəxanasının Xarpux şöbəsinə yaralarının sarınması üçün 12 azərbaycanlı gətirilir. Azərbaycanlılar öz yaralılarını məhəllələrində yerləşən bu müalicə müəssisəsinə yalnız buranın həkimi A. Şerbinina tərəfindən onlara yaralıların qeydiyyata alınmayacağı barədə zəmanət verildikdən sonra gətirməyə başlayırlar. Azərbaycanlıların zəmanət istəmələrinə səbəb onların hakimiyyətə inamsızlığı və gələcəkdə milli qarşıdurmada iştirak bəhanəsi ilə təqib oluna bilmə qorxusundan qaynaqlanırdı. Yaralı azərbaycanlıların çoxuna öz evlərində türkəçarəçilər və qohumları tərəfindən yardım göstərilirdi. Mətbuatdan ümumilikdə 23-27 noyabr tarixlərində müalicəxananın

* Yusif bəy Tahirov – teatr-mədəniyyət xadimi, Tiflis Müsəlman Xeyriyyə Cəmiyyətinin katibi olub.

[1] "Vozrojdeniye", 1905, 29 noyabr (№ 35).

Xarpux şöbəsində döyüşlər nəticəsində yaralanmış 35 azərbaycanlıya sarğı qoyulduğu bəlli olur[1].

"Man-Man" təxəllüslü müəllif "İveriya" qəzetində "Tiflisdə 27 noyabr" başlıqlı məqaləsində yazırdı:

> "Həmin gün Nadzaladevidə Tiflis fəhlə təşkilatı xalq mitinqi təşkil etdi. Mitinqdə çox adam iştirak edirdi və onları əsasən bu son günlərdə Tiflisdə baş vermiş təəssüfləndirici qanlı hadisələr maraqlandırırdı. İki düşmənləşdirilmiş millətin barışdırılması və birləşməsi haqqında çox danışıldı. Bir neçə müvafiq qətnamə də qəbul olundu. Günorta saat 5-in yarısında xalq dağıldı.
>
> Bir az sonra atəş səsləri eşidildi. Qolovin prospektinə, komendant idarəsinin yanına gəldim. Əsgərləri binanın önünə buraxmadılar. Burada bir zabit gördüm. Soruşdum: "Kim atəş açdı?" Cavab aldım: "Bax, orada sizin bir sosial-demokrat milis indicə atıcı batalyonun bir əsgərini öldürdü. Buna görə əsgərlər həyəcanlanıblar". Zabitə dedim ki, bu ağ yalan və şayiədir, milis əsgərə heç vaxt güllə atmaz. Dedi ki, inanmırsansa komendantlığın binasına gir, orada əsgərin meyiti durur. Komendantlığa girmək istədim. Buraxmadılar. Telefonu olan bir tanışımın yanına getdim. Komendantlığa zəng etdim, amma dedilər ki, heç bir milisioner, əsgər-zad öldürməyib.
>
> Atəş səsləri güclənirdi. Bu vaxt Veradan içində bir neçə iranlı tatar olan iki araba gəlirdi. Arabaları iki-iki milis müşayiət edirdi. Canişinin iqamətgahına yaxınlaşanda, Yermolov küçəsində, kazak kazarması olan yerdə bu arabaları iyirmiyə yaxın kazak dayandırdı. Soruşdular: "Hara gedirsiniz və bu tüfənglilər kimdir?" Milislər dedilər ki, biz bunların mühafizəçiləriyik, bunları İranın baş konsulluğuna aparmalıyıq. Kazaklar bir-birinə dedilər: «Давай, ребята, его бить» ("Gəlin uşaqlar, onları döyək") və döyməyə başladılar. Milislər dedilər ki, niyə döyürsünüz. Sonra gördülər ki, get-gedə kazakların yoldaşları

[1] "Kavkaz", 1905, 30 noyabr.

artır. Qolovin prospektinə doğru qaçdılar. Kazaklar bir milisin berdanka tüfəngini əlindən aldılar və sonra qaçan milislərin özlərinə tuşladılar. Onlardan birini, Quriyanın Makvaneti kəndindən olan Teofil Babilodzeni sağ kürəyindən yaraladılar, deyirlər digər milis də öldürülüb, amma bu barədə nə Mixail xəstəxanasında, nə də başqa yerdə bir şey dəqiqləşdirə bilmədim. Beləliklə hələlik onun nə dirisi, nə də ölüsü tapılıb.

Axşam saat 5:25-də Tatar meydanına tərəf getdim. Bu vaxt burada qızğın atışma var idi. Küçələrdə hər yanda milislər qarovul çəkirdi və məni meydana tərəf tək başına buraxmadılar.

Hamamların yaxınlığında milislər dedilər ki, artıq hər şey sakitləşib. Yoldan geri döndüm və Sion küçəsinə getdim. Burada yaralılara nəzarət punktu var idi.

Axşam saat 10-a qədər Mixail xəstəxanasına aşağıdakı yaralıları gətiriblər: 1) Teofil Babilodze (kazaklar tərəfindən sağ kürəyindən ağır yaralanıb, amma həkimlər sağ qalmasına ümid verirlər), 2) İvan Beketov, dəmir yolu baş emalatxanasının işçisi (sağ dabanı zədələnmişdi), 3) bir tatar, onun kim olduğunu başa düşməyiblər, qarnından və başından yüngül xəsarət alıb.

Görənlər deyir ki, yenə yaralılar var, təqribən 4-5 nəfər, Amma biz Mixail xəstəxanasında sadalananlardan başqa nə ölü, nə də yaralı bir kimsəni görmədik"[1].

Yazıda ölü və ya diri olduğu barədə doğru-dürüst bir məlumatın əldə edilməsinin mümkün olmaması söylənilən T.Babilodzenin milis dostunun taleyinə "İveriya"nın növbəti sayında aydınlıq gətirilir:

"Bu milis – Qiorqi Mancavidze sağ imiş. Kazaklar onun başını tüfəngin qundağı ilə yarıblar və özlərinin kazarmalarında dünənə qədər saxlayıb zorlayıblar"[2].

Cənubi Qafqazda baş verən iğtişaşlar, azərbaycanlılara qarşı amansız təzyiqlər Osmanlı Türkiyəsini də narahat edirdi. "Voz-

[1] "İveriya", 1905, 29 noyabr.
[2] "İveriya", 1905, 30 noyabr (№ 215).

rojdeniye" qəzeti 27 noyabr 1905-ci il tarixli 34-cü sayında Rusiya İmperiyası sərhədlərinə – Qars vilayəti yaxınlarına göndərilməsi üçün Türkiyənin 3 ordu korpusunun artıq səfərbər edildiyini, 4-cü korpusun isə səfərbərlik işlərinin davam etdiyini yazırdı.

**28 noyabr**

28 noyabrda da gün ərzində az-çox fasilələrlə şiddətli atışmalar davam edir. Tiflis polismeysterinin qubernatora hesabat məktubunda ermənilərin nəzarətində olan Xarpux yüksəkliyindən yaxın ərazidə yerləşən VI məhəllənin evlərinin atəşə tutulduğu bildirilirdi[1].

Həmin gün təkcə müalicəxananın Xarpux şöbəsinə 70 yaralı azərbaycanlı gətirilir. Mixail xəstəxanasına isə təqribən 50 yaşında adı bəlli olmayan bir nəfərin meyiti və yaralı halda Məmmədəli Məşədi Əli oğlu, Qrikor Avakyan, Qevork Davidxanov, Yason Corbenadze adlı şəxslər, təsadüf nəticəsində yaralanmış milislər – Stepan Samadurov (X məhəllədən) və David Şteymberq (V məhəllədən), eləcə də VI məhəllədən tələbə-sanitar Kançeli tərəfindən bir naməlum şəxs gətirilir. Bir neçə gün əvvəl güllə yaraları ilə Mixail xəstəxanasına çatdırılmış Hacı Məmməd oğlu və 19 yaşlı Xeyiristə Baba oğlu isə dünyalarını dəyişirlər[2].

Xarpuxda, Seyidabad küçəsində Kites Mamamtavrişviliyə məxsus evdən atılan atəşlə VI məhəllənin pristavı Qurqenidze yaralanır. Səhərisi gün həmin evdə 15 silahlı erməni həbs olunur[3].

V məhəllənin qorodovoyu Qavril Petrişevə 4 nəfər hücum edərək onun silah və saatını əlindən alır[4].

Sosial-demokrat milislər qeyri-qanuni silahların yayılmasının qarşısının alınmasında xeyli fəallıq göstərirdilər. Belə ki, 28 noyabrda VIII polis məhəlləsində onlar fayton ilə Avlabara 30-

1 "Novoye obozreniye", 1905, 3 dekabr (№ 249).
2 "Kavkaz", 1905, 30 noyabr.
3 GMTA, f. 17, s. 2, iş № 557; "Novoye obozreniye", 1905, 3 dekabr.
4 "Novoye obozreniye", 1905, 3 dekabr.

dan çox berdanka tüfəngi aparan bir nəfəri saxlayıb Naxalovkaya, sosial-demokrat fəhlə partiyasının Tiflis bürosuna gətirirlər[1].

Fəhlə təşkilatının Naxalovkadakı bürosuna milislər həmin gün daha iki nəfəri gətirirlər. Onlardan 10 ədəd yeni sistemli "vintovka" (tüfəng) və 2 min patron aşkar olunubmuş. Sonradan məlum olur ki, bunlar xuliqanlar imiş.

İrəvan meydanındakı "Kavkaz" mehmanxanasında "Daşnaksutyun" partiyasının üzvləri bir azərbaycanlını şübhəli bilib saxlayırlar. Dindirilmə zamanı bu azərbaycanlı deyir ki, "Mən irəvanlıyam, orada baş vermiş erməni-tatar toqquşması zamanı tatarları mən sakitləşdirdim, indi də tatarları sakitləşdirmək üçün buraya gəlmişəm. Mənə sosial demokrat fəhlə partiyasının milislərindən ayırın və tatarların məhəlləsinə buraxın. Tam ümidvaram ki, sülh yarada biləcəyəm". Buna baxmayaraq ermənilər ona inanmayırlar[2].

"İveriya" qəzetinin müxbiri qəzetin 30 noyabr 1905-ci il tarixli sayında öncəki 27-28 noyabr günlərində Tiflisdə baş verən olaylar barədə yazırdı:

> "Tiflisdə dəhşətli hadisələrin sonu görünmür, qan tökülməsi bir gün dayananda, ikinci gün daha qorxulu güclə baş qaldırır. 25 və 26 noyabrda bir azca rahatlıq oldu. Camaat azacıq da olsa nəfəs aldı. Hər yanda dükanlar və mağazalar açıldı, ticarət və istehsalat müəssisələrinin hamısı yenidən işə başladı.
>
> Fəqət dəhşətli şayiələr şəhərdə daha və daha çox yayılırdı. Hər yerdə danışırdılar ki, şəhərin yaxınlığında yerləşən kəndlərin tatarları bir yerə toplaşıblar və silahlı surətdə Tiflisə gəlirlər.
>
> 27 noyabrda günorta şayiələr yayıldı ki, bu gün Tiflisin patriotlar (vətənpərvərlər) partiyası prosessiya ilə şəhəri keçməyi nəzərdə tutur. İnsanlar hər yandan dağılışdı. Heç kəs bu yürüşü görmək istəmirdi.

[1] "İveriya", 1905, 30 noyabr (№ 215).
[2] "İveriya", 1905, 30 noyabr (№ 215).

Həmin gün axşam saat 4-ə qədər şəhərdə heç nə baş vermədi, ancaq saat 4:15-də tatarların məhəlləsindən şəhərin orta hissəsinə qorxunc və uzun sürən silah səsləri gəldi. Sonra məlum oldu ki, qaçaq tatarlar şəhərə həqiqətən gəliblərmiş və onlar atışmağa başlayıblar. Tatarların məhəlləsində duran sosial-demokrat partiyasının drujinası, bunu dayandıra bilmədi...

Böyük təhlükə yarandığı üçün drujina tatarların məhəlləsindən çıxdı. Axşam hamı tatarların hücum edəcəyindən qorxurdu. Ona görə başqa siyasi partiyaların drujinaları tatarları buraya (Kürün qarşı səmtinə – *F.V.*) buraxmamaq üçün tatarların məhəlləsinin ətrafına toplaşdılar. Hər yanda mövqelər tutdular. Onların yanında əsgərlərin azsaylı dəstələri də düşərgə saldı.

Tatarların məhəlləsindən arası kəsilməyən tüfəng səsləri eşidilirdi və buradan onlara ordu cavab verirdi. Aramsız atışma axşam saat səkkizin yarısında dayandı. Tatarların bu tərəfə (Avlabara – *F.V.*) keçməsinin qarşısının alınması üçün küçələrdə barrikadalar quruldu. Tatarlar gecə şəhərin orta hissəsinə keçməyə cəhd etməsələr də, gecə boyu ara-sıra atışma var idi.

Səhərə qədər belə davam etdi. Səhər atəş səsləri çoxaldı, amma günorta saat 1-dən 3-ə qədər yenə dayandı. Milislərdən ikisi yaralandı. Tatarların məhəlləsinə atılmış güllələr bir neçə tatara xəsarət yetirdi.

28 noyabrda saat 3-də araba ilə Riğeyə tərəf getdim. Metexi qalasından o üzə güclü atışma gedirdi. Körpü yaxınlığında drujina dururdu. Qəflətən Tatar məscidindən o yanda bir evdən kimsə bayıra tüfəng atdı. O saat güclü atışma başlandı. Bu evə kütləvi surətdə atəş açdılar. Deyilənə görə drujina və əsgərlər atırdılar.

Körpünün o tayında drujinanın birinci mövqeyi yerləşirdi...

Birdən bu tərəfdə atışma başladı. Drujina cavab atəşi açdı. Böyük atışma başlandı. Atışma çox davam edərdi, ancaq mövqelərin yaxınlığındakı əsgərlər "zalp" (yaylım) atəşi verdilər və bundan sonra atışma dayandı.

> Geri qayıtdım. Tatarların meydanından bəri demək olar ki, bütün döngələr və küçələrdə barrikadalar qurulmuşdu. Küçələrdə çəlləklər, taxtalar, unla dolu çuvallar, arabalar, köhnə faytonlar və pusquda dayanmış silahlı ermənilər var idi. Bəzi yerlərdə sosial-inqilabçılar və sosial-demokratların drujinaları dururdu. Silahsız adamları dayandırmırdılar. Çox yerlərdə barrikadalar yeni qurulurdu. Bir yerdə barrikadalar üçün o qədər torpaq çıxarılmışdı ki, nəhəng bir xəndək yaranmışdı.
>
> Bu məhəllənin (Avlabar nəzərdə tutulur – *F.V.*) bütün evlərindən sakinlər başqa yerə köçmüşdülər. Evlərdən yalnız silahlanmış gənclər boylanırdılar və əllərində tüfənglərini hazır tutmuşdular.
>
> Döngələrdə, dalanlarda bir saat yarım qaldıq, hər tərəfdən silah səsləri eşidilirdi.
>
> Gecə atəş səsləri çox idi, ancaq tatarlar heç bir tərəfdən hücum etməyə cəhd göstərmədilər".

29 noyabra keçən gecə nisbətən rahat keçir, bəzi yerlərdə tək-tük silah səsləri eşidilir.

**29 noyabr**

Səhər dan üzündən şəhərin azərbaycanlı məhəlləsində – Meydanda bəzi evlər yanmağa başlayır. Yanğın axşam saat 5-dən daha geniş miqyas alır və bu zaman Vorontsov küçəsi ilə "Krasilnı" döngəsi arasındakı evlər, mağazalar və dükanlar yanıb külə dönür. Güllələnmək təhlükəsi olduğu üçün yanan obyektlərdən əşya və malları çıxarmaq mümkün olmur.

Yanğınsöndürənlər taqımı iki dəfə hadisə yerinə getməyə cəhd göstərsə də, Avlabar ermənilərinin nizamsız revolver və tüfəng atəşləri nəticəsində geri dönməyə məcbur olur və yalnız axşam saat 9-da kazaklar və piyada əsgəri birliklərin əhatəsində dövrə vuraraq (Sololakdan Meydana gedən yollara barrikadalar qurulduğu üçün) Mnatsakanov körpüsü tərəfdən Meydana çata bilir.

Yanğının Meydanın dağlıq hissəsindəki evlərə yayılmasının qarşısının alınması üçün dərhal təcili tədbirlər görülür. Yanğınsöndürənlər taqımı onlara köməklik göstərmək üçün yaradılmış

könüllü yanğınsöndürənlər drujinası ilə birlikdə bütün gecəni işləyir. Gecə saat üçdə yağan yağış da onların işini yüngülləşdirir[1].

Tiflis polismeysteri qubernatora raportunda Meydanda yanğının Yegiazarovun Vorontsov küçəsində yerləşən evinin yandırılmasından sonra başlandığını və onun söndürülməsinin ermənilərin VII məhəllədən qeyd olunan evi mütəmadi atəşə tutmaları və yanğınsöndürənlər taqımını hadisə yerinə buraxmamaları səbəbindən mümkün olmadığını yazırdı. Raportdan eyni zamanda o da məlum olur ki, VI məhəllənin pristavı azərbaycanlıları nüfuzlu bəylər vasitəsilə atəşi dayandırmağa razı salsa da və azərbaycanlılar sözlərinə əməl edib atəşi dayandırsalar da, ermənilər VII məhəllə və Xarpux dağı istiqamətindən atəşi kəsmirlər[2]. Sonuncu məlumatı "Tifliskiy listok" qəzeti də təsdiqləyirdi[3].

Meydandakı yanğın barədə "İveriya" yazırdı:

> "Günortaya qədər şəhərdə tam əmin-amanlıq idi. Ancaq günorta şəhərin orta hissəsindən 6-cı polis məhəlləsində bir neçə evdə yanğın başladığı görünürdü. Çoxu elə düşünürdü ki, tatarlar ermənilərin bütün evlərini yandıracaqlar. Amma axşam bəlli oldu ki, yalnız Vorontsov küçəsinin yaxınlığında 3 ev yandırılıb. Yanğını söndürmək üçün oraya yanğınsöndürənlər dəstəsi göndərildi. Tatarlar maneəçilik törətmədi, ancaq bir müddət sonra ordan-burdan atəş səsləri eşidildi və dəstə geri qayıtmağa məcbur oldu. Bir çoxu əmin idi ki, atışmanı tatar sakinlərin özü ilə çox əlaqələri olmayan tatar qaçaqlar başlayıb.
>
> Çoxu ona da inanmırdı ki, evlərə tatarlar od veriblər, çünki 6-cı polis məhəlləsində xeyli erməni evi var və tatarlar onları yandırmaq istəsələr, onda hamısını yandırardılar."[4]

Bu yazıdan da göründüyü kimi, ilk başdan bəzi şəhər sakinlərində bu yanğının azərbaycanlılar tərəfindən törədilməsi şüb-

[1] "Kavkaz", 1905, 1 dekabr (№ 296).
[2] "Novoye obozreniye", 1905, 3 dekabr.
[3] "Tiflisskiy listok", 1905, 2 dekabr.
[4] "İveriya", 1905, 1 dekabr (№ 216).

həsi yaransa da, aparılmış təhqiqatlar, evlərə od vuran şəxslərin bəzilərinin ələ keçirilməsi, eləcə də Avlabardan açılan atəşlərlə yanğınsöndürənlər dəstəsinin öz vəzifələrini yerinə yetirməyə imkan yaradılmaması yanğının ermənilər tərəfindən törədildiyini birmənalı şəkildə sübut edirdi.

Polismeysterin Tiflis qubernatoruna ünvanladığı 6404 saylı raportunda 29 noyabrda Surp-Sarkis küçəsində Hacı Hüseyn Bağırovun evinə od vuran bir neçə erməninin yerindəcə azərbaycanlılar tərəfindən tutulub öldürüldüyü, həmin gün Vorontsov küçəsinin "Tatar meydanı"na yaxın hissəsində Kostanov soyadlı bir ermənin evinin yandırıldığı və yanğın alovunun Mirzəyev və Oskanovların evlərinə, Müqəddəs Yekaterina yunan kilsəsinə keçdiyi barədə məlumat verilirdi[1]. Qeyd edək ki, A.A.Kostanovun yanmış evində İran təbəəli Məşədi İbrahimxəlil Allahverdiyevin qalantereya-manufaktura (xırdavat-parça) mağazası yerləşirdi[2].

Sonradan bəlli olur ki, ermənilərin bu təxribatı nəticəsində şəhərin azərbaycanlılar sakin olan hissəsində Vorontsov küçəsində 6 ev (onlardan 3-ü iki mərtəbəli), Meydanda 10 ev, "Krasilnı" küçəsində 6 ev (onlardan 2-si iki mərtəbəli), Surp-Sarkis küçəsində Bağırov qardaşlarına məxsus 2 böyük ev, bundan başqa 40 dükan və Vorontsov küçəsində yunan kilsəsinin iç hissəsi yanmışdır[3]. Yanan evlər arasında görkəmli ictimai xadim Əlimərdan bəy Topçubaşovun Narınqalanın girəcəyində yerləşən evi də olur[4]. GMTA-da saxlanan ""Daşnaksutyun" erməni inqilabi partiyasının şərq bürosuna dair" sənədlər toplusundan Ə.Topçubaşovun evinin Petxain küçəsi № 28 (indiki Betlem küçəsi) ünvanında yerləşdiyini aşkar etməyə müvəffəq oldum[5].

Bəzi mətbu orqanlar ermənilərin Meydanda yanğın törət-

---

[1] GMTA, f. 17, s. 2, iş № 557, vv 62-64; "Novoye obozreniye", 1905, 3 dekabr.
[2] "Tiflisskiy listok", 1905, 11 dekabr (№ 247).
[3] "Tsnobis purtseli", 1905, 1 dekabr (№ 2960); «Kavkaz", 1905, 6 dekabr (№ 301).
[4] "İveriya", 1905, 9 dekabr.
[5] GMTA, f. 153, s. 1, iş № 1060, v. 25.

məkdə məqsədlərinin burada yerləşən müsəlman müdafiə mövqelərini zəiflətmək və bununla da məhəllənin içinə soxulmaq olduğunu yazırdı.

29 noyabrda saat 11-də Vera məhəlləsində tavad-aznaur (zadəgan) məktəbinin önündə gürcülərin şəhərdəki toqquşmalara həsr olunmuş mitinqi keçirilir.

Eyni zamanda gürcü ictimaiyyətinin yığıncağı keçirilir və Borçalı qəzasına göndərilməsi üçün yığıncaq iştirakçıları arasından səkkiz ziyalı (knyaz İ.S.Çavçavadze, kn. V.A.Tarxan-Mouravov, kn. M.İ.Cambakur-Orbeliani, kn. Z.D.Baratov, kn. S.İ.Taktakov, N.İ.Kançeli, D.Q.Qabayev və Q.Natiyev) seçilir. Onlar erməni özbaşınalıqlarına və zorakılıqlarına qarşı üsyan edən Borçalı azərbaycanlılarını sakitləşdirməli idilər. Bu nümayəndələri Borçalı yolçuluğunda dörd nüfuzlu azərbaycanlı bəyi, bir həkim, üç sanitar və silahlı mühafizə dəstəsi müşayiət etməli idi. Tavad-aznaurlar (gürcü zadəganları) bu səfərin gerçəkləşməsinə 30 tümən ayırırlar.

Həmin gün azərbaycanlı və erməni məhəllələri arasında atışmalar baş verməsə də, şəhərin digər məhəllələrində ermənilərin azərbaycanlılara yönəlik silahlı təqibləri və vəhşilikləri davam edirdi.

Gündüz saat 12-də vağzal tərəfdən hərəkət edən Korqanov konkasına minən on azərbaycanlı Nekrasov küçəsindəki dayanacaqda silahlı erməni güruhunun silahlı hücumuna məruz qalır. Azərbaycanlılar canlarını güllələrdən qurtarmaq üçün müxtəlif istiqamətlərə doğru qaçmağa başlasalar da hamısı buna nail ola bilmir. Onlardan ikisi öldürülür – biri Nikolayev meydanında, o biri isə "Razyezjaya" küçəsində, və meyitləri Didxev enişində Kür çayına atılır. Sağ çiynindən və əlindən yaralanmış cənubi azərbaycanlı Nağı Sadıx oğlu isə ələ keçib öldürülməsin deyə özünü çaya atır və sağ qalır. Onu VIII məhəllənin ərazisində, Kür üstündəki dəyirmandan bir az aşağıda adları bəlli olmayan malakanlar sudan çıxarıb Mixail xəstəxanasına aparırlar[1].

[1] "Kavkaz", 1905, 1 dekabr (№ 296); "Novoye obozreniye", 1905, 3 dekabr.

Bundan bir saat sonra Peska küçəsində daha bir azərbaycanlı öldürülür.

Həmin gün günorta saat 2-nin yarısında "Gürcü mətbəə cəmiyyəti"nin yaxınlığında Vank küçəsi ilə gedən 2 azərbaycanlıya revolverdən atəş açılır; onlardan biri yerindəcə ölür, o birini isə faytonla Mixail xəstəxanasına aparırlar[1].

Saat 3-də Vorontsovun heykəli yaxınlığında tramvay vaqonlarında ermənilər tərəfdən iki müsəlman öldürülür və bir gürcü yüngül şəkildə yaralanır. Öldürülənlərin cəsədləri və yaralı gürcü Mixail xəstəxanasına göndərilir[2].

Qəzet xəbərlərinə istinadən göstərdiyimiz bu faktları arxiv sənədləri də təsdiq edir[3].

Günün günorta çağı saat 3-də Nersesov və "Russkaya" küçələrinin kəsişməsində, "Tsnobis purtseli" qəzetinin redaksiyası qarşısında bu qəzetin əməkdaşlarının gözləri önündə baş vermiş yuxarıda qeyd olunan sonuncu vəhşi aksiya qəzetçilərin sərt təpkisinə səbəb olur və onlar tərəfindən "Daşnaksutyun" partiyasına qəddarlıqlara son verilməsi ilə bağlı aşağıdakı məzmunda qəti tələb ünvanlanır:[4]

***Daşnaksutyun" partiyasının komitəsinə***

*Dünən (29 noyabrda – F.V.) bizim redaksiyanın qarşısında dəhşətli qətl hadisəsi baş verdi. İki tatar fəhləsi gizlənməyə çalışırdı və çömbələrək gizlənirdilər. Bizim mətbəənin işçiləri bədbəxtləri çağırırdılar – buraya gəlin, amma bu zaman erməni gözətçiləri (daşnak drujinaçılar nəzərdə tutulur – F.V.) tatarları gördülər və güllə atmağa başladılar. İki silahsız və ya adi bıçaqlarla silahlanmış tatarları ələ keçirmək asan idi, amma silahlanmış güruh yazıq fəhlələri rəhmsizcəsinə öldürdü. Öldürmək yet-*

[1] "Novoye obozreniye", 1905, 30 noyabr (№ 246).
[2] "İveriya", 1905, 30 noyabr (№ 215); "Novoye obozreniye", 1905, 1 dekabr (№ 247).
[3] GMTA, f. 17, s. 2, iş № 557.
[4] "Tsnobis purtseli", 1905, 1 dekabr.

*mədi, ruhsuz cəsədləri dəyənəklərlə və bıçaqlarla döyməyə başladılar, cəsədləri təhqir etdilər. Sonra "gözətçilər" cəsədin birini götürüb Kürə atdılar...*

*İyrənclik bundan uzağı gedə bilməz! Bu nə hadisədir? Biz dünən intibahnamələrlə müraciət edən və günahsız tatarlarla heç bir işləri olmadıqlarını bəyan edən "Daşnaksutyun"dan soruşuruq: Belə qətlləri törədən bu "gözətçilər" kimlərdir?*

*Bu qanunsuzluğu görəndə və işə qarışanda, erməniləri sakitləşdirəndə və vəhşiliklərinə işarə vuranda, "gözətçilər" incidilər: Sizin nə işiniz var! Onda gərək əlimizi ürəyimizə qoyub oturaq və baxaq, necə gülə-gülə mənəviyyat və insansevərlik prinsiplərini tapdalayırlar?! "Gözətçi" revolverini onun üstünə şığıyan və "niyə adi adamları öldürürsünüz", – deyən bir gürcü tələbənin ürəyinə dirədi; siz – orada oturanlar ölçü götürmədiyiniz üçün, burada da bu iyrənclik olur... Bu nə deməkdir?*

*Bütün bunlar "Daşnaksutyun" partiyasının adı ilə baş verir. Onun intibahnamələri isə başqa şey deyir. Cavab! Birbaşa cavab! Bu bir. İkinci: bu cür iyrəncliyə təcili son qoyulsun!*

"Daşnaksutyun" "Tsnobis purtseli" qəzetinin redaksiya üzvlərinə ünvanladığı cavab bəyanatında özünü doğrultmağa və həmişə olduğu kimi yenə də fürsəti əldən verməyərək, gürcüləri və rusları da ermənilərin sıralarına qatıb azərbaycanlılar əleyhinə kökləməyə çalışırdı. Belə ki, bəyanatda daşnakların silahlı dəstələrinin əsas məqsədinin Borçalıdan Tiflisə üz tutan "vəhşi tatar güruhunun" qarşısını almaqdan ibarət olduğu vurğulanaraq, bunlar qeyd olunurdu: "Bu 1300 Borçalı tatarı şəhərə girsə ermənilərin, gürcülərin və rusların axırı nə olardı. Xoşbəxtlikdən başqa təşkilatların və partiyaların köməyi ilə bunun qarşısı alındı"[1].

Erməni xislətini üzə qoyan və gürcülərin buna sərt və neqativ reaksiyasını göstərən daha bir fakta arxiv dosyesində və yenə də mətbuat səhifələrində rast gəlinir:

Nəftluqda, Palavandov küçəsindəki sallaqxananın yanında

[1] "Tsnobis purtseli", 1905, 4 dekabr (№ 2963).

bir-birinə yanaşı iki bağırsaq zavodu fəaliyyət göstərirdi. Onlardan biri Tiflis meşşanı (kiçik sahibkarı) Sarkis Mailova, digəri isə Məşədi İbrahim oğluna məxsus idi. Sarkis Mailov şəhərdəki qarışıqlıq və xaosdan istifadə edərək, 29 noyabrda silahlı soydaşları ilə birlikdə öz azərbaycanlı rəqibinin zavodunu talayıb yerlə-yeksan edir. Bundan hiddətlənən Nəftluğun gürcü sakinləri yığılıb qərara gəlirlər ki, erməniyə desinlər, müsəlmanın dağıdılmış karxanasını yenidən tiksin, əks halda ona qarşı repressiya tədbirləri görəcəklər[1].

Həmin gün düşmənçilik hərəkətləri baş vermiş rayonlardan kənarda – VIII məhəllədə azərbaycanlıların ermənilər tərəfdən zülmlə öldürülməsi ilə sonuclanan daha bir hadisə barədə "İveriya" qəzeti 2 dekabr sayında məlumat verirdi:

"6-cı polis məhəlləsində "Levis" papiros fabrikində və dəri fabrikində yanğın olanda daşnaksakanlar yolla gedən 4 dinc tatardan şübhələndilər və onları Çuğuretdəki kommersiya məktəbinin qarşısına aparıb revolverlərlə güllələməyə başladılar. İkisini yerindəcə öldürdülər, qalan ikisi isə qaçmağa başladı. Onlar Kukiya körpüsü ilə erməni bazarına qaçdılar. Qaçarkən arabir qışqırırdılar: "Öldürməyin, biz sizin qardaşlarınızıq, həmşəhərlilər". Ancaq daşnaksakanlar onların sözlərini qulaqardına vurub yenə güllə atmağa başladılar, tatarlardan biri 10 güllə və bebutla yerindəcə öldürüldü, başından xəncərlə yaralanmış o birini isə itlər xilas etdi, öldürülmüş şəxs silahsız idi"[2].

Bu fakt barədə "Kavkaz"[3] və "Tsnobis purtseli" qəzetləri də məlumat verirdi. "Tsnobis purtseli" 1 dekabr 1905-ci il sayında "Tatarların öldürülməsi və yaralanması" başlığı altında yazırdı: "Bizim redaksiyanın qabağında öldürülən o iki tatardan savayı 29 noyabrda başqa-başqa yerlərdə də tatarları öldürüb-yaralayıb-

---

[1] GMTA, f. 17, s. 2, iş № 557, vv. 62-64; "İveriya", 1905, 9 dekabr; "Vozrojdeniye", 1905, 2 dekabr (№ 38); "Tiflisskiy listok", 1905, 3 dekabr (№ 241); "Novoye obozreniye", 1905, 3 dekabr.
[2] "İveriya", 1905, 2 dekabr (№ 217).
[3] "Kavkaz", 1905, 30 noyabr.

lar. Kukiyada cəmi 12 tatar görüblər. Onlardan bəziləri Vorontsov küçəsində, bəziləri Riğe küçəsində, bəziləri isə Kommersiya məktəbinin yanında öldürülüblər. Cəmi 3-4 nəfəri xilas etmək mümkün olub".

Yenə 29 noyabrda azərbaycanlı qiyafəsində bir erməni bombayla Şeytanbazara keçmək istəyir, ancaq azərbaycanlılar tərəfindən fərq edilərək həmin dəqiqə öldürülür[1].

Axşam saat 8-də V polis məhəlləsində Baqration və Muxran küçələrinin kəsişməsində otuza yaxın erməni Məşədi Abbasəli Məşədi Əhməd oğlunun Qorqanovun binasında yerləşən xırdavat malları dükanına soxulub onu qarət edir. Həyata keçirilmiş çevik axtarış tədbirləri nəticəsində qarətçilərdən dördü tez bir zamanda yaxalanır[2].

Həmin gün "Kviraçxlov" küçəsində məhəllə qoruyucuları bir nəfəri şübhəli bilib tuturlar. Həmin anda orada "Daşnaksutyun"un iki milisi peyda olur. Bu daşnaklar deyirlər ki, tutulan şəxs xuliqandı və onu mütləq öldürməliyik. Ancaq qoruyucular qoymurlar və onu sosial-demokrat fəhlə partiyasının bürosuna aparacaqlarını söyləyirlər. Buna baxmayaraq, "Daşnaksutyun" milislərindən biri tutulan şəxsi güllə ilə öldürmək istəyir və çevrəsində olanlar bunun qarşısını almağa çalışanda güllə o biri daşnak milisinin ayağına dəyib onu yaralayır[3].

"Tiflisskiy listok" və "Kavkaz" qəzetlərinin 30 noyabr 1905-ci il tarixli saylarından 29 noyabrda Mixail xəstəxanasına yaralı halda VI məhəllədən Məmməd Əli İskəndər oğlu, Məşədi İsmayıl Mansur oğlu və Sadıx Əhməd oğlunun, VIII məhəllədən isə Artaş Kamalov, David Karnaşvili, Aram Kamalyan, Avetik Şahnazarov və Georgi Tsverelovun, həmin xəstəxananın anatomiya şöbəsinə (morquna) isə bir naməlum azərbaycanlının və milliyyəti bəlli olmayan daha bir adamın meyitinin gətirildiyi bəlli olur.

---

[1] GMTA, f. 17, s. 2, iş № 557, vv. 62-64; "Novoye obozreniye", 1905, 3 dekabr.
[2] "İveriya", 1905, 3 dekabr (№ 218).
[3] "İveriya", 1905, 1 dekabr (№ 216).

Bu qəzetlərin 2 dekabr 1905-ci il nömrələrindən 29 noyabrda Mixail xəstəxanasına ağır vəziyyətdə daha beş nəfərin − Qarayazı kəndində yaşayan 35 yaşlı İran təbəəli fəhlə Nağı Sadıq oğlu, Hüseyn Musa oğlu, Yusuf Musa oğlu, Sadıq Əhməd oğlu və adı bilinməyən bir azərbaycanlının çatdırıldığı və onlardan son üçünün bir müddət sonra dünyasını dəyişdiyi məlum olur.

28 və 29 noyabrda Tiflisə nizami ordu birlikləri − İrəvan leyb-qrenadyor alayının hissələri və Gürcü alayının qrenadyorları daxil olurlar. Eyni zamanda Qafqaz canişini qərar verir ki, sosial-demokrat fəhlə partiyasından silahlar geri alınsın. Drujinalar özlərinin məhəllələrdəki mövqelərini əsgərlərə buraxırlar və silahlarını sosial-demokrat partiyasının bürosuna təhvil verirlər. Ordu yanğınlar zamanı qarətlərlə məşğul olan şəxsləri birbaşa güllələmək əmrini alır. Xarpuxa və Nəbatat bağı yüksəkliklərinə Tiflis alayının bir rota əsgəri və Pastunskinın alayının yüzlərlə kazakı göndərilir[1].

Şəhərə yeridilən əlavə qoşunlar mövqe tutduqdan sonra, daha doğrusu artıq Tiflisdəki soydaşlarının həyatlarının təhlükəsizliyinə tam əmin olduqdan sonra Borçalı kəndlərindən gəlmiş silahlı azərbaycanlılar 29 noyabrdan etibarən qruplarla öz ellərinə qayıtmağa başlayırlar; axşama qədər Tiflisi təqribən 300 silahlı azərbaycanlı süvarisi tərk edir və bu proses axşam saatlarında da davam edir[2].

Ümumilikdə Borçalıdan Tiflisə nə qədər döyüşçünün gəldiyi dəqiq bəlli deyildi. Bəzi mənbələr bu rəqəmin 1000, bəziləri isə 1300, 1500, hətta 2000 olduğunu yazırdı.

## 30 noyabr

Şeytanbazarda və Avlabarda atışmalar olmasa da, ümumi vəziyyət yenə də gərgin olur. I, II, III, IV, IX və X məhəllələrdə tam əmin-amanlıq hökm sürür. Bu rayonlarda tramvayların hə-

---

[1] GMTA, f. 17, s. 2, iş № 557.

[2] “Kavkaz”, 1905, 1 dekabr; “İveriya”, 1905, 2 dekabr; GMTA, f. 17, s. 2, iş № 557.

rəkəti normal rejimdə davam edir. Bütün idarələr, dükanlar və müəssisələr adi qaydada işləyir.

General knyaz İvane Çavçavadzenin başçılığı altında gürcü zadəganlarının nümayəndə heyəti sülhməramlı missiya ilə Borçalıya yola düşür[1]. Bu heyəti bir neçə tibb işçisi və Hüseyn bəy Yadigarov tərəfindən təhkim olunmuş Borçalı azərbaycanlısı Məmməd ağa Bayramov müşayiət edir.

Borçalı azərbaycanlılarının çoxu şəhərdən çıxır. Onlarla birlikdə Tiflisdə uzun zaman yaşayıb alver edən bəzi azərbaycanlılar da şəhəri tərk edir[2].

Şeytanbazarda yanğınlar tamamilə söndürülür. "Kavkaz" qəzeti yazırdı: "Şəhərin bu hissəsinin əhalisinin yardıma ehtiyacı var. Uşaqlar daha çox aclıqdan və soyuqdan əziyyət çəkir"[3]. Şəhər idarəsi azərbaycanlılar yaşayan VI məhəllədə müvəqqəti çalışan həkim A.İ.Şerbininanın müraciətinə cavab olaraq, onun vasitəsilə ehtiyacı olan müsəlmanlara vur-tut 25 rubl yardım göndərir[4]. Şerbinina bir daha müraciət edib, şəhər hakimiyyətindən mövcud acınacaqlı vəziyyətin nəzərə alınmasını və bu məhəlləyə daha çox yardım ayrılmasını xahiş edir. Şəhər rəhbərliyi qarşısında müsəlman məhəllələrində çörək çatışmazlığı barədə də məsələ qaldırılır.

Tiflis şəhər idarəsində erməni və azərbaycanlı-müsəlman cəmiyyətlərinin nümayəndələrinin iştirakı ilə toplantı keçirilir. Tədbirdə qərara alınır ki, düşmənçilik edən tərəflərin təmsilçilərindən ibarət barışıq komissiyası yaradılsın. Bu komissiya ermənilər və azərbaycanlılar arasında mehriban münasibətlərin qurulması və milli ədavətin aradan qaldırılması üçün təkliflər hazırlamalı idi. Qeyd olunanlar barədə yerli sakinləri məlumatlandırmaq üçün qlasnı-mühəndis R.Axundovu və Yakimov soyadlı

---

[1] "İveriya", 1905, 2 dekabr; "Kavkaz", 1905, 2 dekabr; "Vozrojdeniye", 1905, 6 dekabr.
[2] "İveriya", 1905, 3 dekabr.
[3] "Kavkaz", 1905, 2 dekabr.
[4] Yenə orada

məmuru azərbaycanlıların məhəlləsinə göndərirlər[1].

"Tsnobis purtseli" qəzetinin 30 noyabr 1905-ci il sayında Kutais Müəllimlər İttifaqının azərbaycanlılara və ermənilərə ünvanlanmış sülh çağırışı dərc olunur.

Axşam tramvay vaqonunda revolverlə vaqonun nəzarətçisi Tsuloyevi yaralayırlar. Yaralı Mixail xəstəxanasına çatdırılır. Həmin axşam bu xəstəxanaya güllə yarası almış bir müsəlman və bir gün əvvəl öldürülmüş iki müsəlmanın meyiti də gətirilir.

Dəmir yolu stansiyalarına və qatarlara edilən mütəmadi hücumlar Zaqafqaziya dəmir yollarının işçilərini bir araya gətirir. Dəmiryolçular dəmir yolu xətləri boyu qatarların təhlükəsiz hərəkətini təmin etmək üçün çevik mühafizə dəstələri və Tiflisdə fəaliyyət göstərəcək özünümüdafiə dəstələri yaratmağı qərara alırlar. Bu məqsədlə canişindən Tiflis üçün 250 berdanka tüfəng, dəmir yolu xətlərinin mühafizəsi üçün isə 900 tüfəng tələb olunur, ancaq bu tələb rədd edilir.

Bununla yanaşı, sosial-demokrat təşkilatının fəhlələri canişinin qərarı ilə onlara verilmiş tüfənglərin bir hissəsini geri qaytarırlar. Onların əksinə, "Daşnaksutyun"un üzvləri silahları təhvil verməkdən boyun qaçırırlar.

Nəbatat bağının üst tərəfində mövqedə duran İrəvan alayının əsgərləri öz komandanları Qriqoryevin əmri ilə "Daşnaksutyun" drujinalarının silahlarını əllərindən alırlar. Bu daşnakları narahat edir və qeyd olunan məsələ ilə bağlı onların şəhər bələdiyyəsindəki nümayəndələri canişinin hərbi məsələlər üzrə köməkçisi, general-leytenant Y.D.Malamanın qəbuluna düşürlər. Bu nümayəndələri dinləyən general Malama silahların "Daşnaksutyun"a geri qaytarılacağına söz verir və bunun üçün silahları əllərindən alınmış daşnakların siyahısının təqdim olunmasını xahiş edir. O, eyni zamanda, Qriqoryevə göstəriş verir ki, bir daha "Daşnaksutyun" drujinalarına toxunmasın.

Ermənilərə silah-sursatla sərbəstcə şəhəri gəzib dolaşmaq

[1] "İveriya", 1905, 1 dekabr.

imkanının verilməsi onların daha çox əl-qol atmalarına, daha çox cinayət törətmələrinə şərait yaradırdı. Tiflis qəzetləri 30 noyabrda bir neçə azərbaycanlı dükanının ermənilər tərəfdən qarət edildiyi barədə məlumatlar yayımlayırdı.

Belə ki, "İveriya" qəzeti 2 dekabr 1905-ci il tarixli sayında "Raboçi listok" qəzetinə istinadən 30 noyabrda səhər açılanda "Xlebnaya" ("Çörək") meydanında üzərlərində "Daşnaksutyun" partiyasının nişanları olan bir neçə erməni tərəfindən müsəlman Rəhim Əliyevin mağazasının qarət edildiyini bildirirdi.

"İveriya" növbəti sayında 30 noyabrda baş vermiş daha bir hadisə ilə bağlı belə bir məlumat dərc etmişdi:

"Axşam saat 7:30-da "Soldat" bazarı ilə bir müəllim (milliyyətcə alman) gedirdi. Bu zaman yaxınlıqdakı dükandan üç erməni çıxıb bu müəllimin qabağını kəsir və soruşur: "Haraya gedirsiniz?" O, cavab verir: "Siz kimsiniz? Mən tanımadığım adamlara hara gedib haradan gəldiyim barədə hesabat verməyə borclu deyiləm", – və sonra yoluna davam edir. Beş addım atmamış haradansa yolunu xəncərlə və çomaqla silahlanmış 4 erməni kəsir və soruşurlar: "Russan, ya başqası?" O deyir: "Nəyə görə soruşursunuz?". Yenə soruşurlar. Cavab verir: "Mən almanam". Onda ermənilər ona bizim adamsan deyib buraxırlar". Qəzet ermənilərin bu cür davranışlarından öz heyrətini gizlədə bilməyib məlumatın sonunda oxucularına belə bir sualla müraciət edir: "Bu hərəkət nə ilə izah oluna bilər?"[1]

Şeytanbazarda könüllü çalışan tibb işçiləri döyüşlər zamanı yaralanmış və ev şəraitində müalicə olunan azərbaycanlıları Mixail xəstəxanasına sövq edirdilər. "Tiflisskiy listok" qəzeti 30 noyabrda Mixail xəstəxanasına yaralı vəziyyətdə aşağıdakı şəxslərin gətirildiyini yazırdı:

1) Həlim Ələkbər oğlu (45 yaş, VI məhəllədə Vorontsov küçəsində Xalatovun evində yaşayan susatan);

2) İsmayılov Hüseyn Əsgər oğlu (40 yaş, o da Xalatovun

---

[1] "İveriya", 1905, 3 dekabr.

evində yaşayırdı və xəstəxanaya sanitar Nudel tərəfindən çatdırılmışdı);

3) İrzaqulu Zamanov (20 yaş, Vorontsov küçəsində Məşədi Əhmədin evində yaşayan fəhlə, 28 noyabrda yaralanmışdı).

## 1 dekabr

Şəhərdə sakitçilik hökm sürür. Ancaq Tiflis ümumilikdə əvvəlki adi halını yenə də ala bilməyir. Elektrik tramvay vaqonları 6-cı polis məhəlləsində, Vorontsov küçəsində hərəkət etmir. Bu orada təhlükənin olmasından deyil, çox yerdə tramvay məftillərinin güllə ilə zədələnməsindən qaynaqlanırdı[1]. Şeytanbazardan şəhər idarəsinə çörək çatışmazlığı barədə şikayətlərin daxil olması davam edir.

Səhər saat 10-da Naxalovkada tacirlərin erməni-azərbaycanlı qarşıdurmasına və şəhərdə mövcud ticari durumun müzakirəsinə həsr olunmuş mitinqi təyin olunur.

Surp-Sarkis küçəsində bir qrup milisin silahları ondan düzgün istifadə etməmələri səbəbindən əllərindən alınır. Bu silahlar arasında 3 nömrəli dövlət tüfəngi də aşkar edilir. Bunun mülki şəxslərin əlinə necə keçdiyini müəyyən etmək üçün istintaq aparılır.

27 noyabrda Meydanda öldürülmüş fəhlə təşkilatının drujinaçısı Rajden Sturuanın nəşi Batum axşam qatarı ilə Samtrediaya göndərilir. Onun tabutunu vağzala çoxminlik xalq izdihamı, müxtəlif təşkilat və siyasi partiyaların nümayəndələri yola salır.

"Kavkaz" qəzetinin həmin günkü buraxılışında bir neçə gün əvvəl atışmalarda yaralanmış Feyzulla Ulazgildeyev, Vahan Yeqonyan və Georgi Mqaloblişvilinin Mixail xəstəxanasında öldükləri barədə məlumat dərc olunur[2].

"Kavkaz"ın səhifələrindən o da bəlli olur ki, "Həyat" qəzetinin redaktoru Əhməd bəy Ağayev öz redaktorluğu altında Bakı şəhərində "İrşad" adlı daha bir azərbaycandilli populyar qəzetin

[1] "İveriya", 1905, 2 dekabr.
[2] "Kavkaz", 1905, 1 dekabr.

nəşrinə icazə istəyir[1].

Şəhər dumasının iclas zalında sülh şərtlərinin müzakirə olunması üçün azərbaycanlı və erməni ziyalıların növbəti toplantısı keçirilir və bu tədbirdə tərəflər sülh razılığına gəlirlər. 24 müsəlman və 34 erməni nümayəndənin iştirak etdiyi və üç saata yaxın davam edən toplantıda səslənən təkliflərdən Qafqaz müsəlmanları və ermənilərinin qurultayının çağırılması, hər iki tərəfdən cinayətkarların tutulub müvafiq qurumlara təhvil verilməsi və onların ədalətli şəkildə cəzalandırılması üçün münsiflər məhkəməsinin təsis edilməsi təklifləri iştirakçılar tərəfindən bəyənilir. Qurultayın təşkil olunması üçün ayrıca bir komitənin yaradılması qərarlaşdırılır. Baş vermiş toqquşmaları araşdırmaq və mümkün kütləvi toqquşmaların qarşısını almaq üçün xüsusi komissiya seçilir və ona münsiflər məhkəməsi hüququ verilir. 12 nəfərlik komissiyanın tərkibinə azərbaycanlılar tərəfdən Rəhim bəy Axundov, İbrahim ağa Vəkilov, Mirzə Şərif Mirzəyev, Məhəmməd ağa Şahtaxtinski, Mustafa bəy Eminov və İran təbəəlilərin təmsilçisi İsmayıl ağa İsmayılov, ermənilərdən isə T.N.İoanisyan, K.M.Alixanov, A.A.Melik-Azaryants, S.Q.Melik-Adamov, A.S.Babov seçilirlər. Komissiyaya sədrlik şəhər başçısı vəzifəsini icra edən knyaz V.N.Çerkezova həvalə olunur.

Sülh xəbəri tərəflər arasında sevinclə qarşılanır. İrəvan meydanında şəhər idarəsinin qabağına yığılmış böyük xalq izdihamına bu xəbər gündüz saat beşin yarısında elan edilir. İzdiham bu xəbəri "ura" qışqırtısı ilə qarşılayır. Sonra müsəlman və ermənilərin nümayəndələri şəhərin azərbaycanlı hissəsinə yola düşürlər. Burada qruplarla küçələrdə durub danışıqların nəticələrini gözləyən müsəlmanlar da sülh haqqında xəbəri sevinclə qarşılayırlar. Sonra nümayəndələr və hər iki xalqın ruhaniləri şeyxülislamla görüşürlər. Bu xəbəri dinləyəndən sonra şeyxülislam müsəlman izdihamının qarşısına çıxıb sülh çağırışlı müraciət edir.

[1] "Kavkaz", 1905, 1 dekabr.

İzdiham onu coşqun sədalarla salamlayır[1].

Həmin axşam dağkəsəmənli polkovnik İbrahim ağa Vəkilovun, şəhər başçısı v.i.e. Çerkezovun və şəhər idarəsinin üzvləri Arqutinski və Kokçayevin, Şərif bəy Mirzəyevin, Pənah xan Makinskinin, Axund Mövlazadənin, Hüseyn bəy Yadigarovun və başqa nüfuzlu şəxslərin adından Zaqafqaziya Dəmir Yolları idarəsinin rəisi Raxmaninə (surətləri dəmir yolu stansiyalarının rəislərinə və şəhər başçılarına) aşağıdakı məzmunda teleqram göndərilir:

> "Bu gün Tiflisdə ermənilər və tatarlar arasında sülh bağlanıb. Öz dindaşlarının təhlükəsizliyinə əmin olan 1300 müsəlman (Tiflisdəki soydaşlarının köməyinə gəlmiş qarapapaqlar nəzərdə tutulur – *F.V.*) geri evlərinə yola düşdü. Müsəlmanların və ermənilərin nümayəndələri davamlı sülh üçün tədbirlər hazırlayırlar. Qarışıqlığın sona yetməsi üçün ciddi tədbirlər görün və sülhü qoruyun"[2].

Şəhər idarəsi tərəfdən Tiflis sakinlərinə də eyni məzmunlu müraciət ünvanlanır. Bu bəyanat-müraciətin tam mətni "Kavkaz" qəzetində çap olunur.

"İveriya" qəzeti 2 dekabr 1905-ci il tarixli sayında şəhər dumasında keçirilən toplantı barədə məlumat verərək yazırdı:

> "...Borçalıdan gəlmiş tatarların çoxu şəhərdən 30 noyabr axşamı getdilər, çünki əmin oldular ki, ermənilər və tatarlar hazırda barışmaq istəyirlər və bunun üçün danışıqlara başlayıblar. Ermənilərin və tatarların sülh komitəsi bu iki xalq arasında qardaşlıq münasibətlərinin qurulması üçün iclas üstünə iclas keçirir. Bu iclaslara neytral xalqların nümayəndələrini buraxmırlar. Dünən səhər şəhər şurasının iclas zalında komitənin iclası keçirilirdi. Şuranın (Dumanın – *F.V.*) qapıları ağzına çox sayda erməni toplaşmışdı, amma onları içəri buraxmadılar ki, yalnız komitə üzvlərinin iclasıdır"[3].

---

[1] "Kavkaz", 1905, 3 dekabr (№ 298).
[2] "Novoye obozreniye", 1905, 2 dekabr və 4 dekabr.
[3] "İveriya", 1905, 2 dekabr.

Borçalıların çoxu Tiflisdən çıxsa da, dövlət rəsmiləri onların yenidən şəhərə qayıtma təhlükəsini görürdülər. Bunun üçün şəhər kənarında süvari qoşunları və toplar yerləşdirilmişdi. Bəzi mətbu orqanlar hələ də VI məhəllədə 800-ə yaxın Borçalı azərbaycanlısının qaldığını yazırdı[1].

Günlərlə davam edən qarışıqlıqdan öz məqsədləri üçün sui-istifadə etməyə çalışanlar da var idi. Xuliqanlar dəstəsi şəhərdə veyllənərək müxtəlif evlərə və müəssisələrə soxulur, özlərini müxtəlif təşkilatların üzvü kimi təqdim edib təhdidlərə əl atır və müxtəlif bəhanələrlə zorla pul qoparırdı. Məsələn, Mtatsminda-da Zaxariy Saamovun dükanına iki silahlı şəxs girib sosial-demokratların adı ilə 10 tümən tələb etmişdi. Eləcə də "Vozrojdeniye" qəzetinin adı ilə qapı-qapı gəzib pul yığırdılar. Buna görə də həm qəzet, həm sosial-demokrat bürosu heç kəsə pul yığmaq barədə göstəriş vermədiklərini bəyan etməyə məcbur olmuşdu. İğtişaşlar nəticəsində yaranmış vəziyyət oğruların və cibgirlərin işinə də çox yarayırdı.

Qeyd olunanlarla əlaqədar siyasi təşkilatların birləşmiş mitinqində xuliqanlıqla rasional mübarizə aparılması üçün tədbirlər görülməsi təklif olunur[2].

Qlasnılar tərəfindən şəhərdəki vəziyyəti müzakirə etmək üçün Dumanın gündəlik iclaslarının keçirilməsi, eləcə də şəhərin ayrı-ayrı yerlərində baş vermiş toqquşmalarla bağlı vətəndaşların müxtəlif səpkili ərizələrinin qəbulu və yoxlanılması məqsədilə müvəqqəti büronun yaradılması məsələsi qaldırılır. Qlasnı knyaz V.S.Mikeladze Dumaya şəhər məhəllələrinə nəzarət etmək üçün qlasnıların başçılığında məhəllə dəstələri yaratmağı təklif edir. Evlərinin qarətlərdən və yandırılma təhlükəsindən qorunmasının daha səmərəli şəkildə təşkil edilməsinin müzakirə olunması məqsədilə ev sahibləri şəhər idarəsinə dəvət edilir.

Tiflis Məhkəmə Palatasının tərcüməçisi Əsgər Qaraxanovun

---

[1] "Vozrojdeniye", 1905, 2 dekabr (№ 38).
[2] "İveriya", 1905, 3 dekabr; "Kavkaz", 1905, 4 dekabr.

Vorontsov küç. 77 və Surp-Sarkis küç. 65-də yerləşən mülklərinin mühafizəsi üçün ciddi tədbirlər görülür[1].

Vera məhəlləsinin "Olqa" və "Kirpiçnı" küçələri ətrafındakı küçələrin sakinləri yığıncaq keçirib qərara alırlar ki, məhəllənin təhlükəsizliyini təmin etmək üçün 80 nəfərdən ibarət muzdlu milis dəstəsi yaratsınlar. Bunun üçün məhəllənin bütün sakinlərindən ayda ümumi hesabla 4000 manat pul yığılması razılaşdırılır[2].

**2 dekabr**

2 dekabrda müsəlman bayramı olmasına baxmayaraq, Şeytanbazarda müsəlmanlara məxsus dükanlar, çayxanalar və digər müəssisələr açıq olur[3]. Şəhərin bu hissəsində bir çox ev boş qalsa da həyat tədricən öz axarına düşür.

Digər məhəllələrdə ev sahibləri və kirayəçilər xuliqanlardan qorunmaq üçün mühafizə dəstələri yaradıb gecə növbətçiliyi təşkil edirlər. Bu növbətçilikdə sadə fəhlələrlə yanaşı, məhkəmə prokurorları, həkimlər, vəkillər, yazarlar və digər peşə sahibləri də yer alırlar.

Şəhər başçısı vəzifələrini icra edən V.Çerkezovun sədrliyi ilə xüsusi erməni-azərbaycanlı sülh komissiyasının növbəti iclası keçirilir. İclas müsəlman və ermənilərin bərabər saylı nümayəndələrindən ibarət münsiflər məhkəməsinə (neytral millətin nümayəndəsinin sədrliyi altında) hakimlərin seçimini növbəti iclasa təxirə salır. Eyni zamanda bu məhkəmənin hansısa bir işlə bağlı qərarı tərəflərdən birini qane etmədiyi təqdirdə bu işin yekun qərarının yalnız neytral millətlərin nümayəndələrindən ibarət münsiflər məhkəməsində veriləcəyi barədə razılığa gəlinir.

Həmin gün Mixail xəstəxanasına bir neçə gün əvvəl güllə yaraları almış Xəlil Ələkbər oğlu, Hüseyn Əsgər oğlu və Mirzə Samarov adlı müsəlmanlar gətirilirlər, atışmalar zamanı yaralan-

[1] GMTA, f. 17, s. 2, iş № 557.
[2] "İveriya", 1905, 3 dekabr.
[3] "Kavkaz", 1905, 3 dekabr.

mış digər 30 nəfər isə buradan Nəftluqda yerləşən şəhər barak xəstəxanasına keçirilirlər.

Toqquşmalar zamanı yaralananların ölüm faizinin yüksək olması qanqren yaradan yaranın çirklənməsi ilə əlaqədar idi və bu da yaralılara düzgün baxılmamasının nəticəsində meydana gəlirdi.

2 dekabra Mixail xəstəxanasının meyitxanasında erməni-azərbaycanlı toqquşmasında öldürülmüş 27 nəfərin cəsədi saxlanırdı[1]. Onlardan 25-i müsəlman, 2-si isə erməni cəsədi idi. Müsəlmanlar öz məhəllələrindən kənarda yenə də erməni silahlılarının hücumları ilə üzləşdikləri üçün bu 25 cəsədi dəfn etmək imkanından məhrum idilər. Xəstəxana işçilərindən də heç kəs bu cəsədləri müsəlman məzarlığına aparmağa cəsarət etmirdi. Şəhər idarəsi məsələ ilə bağlı şeyxülislamı və VI məhəllənin pristavını məlumatlandırır. Nəticədə bu cəsədləri 3 dekabrda torpağa tapşırmağı razılaşdırırlar.

## 3 dekabr

Meydanda ön mühafizə mövqelərindən bütün barrikadalar yığışdırılır və küçələrdə sərbəst gediş-gəliş bərpa olunur. Elektrik tramvaylarının şəhərin azərbaycanlılar məskun olan ərazisi üzərindən keçən Ortacala xətti yenə də bərpa oluna bilmir.

Şəhər kənd-təsərrüfatı cəmiyyətinin binasında müxtəlif millətlərin təmsilçisi olan (azərbaycanlılar istisna olmaqla) qadınların baş vermiş qanlı olaylara həsr olunmuş toplantısı təşkil olunur.

Seçkin azərbaycanlı və erməni nümayəndələrinin Tiflis küçələri ilə barış yürüşünə canişinin köməkçisi general Y.Malama qarışıqlıq düşməsindən ehtiyatlanaraq icazə vermir[2]. Müsəlman nümayəndələri bununla bağlı şəhər başçısı v.i.e. V.Çerkezova müraciət edib, yürüş üçün icazə alınmasına köməklik göstərilməsi xahişində bulunurlar.

1 dekabrda əldə olunmuş sülh razılaşmasına baxmayaraq,

[1] "Kavkaz", 1905, 3 dekabr.
[2] "İveriya", 1905, 6 dekabr (№ 220).

şəhərdə heç kəsdən çəkinmədən sərbəst gəzib-dolanan silahlı erməni qrupları əllərinə ilk fürsət düşən kimi silahlarını azərbaycanlılara qarşı tuşlamaqdan xüsusi zövq alırdılar.

3 dekabrda təqribən gündüz saat 1-də Sion küçəsində, Qırmızı Xaçın ofisinin önündə revolverdən açılmış atəşlə bir müsəlman öldürülür. Həmin anda hadisə yerinin yaxınlığında olan İran təbəəli Məmməd Tağı oğlu şahid qismində ifadə vermək üçün şəhər idarəsinə aparılır. Onun ifadəsindən bəlli olur ki, bu müsəlman bir erməni tərəfindən öldürülmüşdür[1].

Həmin gün axşam təqribən saat 9-da Baryatinsk küçəsində Tiflis sakini, Panaseviç küçəsində Mesropovun evində yaşayan Nikolay Xudadova 3 kazak hücum edib onu qarət edir[2].

Öncəki gün əldə olunmuş razılığa əsasən müsəlman qəbiristanlığında 30-a yaxın cəsəd müsəlman ruhaniləri tərəfindən torpağa tapşırılır[3]. Bu cəsədlərdən 25-i gecə ikən Mixail xəstəxanasının meyitxanasından gətirilmişdi.

Tiflis üzərindən Məkkəyə getmək istəyən, amma baş vermiş erməni-azərbaycanlı toqquşmaları nəticəsində Tiflisdən kənara çıxa bilməyib burada qalmağa məcbur olan müsəlman zəvvarlar Biləcəri və Novorossiysk stansiyaları üzərindən müqəddəs torpaqlara göndərilir[4].

Konfiskasiya edilib dövlət idarəsinə götürülmüş kilsə mülkünün imperator II Nikolayın 1 avqust 1905-ci il fərmanına əsasən erməni-qriqoryan ruhani idarəsinə geri qaytarılması üçün Tiflisdə yaradılmış komissiyaya sədrlik canişinin Qafqazda yer quruluşu və əkinçilik üzrə səlahiyyətli nümayəndəsinin köməkçisi Şimanovskiyə həvalə olunur[5].

Qəzetlərdə elan verilir ki, Tiflis 1 saylı gimnaziyasında tədris prosesi 5 dekabrda bərpa ediləcək.

---

1 “Tsnobis purtseli”, 1905, 4 dekabr; “Kavkaz”, 1905, 6 dekabr.
2 “Kavkaz”, 1905, 6 dekabr.
3 “Kavkaz”, 1905, 4 dekabr (№ 299).
4 Yenə orada.
5 “Kavkaz”, 1905, 3 dekabr.

4 dekabra keçən gecə xuliqanlar tərəfindən "Voznesensk" və "Orlovsk" küçələrinin kəsişməsində yerləşən evlərin yandırılmasına cəhd göstərilir.

Son 3 gün ərzində gecə saatlarında könüllü mühafizə dəstələri tərəfindən 14 xuliqan tutulur. Onlar özləri ilə qablarda kerosin daşıyaraq, şəhərin müxtəlif hissələrində evlərin yandırılmasına cəhd göstərirmişlər.

## 4 dekabr və sonrası

4 dekabrda Tiflis şəhər dumasında seçicilər bürosu və müsəlman əhalinin nümayəndələrinin erməni-azərbaycanlı qarşıdurmasının səbəblərinə və qarşısının alınmasına həsr olunmuş iclası keçirilir. İclasda əsasən azərbaycanlılar yaşayan VI məhəllədə qiraət klubunun yaradılması, leksiyalar oxunmasının təşkili və əhali arasında sülh ideyalarının təbliği məqsədilə Azərbaycan türkcəsində gündəlik qəzetin nəşr olunması qərara alınır. Bu işlərin reallaşdırılması üçün maddi kömək göstərilməsi xahişi ilə şəhər özünüidarəsinə və əhaliyə müraciət olunması nəzərdə tutulur[1].

Eyni zamanda çətinliklə əldə olunmuş kövrək sabitliyin pozulmasından ehtiyatlanaraq, şəhər başçısı v.i.e. knyaz V.N.Çerkezov başçılığında sülh komissiyasının üzvləri yenidən şəhərin azərbaycanlı məhəlləsini küçəbəküçə qarış-qarış gəzib yerli əhaliyə iki düşmən tərəfin sülh bağladığına və komissiyanın bir gün əvvəl Sion küçəsində müsəlmanın öldürülməsi faktı barədə araşdırma apardığına dair bilgi verirlər[2]. Bu gəzinti sırasında komissiya üzvləri Zaqafqaziya şeyxülislamını da ziyarət edirlər. Şeyxülislam onun mənzilinin önündə toplaşmış böyük izdihama sözlə müraciət edib dostluğa və sevgiyə çağırır. Buradan komissiya tam tərkiblə Avlabara keçir və Qızılgüllü meydanda xalqı dostluğa və birliyə çağırır.

Bu arada Meydanda knyaz Orbelianinin hamamının yanında Hüseyn Kurı oğlu adlı bir şəxsin evində ayağından güllə yarası almış

[1] "Tiflisskiy listok", 1906, 29 iyun (№ 136).
[2] "Kavkaz", 1905, 5 dekabr.

6 yaşlı azərbaycanlı qızcığazına rastlanılır. Bu barədə "Kavkaz" qəzeti 6 dekabr 1905-ci il tarixli sayında məlumat verərək yazırdı:

"Bədbəxt qızcığazın valideynləri erməni-tatar atışması zamanı öldürülmüşdü. Onun yaralanmış ayağı hansısa sanitar tərəfindən sarınmışdır və bu sarğı 4 gün ərzində heç kəs tərəfindən dəyişdirilməmişdir. 4 dekabrda bu qız ayaq ağrısından şikayət etməyə başlayıb. Onu saxlayan qonşular həkimsiz nə etmək lazım olduğunu bilmirdilər.

Qız pristav Qurqenidze ilə Mixail xəstəxanasına göndərilibdir. Müsəlmanların sözlərinə görə, onların arasında öz mənzillərindən kənara çıxmayan belə yaralılar çoxdur. Ona görə də şəhər ictimai idarəsinə şəhərin tatar hissəsinə həkim köməyi təşkil etmək, bu məhəlləni gəzib yerli sakinlərdən yaralı və yardıma ehtiyacı olub-olmayanı soruşmaq yaxşı olardı".

Şeytanbazarda yaralı müsəlmanların çox olduğunu və qorxudan həkimə getmədiklərini "Vozrojdeniye" qəzeti də yazırdı[1].

Həmin gün rus imperatorunun Qafqazdakı canişini Vorontsov-Daşkov Tiflisdə milli zəmində baş vermiş qırğın barədə Peterburqa, imperatorun ünvanına rəsmi teleqram göndərir. Qırğının ermənilər tərəfindən başladıldığı açıq ifadə olunan bu teleqramda deyilirdi:

> "4 dekabrda sədaqətlə Sizin, İmperator həzrətlərinin nəzərinə çatdırıram ki, 18 noyabrda yerli hakimiyyət üçün tam gözlənilməz halda Yelizavetpolda erməni-tatar qırğını başladı, hansı ki, qonşu kəndlərdən hər iki millətə aid silahlı dəstələrin şəhəri doldurması ilə daha amansız xarakter aldı. Tərəfimdən oraya general Malama ezam olundu. O, qırğını dayandırmağa və az-çox sülh münasibətlərinin yaradılmasına nail oldu, lakin bu vəziyyətin davamlılığına zəmanət vermək olmaz. Yelizavetpol müvəqqəti general-qubernatoru başqa şəxslə əvəz olunub.
>
> Yelizavetpol hadisələrinin təsiri ilə Tiflisin erməni əhalisi arasında təlaş yarandı. Onlar silahlanmağa və özlərinin müda-

[1] "Vozrojdeniye", 1905, 10 (23) dekabr.

fiə dəstələrini təşkil etməyə başladılar. Bu dəstələr küçəyə çıxıb guya ki, qonşu kəndlərdən gələn silahlı tatarların tutulması üçün gecələr gəlib-gedənin hamısını yoxlayırdılar. Özünümüdafiənin təşkilində erməni inqilabi partiyasından başqa digər millətlərin nümayəndələri olan bəzi ev sahibləri və gürcü inqilabi partiyası da iştirak etdi. Bir sözlə küçələrdə təqribən 6500 silahlı şəxs peyda oldu, hansıların ki, zor gücünə tərk-silah edilməsi mümkün deyildi, çünki polis tətil edirdi, ordu hissələri ilə isə şəhərin əsasən Borçalı qəzası tərəfdən hərəkət edən silahlı tatar dəstələrindən qorunması gərəkirdi. Həm də silahsızlaşdırmağa cəhd belə, şübhəsiz ki, qanlı müqavimətə səbəb olardı.

22 noyabr gecə saatlarından başlayaraq, şəhərin Asiya hissəsində (azərbaycanlılar yaşayan hissə – *F.V.*) ermənilər və tatarlar arasında amansız atışmalar baş verirdi. Şəhərin erməni hissəsi əlverişli ərazidə yerləşdiyi üçün sonuncular ("tatarlar", azərbaycanlılar – *F.V.*) bu atışmalardan daha çox zərər çəkirdilər. Ordu hissələri ayrı-ayrı erməni dəstələrini dağdan, təpələrdən çıxarmağa məcbur olurdu. Belə şəraitdə dinc əhalinin özbaşına silahlanmış şəxslərin hamısının küçələrdən evlərə yığılması üçün tədbirlər görülməsi barədə xahişini, qoşunların şəhərin Asiya hissəsindəki dar küçələrdə hərəkət etmək imkanının olmamasını və atəşə məruz qalmasını nəzərə alaraq, ermənilərin və müsəlmanların yaşadıqları yerlərin sərhədində tüfənglə duraraq onları barışdırmağa köməklik göstərməyə hazır olduğunu bildirən fəhlə partiyasına 500 tüfəng verməyi qərara aldım. Sonrakı hadisələr bu qərarın təqdirəlayiq olduğunu göstərdi. İki gün yarım ermənilər və tatarlar arasında atışma olmadı...

Sonrakı gün isə şəhərin Asiya hissəsində yandırılma nəticəsində yanğın baş verdi, hansı ki, bir neçə erməni və tatar evini külə döndərdi. Sülhməramlı fəhlə partiyasına mən tərəfdən silah paylandıqdan sonra özbaşına silahlanmış dəstələr küçələrdən yığışdı. Bununla yanaşı fəhlə partiyası müəyyən etdi ki, Tiflisdə qırğın ermənilərin özü tərəfindən təhrik edilmişdir. Bu fikri əvvəllər bir ağızdan administrasiyanın aşağı vəzifəli mə-

murlarını təxribatçılıqda ittiham edən birləşmiş inqilabi partiyalar da bölüşürlər.

İndi Tiflisdə zahirən sakitlikdir"[1].

Tiflisdə xarici ölkələrin diplomatik nümayəndəlikləri – Osmanlı, İran, Almaniya və Fransa baş konsulluqları qarışıqlıq düşən gündən etibarən gecə-gündüz əsgərlər tərəfindən qorunurdu.

Osmanlı dövlətinin Tiflis şəhərindəki baş konsulu Rafet bəy "Kavkaz" qəzeti vasitəsilə dinindən və milliyyətindən asılı olmayaraq Osmanlı təbəəlilərin hamısını Tiflisdə və Cənubi Qafqazın başqa quberniyalarında baş vermiş hadisələr zamanı üzləşdikləri canlı itkilər barədə məlumat verməyə, eləcə də maddi itkilər barədə ətraflı siyahı tərtib edib təcili baş konsulluğun dəftərxanasına təqdim etməyə çağırırdı[2].

Tiflisdəki İran konsulluğu da ölü, yaralı və itkiyə məruz qalmış İran təbəəlilərlə bağlı məlumat yığmaqla məşğul idi[3].

Erməni-azərbaycanlı qarşıdurmasına görə sərnişin qatarları adi qrafiklə işləmirdi. Məsələn, əgər Bakı-Batum qatarı səhər saat 8-də çıxırdısa, son günlərdə axşamlar çıxmağa başlamışdı.

Poçt-teleqraf işçilərinin 15 noyabrdan başlamış tətilləri davam edirdi. Tiflis teatrları da baş vermiş qanlı hadisələrlə bağlı fəaliyyətlərini müvəqqəti olaraq dayandırmışdılar.

Meydan-Şeytanbazar küçələrinin çoxu işıqlandırılmırdı, gecələr zil-qaranlıq olurdu və bu da xuliqanlara öz əməllərini törətməyə şərait yaradırdı. Qeyd olunan məsələ ilə bağlı VI məhəllənin pristavı iki dəfə şəhər idarəsinə müraciət edir. Şəhər idarəsi öz növbəsində bu müraciətləri küçələrin işıqlandırılması şöbəsinin müdiri Lalayantsa göndərir, amma heç bir nəticə hasil olmur. Polis küçə fənərlərinin təchizi və yandırılmasını, əgər küçə fənərçiləri bundan qorxurlarsa, öz üzərinə götürsə belə məsələ həll olunmur[4].

---

[1] "Kavkaz", 1905, 29 dekabr (№ 316).
[2] "Kavkaz", 1905, 4 dekabr (№ 299).
[3] "Kavkaz", 1905, 7 dekabr (№ 302).
[4] "Kavkaz", 1905, 6 dekabr (№ 301).

Bu ərəfədə Cənubi Qafqaz müsəlmanlarının qurultayı keçirilir. Qurultay əhalinin dini ehtiyaclarını müəyyən etməli, eləcə də müsəlmanların dini məişətinin təkmilləşdirilməsi məqsədilə təkliflər planı hazırlayıb təsdiqlənməsi üçün hökumətə ötürməli idi. M.Şahtaxtinskinin bununla bağlı "Tiflisskiy listok" qəzetində çap olunmuş yazısından bəlli olur ki, qurultayda müsəlman ruhani idarəsinin 1872-ci ildə qəbul olunmuş əsasnaməsinə cüzi dəyişikliklər edilir. Onlardan başlıcası mollalardan tutmuş şeyxülislam və müftiyə qədər bütün dini vəzifələrə təyinatların əhalinin seçimi əsasında həyata keçirilməsidir[1].

Ermənilər də 24 dekabrda Tiflisdə dünya ermənilərinin qurultayını keçirməyə hazırlaşırdılar.

5 dekabrda şəhər dumasında VI məhəllədə yerləşən evlərin xuliqan və oğrulardan qorunmasına həsr olunmuş müşavirə keçirilir. Müşavirədə bu işin təşkili üçün xüsusi büro seçilir.

Borçalı qəzası ərazisindəki azərbaycanlı və erməni kəndlərinin sakitləşdirilməsi, onlar arasında normal münasibətlərin bərpa olunmasına köməklik göstərilməsi məqsədilə 30 noyabrda gürcü ictimaiyyəti tərəfindən Borçalıya ezam olunmuş gürcü nümayəndələrindən ibarət xüsusi komissiya (general knyaz İ.S.Çavçavadzenin sədrliyi altında) Tiflisə qayıdır. Komissiya Borçalı qəzasında olduğu 5 gün ərzində çaxnaşma müşahidə olunan bütün kəndləri gəzib-dolaşır, sülhə səsləyən nitqlər söyləyir və hər iki xalqın nümayəndələrini səbirli olmağa çağırır.

6 dekabrda Tiflisə ilk qar yağır. Evlərin damları qalın qar örtüyü ilə örtülür. Bu təbiət hadisəsi şəhərə xeyli ziyan vurur; telefon xətləri qırılır, tramvayın hərəkəti dayandırılır.

Həmin gün təqribən gündüz saat 4-də Vorontsov küçəsində Hacı Baba İbrahim oğlunun həmin küçədə yerləşən evində yaşayan İran təbəəli Hüseyn oğlu adlı şəxs bir erməni meyxanaçı (duxançı) Vano tərəfindən ölümcül yaralanır və bir gün sonra

---

[1] "Tiflisskiy listok", 1905, 6 dekabr (№ 243).

ölür[1]. Bu hadisə barədə müsəlmanlar şəhər rəhbərliyinə məlumat verib onun araşdırılmasını tələb edirlər.

"Kavkaz" qəzetinin 6 dekabr sayında "əla qeyrətli xidmətə görə" üstündə "qeyrətə görə" yazısı olan gümüş medallarla təltif olunmuş, Qafqaz diyarında xalq-hərbi idarələrində ştatlı vəzifə tutan yerli məmurların siyahısı çap olunur. Həmin siyahıya o dövrdə Rusiya İmperiyası tərkibində olan Qars vilayətindən aşağıdakı məmurların adı daxil idi:

- Qars vilayətinin baş xalq məhkəməsinin qazısı Coşğun əfəndi Əhməd oğlu;
- Qars dairə şifahi məhkəməsinin deputatı (üzvü), Qars dairəsinin ("okruq"unun) Müsəlman Ağüzümü kəndinin sakini Cəfər ağa Cənnət oğlu;
- Qars dairə şifahi məhkəməsinin deputatı, Qars dairəsinin Dələver kəndinin sakini Qarabəy Mansur ağa oğlu.

Qeyd edək ki, bu sonuncu 1877-1878-ci illər türk-rus müharibəsi ərəfəsində rus ordusunda xidmət etməsi müqabilində Rusiya hökuməti tərəfindən əfv olunmuş keçmişlərin məşhur qaçağı, rus ordusu nəzdində yaradılmış Şürəgəl qeyri-nizami süvari alayının 4 yüzlüyündən birinin komandanı dələverli Mansurun oğlu idi[2].

7 dekabrda VI məhəllədən Mixail xəstəxanasına 12 gün əvvəl atışmalar zamanı güllə yarası almış Ramazan Yəhya oğlu gətirilir[3].

Həmin gün həkimlər 3 dekabrda xəstəxanaya yerləşdirilmiş 6 yaşlı azərbaycanlı qızı Uqbaba (çox güman ki, Rübabə – *F.V.*) Əkbər qızının ambulator müalicə aldığını və tam sağalması üçün ümidli olduqlarını bildirirlər[4].

"Kavkaz" qəzeti 7 dekabr 1905-ci il tarixli sayında belə bir məlumat dərc etmişdi: "Son 2-3 gün ərzində 6-cı məhəllədə ya-

---

[1] "Kavkaz", 1905, 8 dekabr (№ 303); "Tiflisskiy listok", 1905, 9 dekabr (№ 245).
[2] Bax: F.Valehoğlu, göstərilən əsəri, s.161.
[3] "Kavkaz", 1905, 8 dekabr.
[4] Yenə orada.

şayan İran təbəəli müsəlmanlar öz mal-mülklərini tez-tələsik satıb bir-birinin ardınca Sololakda yerləşən İran konsulluğuna gedirlər, hansı ki, onları öz vətənlərinə yola salır". "Tiflisskiy listok" isə 9 dekabr 1905-ci il tarixli sayında İran təbəəli 500 nəfərin vətənlərinə dönmək üçün Tiflis dəmir yolu vağzalına toplaşdığını, ancaq güclü qar yağdığı üçün onları hələ ki, İrana göndərməyin mümkün olmadığını bildirirdi.

Bu faktlar daşnakların türklərə yönəlik etnik sıxışdırma siyasəti çərçivəsində qismən istədiklərinə nail olduqlarını göstərir.

8 dekabrda erməni-azərbaycanlı barış komissiyasının növbəti iclası keçirilir. İclasda milli zəmində toqquşmaların tam kəsilməsi üçün görüləsi tədbirlər və Qafqazın azərbaycanlı və erməni nümayəndələrinin keçirilməsi nəzərdə tutulan qurultayının proqramı müzakirə edilir[1].

"Kavkaz" qəzetinin həmin günkü sayında çap olunmuş məlumatlar içərisində aşağıdakılar maraq doğurur:

– Cari ildə ermənilər və müsəlmanlar arasında Zaqafqaziyanın bir çox şəhərində baş vermiş toqquşmaların gələcəkdə təkrarlanmasının qarşısının alınması üçün İmperatorun Qafqazdakı canişini xüsusi məşvərət şurasının yaradılmasını lazım bildi. Bunun nəticəsində canişinin hərbi məsələlər üzrə köməkçisi general-leytenant Y.D.Malama bu şurada iştirak üçün erməni-tatar toqquşmaları baş vermiş Tiflis, Yelizavetpol, Bakı və İrəvan quberniyalarının əhalisinin bütün təbəqələrindən erməni və müsəlman-şiələrin hərəsindən 20 nəfər, müsəlman-sünnilərdən 10 nəfərin seçilməsi üçün ermənilərin katolikosuna, Zaqafqaziya şeyxülislamına və Zaqafqaziya müftisinin müavininə müraciət etmişdir.

– Şəhərin tatar hissəsindəki Xarpuxun əhalisi baş vermiş erməni-tatar atışmaları, yanğınlar və qarətlər nəticəsində möhkəm ehtiyac içindədir. Çoxu aclıq və soyuqdan xəstələnir. Təcili yardım etmək zərurəti var. Quriyalılara, müxtəlif yerlərdə tar-mar edilmiş yəhudilərə, şuşalılara, bakılılara və digərlərinə böyük

---

[1] "Kavkaz", 1905, 10 dekabr (№ 305).

miqdarda pul ayırmış şəhər ictimai idarəsi nədənsə erməni-tatar hadisələrindən zərər görmüş bu Tiflis kasıblarının ehtiyaclarına etinasız yanaşır.

– Erməni-tatar qarışıqlığı zamanı Tiflisdə bütün mineral hamamlar dağıdılmışdır, ordu tərəfindən qorunan knyaz Orbelianinin hamamından başqa, çünki atışmalar zamanı tatarlar orada daldalanıb xilas olurdular. İndi yalnız bu hamam fəaliyyət göstərir.

9 dekabrda "Sosial-demokratlar və erməni-tatar qırğını" mövzusunda referat keçirilir və gecə saat 12-yə qədər debatlar olur.

10 dekabra xeyriyyə məktəbinin sonrakı taleyinin müzakirə olunması üçün Müsəlman Xeyriyyə Cəmiyyətinin icraiyyə komitəsinin iclası təyin edilir[1].

"Vozrojdeniye" 10 dekabr 1906-cı il tarixli nömrəsində Cənubi Qafqazın müftisi Hüseyn əfəndi Qayıbovın məzuniyyətə çıxıb öz ailəsi ilə nisbətən sakit bölgələrə üz tutduğunu yazırdı.

Qəzetlərdə Zaqafqaziya şeyxülislamı Axund Əbdüssəlam Axundzadənin milliyyətindən və dinindən asılı olmayaraq bütün Cənubi Qafqaz xalqlarına belə bir müraciəti yayımlanır:

> "Tiflisdə rüsvayçı erməni-müsəlman qırğınının qara günləri onlarla günahsız insanı qurban apardı. Sağ qalanlar onlara həsəd aparır. Yaralılar, yetimlər, dullar, qarətlərdən və yanğınlardan mülklərini itirənlərin hamısı böyük ehtiyac içindədirlər və maddi kömək üçün mənə müraciət edirlər. Onlar kasıb və əslində zərərdidə olan öz Tiflisli dindaşlarından yardım uma bilmirlər. 22-30 noyabr mənasız hadisələrinin iztirab çəkən qurbanları adından, taleyin hökmünə buraxılmış və yaşamaq üçün heç bir vəsaitləri olmayan qadınlar, qocalar, uşaqlar adından Cənubi Qafqazın milliyyətindən və dinindən asılı olmayaraq bütün əhalisinə yoxsullaşmış qardaşlarına imkan daxilində kömək göstərmələri xahişi ilə müraciət edirəm".

Müraciətin mətninin altında isə kömək əlini uzatmaq arzusunda olanların ianələri ya yerli qəzet redaksiyaları vasitəsilə, ya

[1] "Vozrojdeniye", 1905, 10 dekabr (№ 44).

da birbaşa Vorontsov küç. 56 ünvanında şeyxin özünə verə biləcəkləri barədə qeyd də dərc olunur[1].

Şeyxülislamın müraciəti cavabsız qalmır. "Vozrojdeniye" qəzeti zərər çəkmiş Tiflis müsəlmanları üçün "İ.V." (çox güman ki, İbrahim Vəkilov − F.V) inisiallı şəxsin öz iş yoldaşları və dost-tanışlarından 70 rubl 50 qəpik, "Ş.M." (çox güman ki, Şərif Mirzəyev − *F.V.*) inisiallı şəxsin isə 47 rubl 20 qəpik toplayıb şeyxülislama verdiyini bildirirdi[2].

"Kavkaz" qəzetinin 13 dekabr 1905-ci il tarixli sayında isə Tiflis şəhər idarəsinin erməni-azərbaycanlı qarşıdurmasında zərər çəkənlərə yardım topladığı barədə məlumat verilərək, daha çox azərbaycanlıların yardıma ehtiyacı olduğu vurğulanırdı. Bu qəzetin başqa bir sayından bəlli olur ki, Tiflisin rus cəmiyyəti bu şəhərin müsəlmanları üçün 101 rubl 20 qəpik məbləğində pul yığıb canişin dəftərxanasının əməkdaşı Rəhimov vasitəsilə Zaqafqaziya Şiə İdarəsinə göndərmişdir[3].

Mətbuatdan bəlli olur ki, Tiflisdə milli zəmində baş vermiş iğtişaşlar zamanı Mixail xəstəxanasına 39 müsəlman (onlardan 8-i ölmüşdür), 27 erməni (1-i ölmüşdür), 14 gürcü (3-ü ölmüşdür), 4 rus, 1 alman və 1 yəhudi gətirilmişdir. Xarpux müalicəxanasına isə 300 yaralı (onlardan ölümcül yaralı – 25, ağır yaralı – 15 nəfər) gətirilmiş və bu yaralıların hamısı müsəlman olmuşdur[4].

"Kavkaz" qəzeti yazırdı ki, Tiflisdə 22 noyabrdan etibarən təzahür edən qanlı olaylar nəticəsində müsəlman qəbiristanlığında Mixail ölüxanasından gətirilmiş 25 müsəlman cəsədindən başqa, 6-cı və 5-ci məhəllələrdə öldürülmüş daha 17 müsəlman dəfn olunmuşdur[5].

---

[1] "Tsnobis purtseli", 1905, 9 dekabr (№ 2967); "Novoye obozreniye", 1905, 10 dekabr (№ 254).
[2] "Vozrojdeniye", 1905, 11 dekabr (№ 45).
[3] "Kavkaz", 1906, 15 fevral (№ 37).
[4] "Kavkaz", 1905, 9 dekabr (№ 304); "İveriya", 1905, 11 dekabr (№ 224).
[5] "Kavkaz", 1905, 6 dekabr.

* * *

1905-ci ildə Cənubi Qafqazın mərkəzində və şərqində yerləşən iri şəhərlərdə azərbaycanlılarla ermənilər arasında döyüşlərin getdiyi bir vaxtda Qara dəniz sahilindəki Batum və Poti kimi liman şəhərlərində yerli əhali ilə kazaklar arasında qanlı iğtişaşlar baş verirdi. «İveriya» qəzeti 1 dekabr 1905-ci il tarixli sayında Batumda və Potidə kazaklarla yerli xalq arasında toqquşma baş verdiyini və bu şəhərlərdən birincidə kazakların əli silahsız insanları gülləboran edib 25 nəfərə yaxınını öldürdüyünü, dənizçilər dəstəsinin xalqa yardım etdiyini bildirirdi. «Kavkaz» qəzetinin 6 dekabr 1905-ci il sayında isə məlumat verilirdi ki, Batumda naməlum şəxslər tərəfindən tərksilah edilmiş iki kazak öz yoldaşları ilə silahlarını axtarmağa getmiş, nəticədə camaatla toqquşma baş vermiş və 7 dinc sakin öldürülmüşdür. Bundan sonra xalq mitinq təşkil etmiş və kazaklardan qorunmaq üçün qubernatordan silahlandırılmasını tələb etmişdir.

* * *

## 1906-cı ilin yanvar-fevral ayları

1906-cı ilin ilk aylarında Tiflis şəhərində bir tərəfdən fevral ayında keçirilməsi nəzərdə tutulan erməni-azərbaycanlı sülh qurultayına hazırlıq işləri görülür, digər tərəfdən isə 1905-ci ilin noyabr qırğınının fəsadlarının aradan qaldırılması üçün bəzi real tədbirlər həyata keçirilirdi. Eyni zamanda ara-sıra baş verən təxribatlar şəhər əhalisini gərgin vəziyyətdə saxlamağa davam edirdi. Həmin dövrdə Tiflis mətbuatının yaydığı müəyyən diqqətəlayiq xəbərləri xronoloji qaydada təsvir etməyə çalışacağıq:

16 yanvar 1906-cı ildə Baryatinsk küçəsinə bomba atılır. Şəhərdə şayiələr yayılır ki, ermənilərlə azərbaycanlılar arasında yenidən qırğın başlayıb. Bir anda bütün müəssisələr bağlanır, küçələr boşalır. Həmin gün saat 4-də azərbaycanlıların və ermənilərin qarışıq yaşadığı Surp-Gevork küçəsində atəş səsləri eşidilir. Meydanın aşağı hissələrində atışma başlanır və saat 5-ə – əs-

gərlərin gəlib yetişməsinə qədər davam edir. Nəticədə iki nəfər ölür, dörd nəfər isə yaralanır[1].

Tiflis qəzasının müsəlmanları canişinə müraciət edib aralarındakı ixtilafa görə, polis strajnikləri (keşikçiləri) vəzifəsindən azərbaycanlıların və ermənilərin azad olunmasını, onların yerinə neytral xalqların nümayəndələrinin təyin olunmasını xahiş edirlər[2].

Qurban bayramı münasibətilə Qafqaz sünni ruhani idarəsi bütün müəssisələrin rəhbərlərinə müraciət ünvanlayıb 1906-cı ilin 22-26 yanvar tarixlərində sünni işçilər, tələbələr üçün qeyri-iş günü elan edilməsini xahiş edir. Molla Namaz Terequlov bu məlumatı qəzetlərdə çap etdirməyi xahiş edir[3].

Dövlət VI məhəllədə 29 noyabr 1905-ci ildə Şeytanbazarda ermənilərin törətdiyi böyük yanğın nəticəsində yanıb külə dönmüş evlərin ərazilərini sahiblərindən alıb mövcud meydanı genişləndirmək istəyir, ev sahiblərinin əksəri buna razılıq verir. Məsələ ilə bağlı 31 yanvar 1906-cı ildə Tiflis şəhər idarəsinin üzvü N.E.Arqutinski-Dolqorukov qeyd olunan torpaq sahələrinə baxış keçirir[4].

Fevralın 2-də axşam saat 7-nin yarısında şahzadə Qacarın V məhəllədə Solomon küçəsində yerləşən evinin polismeysterin icazəsi ilə keşiyini çəkən şəxsi mühafizəçiləri arasında baş vermiş mübahisə atışma ilə nəticələnir[5].

Zaqafqaziya şeyxülislamı Əbdüssəlam Axundzadə xəstələndiyi üçün canişin İ.Vorontsov-Daşkov 1906-cı ilin əvvəlində onun vəzifələrinin icrasını Zaqafqaziya şiə ruhani idarəsinin üzvü Abbasqulu Sultan Hüseynbəyova həvalə edir[6].

M.Şahtaxtinskinin "Kavkaz" qəzetinin 15 fevral 1906-cı il tarixli sayında dərc etdirdiyi "İztirab çəkən şeyxülislamın sözü"

---

1 "Novoye obozreniye", 1906, 18 yanvar.
2 "Novoye obozreniye", 1906, 18 yanvar.
3 "Kavkaz", 1906, 21 yanvar.
4 "Kavkaz", 1906, 1 fevral.
5 "Tiflisskiy listok", 1906, 7 fevral (№ 29).
6 "Kavkaz", 1906, 14 fevral.

başlıqlı məqaləsindən məlum olur ki, Axund Ə.Axundzadənin 18 yaşlı qızı erməni-müsəlman davası zamanı aldığı sinir sarsıntısından xəstələnib dünyasını dəyişir və 10 fevral 1906-cı ildə torpağa tapşırılır. Bu zaman axund özü də xəstə yatdığı üçün yas yerinə gələnlər onu narahat etməsinlər deyə, axundun evinə deyil, qonşu evə baş çəkib burada Xarkov Universitetinin tələbəsi olan oğlu Rəşid bəyə baş sağlığı verirlər. Məqalədən axundun xəstələnməsinə də 1905-ci ilin noyabr ayında Tiflisdə baş vermiş qırğının səbəb olduğu bəlli olur.

”Tiflisskiy listok” qəzetinin 14 fevral 1906-cı il tarixli sayında Aleksandr Xatisovun Məmməd ağa Şahtaxtinskinin “Novoye vremya” qəzetində yayımlanmış erməni separatizmi barədə məqaləsinə cavabı çap olunur.

“Novoye obozreniye” qəzetinin 16 fevral 1906-cı il tarixli sayında dərc olunmuş və diqqətimizi cəlb edən bəzi xəbərlər:

- “İrşad” qəzetinin naşiri Əhməd bəy Ağayevə rusca “Proqress”, azərbaycanca “Tərəqqi” qəzetinin nəşrinə icazə verilir;
- Tiflis erməni yeparxiyasının konsistoriyasına* revizor təyin olunmuş arximandrit Yegişe Muradyan öz vəzifəsinin icrasına başlamaq üçün Tiflisə gəlir;
- Xarpuxda yerləşən I Puşkin məktəbi nəzdində əlavə üç şöbə – Azərbaycan, gürcü və erməni şöbələri açmaq qərara alınır;
- 1898-ci ildə Qafqazda 4100 rusa, 6000 gürcüyə, 8400 erməniyə və 24300 azərbaycanlıya bir məktəb düşürdü.

“Vozrojdeniye” qəzeti 19 fevral 1906-cı il tarixli sayında müsəlman ziyalıları dərnəyi tərəfindən Tiflisdə “Molla Nəsrəddin” həftəlik satirik-yumoristik jurnalının yaradılmasının nəzərdə tutulduğunu yazırdı.

Həmin qəzet növbəti 21 fevral 1906-cı il tarixli sayında şə-

* konsistoriya – xristianlarda inzibati və məhkəmə hüququna malik ruhani idarə.

hərin azərbaycanlılar yaşayan VI məhəlləsinin sakinlərinin və şeyxülislamın bu məhəllədə mövcud olan əxlaqsızlıq yuvalarının bağlanması üçün dəfələrlə müraciət etmələrinə baxmayaraq, bu məsələnin hələ də öz həllini tapmadığını bildirirdi.

"Tsnobis purtseli" qəzeti ermənicə yayımlanan "Nor-Dar"a istinadən yazırdı ki, Tiflis müsəlmanları general-qubernatorun yanına nümayəndələr göndərib, azərbaycanlı və erməni məhəllələrində əmin-amanlıq yaratdığı üçün ona təşəkkür elan ediblər[1].

"Tsnobis purtseli"nin yenə həmin sayından bəlli olur ki, canişin dəftərxanası sosial-demokratların səlahiyyətlisi İsidor Ramişvilinin ona imza öhdəliyi altında verilmiş 500 berdanka və 10 min patrondan neçəsini geri qaytardığı barədə hərbi artilleriya anbarına sorğu göndərib; anbardan verilən cavabda 268 berdankanın qaytarıldığı, heç bir patronun geri verilmədiyi bildirilibdir[2].

Təqribən iki ay sürən ciddi hazırlıqdan sonra 1906-cı ilin 20 fevral tarixində Tiflis şəhərində canişin sarayında Cənubi Qafqazın azərbaycanlılar və ermənilər kompakt yaşayan bütün bölgələrindən hər iki xalqın nümayəndələrinin iştirakı ilə sülh qurultayı öz işinə başlayır.

[1] "Tsnobis purtseli", 1906, 19 fevral (№ 3007).
[2] Yenə orada.

# IV Bölüm

## BORÇALIDA XALQ HƏRƏKATI

Tiflisdə 1905-ci ilin noyabr ayının 22-dən öz başlanğıcını götürən qanlı olaylar Borçalıda da geniş əks-səda doğurur və bu mahalda yaşayan azərbaycanlıların xalq hərəkatının başlanmasına rəvac verir. Öz şəhərli soydaşlarının ermənilərin silahlı basqınlarına məruz qalmalarına və vəhşiliklə qətl olunmalarına biganə yanaşa bilməyən Borçalı qarapapaq türkləri bir tərəfdən təcili surətdə silahlı süvari dəstələr yaradıb Tiflisə doğru hərəkətlənir, digər tərəfdən isə Tiflis ətrafında, eləcə də Borçalı qəzasının ərazisində ermənilərə məxsus zavodları, xutorları* və digər maddi gəlir mənbələrini hədəfə alırlar. Gürcüstan Milli Tarix Arxivində qorunan sənədlərdən və o dövrdə nəşr olunan qəzet xəbərlərindən qarapapaqların ilk hücumuna 1905-ci ilin 24-25 noyabrında Tiflis ətrafında və Qarayazıda yerləşən erməni malikanələrinin uğradığı bəlli olur:

– Noyabrın 24-də aqronom Qriqori Vartanovun Erməni Soğanlığı kəndinə və Varvara kilsəsinə yaxınlıqda yerləşən mülkü talan edilib yandırılır. Məsələ ilə bağlı aparılan rəsmi yazışmalarda Vartanovun mülkünə hücum çəkən azərbaycanlıların bu hərəkəti ermənilərdən Tiflisdəki soydaşlarının qisasını almaq üçün etdiklərini açıq söylədikləri vurğulanır[1].

– Tiflis yaxınlığındakı Soğanlıq dəmir yolu stansiyasından 24 noyabr axşam saat 10 radələrində çəkilmiş teleqramda Erməni Soğanlığı kəndinin və Soğanlıq postunun yandırıldığı, post keşikçilərinin ölümlə hədələndiyi bildirilir və kömək göndərilməsi xa-

---

* xutor - içərisində sahibinin evi və təsərrüfatı olan ayrıca mülk.

[1] GMTA, f. 115, s. 1, iş № 521.

hiş olunurdu[1]. Erməni Soğanlığı kəndində Sedrak Yedqarovun və Sarkis Oqanovun evlərinin yandırılıb qarət olunmasında günahlandırılan şəxslər arasında "Tatar" Soğanlığı kəndinin sakinləri Həsən İbrahim oğlu, Həsən İsa oğlu və Söyün Pirmurad oğlunun adları hallanır[2]. "Vozrojdeniye" qəzeti 2 dekabr 1905-ci il tarixli 38-ci sayında azərbaycanlılar yaşayan Soğanlıqda adaşı olan qonşu kənddən bir neçə erməni ailəsinin sığınacaq tapdığını və azərbaycanlıların onlarla yaxşı davrandığını yazırdı.

– Həmin gün Qarayazı nahiyəsinin Nazarlı kəndində Adamov və Şuralov soyadlı ermənilərin malikanələri qarət olunur. Adamovun malikanəsinin idarəçisi Stepanyants qaçıb gizlənir. Hadisə yerinə Qarayazı stansiyasından əsgərlər göndərilir[3].

– Noyabrın 24-dən 25-nə keçən gecə Soğanlıqda İvan Melikov adlı şəxsin evi yağmalanır. Məsələ ilə bağlı yaxınlıqda yerləşən Xatissopeli kənd icmasının starşinası Koniya Poğosov protokol tərtib edir və bu hadisənin törədilməsində "Tatar" Soğanlığı kəndinin sakinləri Nuru Qaçaq İsa oğlu, Allahverdi Əlləz oğlu və Əsəd İbrahim oğlunu təqsirləndirir[4].

– 25 noyabrda erməni əsilli Yekaterina Uşiarovanın və David Tamamşevin Soğanlıqda, Varvara kilsəsinin arxa tərəfində yerləşən mülkləri və Ovanes Titiçevin həmin ərazidəki dükanı qarət olunub yandırılır. Bu hadisələrin törədilməsində Ağtəhlə, Qaratəhlə, Qaracalar və "Tatar" Soğanlığı kəndlərinin sakinləri şübhəli bilinirlər. Yeri gəlmişkən, ağtəhləlilər Tiflis erməniisi Qriqori Areşevin Bolbiani düzündə icarəyə götürdüyü otaracaqdan ona məxsus mal-qaranın aparılmasında da günahlandırılırlar.

– 25 noyabrda səhər saat 10-da iyirmiyə yaxın azərbaycanlı Qarayazı nahiyəsinin Qaracalar kəndi yaxınlığında yerləşən Lo-

---

[1] "Kavkaz", 1905, 27 noyabr; "Tiflisskiy listok"; 1905, 27 noyabr; "Vozrojdeniye", 1905, 27 noyabr.

[2] "Tiflisskiy listok", 1905, 8 dekabr (№ 244).

[3] "Kavkaz", 1905, 27 noyabr; "Tsnobis purtseli", 1905, 30 noyabr; "Vozrojdeniye", 1905, 27 noyabr.

[4] GMTA, f. 115, s. 1, iş № 1012.

çino xutoruna hücum edir və buradakı erməni malikanələrini yağmalayıb yandırır. Zərər çəkmişlər şikayət edərək onlara Sofu ağa Sofiyevin başçılığında təhləlilərdən və qaracalarlılardan ibarət silahlı dəstənin hücum etdiyini və onların içərisindən 6 nəfəri – Qaracalar sakinləri Allahverdi və Rəhim Sofiyevləri (Sofu bəyin oğulları), Ömər Tuş oğlunu (İbrahim oğlu) və Ağtəhlə sakinləri Qasım Cəlil oğlu, Balabəy İsmayıl oğlu Qayımqulov (Qayımquluyev) və Hacı Hasanı tanıdıqlarını bildirirlər. Onların əksinə olaraq yaxınlıqda yerləşən Didi Lilo kəndinin gürcü sakinləri dindirilmə zamanı xutora hücum edənlərin kim olduqlarını bilmədiklərini söyləyirlər. Qeyd edək ki, Loçino xutoru knyaginya Mariya İvanovna Arqutinskayaya məxsus idi və onu Tiflis şəhərinin irsi (köklü) fəxri vətəndaşı statusuna malik Georgi Sukiasov, kollej registratoru* Avetis Ter-Vartanyants, Mirzoyev kimi Tiflis erməniləri icarəyə götürmüşdülər[1].

– Həmin gün Nəftluqda Mantaşovun 6 otaqlı mülkü qarət olunur (bu işdə də qaracalarlı Sofiyevlər günahlandırılır), Qarayazı düzündə yerləşən Qaratəpə kəndinin rus malikanələri yaxınlıqdakı Candar kəndinin sakinləri tərəfindən tar-mar edilir[2].

– Tiflis qəza rəisinə yazılmış şikayət ərizələrində Qarayazı nahiyəsinin azərbaycanlıları tərəfindən tiflisli Geork Muradova məxsus ümumi dəyəri 35 min rubl olan 4000 qoyun, 425 iribuynuzlu mal və 17 atın, A.İ.Saqinova məxsus 40 min rubl dəyərində 5000 qoyunun, A.Muradovun 50 min rubl dəyərində 5000 qoyun, 650 baş qaramal və 50 atının, Georgi Sukiasovun 5960 rubl dəyərində 800 qoyununun aparıldığı və Adamovun malikanəsinin idarəçisi Stepan Stepanyantsın mülkünün qarət olunduğu bildirilirdi[3]. Tiflisin neft sahələrinin icarədarı Ter-Markarov da yüksək dairələrə ünvanladığı müraciətində şəhərin Navtis-Çala (Neftçala) adlanan ətraf hissəsində ona məxsus ərazilərdəki tiki-

---

* kollej registratoru – çar Rusiyasında mülki rütbə.

[1] "Novoye obozreniye, 1905, 4 dekabr.

[2] GMTA, f. 115, s. 1, iş № 521.

[3] "Tiflisskiy listok", 1905, 3 dekabr.

lilərin azərbaycanlılar tərəfindən talan olunduğunu ifadə edib, bunun müqabilində ona 50 min rubl kompensasiya ödənilməsini istəyir[1].

Yuxarıda qeyd olunan hadisələrin araşdırılması Tiflis Dairə Məhkəməsinin müstəntiqi Lyaxoviçə həvalə olunur və müvafiq olaraq «Tiflis ətrafındakı erməni malikanələrinin qarətləri barədə» başlıqlı cinayət işi açılır. İki ildən artıq davam edən istintaq tədbirlərindən sonra Lyaxoviçin 29.02.1908-ci il tarixli qərarı ilə bu cinayət işi bağlanır. Kifayət qədər istintaq materialı və şahid ifadəsi olmadığı üçün heç kəs həbs olunmur.

Mətbuat səhifələrindən bəlli olur ki, Tiflis ətrafının ermənilər yaşayan Koda, Kumıs, Telet, Tsalasğuri, Durnux, Dağet, Şindis, Tabaxmela, Tsavkis kimi kəndlərinin nümayəndələri 24, 25 və 26 noyabrda dalbadal Tiflisə gəlib qəza rəisi və qubernatordan onlara özlərini Borçalı azərbaycanlılarından qorumaq üçün silah verilməsini xahiş edirlər[2]. Onların xahişi yerinə yetirilir. Bu barədə "İveriya" qəzeti yazırdı: "...Tiflis yaxınlığında yerləşən Şindisi, Teleti və digər kəndlərin kəndliləri Tiflisə gəldilər və polismeysterə şikayət etdilər: Borçalı tatarları hücum ediblər və mal-qaranın hamısını aparıblar. Kəndlilər polismeysterdən silah istəyirdilər. Polismeyster onları canişinin yanına apardı və canişin onların istəyini təmin etdi"[3].

"Vozrojdeniye" qəzeti isə Koda və Kumıs kəndlərindəki "etibarlı mənbələrə istinadən" azərbaycanlıların bu kəndlərdə heç kəsi incitmədiklərini, ancaq buna rəğmən sakinlərin təlaş içərisində yaşadıqlarını və gecələr meşələrdə gizləndiklərini yazırdı[4].

Yuxarıda adları çəkilən kəndlərin sakinlərinin narahatçılığı və qeyri-dəqiq məlumatları əsasında bu kəndlərə Tiflisdən artilleriya və digər döyüş vasitələrilə təchiz olunmuş ordu bölmələri göndərilir.

Aran Borçalının azərbaycanlı kəndlərini də həyəcan dalğası

[1] "Novoye obozreniye", 1906, 6 yanvar.
[2] "Tiflisskiy listok", 1905, 29 noyabr.
[3] "İveriya", 1905, 29 noyabr (№ 214).
[4] "Vozrojdeniye", 1905, 30 noyabr.

bürümüşdü. Erməni yaşayış məntəqələrinin sakinləri vahimə içərisində idilər. Borçalı qəza rəisi kapitan Ryazanovun azərbaycanlıların gözlənilən hücumunun qarşısının alınması üçün tez bir zamanda əlavə ordu bölmələrinin göndərilməsi tələbi ilə qəza mərkəzindən – əhalisinin çoxu ermənilərdən ibarət olan Şüləver qəsəbəsindən Tiflis qubernatoruna ünvanladığı “çox təcili” qrifli teleqramların ardı-arası kəsilmirdi[1].

Ryazanov Tiflis qubernatoruna 1905-ci il noyabrın 24-də göndərdiyi teleqramında bunları bildirirdi:

“Bu gün Aramyantsın, Mirzoyevin və Mantaşevin kontorları yerli tatarlar tərəfindən qarət edilərək yandırılıbdır. Məlumatlara görə, Tiflisə gedən 600-ə yaxın atlı-silahlı tatar geriyə qayıdır və onlar gecə Şüləverə baş çəkmək istəyirlər. Təcili olaraq Şüləverə 200 piyada və yüzlərlə kazak göndərin”.

Ryazanovun Tiflis qubernatoruna ünvanladığı 25 noyabr 1905-ci il tarixli, 81 saylı teleqramından:

“Bu gecə Şüləverə tatarların hücumu gözlənilir. Bizdə olan qüvvələrlə onun qarşısını almaq mümkün deyil. Təcili kavaleriya göndərin”.

Ryazanovun həmin gün Şüləverdən yenə də Tiflis qubernatoruna göndərdiyi 84 saylı başqa bir teleqramında isə deyilirdi: “Bu gün gecə Ləmbəlidə tatarlar tərəfindən Sumbatovun malikanəsi yandırılıb. Marnaulda, Arıxlıda, Sadaxlıda da ermənilərin evləri yandırılıb. Dünən Aşağı Saralda 500 silahlı tatarla şəxsən özüm söhbət etdim. Onlar açıq-aydın bəyan edirlər ki, Tiflis hadisələrinin əvəzini çıxmaq üçün Şüləverə hücum edəcəklər. Onların qarşısını yalnız qoşunlar ala bilər. Əks halda mən əhalinin həyatı, mülkü və pullarına görə məsuliyyəti öz üzərimdən atıram”.

Borçalı qəza rəisinin müraciətinə dərhal reaksiya verilir və Tiflis qubernatoru ona həmin gün göndərdiyi cavab teleqramında bildirir ki, kapitan Voznesenski 2 sotnya (yüzlük) ilə Şüləverə ezam edilib və artıq yoldadır. Bu barədə “Kavkaz” qəzeti də

[1] Bax: GMTA, f. 17, s. 2. iş № 557.

məlumat dərc etmişdi: "Borçalı qəzasının əsasən ermənilər yaşayan Şüləver kəndinin sakinlərinin xahişi ilə Tiflisdən bu kəndə qəza rəisinin baş köməkçisi, ştabs-kapitan Voznesenskinin komandanlığında Poltava alayının kazakları göndərilibdir"[1].

Eyni zamanda imperatorun Qafqazdakı canişini Vorontsov-Daşkovun qərarı ilə Tiflis artilleriya anbarına göstəriş verilir ki, Tiflis qəza rəisi Şanşiyevin imza öhdəliyində erməni icmalarına 1000 berdanka-tüfəng və on minlərlə patron verilsin.

Bu tədbirlərə rəğmən, yenə də qəzet səhifələrində Şüləverdən starşina (kəndxuda) V.Mehrabovun, müstəntiq və digər dövlət məmurlarının 2-3 minə yaxın atlı-yaraqlı Borçalı azərbaycanlısının qəza mərkəzinə hücuma hazırlaşdıqları barədə verdikləri məlumatlar dərc olunurdu[2].

Şüləver hadisələri sonralar, 1918-ci ildə Qars İslam Şurasının başqanı olmuş nüfuzlu Borçalı ağası bolus-kəpənəkçili Emin ağa Acalovun Y.İ.Kanevskinin[*] 1915-ci ildə Rusiyanın Tula şəhərində rusca çap etdirdiyi "Emin ağa Borçalı (Keçmiş qaçağın xatirələri)" kitabında öz əksini tapmış xatirələrində də geniş yer alırdı:

> "...Tiflisdən, Bakıdan, Şuşadan, Yelizavetpoldan, İrəvandan dəhşətli qırğınlar barədə xəbərlər gəlməyə başladı. Mən Borçalı bəylərindən məktub aldım:
>
> – Emin ağa, sən 200 süvari dəstəsinin rəisi təyin olunubsan, sabah Tiflisə yola düşməlisən, yoxsa ermənilər silahlanıblar və bizim qardaşlarımızı öldürürlər.
>
> Mən evdə gecələyirdim və gecə ərzində dörd məktub aldım: Tiflis tatarlarından, Borçalı bəylərindən, Qazax bəylərindən və ətraf ərazilərdəki tatarlardan. Məktubların hamısında deyilirdi ki, sabah mən təyin olunmuş yerə getməli və orada

[1] "Kavkaz", 1905, 30 noyabr, s.2.

[2] "Tiflisskiy listok", 1905, 30 noyabr.

[*] Yakov İvanoviç Kanevski (1875-1937) – tanınmış silah konstruktoru, TOZ-1 tüfənginin yaradıcılarından biri, Tula silah zavodunda işləyib, 1917-ci ildə İjevsk silah zavoduna rəhbərlik edib, 1909-cu ildə kapitan rütbəsini daşıyıb (*F.V.*).

məni gözləyən çox sayda atlını Tiflisə aparmalıyam.

Dan yeri ağaranda mənim həyətimə starşinalarının başçılığında on iki nəfər Xaçın ermənisi gəldi. Mən onları kəndə apardım, icmanı və mənim qohumlarım Acalovları məscidə yığdım. Orada onlar bolnis-xaçınlılara və ümumiyyətlə ermənilərə toxunmayacaqlarına and içdilər.

Oradan biz, on iki nəfər hörmətli tatar Bolnis-Xaçına getdik və erməniləri heç bir erməni komitəsini tanımayacaqlarına və heç bir tatara dəyib-toxunmayacaqlarına and içdirmək üçün kilsəyə dəvət etdik.

Xaçında mənim yanıma at üstündə strajnik* yaxınlaşdı; o, atı elə çapırdı ki, at düz dura bilmirdi və yırğalanırdı, onun özü isə zorla nəfəs alırdı; mənə iki paket verdi, hərəsinin içərisində iki-üç söz var idi. Birinci paket barışdırıcı münsif** T.-dən (qaçağanlı Vəli bəy Topçiyevdən – *F.V.*) idi:

– "Əziz Emin ağa, mənə hörmət edirsənsə bu məktubu alan kimi Şüləverə gəl".

İkinci – qəza rəisininköməkçisi B.-dən (Bakradzedən – *F.V.*) idi:

– " Emin ağa, yolda səni ölüm gözləsə də tez, elə indi Şüləverə gəl; Allah xatirinə gəl, bu gün gəlməsən sən mənim dostum deyilsən".

Mən hər iki məktubu oxudum və dedim:

– Mənim Şüləverə getməyimi xahiş edirlər.

Hamı anladı ki, məni barışıq yaratmaq üçün çağırırlar və bir ağızdan dedilər:

– Get, biz özümüz də bunu xahiş edirik.

Mən evə getdim və özümlə müşayiətçi Məmməd Sərdar oğlunu götürüb Şüləverə yol aldım. Şüləverin qarşısında məni

* strajnik – çar Rusiyasında kənd yerlərində uryadnikə tabe olan polis nəfəri; uryadnik – Çar Rusiyasında qəza polisində aşağı rütbə – *F.V.*

** barışdırıcı münsif – çar Rusiyasında 1861-ci il kəndli islahatından sonra kəndlilərlə mülkədarlar arasındakı torpaq mübahisələrini qaydaya salmaq üçün yaradılmış vəzifə – *F.V.*

> bir neçə dəstə tatar süvarisi qarşıladı. Mən onları sakitləşdirdim və qırğın törətməyin lazım gəlmədiyinə inandırıb, evlərinə qayıtmaq üçün yola gətirməyi bacardım.
>
> Şüləverin girişində biz silahlı piyada erməni kütlələri gördük; kəndin ətrafında pusqular qurulmuşdu..."[1]

Emin ağa Şüləverdə ondan yardım istəyən ermənilərə keşişlərinin başçılığı altında 12 və ya 15 nəfərlə qəza rəisi və barışdırıcı münsifin müşayiətində Həsən bəy Yadigarovla görüşməyi məsləhət bilir. Onun məsləhətinə qulaq asırlar. Şüləver ermənilərinin nümayəndələri qəza rəisi Ryazanov və onun köməkçisi Bakradze, barışdırıcı münsif Vəli bəy Topçiyev və Emin ağanın özü ilə birlikdə Təkəli kəndinə Həsən bəygilə gedirlər. Qızğın danışıqlar nəticəsində qərara gəlinir ki, hamı xalqı sakitləşdirmək üçün imkan daxilində əlindən gələni etsin.

Həmin gecə yalan şayiələr yayılır ki, Sadaxlı və Kəpənəkçi tərəfdə erməni daşnakları azərbaycanlıları qırırlar. Səhərisi gün Emin ağa qəza rəisinin xahişi ilə yenə Şüləverə getməli olur. Yolda o, Molla-Əhmədli kəndində bir erməninin malikanəsini talan etmək istəyən azərbaycanlıları fikirlərindən döndərməyə nail olur.

Yeri gəlmişkən qeyd edək ki, Borçalı mahalındakı erməni yaşayış məntəqələrinin, o cümlədən 5000-ə yaxın əhalisi olan qəza mərkəzi Şüləverin əhalisi XVIII əsrin II yarısında gürcü çarı II İraklinin hakimiyyəti dönəmində və XIX əsrdə çar Rusiyasının eksponsianist demoqrafik siyasəti nəticəsində buraya köçürülmüş ermənilərdən ibarət idi.

Borçalı qəzasının Yekaterinenfeld nahiyəsinin (indiki Bolnis rayonunun ərazisi) Başkeçid yolu üzərində yerləşən erməni kəndləri də qorxu içərisində günlərlə yuxu üzünə həsrət qalırlar. 24-27 noyabr arası Yekaterinenfeld koloniyası, Balıc və Kazret kəndləri talan olunur[2].

---

[1] Я.И.Каневский. Эмин-Ага Борчалинский (Воспоминания бывшего разбойника), Тула, 1915, с. 113-114.

[2] GMTA, f. 17, s. 2, iş № 557.

Borçalı qəza rəisinin 21 dekabr 1905-ci il tarixli qərarı ilə Yekaterinenfeld nahiyəsinin Darvaz kəndinin starşinası Səməd Murad oğlu və həmin kəndin sakini Qara Musa İsmayıl oğlu ermənilərə qarşı dəstələrin yaradılmasında və 24-28 noyabrda nahiyədə erməni malikanələrinin talan edilib yandırılmasında iştiraka görə suçlu bilinərək həbs olunub, Şüləverdə qəza idarəsində saxlanılırlar. Ryazanov bu qərarı barədə 25 dekabr 1905-ci il tarixli, 2157 saylı raportu ilə Tiflis qubernatorunu da məlumatlandırır[1] (Sözgəlişi: GMTA-da qorunan təhrir dəftərlərinin 1886-cı ilə aid göstəricilərindən həmin dövrdə qeydiyyata alınmış Darvaz sakinlərindən Səməd Murad oğlunun təqribən 8, onunla bərabər dustaq edilmiş Musa İsmayıl oğlunun isə 27 yaşı olduğu, həmçinin Səmədin yaxın qohumlarından Qəmbər adlı əmisinin və Orduxan, Məmməd və Alxan adlı əmisi uşaqlarının, Musanın isə Allahyar və Məmməd adlı oğullarının olduğu bəlli olur[2]. Buradan 1905-ci ildə starşina Səməd Murad oğlunun təqribən 27, Musa İsmayıl oğlunun isə 46 yaşında olduğunu müəyyən etmək mümkündür).

Eyni tipli məsələ ilə bağlı – Borçalı çökəyində ermənilərə qarşı fəaliyyətə görə Lecbəddin kəndinin sakinləri Məmməd Nəsib oğlu Qarabalaoğlu (30 yaşında), Davud Nəsib oğlu Qarabalaoğlu (26 yaşında), Hacı Mahmud Nağı oğlu (25 yaş), Əhməd Ömər oğlu, Məmməd Əli oğlu (30 yaş) və Muxtar Qasım oğlu Pənahoğlu (22 yaş), Kürtlər kəndinin sakini Şəmsi Mirzə oğlu Mollaoğlu (22 yaş), Böyük Muğanlı ağaları Abdul ağa İrza oğlu Mursaqulov (30 yaş) və Baydar ağaları Əmirxan ağa Almas oğlu Sultanov (35 yaş) göz altına alınırlar[3].

Emin ağa Acalovun Y.Kanevskiyə söylədiyi xatirələrdən 1905-ci ilin noyabr-dekabr aylarında Yekaterinenfeld nahiyəsində, Kazret ilə Kəpənəkçi kəndləri arasındakı Faldaş meşəsində

---

[1] GMTA, f. 17, s. 2, iş № 557, vv. 145-146.
[2] “Ulu baban kim olub?”, II kitab. Darvaz kəndi (hazırlayan: Prof. Dr. Valeh Hacılar), Tiflis, 2006, s. 51-52.
[3] GMTA, f. 17, s. 2, iş № 557, v. 148.

dağet-xaçınlı soyğunçu Kor-Artyomun başçılığı altında ermənilərin quldur dəstəsinin özbaşınalıqla məşğul olduqları bəlli olur.

26-28 noyabrda ermənilərin artıq Dağ Borçalıda, Başkeçid yörəsində yerləşən zavodları və xutorları yerli azərbaycanlıların qisas hədəfinə çevrilir:

- 26 noyabrda Cəlaloğlu sakinləri S.İ.Ter-Qriqorov və Matevosov qardaşlarının Başkeçid kəndi yaxınlığında yerləşən pendir istehsalı zavoduna hücum edilib, Hamamlı kəndi istiqamətinə zavod avadanlıqları və 500 baş mal-qara aparılır[1].

- 27 noyabrda Baron Kuçenbaxın çaparı olan Hamamlı kəndinin sakini Osman Molla Abdulla oğlunun başçılığı altında Hamamlı, Yırğançay, Bəzəkli və Cücəkənd (Cucikənd) sakinlərindən ibarət 30-40 azərbaycanlı Şahnazarda Zaxar Arutyunovun dükanını qarət edir. Bu işdə onlara Şahnazarın erməni katolikləri də kömək edir. Azərbaycanlılar gedəndən sonra dükanda qalan malları yerli ermənilər daşıyırlar[2].

- Həmin gün Baxçalar və "Tatar" Örmeşəni (O dövrdə Duxobor Örmeşəni də olub – *F.V.*) kəndlərinin sakinləri tərəfindən Qaregin Arutyunovun xutoru talan olunur. Q.Arutyunov özü Tiflis sakini idi və xutoru 1899-cu ildə Xudadov soyadlı başqa bir ermənidən icarəyə götürüb özünə böyük bir fermer təsərrüfatı qurmuşdu. Qarətdə təqsirli bilinən örmeşənlilərdən Aşıq Qəhrəman Mahmud oğlu, Qara və Emin Molla Alı oğlu, Qara Alı Əhməd oğlu və digərlərinin adları sıralanırdı[3].

- 27 noyabrda həmçinin Georgi Şadinovun Qaraisa (Təzəkənd) və Qaraqala kəndləri arasındakı pendir zavodu qarət olunub yandırılır, 400 baş qaramal aparılır. Şadinov 9 dekabr 1905-ci il tarixli şikayət ərizəsində baş vermiş hadisədə Qaraisa, İlməzli, Cücəkənd, Soyuqbulaq, Yırğançay, Qaraqala, Hamamlı, Qəmərli və Bəzəkli kəndlərinin sakinlərini günahlandırır. Borçalı qəza pristavının protokolunda hücum edən dəstəyə Cücəkəndli

[1] "Tiflisskiy listok", 1905, 2 dekabr.
[2] GMTA, f. 115, s. 1, iş № 517.
[3] GMTA, f. 115, s. 1, iş № 518.

Alı Qara Qurban oğlu və İlməzli Molla Usub oğlunun başçılıq etdiyi yazılır. Bu məsələ ilə bağlı cinayət işini də müstəntiq Lyaxoviç aparır. Dindirilənlərdən yalnız zavodda işləyən Aleksey Çolabov qarətçiləri tanıdığını bildirir. Ancaq müstəntiq onun söylədiklərinin digər şahidlər tərəfindən təsdiq edilmədiyini, eləcə də hadisə baş verən vaxt ermənilərlə azərbaycanlılar arasında düşmənçilik xüsusi vüsət aldığından milliyyətcə erməni olan Çolabovun dediklərini dəlil-sübut hesab etməyin düzgün olmadığını əsas gətirərək, 31.08.1907-ci il tarixli qərarı ilə cinayət işini bağlayır[1].

- 28 noyabrda İlməzli kəndi yaxınlığında yerləşən pendir istehsalı zavoduna basqın edilir. Zavod yağmalanıb yandırılır. Bu istehsal müəssisəsini Pyotr Opoçinin adlı rusdan icarəyə götürmüş Cəlaloğlu kəndinin sakinləri − Sergey və Artyom Akopov qardaşları öz şikayət ərizələrində basqında Alı Qara Qurban oğlunun başçılığı altında 200-ə yaxın Cücəkənd, İlməzli, Yırğançay və Dəmirçilər sakininin iştirak etdiyini yazır və hətta bir neçəsini şəxsən tanıdıqlarını bildirib konkret adlarını çəkirlər. İstintaq zamanı dindirilən ətrafdakı kəndlərin azərbaycanlı sakinləri və Vorontsovka ruslarının hamısı hücum edənləri üzdən tanımadıqlarını söyləyirlər. Tiflis Dairə Məhkəməsinin müstəntiqi Lyaxoviç şahid ifadələrini nəzərə alaraq, Akopovların ittihamını yetərsiz bilib onların uydurma və şər olması qənaətinə gəlir və 31.07.1907-ci il tarixli qərarı ilə cinayət işini bağlayır. Əlavə edək ki, bu dövrdə İlməzli starşinası Bayram Vəli oğlu idi[2].

Yeri gəlmişkən onu da qeyd edək ki, yuxarıda adı çəkilən Alı Qara Qurban oğlunun mənsub olduğu Qaraqurbanlılar (tələffüzdə Qararvanlılar) Borçalının nüfuzlu və köklü nəsillərindəndir. Onun oğlu Məhəmməd (görkəmli dilçi-alim Afad Qurbanovun atası) yüksək rütbəli hərbçi olmuş, Azərbaycan Xalq Cümhuriyyəti dövründə Türk ordusunun tərkibində təlim keçərək

[1] GMTA, f. 115, s. 1, iş № 2258; "Tiflisskiy listok", 1905, 8 dekabr.
[2] GMTA, f. 115, s. 1, iş № 525.

hərbi bilik və bacarıqlara yiyələnmişdir[1].

- Noyabrın 28-dən 29-na keçən gecə Mahmudlu kəndində yerləşən şüşə zavoduna və Cəlaloğlu sakini Matsak Saakovun yaxın ərazidəki içkixanasına (meyxanasına) hücumlar edilir. Bu işdə Səfərli, Hamamlı və Məmişli sakinləri günahlandırılır[2].

- "Tsnobis purtseli" qəzeti yazırdı: "Tiflis qəzasının Qomaret kəndindən Tiflisə gələn kəndlilər bildirirlər ki, qəzada müsəlmanların dəstələri yaranıb. Onlar ermənilərin zavodlarını və mülklərini dağıdırlar. Melik-Baxtamyanın pendir zavodunu qarət ediblər... Dəstələrə Beyt ağa (çox güman ki, Böyük ağa – *F.V.*) Mursaqulov və İradon Qulu oğlu başçılıq edir. Onlar Daşbaş kəndini talayıblar, gürcü kəndlərinə yaxın gəlmirlər"[3].

Azərbaycanlılarının gürcü kəndlərinə dəyib-toxunmamalarına rəğmən, Borçalı qəzasının rəisi qəzanın 6 gürcü kəndinin sakinlərinə silah verilməsi üçün qubernator qarşısında vəsatət qaldırır[4]. Qəza rəisi qubernatora həmçinin Yekaterinenfeld və Vorontsovka yolunun təhlükəsizliyini təmin etmək məqsədilə bu yollarda könüllü qaravul dəstələri təşkil etməyə hazır olan Qızılhacılı, Arıxlı, Yekaterinenfeld, Faxralı, Saraclı, Bolnis-Kəpənəkçi kənd icmalarına paylanması üçün 200 tüfəng və hər tüfəngin üstündə 50 patron verilməsi xahişi ilə də müraciət edir[5].

Ağbulaq (Belıy Klyuç) almanları Şults Almendinqer və Vireyn isə canişinə teleqram vuraraq, ondan bölgədəki vəziyyəti nəzərə alıb hərbi mühafizə dəstələri göndərilməsini xahiş edirlər[6].

Peje adlı müəllif "Kavkaz" qəzetində dərc etdirdiyi **"Borçalı yüksəkliklərindən"** başlıqlı məqaləsində Dağ Borçalını süd eldoradosu adlandırır və buradakı qarətlərin səbəblərinin ermə-

[1] "Afad Qurbanov", Bakı, 2010, s. 6-7.
[2] GMTA, f. 115, s. 1, iş № 524.
[3] "Tsnobis purtseli", 1905, 4 dekabr (№2963).
[4] "İveriya", 1905, 1 dekabr (№224); "Tsnobis purtseli", 1905, 1 dekabr (№2960).
[5] "Tiflisskiy listok", 1905, 9 dekabr (№ 245).
[6] "Tiflisskiy listok", 1905, 30 noyabr.

nilərə qarşı nifrətdən, milli dözülməzlikdən deyil, azərbaycanlıların ağır sosial-iqtisadi şərtlər altında yaşamasından qaynaqlandığını hesab edirdi:

> "Bizim guşəmiz, Borçalı qəzasının cənub-qərb hissəsi – bu "süd eldoradosu", necə ki, mən onu adlandırıram, Yelizavetpolda və Tiflisdə baş vermiş hadisələrdən öz əksini tapmış tatar hərəkatından yaxasını qurtara bilmədi; bu hərəkat Bakıda, Naxçıvanda, İrəvanda, Şuşada, Ağdamda və Yelizavetpolda baş vermiş hərəkatlara az bənzəyir. Burada tatarlar ən balaca ideya tendensiyası olmadan pendir hazırlayan zavod sahiblərini, bir neçə dükanı və bəzi erməni ailələrini, elə rus ailələrini də qarət etdilər və indi elə bil ki, öz qarətçilik məşğuliyyətlərindən peşman olaraq bununla da sakitləşdilər. Yerli tatarların bu soyğunçuluq alovu əsasən erməni kəndliləri arasında böyük həyəcan yaratdı. Cəlaloğlu kəndi kimi hər cəhətdən təhlükəsizliyi təmin olunmuş və ordu hissələri yerləşdirilmiş məntəqə də təhlükəli çaşqınlığa təslim oldu və öz ətrafından tatar-işçiləri və çobanları qovaraq sürətlə silahlanmağa başladı. Həyəcan əbəs yerə idi. Tatarların soyğunçu fəaliyyəti zavod rayonları ilə məhdudlaşdı və erməni kəndlərinin sakinlərindən heç kəs zərər çəkmədi. Artilleriya hissələrinin tatar kəndlərinə hərbi gəzintiyə çıxması və güclü qar tatarları sakitləşdirdi. Qarət olunmuş şeylər axtarılıb qaytarılır. Əlbəttə ki, yandırılanlar batıbdır...
>
> Tatarlar əlbəttə ki, erməniləri təhdid edirdilər, onları Vorontsovkadan Yekaterinenfeldə gedən yolda axtarırdılar, amma fanatik nifrət bəslədiklərinə görə yox, qorxutmaq və qazanc əldə etmək üçün, yoxsa təkrar edirəm, tatarlar burada erməni kəndlilərinin xeyli hissəsini məhv etmək imkanına malik idilər, amma buna rəğmən bəzi yerlərdə mal-qara aparmaqla kifayətləndilər...
>
> Beləliklə, faktlar bizə Lori və Başkeçid nahiyələrinin tatarlarının qarətçilik hiddətində fanatizmin, panislamizmin, xristian ermənilərə qarşı kəskin nifrətin izharını deyil, başqa şeyi, özünün iqtisadi-təsərrüfat vəziyyəti ilə bağlı yığılmış narazılıqların izharını görməyə əsas verir. Əgər bu cür izahat Kartli kəndlilərinin öz

mülkədarlarına, onların mülklərinə və dövlət mülkünə zorakı münasibətində doğru qəbul olunursa, onda bizim nahiyədə eyni səbəblərdən, narazılıqlardan yetişmiş tatar hərəkatını izah etmək üçün bütün əlamətlər üzdədir, bu aşağıdakılardan da aydındır.

Borçalı qəzasının qərb hissəsində mülkədar knyazların geniş torpaq sahələri var. Yaxşı otlaqlar kimi, onlar keçmişdən tatar maldarlar tərəfindən olduqca münasib qiymətə icarəyə götürülürdü... Bu knyaz torpaqlarının bir çoxu malakanlara satılmışdı və əkinçi kəndlilərə, xüsusən də bu icarə ərazilərində Şiştəpə, İmir, Böyük və Kiçik Qarakilsə, Sərçəpet kimi kəndlər salmış katolik ermənilərə icarəyə verilmişdi, "Mokrıye Qorı"nın ətəyində yerləşən digər otlaqlar isə tatarlara icarəyə verilirdi. Torpaqlar knyazlardan xüsusi idarə və baron Kuçenbax tərəfindən alındıqdan sonra burada torpaqların qiyməti önəmli dərəcədə artır, bu xüsusən isveçrəli, erməni və malakan pendirqayıran sahibkarların bu ərazidə peyda olması ilə özünü göstərir, onlar bu torpaqlara böyük miqdarda pul təklif edib orada pendir zavodları tikirlər. Baron Kuçenbax, xüsusi idarə və digər torpaq sahibləri sahibkarlarla əlverişli müqavilələr imzalamağa tələsirlər və icarədar əkinçilər üçün ödənişləri artırırlar; bu sonunculardan bəziləri bu ödənişlərin ağırlığı ucbatından 80 il müddətində becərdikləri torpaqlardan məhrum olur və torpaqsız kəndlilərə (Şiştəpəlilər, Böyük Qarakilsəlilər kimi) çevrilirlər.

Tatarların yaşadığı və maldarlıq təsərrüfatı ilə məşğul olduqları otlaqlarda öz sağmal inəklərini saxlayan pendir istehsalçıları ən baş və ən yaxşı otlaqları tuturlar, onlar bu torpaq sahələrini tatarlara otarma, biçənək üçün yüksək ödəniş və pendir istehsal edən zavodlarını mütləq südlə təchiz olunması şərtləri-lə verirlər ki, əkinçi tatarlar bunun öhdəsindən gələ bilməyib rəhbərliyə şikayət etməyə başlayırlar və onlara dövlət torpaqları ayrılması, icarə ödənişlərinin tənzimlənməsi və başqa yerlərə köçürülmələri barədə ərizələr verirlər...

Uzun illər sərbəst şəkildə təsərrüfatla məşğul olduqları yerlərdə torpaqdan istifadə üçün dözülməz şərtlərlə sıxışdırıl-

mış və əl-ayaqları bağlanmış tatarlar yardım üçün dua edirdilər və nəhayət xaricdən gələn impulsun təsiri ilə son dərəcə çətin durumlarının öz anlamlarında birbaşa suçlularının – pendir istehsalçılarının zavodlarını yandırıb qarət etməyə başladılar...

Ermənilər bunu onlara istiqamətlənmiş vəhşi intiqam hissinin təzahürü kimi görürlər, amma bu belə deyil: ermənilərin, isveçrəlilərin və malakanların zavodları xəsarət gördü; mühafizləri olmasa xüsusi idarənin Qaraqala malikanəsi də zərər görərdi; yaxşı müdafiəsi olmasa baron Kuçenbax da onun ərazisində pendir istehsal edən Peş (Beş – *F.V.*) kimi zərər görərdi. Çünki axı tatarlar əvvəllər Soyuqbulaq kəndində həmkəndlilərini istismar edən Musa Usub oğlunun üç qardaşını öldürməklə heç öz dindaşlarına da rəhm etmədilər, və iki dəfə İlməzli kəndində kn. Orbelianinin torpaqlarının icarədarı olan İdris oğlunun pendir zavodunu yandırmağa cəhd etdilər. Qaraqala xüsusi malikanəsinin idarəsi, baron Kuçenbax, kn. Orbelianinin səlahiyyətli nümayəndələri və digər torpaq sahibkarlarının bu "süd eldoradosu"nun ərazilərinin istifadəçisi olan yerli tatar maldarları ilə müqavilələrinin şərtləri və öhdəliklərinə baxın, onda siz bu sonuncuların həyatının dözülməz olduğunu və onların təbii dərin həyəcanının öz vəziyyətləri səbəbindən doğduğunu etiraf edəcəksiniz...

Beləliklə, Lori nahiyəsinin tatarlarının qarətçilik alovu öz ağır vəziyyətlərindən yığılmış həyəc anın partlamasından başqa bir şey deyil. Ermənilər burada sadəcə istismar simvoludur..."[1].

Pejenin məqaləsində adı çəkilən baron K. fon-Kuçenbax ona cavab olaraq "Kavkaz" qəzetinə göndərdiyi məktubda otuz ildən çoxdur ki, sahibi olduğu Başkeçiddəki torpaq sahələrində "tatarlara" yaşamaları və işləmələri üçün güzəştli şərtlərlə şərait yaratdığını vurğulayaraq, burada yerləşən zavodları üçün ən azından "tatar hərəkatının" başlanacağını bilmədiyinə görə heç bir mühafizə təşkil etmədiyini yazırdı. O, 27 noyabr gecəsində silahlı ta-

[1] "Kavkaz", 1906, 11 yanvar (№ 8).

tarlar tərəfindən bölgədəki zavodların dağıdıldığı xəbərlərini eşitdikdən sonra daşınan və daşınmaz əmlakını taleyin ümidinə buraxıb, özünün 15 nəfərlik ailə üzvü ilə birlikdə malakan kəndinə qaçdığını, ancaq üç gün sonra 100 nəfər icarədar tatarın onun yanına gəlib geri malikanəsinə qayıtmağı xahiş etdiyini və onun həyatına heç bir təhlükə olmadığına əmin etdiyini bildirərək, elə bu tatarların müşayiətində də geri döndüyünü və qoruqçusuz-filansız qoyub getdiyi fermasında heç nəyə toxunulmadığını yazırdı. K. fon-Kuçenbax Pejenin Borçalı qəzasında tatarların kütləvi hərəkatının yalnız və yalnız onların ağır iqtisadi durumundan qaynaqlandığı barədə nəticəsinin yanlış olduğunu və "tatarların" əsasən erməniləri qarət etdiklərini ifadə edirdi. O, "tatarların" öz fermalarını əvvəllər onların istifadəsində olan otlaq ərazilərdə yaradan Fridrix Ammetter, Kristian Nideqqer, Hans Ammetter, Kezel və digərləri kimi daha varlı isveçrəlilərə, eləcə də digər millətlərin nümayəndələrinə hücum etməmələri faktlarını dediklərinə sübut kimi göstərirdi. Qarətlərdən zərər görmüş yeganə qeyri-erməni Beşin pendir zavodunun talan olunmasının səbəbini isə Kuçenbax Beş tərəfindən "tatarlara" onlardan alınmış südün müqabilində yığılmış bir neçə min rubl borcunun ödənməməsində görürdü. Kuçenbax baş vermiş hadisələrin səbəbini "tatar"ların iqtisadi vəziyyətində və hətta ermənilərdə də deyil, Rusiyada yəhudi talanlarının və onun tipli olayların düyünündə görürdü[1].

Borçalı ərazisində Tiflis-İrəvan dəmir yolu xətti üzərində yerləşən stansiyalardan 26 noyabrda göndərilən və «Tsnobis purtseli» qəzetinin 30 noyabr 1905-ci il tarixli sayında çap olunmuş depeşalar (təcili teleqramlar) da borçalıların səbr kasasının daşdığını göstərirdi:

- Sadaxlı stansiyasından göndərilmiş depeşada 26 noyabr səhər saat 8-də 120 silahlı azərbaycanlının 76 nömrəli İrəvan-Tiflis qatarına hücum etdiyi xəbər verilirdi. Bu xəbər

[1] "Kavkaz", 1906, 1 fevral (№ 26).

arxiv sənədlərindən də öz təsdiqini tapır (Bax: GMTA, F. 17, s. 2, iş № 557);

- Soğanlıq stansiyasından göndərilmiş depeşada üç gündür ərazidə qırğın getdiyi və işçilər qaçışdığı üçün stansiyanın ləğv olunduğu bildirilirdi;
- Axtala stansiyasının əməkdaşlarının depeşası: «Pis vəziyyətdəyik. Bütün ətrafımız erməni kəndləridir. Onlara tatarlar hücum edib. Qoşun lazımdır»;
- Sənain stansiyasının işçilərinin depeşası: «Hər dəqiqə nə isə bir dəhşət gözləyirik. Tatarların ilk dəstəsi artıq göründü. Allah qorusun».

26 noyabrda Sandar (Candar – *F.V.*) stansiyasından Zaqafqaziya Dəmir Yolları İdarəsinin rəisinə göndərilmiş depeşada da ilk qatarla kömək göndərilməsi xahiş olunurdu[1].

"Tiflisskiy listok" qəzeti yazırdı ki, Tiflis ermənilərindən Q.Arutyunov, Koçaryan, D.Aramyants və xanımı Sandar stansiyası yaxınlığında yerləşən malikanələrinə baş çəkmək üçün qatarla Tiflisdən Borçalıya yola düşüblər. Sandar stansiyasında çox sayda azərbaycanlı toplandığı üçün onlar qatardan düşməyib yollarına davam etməyə məcbur olublar. Bu yol onların mülkləri olan ərazidən keçdiyi üçün özlərinə, Aramyantsa, Mantaşova, Mirzoyevə məxsus malikanələrin yandırılıb dağıdıldığını görüblər. Qatarla əks istiqamətdə Tiflisə dönərkən isə qarət olunublar[2].

27 noyabrda Sadaxlı stansiyasından göndərilmiş depeşada bildirilirdi ki, «bütün stansiya işçiləri ailələri ilə birlikdə Tiflisə gediblər, çünki ətrafda yaraqlı tatarlar dolaşır. Yalnız stansiyanın rəisi Matitaşvili qalıb»[3]. Sadaxlı stansiyasına dair mətbuat vasitəsilə yayılmış başqa bir məlumat yazısında isə 25 noyabrda bu stansiya yaxınlığında mülkədar A.S.Tsurinovun malikanəsinin talan olunduğu və 4000 vedrə şərabının məhv edildiyi qeyd

[1] "Novoye obozreniye, 1905, 29 noyabr (№ 245).
[2] "Tiflisskiy listok", 1905, 2 dekabr.
[3] "Tsnobis purtseli", 1905, 28 noyabr.

olunur, bundan sonra Tsurinovun özünün və yaxın ətrafının Dəmyə-Görarxı kəndinin sakinləri Namaz Əhməd oğlu, Qurban oğlu və Əmirastan İsmayıl oğlunun yardımı sayəsində Tiflisə yola salındığı barədə bilgi verilirdi[1].

Zaqafqaziya Dəmir Yolları İdarəsinə Tiflis-İrəvan dəmir yolu xətti üzərində yerləşən digər stansiyalardan göndərilmiş teleqramlar da qatarların hərəkətinin təhlükə altında olduğunu və bu xəttin Sənain-Aleksandropol hissəsinin mütəmadi olaraq erməni silahlılarının basqınına məruz qaldığını göstərirdi.

Kolagirən stansiyasından göndərilmiş teleqramda 28 noyabrda bu stansiyaya gələn 30 silahlı ermənin buradakı azərbaycanlıların üstünü aramağa başladığı, jandarmlar tərəfindən qovulanda isə jandarmlara hədə-qorxu gəldiyi barədə məlumat verilirdi[2].

Həmin gün Aleksandropol (Gümrü) stansiyasından teleqrafla göndərilmiş məlumatda isə bildirilirdi:

"Nəftluq stansiyasından Sənain stansiyasına qədər dəmir yolu xətti demək olar ki, tatarların əlindədir. Üç sahədən xidmətçilər artıq qaçıblar. Tatarlar bu xətt üzrə hərəkət edən qatarları dayandırır, parovozları açır, sərnişinləri yoxlayır və erməni sərnişinlərin silahlarını əllərindən alırlar. Tatarlar burada dəstələrlə gəzir.

Yolun Sənain stansiyasından Aleksandropola qədər olan hissəsi isə ermənilərin əlindədir. Onlar qatarlarda tatarların etdiklərini törədirlər. Ermənilər vaqonlara soxulur, tapdıqları tatarları düşürdüb döyürlər. 27 noyabrda Hamamlıda və iki dəfə Qarakilsədə belə hadisə baş vermişdi. Tiflis məhkəmə generalı (?) bunun şahidi olmuşdu"[3].

Gümrüdən 29 noyabrda göndərilmiş başqa bir məlumatdan isə bir gün əvvəl 76 saylı poçt qatarına soxulmuş ermənilərin İran konsulu Əmamulla Durxan oğlunun əlindən 4000 rubl pulunu, onun köməkçisi Ələsgərdən isə saatını aldıqları bəlli olur[4].

---

[1] "Tiflisskiy listok", 1905, 8 dekabr.
[2] "Tsnobis purtseli", 1905, 1 dekabr.
[3] "Tiflisski listok", 1905, 1 dekabr (№ 239).
[4] "Tiflisski listok", 1905, 2 dekabr (№ 240).

Dəmir yolu xətlərində qatarların hərəkətinin təhlükəsizliyini təmin etmək üçün 1905-ci ilin dekabr ayının əvvəlində Tiflis-Sənain xətti üzərindəki stansiyaların hər birinə yarım rota əsgər göndərilir, Sənain-Aleksandropol xəttinin mühafizəsi də gücləndirilir[1]. Buna rəğmən bu dəmir yolu istiqamətlərində yenə də müəyyən silahlı insidentlər baş verirdi. Novoye Obozreniye" qəzeti 6 yanvar 1906-cı il tarixli sayında iki gün əvvəl, 4 yanvarda Sənain-Kolagirən dəmir yolu xətti ilə hərəkət edən parovoza silahlı şəxslər tərəfindən hücum edildiyini bildirirdi. Qəzet həmin sayında həmçinin "Trialet pristavlığının Qələmşə kəndinin nüfuzlu sakini, erməni-tatar qırğınının qarşısının alınması üçün çox zəhmət çəkmiş" Dmitri Tsixelaşvilinin öldürüldüyünü yazırdı.

Arxiv bəlgələrindən məlum olur ki, Tiflisdəki soydaşlarının təhlükəsizliyinə zəmanət aldıqdan sonra 30 noyabrda bu şəhərdən at üstündə geri öz yurdlarına, Borçalıya qayıdan azərbaycanlı könüllülərdən 200 nəfəri Zarqaryana məxsus zavodun yanından keçəndə zavod qarovulçuları hücuma uğrayacaqlarını sanıb onlara atəş açır, bunun qarşılığında bu azərbaycanlılar heç nə etməyib sakitcə yollarına davam edirlər[2]. Bir qədər sonra, axşam saat 10-da isə Borçalılardan ibarət bu süvari dəstə Soğanlıq stansiyasında Tiflis alayının podporuçik Popovun komandanlığı altındakı 12-ci mühafizə rotası ilə üz-üzə gəlir. Aralarında döyüş baş verir. Borçalılardan Məmməd Süleyman oğlu və daha bir nəfər ölür, Ələkbər Məşədi oğlu isə yaralanır[3].

Daha əvvəl arxiv sənədlərinə istinadən göstərdiyimiz kimi, erməni əmlaklarının talanmasına və yandırılmasına görə açılmış cinayət işlərinin çoxu şahid ifadələri və istintaq materiallarının yetərsizliyindən heç kəs cəzalandırılmadan bağlanır. Xüsusi ilə vurğulamaq istərdik ki, istintaq ifadələri alınan zaman ermənilərdən başqa heç bir millətin nümayəndəsi – nə gürcülər, nə rus-

[1] "Tiflisskiy listok", 1905, 3 dekabr.
[2] GMTA, f. 17, s. 2, iş № 557; Novoye obozreniye", 1905, 3 dekabr.
[3] Novoye obozreniye", 1905, 3 dekabr; "Kavkaz", 1905, 3 dekabr; "Tiflisski listok", 1905, 3 dekabr.

lar, nə də ki, yerli azərbaycanlılardan bir kimsə bu hadisələrdə iştirak edən adamların adlarını demirdi. Erməni şahidlərin ifadələri isə mövcud erməni-azərbaycanlı qarşıdurmasına görə qərəzli hesab olunub nəzərə alınmırdı. Bu faktın özü ermənilərin Cənubi Qafqaz arealında yad bir ünsür olduğunu və digər xalqlar tərəfindən qəbul edilmədiyini bir daha sübut edirdi.

İstintaq tədbirləri zamanı ermənilərin yalan və qərəzli ifadə vermə hallarına münaqişədən qabaq da rastlanırdı. Belə faktlardan biri ilə "İveriya" qəzetinin 16-17 noyabr 1890-cı il tarixli saylarında çap olunmuş **"Borçalı qəzası"** məqaləsində qarşılaşmaq mümkündür. Borçalı qəzasının coğrafi-etnoqrafik cəhətdən geniş şərhinə həsr olunan və qəzada ən yaxşı almanların, daha sonra isə ermənilərin, yunanların, rusların, gürcülərin və ən sonda da azərbaycanlıların yaşadığı vurğulanan bu məqalədən aydın olur ki, Kəpənəkçi kəndinin 2 verstliyində yerləşən Xaçino (Xaçın – *F.V.*) erməni kəndində yerli keşiş polis işçilərinin yanında 100 ailədən ibarət olan bütün kənd əhalisini xaça and içdirir ki, onların ərzaqlarını kəpənəkçililər yoxa çıxarıblar. Ancaq bu yalan andiçmə törənindən 7-8 il sonra üzə çıxır ki, bu kəndin yemək-içmək sursatını kəpənəkçililər yox, başqaları aparıblar.

Əlbəttə ki, cinayət işləri məsələsinə toxunduqda Borçalı ağsaqqallarının yüksək rəsmi dairələrlə görüşlərini və bu görüşlərdə mahallarında baş vermiş qarışıqlıqların nədən doğduğunu anlatmaları faktlarını da diqqətdən kənara qoymaq olmaz. 27 nəfər Borçalı sakininin iştirak etdiyi belə görüşlərdən biri 1906-cı ilin 1 mart səhəri Tiflis qubernatorunun hüzurunda baş tutur. Görüş zamanı borçalılar öz aralarından Kürtlər kəndinin sakini Süleyman Məmməd oğlu vasitəsilə Bakı, İrəvan və Yelizavetpol quberniyalarında baş vermiş qanlı hadisələr zamanı borçalıların ermənilərə qarşı heç bir ədavəti olmadığını, lakin Tiflisdə Borçalı ilə qohumluq əlaqələri olan şəxslərə hücumlar edildikdən sonra ermənilərə qarşı münasibətin dəyişdiyini qeyd edib, borçalıların qəzalarında baş vermiş acınacaqlı hadisələrə görə təəssüfləndiyini dilə gətirirlər, eyni zamanda qubernatordan istintaq təhqiqatları zamanı bu

məhzun olayların Tiflis qırğını ilə sıx bağlı olduğunu nəzərə alıb, cinayət əməllərinə görə suçlanan həmyerlilərinə qarşı mərhəmətli davranmağı xahiş edirlər.

Qonaqlarını dinlədikdən sonra qubernator "padşah", yəni imperator və onun Qafqazdakı canişini üçün bu diyarda yaşayan bütün xalqların maraqlarının eyni dərəcədə dəyərli olduğunu vurğulayır və cəzasızlığın cəmiyyətin sağlam fikirli adamlarının düşkünləşməsinə yol aça biləcəyini söyləyir. O, eyni zamanda qeyd edir ki, borçalıların baş vermiş olaylara görə təəssüflənmələri barədə söylənənlər imperator tərəfindən yalnız onların bundan sonra, xüsusən də qarşıdan gələn köç zamanı davranışları ilə bu təəssüf his-slərinin səmimiliyini təsdiq edəcəkləri zaman diqqətə alınacaqdır: "Yadınızda saxlayın, "Allah birdi" və "Padşah birdi"; onlar öz xalqları arasında yalnız sülhün və əmin-amanlığın olmasını arzulaya bilərlər. Mən ümid edirəm ki, siz onlar qarşısında öz suçunuzu mənə söylədiyiniz təəssüf hissinizin səmimiliyi ilə yuyacaqsınız. "İnşallah"."[1]

Arxiv və mətbuat səhifələrində 1905-ci il hadisələri zamanı Tiflis və Borçalı qəzalarında yerləşən kəndlərdə ermənilərin maddi mülkiyyətinə azərbaycanlılar tərəfindən ziyan vurulmasını əks etdirən faktlarla yanaşı, ermənilərin sadə azərbaycanlı kəndlilərini qətl etmələri faktlarına da rast gəlinir. Məsələn:

- "İveriya" qəzeti 1 dekabr 1905-ci il tarixli sayında yazırdı: "Sandar stansiyasının rəisi depeşa ilə canişini xəbərdar edir: 76 nömrəli poçt qatarı stansiyaya gələndə ermənilər qatara tüfənglərdən atəş açıblar, 10 müsəlmanı öldürüb yaralayıblar. Onlara heç bir müsəlman cavab atəşi açmayıb".
- "Tiflisskiy listok" qəzeti 8 dekabr 1905-ci il tarixli sayında erməni əsilli Dmitri Abramoviç Koroqlişvili adlı şəxsin Qocor kəndinin sakini, çoban Emin Məmməd oğlunu öldürdüyü və ona məxsus 5 inəyi apardığı barədə məlumat yayımlayırdı.

---

[1] "Kavkaz", 1906, 5 mart (№ 53).

- Tiflis qəzasının Qaracalar kəndinin sakinləri Tiflis qubernatoruna 8 yanvar 1906-cı ildə məktubla müraciət edərək, 1905-ci ilin 23-25 noyabr tarixlərində Nəftluqda ermənilərin onları qarət etdiklərini bildirirdilər. Məktubda qubernator həmçinin kənd sakinlərindən Qasım Qurban oğlu, Hacı Hüseyn oğlu, Qurban Məmməd Nəbi oğlu və Cəlil Vəli oğlunun ermənilər tərəfdən öldürüldüyü, Məmməd Süleyman oğlunun isə yaralandığı barədə məlumatlandırılırdı[1].

Bu yerdə bir məqama xüsusi diqqət yetirmək istərdik. İstər Tiflisdə azərbaycanlıların zülmlə öldürülmə faktları, istər təfərrüatı barədə II bölümdə məlumat verdiyimiz Qərbi Azərbaycanda (o cümlədən Güney Borçalıda – Loru nahiyəsində) həyata keçirilmiş azərbaycanlı qətliamları, istərsə də yuxarıda təqdim olunan üç məlumat göstərir ki, 1905-ci il hadisələrini törətməkdə ermənilərin əsas vəzifə və məqsədlərindən biri azərbaycanlıları fiziki cəhətdən yox etməkdən ibarət idi. Buna görə də erməni silahlıları əllərinə düşən ilk fürsətdəcə milliyyətcə azərbaycanlı olan dinc, silahsız və günahsız şəxslərin həyatlarına son qoyurdular. Onlardan fərqli olaraq, azərbaycanlıların intiqamyönlü fəaliyyətlərində ermənilərin nəinki kütləvi, heç tək-tək öldürülməsi faktlarına da demək olar ki, rastlanmır. Sadəcə zəngin ermənilər Borçalı azərbaycanlılarının qəzəbinə tuş gəlir və onlara məxsus zavodlar, fabriklər və malikanələr dağıdılıb yerlə yeksan edilirdi. Və bu zaman ölümlə nəticələnən hadisələr müşahidə olunmurdu. Erməni zənginlərinin mal varlıqlarının və kapitallarının Borçalı azərbaycanlıları tərəfindən hədəfə götürülməsi isə təsadüfi deyildi, çünki Borçalı qarapapaqları regionda yaşayan digər millətlər və toplumlar kimi yaxşı bilirdilər ki, baş vermiş qanlı olayların birbaşa təşkilatçısı və iştirakçısı olan erməni şovinist-terrorçu təşkilatlarının əsas maliyyə mənbəyini elə bu erməni mülkədarlarının və kapitalistlərinin pulları və ianələri təşkil edirdi.

Əvvəlki bölümdə də məlumat verdiyimiz kimi, 1905-ci ilin

---

[1] GMTA, f. 17, s. 2, iş № 562.

30 noyabrında ağsaqqal gürcü knyazı general İ.S.Çavçavadzenin başçılığı altında nüfuzlu gürcü ziyalılarından − knyaz V.A.Tarxan-Mouravov, knyaz M.İ.Cambakur-Orbeliani, knyaz Z.D.Baratov, knyaz S.İ.Taktakov, N.İ.Kançeli, həkim Q.Natiyev və tələbə D.Q.Qabayevdən ibarət xüsusi sülhməramlı komissiya azərbaycanlı ağaların və sanitarların müşayiətində sülh missiyası ilə Borçalı mahalına səfərə çıxır və 5 gün ərzində addım-addım mahalın millətlərarası münasibətlər kəskin şəkildə pisləşmiş azərbaycanlı və erməni kəndlərini gəzirlər.

Qeyd edək ki, komissiyanın rəhbəri knyaz İvane Sulxanoviç Çavçavadze (1826-1913) 1853-1856 və 1877-1878-ci illər türk-rus müharibələrində iştirak etmiş, 1877-ci ilə qədər I piyada gürcü drujinasının, ondan sonra 75-ci Sevastopol piyada alayının komandanı olmuş, 12.01.1878-ci ildə general-mayor rütbəsini almışdır. İştirak etdiyi son müharibədən sonra isə Tiflis quberniyası zadəganlarının seçilmiş nümayəndəsi olmuşdur. Göstərdiyi igidliklərə görə IV dərəcəli Müqəddəs Georgi, III dərəcəli Müqəddəs Vladimir, II dərəcəli Müqəddəs Anna ordenləri ilə təltif edilmiş İ.Çavçavadze Telavi qəzasının Uryatuban kəndinin kilsəsində ailə sərdabəsində dəfn olunmuşdur[1].

Gürcü ziyalılarının barışdırıcı nümayəndələrindən D.Qabayev Borçalıya səfər təəssüratlarını "Vozrojdeniye" qəzetində dərc etdirdiyi "Borçalı qəzası ilə" başlıqlı məqaləsində təsvir edir. Məqalədə 30 noyabrda səhər düz saat 9-da beş faytonla Tiflisdəki "London" mehmanxanasından yola düşdüklərini, həkim Natiyevin və sanitarların faytonuna Qırmızı Xaçın bayrağını, digər faytonlara isə iki böyük ağ bayraq asdıqlarını vurğulayan D.Qabayev Vorontsov küçəsində poruçik Hüseyn bəy Yadigarovun evindən də Məmməd ağa Bayramovu müşayiətçi qismində götürdüklərini qeyd edərək yazırdı:

> "Biz Tiflisi ağır və narahat hisslərlə tərk edirdik. Dünənki atışmaların səsi hələ də qulağımda idi. Şəhərin üstünü isə yan-

[1] М.Гогитидзе. Генералитет из Грузии, 1-я книга, Тбилиси, 2007, с. 267.

ğınların (Bir gün əvvəl – 29 noyabrda Tiflisin Meydan məhəlləsində törədilmiş yanğınlar nəzərdə tutulur – *F.V.*) qara və boğucu tüstüsü bürümüşdü. Biz üzərimizə düşən işin ağırlığını və əhəmiyyətini dərk edirdik. Şəhərdə şayiələr dolaşırdı ki, tatarların qoşunu Soğanlığa yaxınlaşıbdır, qalanları isə dinc kəndlərə və böyük malikanələrə gedib oralarda yanğınlar və qarətlər törədiblər. Həqiqətən 3 verst yol getməmişdik ki, öndə gedən faytonun atları qorxudan kənara sıçradılar. Yolda güllələnmiş 5 at cəsədi sərilmişdi. Ondan qabaq biz onların sahiblərinin meyitlərini – tatarları aparan arabalarla rastlaşdıq. Görünür ki, tatarlar Tiflisdən çıxanda ordunun pusqusuna düşüblər və itkilər verərək geri çəkiliblər. Bir neçə verst yenə getdik. Dağıntıların yeni mənzərəsi...

Bir neçə addım getməmişdik ki, ön faytondan qorxulu səs eşidildi. İrəli baxdıq (mən bir yoldaşla və müşayiətçi-ağalarla ikinci faytonda gedirdim), gördük ki, yolumuzu tüfənglə silahlanmış 5 tatar kəsib, onlar yaxşı qurulmuş pusquda dururdular və elə bil ki, yerin altından çıxdılar. Biz həyəcanlanıb müşayiətçimiz Məmməd ağanı ayaq üstə qaldırdıq. O, tez-tələsik öz yerlilərinə işin nə yerdə olduğunu anlatmağa başladı. Onun bütün dediklərindən mən yalnız "gürcü" – gürcü və "Gürcüstan" – Gürcüstan sözlərini başa düşdüm. Bəlli idi ki, o, bizim nümayəndə heyətinin fizionomiyasını və bizim səfərin məqsədini izah edirdi. Tatarlar tüfənglərini aşağı endirdilər, onların rəisi isə bizə yaxınlaşıb faytonumuzda oturdu və bir müddət Məmməd ağa ilə söhbət etdi. Sonra nəzakətlə sağollaşdı, tullanıb yox oldu".

Məqalədən bəlli olur ki, nümayəndə heyətinin üzvləri yol üstündə yerləşən və əsasən ermənilərin yaşadığı Şavnabad, Yuxarı Telet, Kumis, Koda, Marabda və Marneul kəndlərinin sakinləri ilə görüşür və onlara səfərlərinin məramını başa salırlar. Bu görüş zamanı Yuxarı Teletlilər onların kəndində qarət əməlləri törədənlərdən Görarxı sakini Novruz Qara Bayram oğlunu tanıdıqlarını deyirlər. Marneul erməniləri isə Məmməd ağa Bay-

ramovu tanıyırlar və qarətlər zamanı onlara kömək edib öz soydaşlarını zorakılıqdan çəkindirdiyi üçün ona təşəkkür elan etməyi xahiş edirdilər.

Daha sonra barışdırıcı nümayəndələr yollarına davam edərək azərbaycanlılar yaşayan kəndlərə üz tuturlar:

> "Bu da tatar kəndi Sarvan. Ora daxil oluruq... Bura artıq Borçalı qəzasıdır. Dükan qarşısında xalq kütləsi toplaşıb. Onların arasında silahlılar da var. İnsanlar tənzim edib ehtiramla geri çəkilirlər. Kn. İ.S.Çavçavadze onlara müraciət edir: "Gürcülər Borçalı qəzasında nələrin baş verdiyini öyrəndilər, dərindən kədərləndilər və bizi göndərdilər ki, gürcülərin, ermənilərin və tatarların qardaş olduğunu, bərabər yaşayıb işləməyin lazım olduğunu sizə deyək. Nə cəmiyyət, nə də hakimiyyət özbaşınalığa və talanlara dözməyəcək, xahiş edirik qırğın və talanlar kəsilsin, qarət olunmuş şeylər qaytarılsın.
>
> Camaat generalı hörmətlə dinlədi və sonra öz arasından bir natiqi irəli çıxardı: "Biz Sandar stansiyasının yaxınlığında, iki verstliyində yaşayırıq. Oraya erməni terrorçuları gəlir və qətllər törədirlər. Biz mühafizə göndərilməsini tələb edirik. Bax srağagün Qarsdan saat 4-ün qatarı gəldi. Biz qatarı yoxlayırdıq ki, görək orada silahlı ermənilər varmı, birdən qatardan yekə qara bığlı zabit və onunla bərabər üç əsgər çıxdı; onlar atəş açdılar, tatarları tutub yerə yıxdılar və dabanları ilə döydülər, sonra oturub getdilər. Biz əminik ki, onlar əyinlərini dəyişmiş ermənilər idi. Sandarlılar bizə atəşlərdən sonra yığdıqları gilizləri verdilər. Yaralanmış atdan çıxarılmış gilizlər və güllə mauzer tapançasının və "Brauninq" sistemli revolverindir. Onlarla bir nəfər öldürülüb, ikisi isə yaralanıbdır və 3 at öldürülüb. Yaralanmış oğlan 10 yaşında idi, o, Sandar stansiyasında cücə satırdı. Başqa bir yaralıya isə həkim Natiyev tərəfindən sarğı bağlanıb. Kodalılarda olan mal-qara bizimkidir. Biz özümüz sülh istəyirik və bizə toxunan olmasa biz heç kəsə toxunmarıq".
>
> Biz onları sakitləşdirib Yekaterinfeld koloniyası istiqamətində yola düşdük. Tatarlar o qədər sülhpərvər əhval-ruhiyyədədir-

lər ki, onlarla danışmaq mümkündür; onlar etdiklərinin alicənab insanın hərəkətinə layiq olmadığı ilə razıdırlar və bu, Tiflis dəhşətləri barədə şişirdilmiş və biçimsiz şayiələrin nəticəsidir: "Bizi əmin edirdilər ki, Tiflisdə ermənilər tatar qadınının döşünü kəsiblər, onu kəndirlə bağlayıb şəhərdə rəqs etməyə məcbur ediblər, uşaqları isə nizəyə keçirib şəhər küçələrilə gəzdirirlər. Tatar məhəlləsini yandırıb, su kranını bağlayıblar". Bütün bu şayiələr ağılları qarışdırdı və məharətli təxribat ustalıqla tatar kütlələrini qarətlərə sövq etdi. Biz tam gücümüzlə cəfəng şayiələrin qarşısının alınmasına çalışdıq. Qaranlıq düşdü... İrəli getmək təhlükəli idi və biz knyaz M.İ.Orbelianinin malikanəsində qaldıq. Burada qonaqpərvər ev sahibi bütün evini bizim sərəncamımıza verdi. Növbəti gün səhər tezdən Yekaterinfeldə yola düşdük.

Sarvan kəndində biz iki nüfuzlu müsəlmana – qəza zadəganlarının başçısı Həsən bəy Yadigarova və barışdırıcı münsif Vəli bəy Topçiyevə məktublar yazdıq və gündüz saat 1-də Arıxlı kəndinə gəlmələrini xahiş etdik. Ancaq Yekaterinfelddə o qədər yeni və təcili həlli tələb olunan faktlar üzə çıxdı ki, marşrut dəyişdi və biz Dumanis kəndi tərəfə getməyə qərar verdik. Gürcü alayının kapitanı Osepyants da bir rota əsgər ilə orada idi. Tatarlar onun həqiqi xidmət zabiti olduğuna inanmırdılar, onun özünü və əsgərlərini "canfədailər" – türkiyəli qaçqınlar və erməni terrorçuları hesab edirdilər. Tatarlar dəhşətli dərəcədə həyəcanlı idilər və hiss olunurdu ki, toqquşma baş verməlidir. Bilərək ki, Osepyants həqiqi zabitdir biz bütün baş verənləri araşdırmaq və qırğının qarşısını almaq üçün təcili oraya getməyi qərarlaşdırdıq. Atları yəhərləyənə qədər ətrafımıza toplanan bu hadisələrdən zərər çəkmiş tatar əhalisi arasında sorğu keçirdik. Buradaca vəzifəsinə yeni təyin olunmuş qəza rəisi Ryazanovu gördük. O, lütfkarlıqla bizi Borçalı qəzasında baş vermiş hadisələrlə tanış etməyə razılıq verdi. Onun danışdıqlarını qısa şəkildə nəql edim: "18 noyabrda mən qəzadakı işləri təhvil aldım, 22 noyabrda gecə məlumat aldım ki, Lecbəddin və Təkalidə Aramyants və Mantaşovun malikanələri yandırılıbdır. Ayın 23-də məlumat aldım ki, Şaqas-Aral (Aşağı Saral – *F.V.*) platfor-

masının yanında tatarların mitinqi keçirilib və bu mitinqdə onlar açıq şəkildə bəyan ediblər: "Biz Şüləverə döyüşə gedirik". Ayın 25-də öyrəndim ki, Şüləverin yaxınlığında 1500 yaxşı silahlanmış atlı toplanıb. Onların yanına getdim. Onlar mənə dedilər: "Ermənilər Tiflisdə bizə qarşı müharibəyə başlayıblar, burada isə biz onların üstünə gedirik. Ya biz, ya onlar". Həsən bəy Yadigarovun və Vəli bəy Topçiyevin enerjili və ciddi şəkildə işə qarışması nəticəsində onları sakitləşdirmək və bu fikirlərindən daşındırmaq mümkün oldu. 25-də xarakterik epizod baş verdi. Qatar gəldi. Hansısa molla ondan çıxanda yıxıldı və zədələndi. O bu faktdan məharətlə istifadə etdi və müsəlmanları inandırmağa çalışdı ki, onu qatardan ermənilər atıblar. İnsan kütləsi həyəcanlandı və qatara hücum etmək istədi. Yenə də Yadigarovun və Topçiyevin nəzakətli müdaxiləsi sərnişinləri güllələnmədən xilas etdi. 22-si və 23-ü öyrənirəm ki, başqa istiqamətdən 200 nəfərlik başqa bir kütlə Şüləveri təhdid edir. Onlar açıq şəkildə bəyan edirdilər: "Biz gecə Şüləverə hücum edəcəyik". Şüləverdə heç bir əsgər yox idi. Orada panika başlayır. Kömək etməyi xahiş edirlər. Mən təcili surətdə ordu hissəsi tələb edirəm. Anlaşılmayan ləngimə baş verir və nəhayət 78 plastun (piyada – *F.V.*) və 60 kazak gəlir. Bu, Şüləverdə sakitlik yaradır.

Ondan sonra Aramyantsın, Mantaşovun, Mirzoyevin Baydardakı malikanələrinə baxmağa gedirəm – hər şey qarət olunub və yandırılıb. Mantaşovun Təkəlidəki evi salamat qalıb. 28-də Yenikolopovun Hallavardakı malikanəsinə qaçaq Molla Ömər Abbas oğlunun başçılığı altında dəstə gəlir. O, əlində qırmızı bayraq tutur və deyir ki, canişin erməniləri kəsib qarət etməyə icazə verib. Tatarlar barışıq haqqında eşitmək istəmirlər:

"Bizi qırırlar, ermənilər silahlanıb... Qoy silahı yerə qoysunlar, onda biz də tərksilah olacağıq". Tatarlardan biri Tiflisdə güllə atan ermənilərin arasında bir şüləverlini tanıyıb və bu Şüləver əleyhinə təbliğata səbəb olub. Eşidirəm ki, Təkəlidə tatarların toplantısıdır. Oraya gedirəm. Yola gətirmək mümkün oldu. Onlar silahı qoyub aktiv fəaliyyətə başlamamaq barədə şərəf sözü verdilər və mən onlara inanıram. Onlar canişinin yanı-

> na belə bir xahişlə nümayəndələr göndərmək istəyirlər: "Bizdə axtarış aparın və silahlarımızı əlimizdən alın, amma eyni zamanda ermənilərin də silahlarını alın". Sonra mən sizin diqqətinizi ona yönəltmək istəyirəm ki, inzibati hakimiyyətin iqamətgahı üçün Şüləver münasib seçilməyib. Tatarlar oraya getməyə qorxurlar və bu da işi düzgün aparmağa imkan vermir. Hakimiyyətin iqamətgahının (yəni qəza mərkəzinin – *F.V.*) neytral zonaya, daha dəqiq Yekaterinfeld koloniyasına keçirilməsi daha ədalətli olardı. Bu barədə mən yüksək rəhbərliyə məktub hazırlamağı düşünürəm"".

Sonra qəza rəisi Molla Ömər Abbas oğlunun qırmızı bayraqla Hallavara gəlib burada Vartpatrikovun malikanəsini qarət etməsi, Patevan (çox güman ki Ratevan – *F.V.*) kəndində Mantaşovun malikanəsinin tar-mar edilib yandırılması barədə məlumat verir.

Onu dinlədikdən sonra gürcü barışdırıcıları Yekaterinenfelddə onların gəlişi münasibətilə toplaşmış camaatın qarşısına çıxırlar. Burada knyaz İ.S.Çavçavadze və nümayəndə heyətinin digər üzvləri yenidən sözlə xalqa müraciət edib sülh şəraitində, qardaşcasına yaşamağı və qarətləri dayandırmağı məsləhət görürlər[1].

D.Qabayevin yazdıqlarından bəzi məqamlara Kəpənəkçi Emin ağanın xatirələrində də rast gəlinir. Knyaz general İvane Çavçavadzenin başçılığı altında barışdırıcı komissiyanın Borçalıya səfəri barədə Emin ağa bunları söyləyirdi:

> "Biz qəza rəisi ilə birlikdə bu komissiyanı Yekaterinen-felddə qarşıladıq və səhərisi gün bir yerdə Başkeçidə getməyi şərtləndik. Səhər tezdən altı faytonda ağ bayraqlarla Başkeçid yoluna çıxdıq. Dumanis kəndi yaxınlığında piyada alayının batalyonu ilə qarşılaşdıq. Soruşduq nə baş verib – sən demə, bu alayın bir rotası erməniləri və tatarları barışdırmaq üçün erməni kəndi

[1] "Vozrojdeniye" qəz., 1905, 10 dekabr (№ 44) və 11 dekabr (№ 45).

Boslebə girib. Tatarlar bu barədə heç nə bilmirlərmiş və Boslebə çoxlu silahlı adamların girdiyini gördükdə, hesab ediblər ki, bunlar geyimlərini dəyişmiş ermənilərdir – kəndi mühasirəyə alıb silah atmağa başlayıblar. Rota hadisələrin belə şəkil alması-nı görərək, itkilər verməmək üçün Dumanisə geri çəkilib və mənzil-qərargaha bildirib ki, kömək lazımdır. Bax bu batalyon Boslebə köməyə gedirdi.

Mən pərt oldum.

– Qulaq asın, dedim mən batalyon komandirinə, siz sülh üçün, yoxsa qırğın üçün buraya gəlibsiniz? Nə ilə istəsəniz, zəmanət verirəm, siz çıxıb getsəniz heç bir qırğın olmayacaq.

Heç kəs mənimlə mübahisə etməyə başlamadı. Faytonçuya atlardan birini aralamağı əmr etdim, bu ata oturub tatarlar tərəfə çapdım. Onlar əvvəl məni tanımadılar, yaxına gedəndə isə mənə bərələ gözlərlə baxırdılar:

– Va – Emin ağa! Haradan? Bu nədir?

Onlara başa saldım ki, əyinlərini dəyişmiş erməni-zad yoxdur, anlaşılmazlıq aradan götürüldü, tatarlar dağılışmağa başladılar. Mən isə qayıtdım. Hamı mənə təşəkkür edirdi, ən çox da batalyon komandiri.

Biz yolumuza davam etdik və tezliklə yenə Boslebə tələsən tatar dəstəsi gördük. Mən yaxına gedib dedim ki, evlərinə dağılsınlar, ancaq onlar narahat olurdular:

– Bizə de, əsgər geyimində tüfənglərlə hansı canfədailər gəliblər?

– Heç bir canfədai yoxdur, bu həqiqi əsgərlərdir, bir bütöv batalyon gəlibdir ki, vasitəçi olsun və qırğına yol verməsin.

Axşamüstü biz Başkeçidə gəldik və orada gecələdik. Növbəti gün tatarları topladıq və onlara dedik ki, sakitləşsinlər, şayiələrə inanmasınlar, heç bir qırğın olmamalıdır. Həmin gün Yekaterinenfeldə yola düşdük. Burada səhərisi gün H. B. və T. (Həsən bəy Yadigarov və Vəli bəy Topçiyev – *F.V.*) ilə bərabər bütün digər Borçalı bəylərini gözləyirdilər.

Ermənilərin və tatarların böyük izdihamı toplaşanda, knyaz Çavçavadze onların qarşısına çıxdı və düz bir saat nitq

söylədi; o, o qədər yaxşı danışırdı ki, hamı təsirləndi və qardaş qırğınını dayandırmağa söz verdi.

Komissiya öz işini gördükdən sonra Tiflisə yola düşdü, biz, Borçalı bəyləri isə onları müşayiət edirdik; yol boyu on beş fayton qatar-qatar düzülmüşdü..."[1].

Knyaz İ.Çavçavadzenin başçılıq etdiyi heyətin Borçalı səfərindən bir neçə gün sonra, 18 dekabrda tərkibi Tiflis qəza rəisinin köməkçisi Ququşvilidən, erməni arximandriti Mdivanyan və Tiflis quberniyasının qazisindən ibarət başqa bir barışdırıcı komissiya qəzanın Telet kəndində olub, buraya toplaşan Xatis-Teleti camiəsinin yeddi kəndinin sakinləri və yaxın kəndlərdə yaşayan azərbaycanlıların nümayəndələri ilə açıq hava altında görüş keçirirlər. Əsas məqsədi toplaşanlara erməni-azərbaycanlı qırğınının mənasız olduğunu başa salmaq və tərəfləri barışdırmaqdan ibarət olan görüşdə hər iki tərəf sülh andı içir. Eyni zamanda Xatis-Teleti camiəsinin hər bir kəndindən altı varlı və nüfuzlu sakin seçilir; bu sakinlər bundan sonra əgər öz kəndlərinin nümayəndələri cinayət törədərsə, onun müqabilində zərər çəkən tərəfə 1000 rubl ödəyəcəkləri barədə komissiya qarşısında yazılı öhdəlik götürürlər. Daha sonra komissiya toqquşmalar zamanı daha çox ziyan görmüş Erməni Soğanlığı kəndinin sakinlərinə kömək etmək üçün vəsait yığmağı təklif edir. Bu təklif görüşdə iştirak edən həm ermənilər, həm də azərbaycanlılar tərəfindən tam dəstəklənir[2].

Tiflis və Borçalı qəzalarının on kəndinin erməni, gürcü və azərbaycanlı əhalisi arasında eyni məqsədli başqa bir toplantı da 1906-cı ilin 2-3 mart tarixlərində Tiflis qəzasının Koda kəndində keçirilir. Tədbirdə azərbaycanlıları nüfuzlu Borçalı ağaları Mehdi ağa və Şahismayıl Mursaqulovlar təmsil edirlər. Tiflis qəza rəisi Şanşiyevin və Dağet-Xaçen kəndinin erməni keşişi Ter-Osepyanın kəndliləri sülhə səsləyən çıxışlarından sonra tədbirə

---

[1] Y.Kanevski, göstərilən əsəri, s. 118-120.
[2] "Tiflisskiy listok", 1906, 1 yanvar.

qatılanlar sülh andı içirlər. Bu barədə məlumat verən "Tiflisskiy listok" qəzeti yazırdı ki, toplantının ardınca Şanşiyev və Borçalı qəza rəisinin müavini Bakradze at üstündə onları müşayiət edən və öz aralarında mehribancasına söhbətləşən ermənilər və Borçalı ağaları ilə birlikdə Borçalı qəzasını gəzib dolaşıblar, sonra isə Tiflisə gediblər[1].

Tərəflər arasında sülh razılığı əldə olunduqdan sonra azərbaycanlıların erməni malikanələrindən ələ keçirdikləri mal-mülkü geri qaytarmaq istəyini nümayiş etdirmələri də onların xoş niyyətdə olduqlarını təsdiqləyirdi. Belə faktlardan biri barədə "Kavkaz" qəzeti 13 dekabr 1905-ci il tarixli sayında "Vozrojdeniye" qəzetinə istinadən məlumat verirdi: "Qarayazıda müsəlmanların mitinqi keçirilib və mitinqdə ermənilərin əllərindən alınmış mal-qaranın və mülkün qaytarılması qərara alınıb".

Azərbaycanlılardan fərqli olaraq kin-küdurət hissi erməniləri tərk etmirdi və onlar səbəbkarları olduqları hər bir bədbəxt hadisədən, fəlakətdən və faciədən belə yenə öz xeyirlərinə faydalanmağa can atırdılar. Digər bölgələrdə olduğu kimi Tiflisdə və Borçalıda da mənfur planları demək olar ki, iflasa uğradıqdan sonra ermənilər onlara düşündüklərini istədikləri kimi həyata keçirməyə və lazımi nəticə əldə edə bilmələrinə imkan verməyən nüfuzlu azərbaycanlıları hökumətin əli ilə ortadan götürməyə çalışırdılar. Ermənilərin "sevgisini qazana bilməyən" belə azərbaycanlılardan biri də bütün Qafqazda tanınmış Borçalı əsilli Yadigaroğulları nəslinin nümayəndəsi, Tiflisdə və Borçalıda xüsusi hörmət sahibi olan və azərbaycanlı əhali arasında sözükeçən, müsəlmanların hüquqlarının qorunması üçün mübarizə aparan və 1905-ci il erməni-azərbaycanlı ixtilafının qarşısının alınması üçün əlindən gələni əsirgəməyən Borçalı qəzasının zadəganlarının başçısı general-mayor (1903-cü ildən) Həsən bəy Yadigarov (1856-1934) idi.

Belə ki, 1905-ci ilin 5 dekabr axşamı Tiflisdə kənd-təsərrüfatı cəmiyyətinin ofisində Borçalıda zavod sahibləri olan ermə-

[1] "Tiflisskiy listok", 1906, 10 mart (№ 55); "Tsnobis purtseli", 1906, 25 fevral.

nilərin iclası keçirilir. İclas iştirakçıları öz zavodlarının dağıdılmasında Həsən bəy Yadigarovu ittiham edirlər və qərara gəlirlər ki, "Borçalı qəzasının tavad-aznaurlarının marşalı (zadəganların başçısı – *F.V.*) cənab Yadigarova qarşı mülki şəkildə cinayət işi açılması üçün şikayət etsinlər"[1].

Bununla bərabər Şüləver starşinası Qaribyan Tiflis Erməni Yeparxiyasının başçısı yepiskop Şadunyana ünvanladığı 23 dekabr 1905-ci il tarixli, 43 saylı teleqramında yazırdı:

> "Bu gün, ya da sabah Yadigarovların başçılığında tatarların Şüləverə hücumu gözlənilir. Canişinin diqqətinə çatdırın ki, Yadigarovlar həbs olunmasa qəzada sakitlik olmayacaq"[2].

General-mayor Həsən bəy Yadigarovun başçılığı altında Borçalı qəzasının Borçalı, Yekaterinenfeld və Trialet nahiyələrinin kənd icmalarının ağalarının (hər kənddən 2-3 nəfər olmaqla) 31 dekabr 1905-ci ildə Sarvan kəndində keçirilmiş və qəzadakı müxtəlif məsələlərin müzakirəsinə həsr olunmuş toplantısı da erməniləri narahat edir və bu barədə yuxarı instansiyalara göndərilən şikayət məktublarının ardı-arası kəsilmir[3].

"Novoye obozreniye" qəzetinin 22 yanvar 1906-cı il tarixli 15-ci sayında "X." imzalı naməlum müəllifin "Erməni-tatar toqquşmalarına dair" başlıqlı yazısı çap olunur. Yazıda Sadıx bəy və Həsən bəy Yadigarovlar hökumət müəssisələrinin Şüləverdən başqa yerlərə köçürülməsi məsələsinin gündəmə gətirilməsində və Şüləverin mühasirəyə alınmasında günahlandırılır, bu sonuncu məsələ ilə bağlı Şüləver kənd icması tərəfindən Tiflis qubernatoruna ünvanlanmış müraciətnamədən aşağıda göstərilən parça əks olunur:

> "...Sadıx bəy Yadigarovun rəhbərliyində 1800 silahlı tatar, onların arasında zadəganların başçısı Həsən bəy Yadigarov da

---

[1] "Tsnobis purtseli", 1905, 7 dekabr (№ 2965).
[2] GMTA, f. 17, s. 2, iş № 557.
[3] "Tiflisski listok", 1906, 14 aprel, s.3 (№ 80).

> var idi, bizə savaş elan edərək və mal-mülkümüzü yox etmək istəyərək kəndimizi mühasirəyə aldılar, bu rəsmi şəkildə təsdiqlənib...".

"X."-nın yazısına ilk sərt reaksiya Sadıx bəy Yadigarovdan gəlir. O, "Kavkaz" qəzetinə göndərdiyi və bu mətbu orqanın 1 fevral 1906-cı il tarixli 22-ci sayında yayımlanmış məktubunda "Novoye Obozreniye"də özü barədə yazılanları yalan və uydurma adlandıraraq bunları ifadə edirdi:

> "Müəllif ("X." – *F.V.*) hər şeyin rəsmi təsdiq olunduğunu yazsa da, bu rəsmi təsdiqlərin mənbələrini göstərmir. Mənim haqlı olduğum general İ.Çavçavadzenin başçılığında tərkibi kn.Taktakovdan, tələbə Qabayevdən, həkim Natiyevdən və digərlərindən ibarət sülh komissiyasında iştirakım və onlarla bir yerdə Yekaterinenfeldə, Qızılhacılıya və Marneula getməyimlə təsdiqlənir. İstintaq aparılması və həqiqətin bərpa olunması üçün mən Tiflis qubernatoruna ərizə ilə müraciət etdim. Mətbuat vasitəsilə böhtan atdığı üçün yazının müəllifinə qarşı cinayət işi açılacaq.
>
> Başqa qəzetlərdən də mənim məktubumu dərc etdirmələrini xahiş edirəm".

"Novoye obozreniye"də çap olunmuş məqaləyə Həsən bəy Yadigarovun cavab məktubu da gecikmir və "Kavkaz"ın 16 fevral 1906-cı il tarixli (№ 38) sayında çap olunur:

> "...Biz bəyan edirik ki, şüləverlilərin müraciətnaməsində qeyd olunanlar bizim xeyirxah adımızı ləkələmək məqsədini güdən iftiradır. Tiflis şəhərindəki erməni-müsəlman qırğını nəticəsində başlamış Borçalı qəzasının xalq hərəkatında biz Yadigarovlardan heç kəs nəinki bizə sarınmış başçı rolunu oynamırdı, hətta əksinə hər iki millət arasında sülhün əldə olunması üçün ciddi dəstək verirdik. Biz əminik ki, bunu Borçalı qəza rəisi kapitan Ryazanovun özü və bir çox başqaları təsdiq edər. Bizə belə ağır ittihamlar irəli sürmək üçün aydın sübutlar zəruridir, bu isə şüləverlilərin müraciətnaməsində göstərilməyib.

Yenə qeyd olunan məqalədən Şüləverdən hökumət qurumlarının başqa yerə keçirilib-keçirilməməsi məsələsinə gəldikdə isə, bunun da biz Yadigarovlara qətiyyən heç bir aidiyyəti yoxdur. Çünki bu məsələ ilk dəfə şüləverlilərin oraya göndərilmiş Qoşakilsə kəndinin sakini Musanı öz bağlarında öldürmələri nəticəsində əsəbiləşmiş qəza rəisi cənab Ryazanov və onun köməkçisi cənab Bakradze tərəfindən qaldırılıb. Bunu Ryazanov və Bakradze Yekaterinenfeld koloniyasında general kn. Çavçavadzenin başçılığı altında oraya gəlmiş gürcü zadəganlarından ibarət barışdırıcı komissiyanın üzvlərinin iştirakı ilə camaat qarşısında bəyan etdilər.

Şüləver kəndinin ermənilərinin müraciətnaməsində o da deyilir ki, müsəlmanlar və ermənilər həmişə öz aralarında dinc və dostcasına yaşayıblar və əgər son zamanlar onların münasibəti kəskinləşibsə, bu ermənilərin günahından deyil və ermənilər onların kəndinə gələn dinc tatarların qeyd-şərtsiz təhlükəsizliklərinə zəmanət verməyə hazırdırlar. Biz əlbəttə ki, buna çox şadıq, qoy Allah hər şeyi şüləverlilər ümid etdiyi kimi etsin, ancaq təəssüf ki, yuxarıda qeyd olunan tatarın öldürülməsi, sonra da polis mühafizəsinin uryadniki Dmitryukun yaxalanmış və öz günahlarını boynuna almış iki şüləverli – Arşak Semyonoviç Nazarov və Xeço Oqanezov tərəfindən öldürülməsi çətin ki, sülh əhval-ruhiyyəsinə möhkəm zəmanət verilməsinə xidmət etsin".

Yeri gəlmişkən qeyd edək ki, Həsən bəy Yadigarovun məktubunda qeyd olunan bəzi faktlar barədə Tiflis mətbuatı da məlumat yayırdı. Məsələn, "Kavkaz" qəzeti 10 yanvar 1906-ci il tarixli nömrəsində həmin ilin 6 yanvarında Şüləverdə naməlum şəxslər tərəfindən polis mühafizəsinin baş strajnikinin öldürüldüyü barədə xəbər dərc edir və bu hadisənin Şüləver əhalisini vəlvələyə saldığını, axşam olunca bütün küçələrin boşaldığını bildirirdi[1]. Ermənilərin "Araç" ("İrəli") qəzeti isə 1906-cı ilin yanvar ayındakı son saylarının birində Borçalı azərbaycanlılarının böyük qüvvəylə

[1] "Kavkaz", 1906, 10 yanvar.

Şüləverə hücum etməyə hazırlaşdıqlarına dair məlumat aldıqlarını yazırdı[1].

Yadigarovlarla bağlı mətbuat yazışmalarına "Kavkaz" qəzeti vasitəsilə Şüləver starşinası Mehrabov (Mehrabyan) da qoşulur. O, bu qəzetin 23 fevral 1906-cı il (№ 44) tarixli sayında çap olunmuş məktubunda 25 noyabr 1905-ci ildə Aşağı Saral dəmir yolu platformasında Şüləverə hücum etmək üçün Sadıx bəy Yadigarovun başçılığı altında 1000-ə yaxın yaraqlı "tatar"ın yığışdığını bildirərək, bunun qarşısını almaq üçün Borçalı qəza rəisi Ryazanov və barışdırıcı münsif Topçiyevin bu "tatar"larla görüşdüyünü yazırdı. Mehrabovun sözlərinə görə, bu görüş zamanı "izdiham arasından Sadıx bəy Yadigarov çıxıb özünü təqdim edir və sonra uca səslə deyir: "Biz şüləverlilərə açıq müharibə elan edirik və silahla onların üzərinə gedirik: ya onlar ölər, ya biz"". Şüləver starşinası Ryazanov və Topçiyevin bu çıxışdan sonra "tatar" kütləsini öz başçılarına qulaq asmamağa və qan tökməməyə inandırmağa çalışdığını qeyd edirdi. O, izdiham arasında Həsən bəy Yadigarovun da olduğunu və Həsən bəyin qarətçilərin başçılarını tapmağa və talan olunmuş əşyaların geri qaytarılmasına yardım etmədiyini, əksinə, bu işə maneəçilik törətdiyini və qarətçilərin başçılarını, xüsusilə də Molla Abbası müdafiə etdiyini iddia edirdi.

Yanğınlar törədib qarətçilik edən "tatar" silahlı dəstələrinin başında bəzi Borçalı ağalarının dayandığını vurğulayan Mehrabov qeyd olunan məktubunda Borçalı qəzasında qaçaqların statistikasına baxdıqda kəndli mühitindən üç məşhur qaçağın − Avdı, Mansur və Kələ-Ömərin, ağaların sıralarından isə 17 nəfər baş qaçağın − Halay bəy, Hacıxəlil ağa, Hüseyn ağa, Hasan-Paşa-Alı və digərlərinin çıxdığını ifadə edirdi.

4 iyun 1906-cı ildə Tiflis quberniyasının zadəganlarının toplantısı keçirilir. Toplantının birinci hissəsi 1906-cı ilə aid maliyyə məsələlərinin müzakirəsinə həsr olunur, ikinci hissədə isə

[1] "Tiflisskiy listok", 1906, 1 fevral.

kəndlilərin vəziyyətinin yaxşılaşdırılması üçün vəsait tapılması üzrə, aqrar məsələlər üzrə, Kaxet dəmir yolunun çəkilməsi üzrə komissiyalara, zadəganların mülklərinə nəzarət komitəsinə, quberniyanın qəzaları üzrə zadəganların başçısı və onların köməkçiləri vəzifələrinə seçkilər keçirilir[1].

Borçalı qəzası üzrə zadəganların başçısı (seçilmiş nümayəndəsi) vəzifəsinə Həsən bəy İsrafil bəy oğlu Yadigarov, onun köməkçisi vəzfəsinə knyaz A.Z.Mağalov seçilirlər. Eyni zamanda Həsən bəy Yadigarov, knyaz A.İ.Cambakur-Orbeliani, kn. Q.M.Melikov, kn. A.L.Mağalov və Sadıx bəy Abbasəli bəy oğlu Yadigarov qəzada bank üzrə səlahiyyətli şəxslər olurlar.

Yadigarovlardan İsmayıl bəy Allahverdi bəy oğlu isə kəndlilərin vəziyyətinin yaxşılaşdırılması üçün vəsait tapılması üzrə komissiyaya üzv seçilənlər arasında olur.

Əlavə edək ki, zadəganların mülklərinə nəzarət komitəsinə knyaz İ.S.Çavçavadze, V.A.Saracov və D.İ.Musxelov seçilirlər.

“Tiflisskiy listok” qəzeti “Mşak”a istinadən bildirirdi ki, Borçalı qəzasının Lori nahiyəsinin 40 erməni kəndi Həsən bəy Yadigarovun qəza zadəganlarının başçısı vəzifəsinə təsdiq olunmasına etiraz edibdir[2].

1905-ci il dekabr ayının sonunda Borçalıda məlum iğtişaşlar nəticəsində əhalinin çəkdiyi zərərin ödənilməsi məqsədilə canişinin mülki işlər üzrə köməkçisi N.A.Sultan-Gərayın başçılığı altında komissiya yaradılır[3]. Tiflisdə yayımlanan “İsari” (redaktor: Val. Qunia, naşir: E.Avalişvili) qəzetinin 1908-ci il tarixli saylarından bu komissiyanın bir neçə il fəaliyyət göstərdiyi barədə nəticə hasil olur. Belə ki, bu qəzetin 24 yanvar 1908-ci il tarixli sayında Tiflis qubernatoru Lozino-Lozinskinin yaxın günlərdə işgüzar səfərlə Borçalı qəzasına gedəcəyi barədə məlumat verilirdi. Həmin qəzetin növbəti sayında bildirilirdi ki, canişinin dəftərxanası dövlət xəzinəsindən maddi yardım ayrılması üçün

[1] “Tiflisskiy listok”, 1906, 7 iyun (№ 118).
[2] “Tiflisskiy listok”, 1906, 7 iyul, s. 3.
[3] “Kavkaz”, 1905, 30 dekabr (№ 317).

qubernatordan 1905-1906-cı illər erməni-azərbaycanlı toqquşmaları zamanı Tiflis və Borçalı qəzalarında daha çox zərər çəkmiş kəndlərin siyahısını istəyir[1].

"Novoye obozreniye"nin 14 fevral 1906-cı il tarixli sayında Yekaterinenfeld koloniyasından verdiyi xəbərdə Borçalı qəzasında mülkləri yağmalanmış erməni mülkədarların qəza rəisi Ryazanov qarşısında onlara dəyən ziyanın qarşılığında 2 milyon rubl məbləğində pul ödənilməsi üçün vəsatət qaldırdığı, Ryazanovun isə öz növbəsində bu məbləğin bir milyonunun dövlət xəzinəsindən, qalan milyonun isə müsəlman əhalisi tərəfindən ödənilməsi təklifi ilə yuxarı dairələr qarşısında məsələ qaldırdığı bildirilərək aşağıdakılar yazılırdı:

"İndi bizə etibarlı mənbələrdən məlum oldu ki, Borçalı qəzasında hərbi vəziyyət elan olunur. Tiflisdən Cəlaloğluya artıq iki rota piyada və batareya gəlibdir. Şayiələr gəzir ki, hərbi vəziyyət tətbiq edərək baş vermiş həyəcanlanmanın və zavod dağıdılmalarının günahkarları hesab olunan Muğanlı, Arıxlı, Yaqublu kimi bir neçə kəndi başqa yerə köçürmək istəyirlər".

Xoşbəxtlikdən bütün bu yazılanlar şayiə səviyyəsindən o yana keçmədi.

1905-ci ilin son və 1906-cı ilin ilk aylarında Borçalıyla bərabər bu mahala qonşu olan Qazax-Şəmsəddin, Ahıska-Axalkələk, Ağbaba, Qaraçöp mahallarında da vəziyyət gərgin idi:

**Qazax-Şəmşəddil bölgəsi.** "Tsnobis purtseli" qəzetinə Şəmşəddildən, Qovlar dəmir yolu stansiyasından verilən məlumatda silahlı erməni güruhunun azərbaycanlıların kəndlərini dağıtdığı bildirilirdi[2]. Qazax, Soyuqbulaq, Ağstafa stansiyalarından göndərilən depeşalarda isə azərbaycanlıların erməniləri sıxışdırdığı barədə məlumatlar əks olunurdu[3]. Arxiv mənbələri so-

[1] "İsari", 1908, 25 yanvar (№ 20).
[2] "Tsnobis purtseli", 1905, 27 noyabr.
[3] Bax: "Novoye obozreniye", 06.11.1905; "İveriya", 27.11.1905 və 01.12.1905; "Tsnobis purtseli", 28.11.1905; "Kavkaz", 08.12.1905; "Tiffliskiy listok", 11.12.1905 və 30.11.1905.

raqlayır ki, Qazax qəzasında 1905-ci il hadisələri zamanı ermənilər əleyhinə təbliğat işi aparmaqda ittiham olunanlar arasında qəzanın Ocaxlı kəndinin ağaları Məmməd ağa İskəndərbəyov da olubdur[1].

"Tiflisskiy listok"un ermənicə nəşr olunan "Araç" qəzetinə istinadən yayımladığı xəbərdən ermənilərin "uğurlu" əməliyyat nəticəsində 27 yanvar 1906-cı ildə Qazax qəzasında 5-6 azərbaycanlı kəndini yerlə yeksan etdikləri bəlli olurdu[2]. Həmin qəzet iki gün sonra 29 yanvarda sayları 700-dən çox olan atlı-silahlı Borçalı azərbaycanlılarının Qvarzin monastırı istiqamətindən Qazax qəzasına gəldikləri barədə məlumat yayımlayıb onların 2 dəstəyə bölündüklərini, 200 nəfərlik birinci dəstənin Əskipara kəndinin azərbaycanlılarının köməyinə getdiyini, 500 nəfərlik digər bölümün isə ermənilərin yaşadığı Qaradam və Coqas kəndləri tərəfə istiqamət götürdüyünü bildirirdi[3].

**Axalkələk qəzası.** Axalkələk qəza rəisi kapitan Balabanskinin yazışmalarında Axalkələk və Ağbabada sakitlik olsa da, Qızıl Qoç, Böyük və Kiçik Xançallı kəndlərində atlı-yaraqlı azərbaycanlı dəstələrinin göründüyü və bunun erməniləri təşvişə saldığı bildirilirdi. Bu yazışmalardan Axalkələyin erməni kəndlərinin "tatarlardan-türklərdən qorunmaq üçün" hökumətdən silah istədiyi və onlara imzalı öhdəlik əsasında tüfənglər paylandığı aşkar olur[4].

GMTA-da saxlanılan "Axalsıx qəzasında iğtişaşlar (1906-cı il)" adlı qovluqda Ahıskalılardan və Axalkələklilərdən "Tiflisdə müsəlman qəzetinin redaksiyasında xidmət edən Azqurlu Ömər əfəndi Loğman ağa oğlu"nun (Ömər Faiq Nemanzadənin – *F.V.*), Toloş kəndinin yaxınlığında mülk sahibi olan Hasan bəy Xıdırbəyovun, qarzametli Molla Murad Hacı Məmməd oğlu, Le-

---

[1] GMTA, f. 83, s.1, iş № 28.
[2] "Tiflisskiy listok", 1906, 1 fevral (№ 25).
[3] "Tiflisskiy listok", 1906, 2 fevral (№ 26).
[4] GMTA, f. 17, s. 2, iş № 557.

bis kəndxudası Zabit Coşğun oğlu, Samkre (Kobliyan nahiyəsi) kəndxudası Qəhrəman Kamil oğlu, tokyalı Ağa paşa Loğman bəy oğlu, göyyəli Balabəy və Eyyub Məmməd oğulları, azmanalı İşıx Yusuf oğlu, 1905-ci ilin noyabr ayının sonlarında Ahıskanın Zikiliya və Muqaret kəndləri arasında öldürülmüş meşəbəyi Mədəd Murad oğlu Dedoşvili və digərlərinin adları hallanır, axalkələkli mülkədar Murtuza bəy Pəhləvandovun (məşhur Mutubəyzadələr nəslindən – *F.V.*) "Canbezar" hərəkatının üzvü olub-olmadığı barədə yazışmalar əks olunur[1].

Axalkələk qəza rəisi Balabanskinin Tiflis qubernatoruna ünvanladığı 11 fevral 1906-cı il tarixli, 4 saylı raportdan Murtuza bəy Pəhləvandovun əmisi, Axalkələkdə ən nüfuzlu şəxslərdən biri olan Məmmədəli bəy Pəhləvandovun şəxsən onunla və barışdırıcı münsif Muravyovla görüşdüyü və onları Axalkələk müsəlmanlarının heç bir hərəkat yaratmadığına əmin etdiyi bəlli olur[2]. Balaban-ski raportunda Axalkələk qəzasında ermənilərin, qonşu qəzalarda isə müsəlmanların çoxluq təşkil etdiyini vurğulayaraq yazırdı: "Həqiqətən müsəlmanlar Axalkələk qəzasında təşkilatlansalar bu çox təhlükəli ola bilər. Çünki hazırda yalnız ermənilərin silahlı təşkilatları var və sayca ermənilər çoxdur. Ancaq müsəlmanlar da silahlanıb təşkilatlansa, toqquşmalar qaçılmazdır. Çünki ermənilər sayca çox olanda özlərini hədsiz dərəcədə ədəbsiz aparırlar... Ermənilər müsəlmanların bir tüfəngi ucbatından ümumdünya harayı qaldırmağa hazırdırlar".

Yeri gəlmişkən qeyd edək ki, Ədirnə sülh müqaviləsinə (1829-cu il) qədər Axalkələk bölgəsində əhalinin böyük əksəri Borçalıdakı soydaşları ilə yaxın qohumluq əlaqələrində olmuş qarapapaq türklərindən ibarət olmuşdur[3].

---

[1] GMTA, f. 17, s. 2, iş № 563, vv. 76, 91, 108.
[2] GMTA, f. 17, s. 2, iş № 563, v. 108.
[3] Bu barədə bax: F.Valehoğlu, göstərilən əsəri, s. 59-64; F.Valehoğlu. Cavahet Karapapakları, "Bizim Ahıska" dərgisi (Türkiyə), 2008, № 9, s. 45-46.

**Qaraçöp mahalı.** Tiflisdə azərbaycanlılara qarşı həyata keçirilmiş qanlı aksiyaların Qazax-Borçalı-Tiflis üçbucağında, Yor (Qanıx) çayının qırağında yerləşən Qaraçöp mahalının azərbaycanlılarını da hövsələdən çıxara bilməsi ehtimalı böyük idi. Münaqişənin Kaxet bölgəsinə keçməsindən əndişələnən gürcülər önləyici tədbirlər görməyə çalışırlar. 4 dekabr 1905-ci ildə Saqareco kəndində bu bölgənin gürcü, azərbaycanlı və erməni kəndlərinin nümayəndələrinin birgə toplantısı keçirilir. Xalqları birliyə səsləyən və qan tökülməsinin faydasızlığından bəhs edən bir neçə çıxış olur. Hər üç millətin nümayəndəsi təxribatçılara qarşı bərabər hərəkət edəcəklərinə söz verirlər. Toplantıda iştirak edən molla və keşişlər xalqı sözlərinin üstündə duracaqlarına and içdirirlər. Qaraçöp azərbaycanlıları eyni zamanda, lazım gəlsə Qarayazı azərbaycanlıları ilə sülh danışıqları aparmaq üçün vasitəçi ola biləcəklərini bəyan edirlər[1].

6 dekabrda belə bir toplantının Təhlə azərbaycanlılarının və Lilo-Martğop sakinlərinin iştirakı ilə Vazianda keçirilməsi planlaşdırılır.

Erməni təşkilatları gürcülərlə azərbaycanlıların arasını vurmaq üçün min bir oyundan çıxırdılar. Onlar nəinki Tiflisdə, ətraf bölgələrdə də azərbaycanlılarla gürcülərin arasında nifaq toxumu səpmək üçün yalan şayiələr yayır, insanların hissiyyatları ilə oynayırdılar. "Tsnobis purtseli" qəzetinin 9 dekabr 1905-ci il tarixli sayında çap olunmuş "Yor dərəsinin gürcülərinin çağırışı"ndan bu tipli iyrənc şayiələrin yayım dairəsindən Qaraçöpə də pay düşdüyü aydın olur:

> "Erməni-tatar qırğını ürəyimizi ağrıtdı. Onu təşkil edənlərə ayıb olsun. Yor dərəsində iki tatar kəndi var – Yuxarı və Aşağı Muğanlı. Onlar bizi oğurluqlarla narahat etsə də biz onları qardaşlarımız hesab edirik. Çünki onların içində hörmətli, təmiz adamlar çoxdur, qalanlarını da zaman və düzgün idarəetmə düzəldəcək.

[1] "Tsnobis purtseli", 1905, 7 dekabr (№ 2965).

İndi bizim qardaş və dost münasibətlərimizə əks olan xəbərlər eşidilir: guya gürcülər onlara hücum etmək istəyir, onlar da Kür qırağında yaşayan tatarlara və hətta dağıstanlılara kömək üçün müraciət ediblər. Əlbəttə ki, bizim qonşuluqdakı müsəlmanlar belə xəbərlərə inanmayacaqlar və düşmənçiliyin bünövrəsinin qoyulmasını arzu etməyəcəklər.

Bildiririk ki, biz hər bir millətin qardaşıyıq və hər bir millətə hörmət edirik. Biz hər bir millətin hüquqlarının qorunmasını və hər bir millətə eyni gözlə baxılmasını tələb edirik. Yoxsa tarix bizi bağışlamayacaq!

Xahiş edirik, bu çağırışı bütün qəzetlər çap etsin".

Azərbaycanlılarla gürcülər arasında ədavət salmaq istəyənlərə böyük gürcü şairi Akaki Tsereteli "Kavkaz" qəzetinin 27 yanvar 1906-cı il tarixli 22-ci sayında çap olunmuş "Gürcülərlə müsəlmanların qarşılıqlı münasibəti" sərlövhəli məqaləsində layiqli cavab verirdi:

"1795-ci ildə Ağa Məhəmməd xan Tiflisi mühasirəyə alanda və gürcü çarı İrakli yalnız Tiflis məliklərinin deyil, öz yaxın sərkərdələrinin satqınlığı nəticəsində çox böyük İran qoşununun qarşısına yalnız 8000-lik qoşunla çıxmağa məcbur olanda döyüşən gürcülərin arasında qazax-borçalılar da var idi. Bu tatarlar... vətənləri kimi Gürcüstan uğrunda hətta öz dindaşlarına qarşı vuruşub başlarını qoyurdular. Tiflisdən qaçan çariçanı (çar arvadını) Yadigarovların ailəsindən olan bir qadının başçılığı altında silahlı tatar qadınları müşayiət edirdilər. Rusların hakimiyyəti altında bu əlaqələr heç zaman pisləşmirdi və tatarlar bəzən qaçaq dəstələri yaratsalar da, bu dəstələr həmişə gürcülərə qarşı münasibətdə tayfa düşmənçiliyi deyil başqa məqsədləri əllərində rəhbər tuturdular...

Beləliklə, həm tarix, həm günümüzün faktları bizi ona əmin etməyə bilməz ki, gürcülərlə tatarlar və digər müsəlmanlar arasında, hətta hansısa partiyalar və qruplar bizim aramızda süni şəkildə anlaşılmazlıqlar yaratmağı arzu etsə belə, qətiyyən heç bir antaqonizm (barışmaz ziddiyyət – *F.V.*) baş qaldıra bilməz".

**Muxran çökəyi.** Arxiv sənədləri soraq verir ki, Borçalıdan aralı, Duşet qəzası ərazisində yerləşən Muxran çökəyinin ermənilləri də hər eşitdikləri güllə səsindən hay-küyə düşüb təlaşlanırlarmış. Hətta iş o yerə çatır ki, Muxran kəndliləri Karapetaşvili və Mamuçarov, iki Muxran keşişi – pravoslav Georgi Marinov və erməni-qriqoryan Ezikyants rəsmi qurumlara güclü atəş səsləri eşitdiklərini xəbərləyib, azərbaycanlıların hücumundan müdafiə olunmaq üçün silah verilməsini tələb edirlər. Sonradan məlum olur ki, bu Muxran ermənilərini qarabasmaya salan və azərbaycanlıların hücumu kimi görükdürməsinə səbəb olan güclü atəş səsləri Duşet şəhərində dislokasiya olunmuş ordu birliklərinin hərbi təlim ma-nevrlərindən gəlirmiş[1].

[1] GMTA, f. 17, s. 2, iş № 557.

# V Bölüm

## SÜLH QURULTAYI
**(20 fevral – 6 mart 1906-cı il)**

Cənubi Qafqazda səngiməк bilməyən erməni-azərbaycanlı toqquşmalarının qarşısının alınması və bunun üçün konkret təkliflərin hazırlanması məqsədilə Tiflis şəhərində keçirilməsi qərarlaşdırılan sülh qurultayına 1905-ci ilin dekabr ayının sonlarından etibarən ciddi hazırlıq işləri görülür. İlk başda qurultay 1906-cı ilin 15 fevralına təyin olunur. Məşhur Bakı milyonçusu Hacı Zeynalabdin Tağıyev şeyxülislama müraciət edib qurultayın təxirə salınmasını xahiş edir. O, bu xahişini qeyd olunan tədbirdə müsəlmanları təmsil edə biləcək nümayəndələrin Ümumrusiya müsəlmanlarının qurultayında iştirak etmək üçün Peterburq şəhərinə getmələri ilə əsaslandırır. Hacı Zeynalabdinin xahişi nəzərə alınmasa da, nəticə etibarilə qurultayın açılış tarixi erməni nümayəndələrin təyin olunmuş vaxtda Tiflisə yığışmamaları səbəbindən 20 fevrala keçirilir[1]. Yeri gəlmişkən qeyd edək ki, 15 yanvar 1906-cı ildə keçirilmiş Ümumrusiya müsəlmanları qurultayına Bakıdan Ə.Topçubaşov və Kərbalayı N.H.Sadıxov qatılmışdılar[2].

Tiflis qurultayına nümayəndə seçimi ilə müxtəlif bölgələrdə bağlı azərbaycanlı və erməni icmalarının yığıncaqları keçirilir. “Novoye obozreniye” qəzeti 17 fevral (2 mart) 1906-cı il tarixli sayında “İrşad” qəzetinə istinadən məlumat verirdi ki, 9 fevralda Bakıda Qasım bəy məscidinə toplaşmış şəhərin hörmət-izzət sahibi olan müsəlmanları qurultayda onları təmsil etmək səlahiy-

[1] “Novoye obozreniye”, 1906, 20 yanvar (2 fevral).
[2] “Novoye obozreniye”, 1906, 14 (27) yanvar.

yətini "İrşad" və "Həyat" qəzetlərinin redaktoru Əhməd bəy Ağayevə (1869-1939), "Kaspi" qəzetinin redaktoru Əlimərdan bəy Topçubaşova (1862-1931), milyonçu Kərbəlayı İsrafil Hacıyevə və həkim Qarabəy Qarabəyova (1874-1953) veriblər. Digər şəhər və bölgələrdən qurultaya aşağıdakı müsəlman nümayəndələrin adları təqdim olunur:

Tiflisdən – andlı müvəkkil Məhəmməd bəy Şahmalıyev, Mustafa bəy Eminov, poruçik Hüseyn bəy Yadigarov, Şərif bəy Mirzəyev (1862-1937), qazi Ələddin əfəndi Sübhanqulov və qazi Məhəmməd Həsən Mövlazadə (1854-1932), İrəvandan – Ağaxan İrəvanski, Abbasqulu bəy Hacıbəyli, dağ-mədən mühəndisi Şahqulu mirzə Qacar, Naxçıvandan yazıçı-publisistlər – Eynalı bəy Sultanov (1863-1935) və Məmməd ağa Şahtaxtinski (1846-1931), Sürməli qəzasından – Əli ağa Həkimov, Şamaxıdan – mühəndis Zivər Əhmədbəyov (1873-1925), Gəncədən hüquqşünaslar – Ələkbər bəy Xasməmmədov və Adilxan Ziyadxanov, Şuşadan – Cahangirxan Nuribəyov (1861-1934), İsi bəy Qalabəyov və İsmayıl bəy Quliyev, Zəngəzur qəzasından – Cabbar bəy Sultanov, Nuxa qəzasından – Hacı Cəlil, Ərəş qəzasından – Sultan bəy Sultanov, Qazax qəzasından İbrahim ağa Vəkilov (1853-1934), Axalkələk qəzasından Məmməd ağa Pəhləvandov, Borçalı qəzasından Əbdürrəhman Haqverdi oğlu.

Ermənilər isə qurultaya nümayəndə qismində Tiflisdən – "Mşak" qəzetinin redaktoru A.A.Kalantar, A.A.Melik-Azaryants, A.İ.Xatisov və həkim Q.N.Stepanovu, Bakıdan – mühəndis K.İ.Xatisov, mühəndis S.S.Taqianosov və mühəndis A.O.Qukasovu, İrəvandan – İ.K.Melik-Ağamalov, A.N.Ter-Avetikyan və L.K. Muşeqyanı, Şuşadan – arximandrit (baş rahib) Nersesi, Cavad İşxanov və mühəndis L.İ.Quliyevi, Gəncədən – İ.B.Melik-Beqlyarov, İ.N.Xocayev, M.S.Lazarev və L.T.Melik-Mnatsakanovu, Naxçıvandan – L.Sarkisyan və A.B.Arakelyanı, Qarsdan – arximandrit Yegişe Muradyanı, Borçalı qəzasından – Şüləver kəndxudası V.Mehrabyanı, Qazax qəzasından – Samson S.Arutyunovu, Batumdan – Sarıbek Arutyunovu, Gümrüdən – şəhər

başçısı K.M.Ter-Petrosyanı, Nuxadan – general Silikovu, erməni katolikləri adından isə – Q.Naxapetyan, Arakel Saruxanyan, İ.Qurqenov və N.X.Qara-Murzanı seçirlər. Ermənilərin İrəvan nümayəndələri Tiflisə gəlmədikləri üçün onların yerinə "Nor-Dar" qəzetinin redaktoru İ.S.Spendiarov dəvət olunur[1].

Beləliklə, iki aylıq hazırlıqdan sonra 1906-cı ilin **fevral ayının 20-də** saat 14:15-də Tiflisdə canişinlik sarayının böyük akt zalında çarın Qafqazdakı canişini qraf İ.İ.Vorontsov-Daşkovun başçılığı altında azərbaycanlı-erməni sülh qurultayı öz işinə başlayır. Tədbirdə canişinin köməkçiləri – Y.D.Malama (hərbi məsələlər üzrə), N.A.Sultan Krım-Gəray (mülki məsələlər üzrə), Y.N.Şirinkin (polis məsələləri üzrə), canişin şurasının üzvləri – N.F.Cunkovski, Pribil, Medvedyev (Qafqazda əmlak naziri) və Peterson (canişinlik dəftərxanasının müdiri), Tiflis qubernatoru baron P.A.Rauş-fon-Traubenberq, İrəvan qubernatoru qraf V.F.Tizenqauzen, Yelizavetpol qubernatoru A.A.Kalaçev, Xarici İşlər Nazirliyinin sərhəd məsələləri üzrə məsul əməkdaşı Koxanovski, senator A.M.Kuzminski, qəzet redaktorları, müsəlman və erməni icmasının hərəsindən 28 nümayəndə iştirak edirlər.

Qurultaydakı çıxışlar və müzakirələr, onun gedişatı ətraflı şəkildə "Tiflisskiy listok", "Vozrojdeniye", "Novoye obozreniye", "Kaspi", "Baku", "Həyat", "İrşad" və digər qəzetlərdə, M.S.Ordubadinin "Qanlı illər" əsərində və saray müşaviri Vladimir Mayevskinin 1915-ci ildə Tiflisdə nəşr olunmuş "Qafqazda erməni-tatar qırğını erməni məsələsinin mərhələlərindən biri kimi. Mart 1906-cı il" adlı kitabında geniş şərhlərlə təsvir olunmuşdur. Tədbirin stenoqramı isə "Kavkaz" qəzetinin 1906-cı il 43, 45-50 və 52-55-ci saylarında çap edilmişdir. Bu mənbələrdən bəlli olur ki, qurultayda açılış nitqi söyləyən canişin Vorontsov-Daşkov bir ildir ki, Cənubi Qafqazda sülhü bərqərar etmək cəhdlərinin boşa çıxdığını vurğulayaraq, hər iki xalqın – azərbaycanlıların və ermənilərin seçilmiş nümayəndələrini bir araya

[1] "Novoye obozreniye", 1906, 22 fevral (7 mart).

toplamalarının başlıca səbəbinin onların sülhə nail olmaq naminə öz məsləkdaşlarına yalnız sözlə və nüfuzları ilə təsir göstərmələri deyil, həmçinin həqiqətən faydalı ola biləcək inzibati təsir vasitələrini müzakirə etmək olduğunu qeyd edir. O, çıxışında yaxın zamanda yaylaq köçlərinin başlanacağını və bu dövrün həmişə çox sayda cinayətlər və soyğunçuluqlarla fərqləndiyini xatırladıb, bu məsələnin nizamlanması üzərində də düşünmək gərəkliyini ifadə edir. Canişin çıxışının sonunda mövcud durumun yalnız inqilabi təşkilatların və quldurların işinə yaradığını vurğulayaraq, burada günahkar axtarmağın lazım gəlmədiyini deyir və qurultaya sədrlik etməyi özünün hərbi məsələlər üzrə köməkçisi general-leytenant Yakov Dmitriyeviç Malamaya (1841-1912) həvalə edir.

Qraf Vorontsov-Daşkov sözünü bitirər-bitirməz arximandrit Yegişe Muradyan ayağa qalxıb humanist islahatlar apardığına, erməni xalqına və kilsəsinə ədalətli münasibətinə görə erməni əhalisi adından ona təşəkkür edir.

Sonra toplantıya sədrlik edən Malama qurultayın işinin istintaq aparıb günahkarları aşkar etməkdən və cəzalandırmaqdan deyil, düşmənçilik edən iki xalq arasında möhkəm və davamlı sülhün yaradılmasından, yeni toqquşmaların qarşısının alınması üçün öncədən ölçü götürülməsindən, bu ölçünün düzgün götürülməsi üçün isə baş vermiş kədərli hadisələrin səbəblərinin müəyyən edilməsindən ibarət olduğunu qeyd edir.

Azərbaycanlı nümayəndələr keçmişin çamurunda eşələnməməyi və səbəblərə toxunmamağı məsləhət bilir. İ.Hacıyev: "Elə bilirdik ki, bizi buraya ona görə toplayıblar ki, gələcəkdə necə yaşamalıyıq o məsələni həll edək, yoxsa ki, qonşularla, bizim ermənilərlə yaşadığımız şəkildə yaşamaq olmaz... Vaxt gözləmir. Səbəblər isə bir deyil, çoxdur". İ.Hacıyevin bu çıxışına K.Xatisov etiraz edir və "Xəstəliyə düzgün diaqnoz qoymadan xəstəni müalicə etmək olmaz", − deyir. Bundan sonra məsələ ilə bağlı İ.Hacıyevin, M.Şahtaxtinskinin və Ə.Ağayevin çıxışları bir-birini əvəz edir.

M.Şahtaxtinski: "Biz müsəlmanlar hesab edirdik, elə indi də

hesab edirik ki, səbəblər rəhbərliyə çox yaxşı bəllidir. Biz ermənilərə hücum etmək niyyətində deyilik və onlara hücum etməmişik də. Əgər ermənilər səmimiyyətlə sülhün olmasını istəyirlərsə, bizim kimi olub keçənləri unutmalı və səbəblər haqqında danışmamalıdırlar... Yox, əgər onlar səbəblər haqqında danışmaq istəyirlərsə, onda təbii ki, bizi günahlandıracaqlar. Ancaq biz də bundan boyun qaçırmırıq və burada əsl səbəbləri deməkdən qorxmuruq, deyəcəyik də, fəqət bu, çox çətin ki, sülhə gətirə".

Ə.Ağayev çıxışında məsələlərin aşağıdakı proqram üzrə müzakirə olunmasını təklif edir:

1) 17 oktyabr manifestinə qədər hüquqi və dövlət münasibətləri baxımından tərəflərin qarşılıqlı vəziyyəti necə idi;

2) Azadlıq hərəkatında ermənilər və müsəlmanlar necə iştirak edirdilər;

3) Bu hərəkatda erməni təşkilatları hansı rolu oynayırdı və müsəlman əhaliyə necə münasibət göstərirdilər.

O, səbəblərdən danışanda bu proqram üzrə hərəkət etməyi vacib sayır və qırğının da səbəblərinin onda gizləndiyini söyləyir.

Bundan sonra erməni nümayəndələrindən S.Arutyunov söz alıb düşmənçiliyin şiə müsəlmanlar və qriqoryan ermənilər arasında baş verdiyini, qurultaya isə bu məsələdə neytral olan sünni müsəlmanların və katolik ermənilərin də dəvət olunduğunu vurğulayaraq, buna heç bir etirazlarının olmadığını deyir və qırğının səbəblərini gizlətməməyə çağırır.

Bu çıxışa dərhal münasibət bildirən İ.Vəkilov özünün sünni müsəlman olduğunu bildirib, təmsil etdiyi Qazax qəzasında ermənilərin hücumları nəticəsində dağıdılmış bir neçə sünni kəndinin adını çəkir.

Bundan sonra Arutyunovun sözlərinə Məhəmməd ağa Şahtaxtinskidən reaksiya gəlir:

"Bu ermənilərin adi bir fəndidir. Onlar yenə də şiələr və sünnilər arasında nifaq salmağa çalışırlar, amma buna nail ola bilməyəcəklər".

Bakılı mühəndis K.Xatisov yenidən müzakirəyə qatılaraq

deyir: “Biz buraya qılıncla deyil, sülh bayrağı ilə gəlmişik. Əgər bizə deyirlərsə ki, sünnilər də bizim düşmənimizdir, onda onlarla da barışacağıq”.

K.Xatisovun sözlərini yenə həmşəhərlisi İ.Hacıyev cavabsız qoymur: “Qılıncla gəlməyibsiniz, amma elə sözlərlə gəlibsiniz ki, onlar qılınca tay ola bilər. Bu sözlər nəyə lazımdır, səbəblər barədə danışmaq nəyə gərəkdir? Sülh istəyiriksə olub keçənləri unutmaq və həm bizim, həm də ermənilərin günahkar olduğunu demək lazımdır”.

Sonra çıxış edən “Murç” (“Çəkic”) erməni jurnalının redaktoru L.Sarkisyan baş vermiş qanlı olayların əsas səbəbini dövlət administrasiyasının etinasızlığında görür və onu hərbi güc tətbiq edərək toqquşmaların qarşısını almamaqda ittiham edir.

Ə.Topçubaşov səbəbləri ayırd etmək üçün regionda tarixi, iqtisadi, məişət və siyasi şərtlərin öyrənilməsi, başqa sözlə, bütövlükdə Qafqazın böyük və qalın tarixinin yazılması gərəkliliyini qeyd edir.

Ə.Ağayev isə bu məsələdə tərəflərdən heç birinin özünü günahkar hesab etməyəcəyini, ona görə də suçlu tərəfin müəyyən edilməsi üçün münsiflər məhkəməsinin lazım gəldiyini deyir.

Erməni nümayəndələrdən Q.Stepanovun bir neçə dəfə söz alıb təkidlə səbəblərin araşdırılması zəruriliyini söyləməsi azərbaycanlı nümayəndələrdən Kərbəlayı İsrafil Hacıyevi hövsələdən çıxarır və onu daha sərt şəkildə fikir söyləməyə və həqiqətləri deməyə məcbur edir:

“Bir halda ki, iş səmimiliyə getdi və ermənilər özü bunu burada tələb edir, onda mən heç bir qədər də çəkinmədən deyəcəyəm ki, bizim qırğının əsas səbəbkarı “Daşnaksutyun” erməni inqilabi təşkilatıdır”.

İ.Hacıyevin bu açıqlaması dərhal K.Xatisovun söz alıb – “hesab edirəm ki, burada səbəblər haqqında danışmaq və köhnə davalarda eşələnmək lazım deyil”, – deməsinə və rus hökumətini son 10 ildə ermənilərə qarşı ədalətsiz münasibətdə suçlamasına, elə qırğının səbəbinin də hökumətdən qaynaqlandığını söylə-

məsinə səbəb olur.

Beləliklə, İ.Hacıyevlə K.Xatisovun söz dueli İ.Hacıyevin qətiyyəti sayəsində K.Xatisovun geriyə addım atması ilə nəticələnir.

V.F.Mayevski Xatisovun canfəşanlığını şərh edərək yazırdı:

> "Bir balaca istedad sahibi olan natiq (Xatisov nəzərdə tutulur – *F.V.*) öz sözlərində məşhur kəlamlara istinad edir, məntiqlə danışaraq lazımi nəticələr çıxarırdı. Elə ilk sözlərindən sonra aydın olur ki, o, ümumiyyətlə, iclasın başqa üzvləri arasında özünə tay rəqib görmür. İstər onun üçün, istərsə də başqa erməni nümayəndələri üçün aydın oldu ki, Qafqazda erməni-tatar iğtişaşlarını doğuran əsas səbəbləri müzakirə edərkən, hər şeydən əvvəl, müxtəlif erməni gizli təşkilatlarının və komitələrinin fəaliyyətinə hökmən toxunulacaq. Onların ən əsas qanlı toqquşmalarda iştirakı heç bir şübhə doğurmayan faktdır. Və beləliklə, aydın oldu ki, Qafqazın indiki müsibətlərində, ilk növbədə, elə ermənilərin özləri günahkar olublar. Aydındır ki, bu cür hadisələr bəzi erməni nümayəndələrini az təşvişə salmırdı"[1].

Sonra qurultayda müzakirə olunacaq məsələlərin proqramının hazırlanması və bunun üçün xüsusi iclasın keçirilməsi təklifləri səsləndirilir. Məsələyə münasibət bildirən canişinlik dəftərxanasının müdiri Peterson yaxın zamanda "koçevka"nın, yəni ki, yaylağa köç dövrünün başlayacağını vurğulayıb, bu dövrə qədər barışıq olmasa qırğının yeni təkanla təkrar alovlanacağını və xüsusi iclasın ilk növbədə "koçevka" zamanı mümkün toqquşmaların qarşısının alınması məqsədilə tədbirlər hazırlanması üçün lazım olduğunu söyləyir. O, eyni zamanda canişinin də öz çıxışında keçmişə baxmamaq, günahkarlar və səbəblər məsələsinə toxunmamaq zərurətini ifadə etdiyini xatırladıb, gələcək barədə düşünməyi məsləhət görür.

Tiflis qubernatoru baron P.Rauş-fon-Traubenberq də qurultayın əsasən davamlı sülhə nail olmaq məqsədini güddüyünü və

[1] В.Ф.Маевский. Армяно-татарская смута на Кавказе как один из фазисов армянского вопроса. Баку, 1993.

səbəblərə toxunularsa məsələnin çox dərinləşəcəyini deyir. O, təklif edir ki, hər iki tərəf ayrılıqda qurultayda müzakirə olunmasını lazım bildikləri məsələlərə dair proqramlar hazırlasın, sonra onlar əsasında ümumi bir proqram tərtib olunub qurultayda təsdiqlənsin.

Rəsmi nümayəndələrin dediklərini qulaq ardına vuran irəvanlı L.Müşeqyan yenidən səbəblər məsələsini dəbərdir: "Biz səbəbləri aydınlaşdırmasaq və onları kənarlaşdırmasaq əhali bizdən razı qalmayacaq və sakitləşməyəcək". Muşeqyanın bu sözlərindən sonra sədr Yakov Malama toxunulmuş mövzular üzrə fikir mübadiləsi aparılması üçün 15 dəqiqəlik fasilə elan edir.

Fasilədən sonra yenə erməni nümayəndələri söz alır. N.Qara-Murza son üç ildə Qafqazda baş vermiş bütün qarışıqlıqlarda rus rejimini və xüsusilə də knyaz Qolitsının rejimini günahlandırır. Q.Stepanov isə deyir ki, səbəblər məsələsinə gəldikdə onlardan elələrini seçib ayırd etmək olar ki, tərəflər arasında münasibətləri gərginləşdirməsin.

Ermənilərin bu bezikdirici mövqelərindən və inadlarından təngə gələn Əlimərdan bəy Topçubaşov müsəlman nümayəndələri adından bəyan edir ki, onlar da artıq qəti şəkildə burada, bu rəsmi toplantıda qırğının səbəblərinin aydınlaşdırılmasını istəyirlər.

İ.Hacıyev ermənilərin rus hökumətini ittiham etmələrini düzgün saymır və erməni qəzetlərini həqiqəti yazmamaqda suçlayır: "Bakıda qırğın başladı. Burada ermənilər birinci olaraq heç nədən bir müsəlmanı öldürdülər. Mən özüm bunun şahidi olmuşam. Burada rus hakimiyyətinin nə günahı var? Polismi erməniləri bunu etməyi öyrədibdir? Onlar axı özləri haqda deyirlər ki, mədəni millətdirlər, məgər mədəni milləti hakimiyyət təhrik edə bilər? Bakı qubernatoru mərhum knyaz Nakaşidze sülh üçün mümkün olan və olmayan hər şeyi edirdi, hər gün erməniləri və müsəlmanları mübahisə etməmələri və sülh şəraitində yaşamaları üçün yalvarıb dilə tuturdu. Nə etmək lazım idi, ermənilərin fikrincə hamını o saat güllələmək lazım idi?...".

Əhməd bəy Ağayev Topçubaşovu dəstəkləyərək "Biz müsəlmanlar fikrimizi dəyişdik və tələb edirik ki, bütün məsələlər, o cümlədən qırğının səbəbləri müəyyən olunsun. Biz keçmişdəki məsələlərin araşdırılmasından qorxmadığımızı sübut etmək üçün fikrimizi dəyişdik", − deyir.

Sədr Malama qurultay nümayəndələrinin arzu etdikləri bütün məsələlərin müzakirə olunacağını söyləyir və sadəcə münasibətləri gərginləşdirəcək məsələləri müzakirə etmək, keçmişə toxunub günahkarları bilmək istəmədiklərini sözlərinə əlavə edir.

Təqribən axşam saat 5-də iclas bağlanır və tərəflərin ayrı-ayrılıqda proqramlar hazırlamaları üçün xüsusi toplantı keçirmələri məqsədilə qurultayın işinə 22 fevrala qədər bir günlük fasilə verilir. Xüsusi toplantı isə **21 fevral** axşam saat 7-də Tiflis şəhər dumasının zalında keçirilir.

**22 fevralda** saat 14:10-da qurultay öz işinə davam edir. Sədr Malama tərəflərdən xüsusi toplantıda hazırladıqları proqramların təqdim olunmasını rica edir. Azərbaycanlı nümayəndələr öz proqramlarını təqdim edir, ermənilərdən isə Q.Stepanov söz alıb erməni nümayəndələrinin xüsusi toplantısının axşam saat 7-dən gecə yarısı saat 2-yə qədər sürməsinə baxmayaraq, ümumi razılığa gələ bilmədiklərini və onlara əlavə vaxt tələb olunduğunu deyir. Sədr Y.Malama qurultay nümayəndələrinin Tiflisdə çox qala bilməyəcəklərini qeyd edib, yenidən erməni tərəfindən öz proqramını təqdim etməsini xahiş edir.

S.Taqionosov erməni nümayəndələrə əlavə vaxtın onların azərbaycanlıların proqramı ilə tanış olmaq istədikləri üçün tələb olunduğunu açıqlayır. Bundan heyrətlənən Ə.Ağayev deyir: "Biz öz proqramımızı təqdim edəndə düşündük ki, ermənilər də öz sözlərini tutub dünənki xüsusi toplantılarında bizimki kimi müzakirə obyekti olan proqramlarını bu gün tam hazır şəkildə təqdim edəcəklər. Bir halda ki, ermənilər proqramlarını təqdim etməkdən yayınırlar, onda bizim proqramın da səsləndirilməməsini xahiş edirik, çünki hər iki proqram paralel şəkildə müştərək olaraq müzakirə edilməliydi..."

İ.Hacıyev azərbaycanlı nümayəndələrin proqramının açıqlanmasında heç bir problem görmədiyini bildirərək, ermənilərin proqramının hazır olduğunu və qəsdən vaxt uzatdıqlarını deyir. O, ermənilərin istəyi ilə iclasın təxirə salınacağı təqdirdə çıxıb gedəcəyini və Malamadan sədr kimi onun üzərindən nümayəndə statusunu çıxarmasını xahiş edəcəyini söyləyir.

Y.Malama azərbaycanlıların proqramını oxumaq istəyir, ancaq Ə.Ağayev etiraz edərək buna mane olur və yenə də ermənilərin qabaqkı 20 fevral iclasında çox qabartdıqları qırğının səbəblərinə dair məsələnin müzakirəsinin davamını təkid edir.

İ.Hacıyev yenidən söz alıb bu dəfə Ağayevi dəstəkləyir: "Mən deyirdim ki, əvvəl bizim proqram oxunsun, sonra da ermənilərin. O ki, ermənilər öz proqramını təqdim etmir, onda bizim proqramın oxunmasının əleyhinəyəm". A.Ziyadxanov da bu tələbə qoşulur.

Xatisov təklif edir ki, ermənilər sabah tezdən saat 10-da öz proqramlarını sədr Malamaya və nüsxələrini müsəlman nümayəndələrə, müsəlmanlar isə öz növbəsində həmin vaxta öz proqramlarının nüsxələrini ermənilərə təqdim etsinlər və beləliklə hər iki tərəf həmin gün günorta saat 2-yə qədər bir-birlərinin proqramı ilə qarşılıqlı surətdə tanış olsun. Bu təklif yekdilliklə dəstəklənir və saat 4-də növbəti günə qədər qurultayın işində fasilə elan olunur.

**23 fevral** saat 14:00-da işinə davam edən qurultayda Peterson müsəlman və erməni nümayəndələrinin hərəsi 12 maddədən ibarət olan proqramlarını səsləndirir:

*Erməni nümayəndələrin proqramı:*

1. Erməni-azərbaycanlı toqquşmalarının səbəblərinin araşdırılması;
2. Quberniya və qəza administrasiyasının və polisinin yenidən təşkil olunması;
3. Yerli inzibati və polis hakimiyyət qurumları nəzdində hər iki xalqın seçilmiş nümayəndələrindən ibarət erməni-azərbay-

canlı münasibətlərini əhatə edən məsələlərlə məşğul olacaq şuraların təşkili;

4. Münsiflər məhkəməsinin yaradılması;
5. Kənd icra ərazilərinin yenidən bölüşdürülməsi;
6. Rəhbərlik tərəfindən qəti tədbirlərin görülməsi;
7. Şəhərlərdə və kəndlərdə hakimiyyət nümayəndələri və əhali arasından seçilmiş şəxslərdən ibarət komissiya tərəfindən əhaliyə dəymiş ziyanın müəyyən edilməsi və təzminat ödənilməsi;
8. Yaz aylarında tarla işləri və "koçevka"nın təhlükəsizliyinin təmin olunması;
9. Əvvəlki yaşayış yerlərinə qayıtmaları mümkün olmayan kənd sakinləri üçün təhlükəsiz ərazilərdə torpaq ayrılması;
10. Talanlar baş vermiş yerlərdə vergilərin azaldılması, təsərrüfatların bərpa edilməsi üçün dövlət borclarının verilməsi;
11. Dağıdılmış məhəllələrdə torpaq sahələrinin dəyişdirilməsi barədə Yelizavetpol ermənilərinin xahişnaməsi;
12. Yolların təhlükəsizliyinin təmin olunması.

*Müsəlman nümayəndələrin proqramı:*

1. Müsəlman-erməni toqquşmalarının səbəblərinin araşdırılması;
2. İbtidai məktəbdə ümumi icbari, ödənişsiz təhsilin tətbiq edilməsi;
3. Əhalinin bütün hissələrinin hüquqi bərabərliyinin faktiki cəhətdən təmin olunması;
4. Canişinin yanında əhalinin seçdiyi nümayəndələrdən ibarət xüsusi şuranın təsis edilməsi;
5. Köçəri əhalinin həyatının və mülkünün qorunması üçün tədbirlərin görülməsi; bu məqsədlə hər iki millətin nümayəndələrindən ibarət xüsusi komissiyanın yaradılması və lazımlı məntəqələrdə yerli hakimiyyətin rəhbərliyi altında sakinlərdən ibarət mühafizənin təşkili;
6. Quberniya və qəza inzibati müəssisələri nəzdində hər iki xalqın nümayəndələrindən ibarət sülh komissiyalarının təsis edilməsi;

7. Vəzifəli şəxslərin üzərlərinə düşən xidməti funksiyaları lazımi qaydada və maneəsiz yerinə yetirmələrinə təminat verən tədbirlərin görülməsi;

8. Müsəlmanlar yaşayan bölgələrdə yerləşən hərbi hissələrdə aşağı rütbəli erməni əsgərlərinin saxlanılmaması;

9. Tərəflərin milli zəmində cinayət törədən canilərin verilməsinə boyun olması və zərər çəkənlərin ailələrinin yerli komissiyaların rəyi əsasında maddi cəhətdən təmin edilməsi;

10. Ekzekutsiya (bədən cəzası), inzibati sürgün və s. kimi hərbi və inzibati cəza tədbirlərinin yerli barışdırıcı komissiyaların razılığı əsasında həyata keçirilməsi;

11. Dağıntıya məruz qalmış yaşayış yerlərinə geri dönmək istəyən ailələrin yerləşdirilməsi üçün tədbirlərin görülməsi;

12. Qeyd olunan tədbirlərin faktiki yerinə yetirilməsindən sonra bütün əhalinin tərksilah edilməsi.

Daha sonra Peterson hər iki proqramın I maddələrinin qarşıdurmanın səbəblərinin araşdırılması məsələsini qoyduğunu qeyd edib, bu barədə müzakirələrin artıq qurultayın birinci iclasında aparıldığını vurğulayır və bunu nəzərə alaraq müzakirələrə müvafiq olaraq proqramların II maddələrindən başlamağı məqsədəuyğun hesab edir.

S.Taqionosov təkrarən iclası erməni nümayəndələrinin istədiyi axara yönəltməyə cəhd göstərir: “Biz artıq proqramımızın I maddəsinin müzakirəsi zamanı demişdik ki, səbəblərə sülh tədbirlərinin hazırlanması üçün zəruri olan həddə qədər toxunmaq lazımdır. Müzakirələrdə bəlli oldu ki, ermənilər əsas səbəbi hakimiyyətin fəaliyyətsizliyində görür. Əlbəttə, digər səbəblər də var... O da aydın oldu ki, müsəlmanlar əsas səbəbi erməni inqilabi təşkilatında görür. Bu təşkilatı buradakı nümayəndə Topçubaşov hələ Bakının mərhum general-qubernatoru knyaz Amilaxvariyə səbəb kimi göstərib, o vaxtdan müsəlmanlar daim bunu təkrarlayırlar. Biz isə öz iş məqsədlərimiz üçün onlardan soruşuruq, necə və hansı fəaliyyəti ilə erməni inqilabi təşkilatı müsəlman əhalinin

maraqlarına toxuna və onları hiddətləndirə bilərdi?...”

S.Taqionosovun bu təxribatcıl sualına cavab yenə İsrafil Hacıyevdən gəlir:

“Ermənilərlə apardığımız sülh danışıqlarında ermənilər özləri bizə deyirdi ki, inqilabçılar, “daşnaksutyun”çular və yenə hansısa canfədailər xalqlarımız arasında baş verən qırğının günahkarlarıdır. Doğrudan da bizə, Bakıya xüsusi pencəklərdə hansısa şübhəli adamlar gəldilər. Onlar bizi öldürməklə hədələyirdilər, şəhərdə soyğunçuluqlar və qətllər törədirdilər. Onlar bizim müsəlmanları öldürürdülər... Gizli təşkilatlar oluncaya qədər bizim aramızda sülh olmayacaq. Ermənilərdə isə belə təşkilat, həm də kifayət qədər cinayətkar bir təşkilat mövcuddur”.

Bundan sonra İ.Hacıyev dediklərinə sübut olaraq sədrə bir sənəd təqdim edir. Bu sənəd Peterson tərəfindən oxunur. Bəlli olur ki, bu, erməni inqilabi ittifaqı “Daşnaksutyun”un silahlı qanadının nizamnaməsidir.

Hadisələrin bu cür gedişi erməni nümayəndələrini həyəcanlandırır. K.Xatisov həmin dəqiqə – “Bu sənəddir? Bu “reminqton”da* çap olunmuş vərəqlərdir, heç kəs tərəfindən əslə uyğunluğu təsdiq olunmamış hansısa kopyalardır”, – deyir.

Hacıyev qətiyyətlə “Öz həyatımla bu kopyanın həqiqiliyinə cavabdehəm; həqiqi olmasa and içirəm ki, özümü öldürəcəyəm”, – cavabını verir.

Məsələyə müdaxilə edən Malama isə əhalinin müxtəlif təbəqələrində döyüş təşkilatlarının mövcudluğunun hamıya məlum olduğunu bildirir və bu təşkilatların indi və həmişəlik ləğv olunması zəruriliyini dilə gətirir.

Sonra K.Xatisov “Daşnaksutyun”un ”üzünü yuyan” uzun və odlu-alovlu bir nitq söyləyir.

Cavab olaraq Q.Qarabəyovun geniş və əhatəli nitqi özünü çox gözlətmir və bu cümlələrlə bitir: “”Daşnaksutyun”un inqilab qılıncı müsəlman sinəsini yardı, bundan sonra təbii ki, qan inti-

* reminqton – yazı maşını növü (F.V.).

qamı və qohumluq instinkti nəticəsində qırğın başlandı və indi də davam edir. Bax buna görə, Xatisovun bütün dediklərinə baxmayaraq bizim, müsəlman nümayəndələrin "Daşnaksutyun"u bu ədavətin başlıca səbəbkarı hesab etməyə ixtiyarımız var və o ləğv olunmadan sülhün yaradılması mümkün deyil".

İ.Hacıyev azərbaycanlıların daşnaklardan daha yaxşı silah işlətməyi bacardıqlarını vurğulayaraq, sülh naminə silahı yerə qoymağa hazır olduqlarını bildirir. Bu sözlər alqışlarla qarşılanır.

Daha sonra erməni nümayəndələrdən K.Xatisov, S.Taqionosov və Q.Stepanovun rus hökumətini suçlayıb "Daşnaksutyun"u müdafiə edən, azərbaycanlılardan isə M.Şahtaxtinski, İ.Vəkilov, Ə.Ağayev, A.Ziyadxanov, M.Şahmalıyev və H.Yadigarovun bu qanlı təşkilatı ləğv etməyi tələb edən çıxışları səslənir.

Əhməd bəy Ağayevin çıxışından bir parça: "Rusiya – xristian dövlətidir və əvvəllər rus hökuməti xristianları müsəlmanlardan seçərək imtiyazları birincilərə verməyə bilməzdi, çünki düşünürdü ki, biz elə öz dinimizlə xristianlığa düşmənik. Müsəlmanları ermənilərlə müqayisədə daha hüquqsuz vəziyyətə salan o vaxtın qanunları və hər növ məhdudiyyətləri indi də rus qanunlarının və məcəllələrinin səhifələrində əks olunubdur. Ona görə də ermənilər əleyhinə siyasət aparan knyaz Qolitsına qədər müsəlmanlar əsarət halında idilər və faktiki olaraq ermənilər Qafqazda ticarəti, sənayeni, yerli mətbuatı ələ keçirib və məmur kimi bürokratik dairələrdə yerləşib hakim xalq durumunda oldular. Tatarca qəzetlərin nəşrinə çətinliklə icazə verilirdi, senzura komitəsi demək olar ki, bütünlükdə ermənilərdən ibarət idi. Ümumiyyətlə müsəlmanlar görürdülər ki, xristian dövləti ermənilərə daha çox rəğbət bəsləyir. Bununla yanaşı, ermənilər müsəlmanların hüquqsuz vəziyyətindən yararlanıb onları öz xeyirlərinə istismar edərək, qonşucasına hərəkət etmədilər. Bu təbiidir və mən bunda erməniləri qınamıram, ancaq məhz bu səbəblərə görə ermənilər böyük mədəniyyətə və var-dövlətə sahib oldular. Knyaz Qolitsının rejimi isə ermənilərə ziyan verib zərrə qədər də müsəlmanların vəziyyətini yaxşılaşdırmadı, əksinə çə-

tinləşdirdi, ona görə də azadlıq hərəkatı bizi ermənilərlə müqayisədə daha aciz bir vəziyyətdə yaxaladı".

Borçalıların nümayəndəsi Hüseyn bəy Yadigarov çıxışında "Daşnaksutyun"un Tiflisdə törətdiyi vəhşiliklərdən söz açır: "Tiflisdə erməni "Daşnaksutyun"u heç bir səbəb olmadan bombardmana başladı. Mənim evimi də bombalayırdılar, hətta mənə ölüm hökmü çıxarmışdılar. "Daşnaksutyun" mövcud olana qədər sülhün yaranması mümkün deyil. Mən Borçalı tatarlarını buraya çağırmamışam, niyə məni bunda yalandan günahlandırırlar. Burada daşnaklar gizli şəkildə sənətkar, əsnaf adı altında yaşayaraq müsəlmanları Kürə tullayıb öldürürlər..."

V.Mayevski erməni milliyyətçi təşkilatlarının ziyankar rolu haqqında aşağıdakıları yazırdı:

> "Ümumiyyətlə sülhsevər tendensiyalar "Daşnaksutyun"a xas deyil... O həmişə müdafiədə yox, hücumda olub... Özümə sual verirəm ki, ermənilərin gizli təşkilatlarının fəaliyyəti ermənilər üçün – hələ maddi tələfatı demirəm – nə qədər göz yaşları, nə qədər məşəqqət, nə qədər insan tələfatına başa gəlib? Və əgər "Daşnaksutyun" və onun kimi təşkilatlar olmasaydı, ermənilər yoldan çıxmasaydılar, necə firavan yaşayardılar, necə parlaq mövqedən istifadə edərdilər!"

Əvvəlki günlərdə olduğu kimi 23 fevralda da gərgin keçən müzakirələrin sonunda birinci məsələ üzrə qəbul olunacaq qərarın redaktə olunması üçün aşağıdakı tərkibdə komissiya seçilir:

Azərbaycanlılardan – Ə.Topçubaşov, A.Ziyadxanov, Q.Qarabəyov, M.Şahtaxtinski, M.Şahmalıyev, Ə.Xasməmmədov və Ə.Ağayev; ermənilərdən – A.Xatisov (tiflisli), S.Taqionosov, Q.Stepanov, K.Ter-Petrosyan, S.Arutyunov, A.Qukasov və A.Arakelyan.

Növbəti iclas **24 fevralda** saat 14:00-da açıq elan olunur və düz 4 saat davam edir.

İlk başda Ə.Ağayev ermənidilli "Araç" qəzetində çap olunmuş və ona istinadən "Vozrojdeniye" qəzetində yayımlanmış mə-

qalədən çıxarışı oxuyur. Çıxarışda qurultayın müsəlman nümayəndələri fırıldaqçı adlandırılaraq təhqir olunurdular. Ağayev erməni mətbuatının bu cür davranışına öz hiddətini bildirir və qurultay iştirakçılarından yazıya münasibət bildirməsini tələb edir.

Bu məsələ ətrafında başlanan kəskin mübahisə müsəlman nümayəndələrin təkidi əsasında erməni nümayəndələrin "Araç" qəzetinin yazdıqlarıyla həmrəy olmadıqlarını söyləmələri ilə yekunlaşır.

Sonra müsəlman proqramının II maddəsi (ödənişsiz mütləq ibtidai təhsilə dair) müzakirəyə qoyulur.

Bu müzakirələr zamanı Əlimərdan bəy Topçubaşov o dövr üçün çox aktual təkliflər irəli sürür: "Pedaqoqiya da öyrədir ki, ilkin ibtidai təhsil ana dilində olmalıdır. Canişin qraf Vorontsov-Daşkov tərəfindən bu məsələ elə bu yöndə həll olunub, buna görə biz ona həmişə dərindən minnətdar olacağıq. Ancaq biz müsəlmanlar müəllimləri haradan alaq? Savad vermək, elmin əsaslarını, eləcə də ilahiyyatı, İslamı öyrətmək lazımdır. Bizdə bu iş inkişaf edə bilməzdi, çünki köhnə rejim müsəlman ruhani məktəbinin açılmasına icazə vermirdi. İlk növbədə Tiflisdə ali müsəlman ruhani məktəbi təsis etmək lazımdır. Eləcə də Qori müəllimlər seminariyasının tatar şöbəsini buraya köçürüb müstəqil təhsil müəssisəsinə çevirmək lazımdır, çünki Qoridə bir nəfər də olsun müsəlman yaşamır".

Erməni nümayəndələr müsəlmanların məktəb barədə tələblərini tam olaraq dəstəkləyirlər və məsələ ilə bağlı yekdilliklə rəy qəbul olunur.

Sonra müsəlman proqramının III (müsəlmanların hüquqlarının digər rus təbəəli xalqlarla bərabərləşdirilməsinə dair) və IV maddələri (tam sülhə nail olana qədər canişin şurası yanında ermənilərin və müsəlmanların nümayəndələrindən ibarət məşvərət komitəsi yaradılması barədə) müzakirə olunur. Hər iki maddə üzrə təkliflər yekdilliklə qəbul olunur.

Daha sonra erməni proqramının II (quberniya və qəza polis idarələrinin yenidən qurulması barədə) və III (yerli inzibati və

polis hakimiyyət qurumları nəzdində azərbaycanlı-erməni münasibətlərini əhatə edən məsələlərlə məşğul olacaq şuraların təşkili barədə) maddələri müzakirə olunur. Hər iki maddə müsəlmanlar tərəfindən dəstəklənir və bununla da müsəlman proqramının VI maddəsi də mexaniki olaraq öz həllini tapmış olur.

24 fevral iclasını Tiflis qubernatoru baron P.Rauş-fon-Traubenberq yekunlaşdırır. O, ilk günlərdə qurultayın müsbət nəticə verəcəyinə şübhə ilə yanaşdığını, ancaq toplantının bu günkü atmosferindən və yekdilliklə qəbul olunan qərarlardan sonra fikrini dəyişdiyini etiraf edir. Traubenberq iclasın başlanğıcında Tiflisdə nəşr olunan "Araç" qəzetinin məqaləsi ətrafında yaranmış qalmaqalın toplantının iş rejiminə mənfi təsir göstərdiyini vurğulayaraq, qurultay nümayəndələrini mətbuatı səmimi mövqe sərgiləyib sülhün əldə olunmasına şərait yaratmağa çağıran qətnaməni imzalamağa dəvət edir.

Bir günlük aradan sonra **26 fevralda** keçirilən növbəti iclasda müsəlman proqramının V və erməni proqramının VIII maddələrində əks olunmuş "koçevka" (yaylağa köç) məsələsi müzakirəyə çıxarılır.

"Mşak" qəzetinin redaktoru A.Kalantar köç prosesinin tarixi təkamülü barədə məlumat verib, onu ümumxalq həyatının və təsərrüfatının tarixi bir mərhələsi kimi səciyyələndirir və yalnız erməni-azərbaycanlı toqquşmaları baş vermiş ərazidə həmin ildə (1906-cı ildə) köçün qadağan olunmasının möhkəm sülhün və əmin-amanlığın yaranmasına gətirib çıxaracağını deyir.

Ə.Ağayev azərbaycanlıların kef üçün dağa qalxmadıqlarını, yay aylarında aran bölgələrində su və ot çatışmadığını, malyariyanın baş alıb uşaqları və qoyun-quzunu məhv etdiyini bildirib, köçün kortəbii bir proses olduğunu və onun ən zəruri yaşam ehtiyacından yarandığını qeyd edir. O, köç prosesinin qarşısının alınması üçün çox böyük hərbi güc tələb olunduğunu vurğulayaraq, yaylağa getməyin qadağan edilməsinin azərbaycanlını ölümə və aclığa məhkum etməyə bərabər olduğunu ifadə edir.

Q.Qarabəyov və İ.Vəkilov da Ə.Ağayevin sözlərini dəstəklə-

yirlər. Sonra məsələ ətrafında çıxışlar aşağıdakı şəkildə sıralanır:

Tiflisdə nəşr olunan "Murç" jurnalının redaktoru L.Sarkisyan: "Köç həyatı çöllərin qızıdır. Onu dağlıq Qafqaza Orta Asiya çöllərindən tatarlar gətiriblər. Oradakı tatarlar indi də köçəri tayfalardır. Burada isə onlar artıq yarımköçəri olublar və oturaq olmalıdırlar. Ona görə də hökumətin və ziyalıların meyli köç prosesinin əksinə yönəlməlidir..."

M.Şahmalıyev: "Dəqiqələr həyati əhəmiyyət kəsb edən bir zamanda tarixdən danışmaq lazım deyil. Müsəlmanlara köçə qadağa qoyulsa, onda xevsurlara da qadağa qoyulmalıdır, onlar əksinə qışda dağdan arana enirlər. Ümumiyyətlə xalqın əlindən gündəlik ruzisini almaq olmaz".

İ.Hacıyev: "Köç zamanı hərbi mühafizədən başqa heç nəyə ehtiyac yoxdur".

Erməni mühəndis L.Quliyev: "Təhlükənin gözlərinə baxmaq lazımdır. Müsəlman nümayəndələr deyirdi ki, onların qara kütləsi düşünür ki, ermənilər öz çarlığını qurmaq istəyir. Mən də gizlətməyim, bizim qara əhali də tatarların öz dindaşları olan Türkiyəyə birləşmək istədiklərini düşünür. Deməli, düşmənçilik var və bu, yəqin ki, köç zamanı yenidən alışacaq, çünki belə böyük bir məkanı qorumaq mümkün deyil".

Əvvəlcə Malama üzünü ermənilərə tutur: "Nəzəri mülahizələr yalnız işi uzadır. Axı rəhbərlik xalqın həyatını məhv edə bilməz. Köç zamanı tətbiqi gərəkən ölçülər barədə danışmaq lazımdır".

Ardınca isə Peterson "Canişin sizin diqqətinizi tatarların yeni mədəniyyətə keçməsi məsələsinə yox, köç zamanı mümkün toqquşmaların qabaqlanması məsələsinə yönəltdi. Ona görə də bu mənada praktiki tədbirlər barədə danışmaq lazımdır. Tatarlardan da öz təsərrüfatlarını ləğv etməyi tələb etmək olmaz, əvvəlcə onları başqa təsərrüfat həyatına alışdırmaq lazımdır", − deyir.

Sonrakı çıxışçılardan İ.Melik-Beqlyarov qaçaq dəstələri fəaliyyət göstərən ərazilərdə hökumətin işinin çətin olacağını dilə gətirir.

Tiflis qubernatoru Rauş-fon-Traubenberq isə köç prosesinin ləğvinin təkamül yox inqilab olduğunu, bununla yanaşı hər bir inqilabın inkişafı ləngitdiyini qeyd edərək aşağıdakıları söyləyir: “Fransız atalar sözündə deyilir: “Daha yaxşı yaxşının əsas düşmənidir. Əgər indi daha yaxşı nəyisə əldə etmək mümkün deyilsə, onda yaxşı barədə fikirləşmək lazımdır. Mən hesab edirəm ki, hər iki məsələ rəhbərlik tərəfindən hazırlana bilər. Bu il üçün köç məsələsi Tiflis quberniyası üzrə artıq hazırlanıbdır və artıq qaydalar layihəsi mövcuddur. Ancaq bizə nümayəndələrin köməyi lazımdır və buna görə iki komissiya seçmək tələb olunur: birini bu ilin köç prosesinin təhlükəsiz keçməsi üçün tədbirlər görülməsi məqsədilə, o birini isə yarımköçəri tatar tayfasının oturaq həyata keçməsi istiqamətində təkamül prosesinin sürətləndirilməsi üçün tədrici tədbirlərin görülməsi məqsədilə”.

Qubernatorun çıxışında söylənənlərlə bağlı canişin şurasının üzvü Cunkovski deyir ki, tədbirlər yerlərdə hazırlanmalıdır, burada isə əsas müddəalar göstərilməlidir.

Nəticədə 26 fevral toplantısının sonunda aşağıdakı məzmunda rəy-qətnamə qəbul edilir:

1) Yaylağa köçlər kəsilməsin;

2) Azərbaycanlı əhalinin təkamül yolu ilə oturaq həyata keçməsi arzusu ifadə olunsun;

3) Köç prosesi üçün tədbirlərin hazırlanması əhali arasından seçilmiş nümayəndələrin iştirakı ilə rəhbərliyə həvalə olunsun.

**27 fevral** iclasında sədr Malama köçlə bağlı qəbul olunmuş qətnamənin canişin Vorontsov-Daşkovu razı salmadığını və bu məsələyə dair daha dəqiq müəyyən olunmuş bir qərarın qəbul edilməsinin labüdlüyünü bildirir, bu məqsədə hər tərəfdən 3-5 nəfər olmaqla ayrıca komissiya yaradılmasının tələb olunduğunu bəyan edir. Bu təklifə heç kəs etiraz etmir. İrəvan qubernatoru Tizenqauzenin sədrliyi ilə köç prosesinin tənzimlənməsi üzrə komissiya yaradılır. Tizenqauzenin başçılığı altında tarla işlərinin təhlükəsizliyinin təmin olunması məqsədilə tədbirlərin hazırlanması üçün başqa bir komissiya da yaradılır. Bu komissiyalar

qurultayın işinə paralel şəkildə fəaliyyət göstərib öz təkliflərini təqdim etməli idi.

Sonra müsəlman proqramının VII (bütün rəhbər işçilərin öz xidməti vəzifələrini lazımi şəkildə və maneəsiz yerinə yetirmələrini təmin edən tədbirlər barədə) maddəsi müzakirə olunur.

Ə.Ağayev bir millətin öz milli maraqları naminə və başqa millətin maraqlarının ziddinə vəzifəli şəxsləri terror etdiyini, bunun nəticəsində vəzifə adamlarının qorxunun təsiri altında xalqlara qarşı ədalətli münasibətini itirdiyini qeyd edir. O, müsəlman əhalinin məhz bu cür terrordan əziyyət çəkdiyini və onu həyata keçirən erməni inqilabi təşkilatına qarşı silahlı mübarizəyə qalxdığını vurğulayıb, bu təşkilatlar mövcud olana qədər əmin-amanlığın əldə olunmasının mümkünsüzlüyünü dilə gətirir.

İ.Hacıyev: "Biz bu məsələni ona görə qoyduq ki, özünümüdafiəyə keçmək istəmirik. İstəyirik ki, qanuni rəhbərliyi və vəzifəliləri hədələməsinlər. Bütün imtiyazları ermənilərə vermək olmaz axı. Mədəniyyət, təhsil, mətbuat sahəsi onlardadır, hələ bir bombalı inqilabi təşkilatlar da, bizim isə yeganə ümidimiz hakimiyyət tərəfindən qorunmamızdır, terrorla bunu da əlimizdən alırlar. O həddə çatdırmayın ki, biz də bombalara əl ataq".

İ.Spendiarov: "Burada danışılanlar dəhşətdir! Daha qulaq asmaq mümkün deyil! Mən getməyə məcbur olacağam!"

İ.Hacıyev: "İstəyirsinizsə gedin".

S.Taqianosov: "Mən Spendiarovla razı deyiləm, bu söz onun dilindən sürüşdü. Biz erməni nümayəndələr heç də getmək istəmirik. Əksinə, biz Haciyevlə razıyıq ki, istənilən terror cəmiyyətdə və dövlətdə dözülməz hadisədir və hakimiyyət qorxmadan onunla mübarizə aparmalıdır..."

M.Şahmalıyev: "Terror hakimiyyətə sadiq olan müsəlmanları ruhdan salır".

Ə.Topçubaşov ermәni-azərbaycanlı qırğınının terror zəminində başlandığını deyib, erməni terrorçu təşkilatlarının fəaliyyətlərinin dayandırılmasını tələb edir.

Sədr Malama bu məsələnin polislərlə bağlı olan əvvəlki

maddələrə aid olduğunu və artıq müzakirə edildiyini vurğulayıb məsələni bağlayır.

Qısa müzakirələrdən sonra müsəlman proqramının VIII (müsəlmanlar yaşayan bölgələrdə yerləşən hərbi hissələrdə aşağı rütbəli erməni əsgərlərinin saxlanılmaması) maddəsi barədə də xüsusi rəy verilmir və IX (erməni-azərbaycanlı ədavəti nəticəsində törədilmiş cinayətlərin suçlularının verilməsi və xüsusi yerli komissiyaların rəyi əsasında zərərdidələrin maddi cəhətdən təmin olunması barədə) maddənin müzakirəsinə başlanılır.

A.Ziyadxanov bu məsələni ilkin baxılması üçün komissiyaya təqdim etməyi təklif edir.

K.Xatisov müsəlman proqramının 7, 8 və 9-cu maddələrinin mahiyyət etibarilə bir məsələyə – "Daşnaksutyun" təşkilatının ləğv olunmasına istiqamətləndiyini deyir və özlərinin də bunu istədiklərini, ancaq "koçevka"nı birdən-birə ləğv etmək mümkün olmadığı kimi, illərlə yaradılmış bir təşkilatın da birdən-birə ləğvinin mümkünsüz olduğunu ifadə edir.

S.Taqionosovun "cinayətkarların verilməsi qeyri-mümkündür" ifadəsinə İ.Hacıyev "Biz qatilləri tapıb verəcəyik, siz isə onlardan qorxursunuz", – deyərək cavab verir və erməni nümayəndələrdən "Daşnaksutyun"a hakim dairələrə və müsəlmanlara toxunmamaları üçün təsir göstərmələrini istədiklərini deyir.

Sonda sədr Malama nümayəndələr tərəfindən irəli sürülmüş təklifləri aşağıdakı şəkildə ümumiləşdirir:

1) Hökumət dövlət tərkibində hansısa icazəsiz silahlı təşkilatın mövcudluğuna dözə bilməz. Ona görə də hakimiyyət belə təşkilatların hamısının ləğv olunması və fəaliyyətinin dayandırılması üçün bütün tədbirləri görməlidir. Cəmiyyət bu məsələdə hakimiyyətə əlindən gələn köməyi etməlidir;

2) Hər bir vicdanlı vətəndaş özünün doğru məlumatları ilə cinayətkarların müəyyən edilməsində hakimiyyət orqanlarına kömək etməlidir.

3) Erməni-azərbaycanlı ixtilafı zamanı icmaların onların üzvləri tərəfindən törədilmiş cinayətlərə görə mülki məsuliyyət

daşıması ədalətli və məqsədəuyğun üsul kimi qəbul olunur və keçmişdə uğurla tətbiq olunub. Ona görə də bu üsulun gələcəkdə də tətbiq olunması tövsiyə olunur.

Qeyd olunanlara heç kəs etiraz etmir.

**28 fevral** iclasında erməni nümayəndələrinin proqramının IV maddəsi (ədalət məhkəməsi barədə) müzakirəyə qoyulur. Məhkəmə sisteminin qüsurlarını üzə çıxaran çıxışlar edilir. Nəticədə yekdilliklə seçilmiş barışdırıcı hakimlər və "prisyajnı"lar məhkəməsinin təsis olunması, məhkəmə müəssisələrinin ştatlarının artırılması arzusu ifadə olunur.

Sonra ermənilərin proqramının VII maddəsinə (ziyanın müəyyən edilməsi və təzminat ödənilməsi) baxılır və bu mövzunun müzakirəsi **2 martda** keçirilən növbəti iclasda da davam etdirilir. Erməni nümayəndələr cinayətkarların şəxsən yox ümumi şəkildə, yəni yaşadığı kənd və ya məhəllə ilə birlikdə məsuliyyət daşıması və ziyanın da o şəkildə, yəni kənd, məhəllə və ya icmalar tərəfindən ümumi şəkildə ödənilməsi layihəsini təklif edirlər. Azərbaycanlı nümayəndələr ziyanın ödənilməsinin əksinə olmasalar da, onun ermənilərin təklif etdiyi qaydada həyata keçirilməsinə etiraz edirlər.

Ümumi məsuliyyət məsələsinin əleyhinə olduğunu bildirən Ə.Ağayev aşağıdakıları deyir:

"Bizim müzakirələr müharibədən sonra sülh konfransı xarakterini alır. Ancaq müharibə olmayıb. Ultimatum verilməyib, müharibə elan olunmayıb, müharibəyə hazırlıq da görülməyib. Bir halda ki, müharibə olmayıb, onda kontribusiya (təzminat) barədə də söhbət gedə bilməz, çünki yalnız müharibədən sonra təzminat ödənilir".

Q.Qarabəyov ziyanın ödənilməsi məsələsinin qırğının səbəbləri və günahkarların müəyyən edilməsi məsələsi ilə sıx bağlı olduğunu qeyd edir.

Sədr Y.Malama müsəlman və erməni nümayəndələri arasında bu məsələdə fikir ayrılığını görüb onun həllini canişinin öhdəsinə buraxmağı tələb edir.

Bu zaman K.Xatisov ayağa qalxıb erməni nümayəndələri adından ultimativ şəkildə bəyan edir ki, bu məsələ açıq buraxıla bilməz, ermənilərə təzminat ödənməsə qırğın yenidən başlanacaq: ”Bizim nümayəndələrin hər gün aldığı saysız-hesabsız məktub və teleqramlardan erməni əhalisinin əhval-ruhiyyəsini bilirik və qəti surətdə ərz edirəm ki, əgər zərər ödənilməsə, öz vəzifəmizi yerinə yetirmək iqtidarında olmayacağıq... Bildiririk ki, sülh məsələsi üçün zərərin tam ödənilməsi lazımdır”.

Ə.Ağayev ermənilərin “anidən yox olmaq üçün anidən peyda olan” ələkeçməz təşkilatlarının olduğunu, müsəlmanların isə təşkilatları və qoşunları olmadığını, hamısının özü-özünü müdafiə etmək məcburiyyətində qaldığını və ermənilərin layihəsinə müvafiq olaraq hamısının günahkar hesab olunub müflisləşməyə məhkum ediləcəyini deyir: “Rəsmi ifadələr və şəxslər tərəfindən sübut olunmuşdur ki, biz quldurlardan və qatillərdən müdafiə olunuruq. Bakıda avqustda müsəlmanları evlərdən, damlardan vurub öldürdükləri zaman belə idi... Bir tərəfdən hücum edən mütəşəkkil ordu, digər tərəfdən qeyri-mütəşəkkil xalq kütləsi var... Qoy bizi erməni təşkilatlarından qorusunlar və onda biz zərərin ödənilməsi barədə danışarıq! Mən özüm bəy və ağayam. Deyirəm ki, əgər mənə hücum etsələr, evlərini yandıracağam! Biz «Daşnaksutyun»un və bütün erməni təşkilatlarının buraxılmasını tələb edirik!!! Mən buradan rus hakimiyyət dairələrinə müraciət edirəm, bizi erməni təşkilatlarından qoruyun, ya “Daşnaksutyun”u ləğv edin, ya da ki, bizim təşkilatlanmağımıza imkan verin. Silah istəyi nonsens olsa da, ziyanın ödənilməsi məsələsi ermənilərin istədiyi şəkildə həll olunsa, bu qaçılmazdır”.

Müsəlman nümayəndələrdən Q.Qarabəyov da çıxışında məntiqli mühakimə yürüdür: “Qarətlər zamanı çox sayda İran təbəəli müsəlman qətlə yetirilibdir. Onların ailələri xaricdədir və onların yerinə ziyanın ödənilməsi üçün kim iddiaçı olacaq, bu məlum deyil. Bununla yanaşı hər bir İran fəhləsi üçün öz həyatı dükançı erməni üçün dükanından qarət olunmuş maldan az dəyərli deyil. Əgər 500 rubldan çox malı olmayan dükançılar yüz

min rubllarla ziyan çəkdiklərini deyirlərsə, onda hansısa İran hambalı öz həyatını neçəyə qiymətləndirməlidir”.

Sonra zərəri müəyyənləşdirmək üçün komissiyaların təşkil olunması təklif olunur. Bu məsələ barədə Ə.Topçubaşov öz fikrini belə ifadə edir: «Komissiyalar yalnız yerindəcə narazılıq ocaqları yaradacaqlar. Mən onların praktik əhəmiyyətini təsəvvür edə bilmirəm. Zərəri kim müəyyənləşdirəcək?.. Şahidlər kimlər olacaq?».

M.Şahmalıyev də deyir ki, hər bir ziyanın məbləği şahid ifadələrinin əsasında müəyyən edilməlidir, ona görə də öncədən demək olar ki, bu ifadələrdə həqiqət olmayacaq.

Qeyd olunan məsələ barədə ümumi razılığa gəlinmir və sədr onun müzakirəsini bitmiş elan edir.

Qurultayın gedişindən göründüyü kimi, ilk əvvəl erməni nümayəndələrinin fikri məsuliyyəti saxta arqumentlərlə öz boyunlarından atıb azərbaycanlıların və hökumətin üzərinə yıxmaq, daha sonra isə böyük miqdarda təzminat tələb etmək idi. Ancaq ermənilərin bu cəhdi uğursuz olduqdan sonra, yəni azərbaycanlı nümayəndələrin müqaviməti və onlar tərəfindən qırğının əsas səbəbkarı kimi “Daşnaksutyun” və digər gizli erməni təşkilatları bəyan edildikdən sonra, ermənilər mövqelərini dəyişib başqa bir manevr edir və nəyin bahasına olursa-olsun təzminatın ödənilməsini tələb edir, əks halda sülhə nail olunmayacağı və yenidən qan töküləcəyi ilə hədələyirlər. Açıq görünürdü ki, erməni nümayəndələrinin əsas hədəfi pul idi. Yeri gəlmişkən qeyd edək ki, “İveriya” qəzeti hələ 30 noyabr 1905-ci il tarixli sayında yazırdı: “Fəhlə təşkilatının nümayəndəsi “K.R.L” (“Kavkazskiy raboçiy listok” – *F.V.*) qəzetinə Gəncədən məlumat verir ki, Gəncədə ermənilərlə tatarlar hələ barışmayıb, çünki ermənilər tatarlardan 4 milyon kontribusiya (təzminat) istəyir”.

2 mart iclasında həmçinin ermənilərin proqramının IX maddəsi, bəzi kəndlər üçün təhlükəsiz ərazilərin ayrılması məsələsi müzakirə edilir. İclas yekdilliklə kənd icmalarının torpaq sahələrinin, təhlükəsizlik məqsədilə olsa belə, məcburi qaydada dəyiş-

dirilməsinin arzuolunmaz olduğunu ifadə edir. Daha sonra Gəncə şəhərinin azərbaycanlı məhəllələrində yaşayan ermənilərin və erməni məhəllələrində yaşayan azərbaycanlıların qarşılıqlı qaydada evlərinin və torpaq sahələrinin dəyişdirilməsi məsələsinə baxılır. Erməni nümayəndələri Gəncədə faktiki olaraq artıq müsəlman və ermənilərin məhəllələr üzrə bir-birindən ayrı yaşadığını və bu faktın yalnız hakimiyyətin sanksiyası ilə rəsmiləşdirilməsini arzu etdiklərini bildirirlər. Müsəlmanlar isə bu məsələdə də istənilən məcburiyyətin əleyhinə çıxış edirlər.

**3 mart** iclasında ilk müzakirə olunan yolların təhlükəsizliyinin təmin olunması məsələsində müsəlman nümayəndələri ermənilərin layihəsini dəstəkləyirlər. Müsəlman proqramının yerli barışdırıcı komissiyanın razılığı olmadan inzibati sürgünlərin və məhkəmə hökmlərinin həyata keçirilməməsinə dair X maddəsi və özlərinin viran edilmiş yaşayış yerlərinə geri qayıtmağı arzu edən sakinlərin yerləşdirilməsinə dair XI maddəsi isə erməni nümayəndələr tərəfindən dəstəklənir. Daha sonra müsəlman proqramının XI maddəsi üzrə əhalinin tərk-silah edilməsi məsələsi müzakirə olunur. Bu məsələdə hər iki tərəfin nümayəndələrinin öz aralarında fikir ayrılığı yaranır. Mübahisələrdən sonra erməni nümayəndələr ümumi yekun qətnamə qəbul olunacağı təqdirdə bu maddənin ondan çıxarılmasını, müsəlmanlar isə aşağıdakı redaktədə verilməsini təklif edirlər:

– Tam sülhün yaranmasına və əmin-amanlığın bərpa edilməsi üçün qurultay tərəfindən tövsiyə edilən tədbirlərin yerinə yetirilməsinə qədər tərk-silah prosesi dayandırılsın.

Sonda Malama hər iki tərəfin təqdim etdiyi proqram üzrə bütün məsələlərin artıq müzakirə olunduğunu, yalnızca qırğının səbəbləri, tarla işləri və köç prosesi zamanı təhlükəsizlik tədbirləri barədə komissiyaların müvafiq qərarlarının dinlənilməsinin və bundan sonra bütün məsələlər üzrə əldə olunmuş razılığın yekun qətnamə şəklində qəbul olunmasının qaldığını söyləyib iclası bağlı elan edir.

**4 martda** iclas başlamazdan əvvəl qurultay nümayəndələri-

nin canişin Vorontsov-Daşkov və köməkçiləri ilə ümumi planda fotoşəkilləri çəkilir. Sonra iclas Peterson tərəfindən yekun qətnamə layihəsinin oxunması ilə açılır və tez də sona yetir. Onun gedişatında həm yekun qətnamə layihəsi, həm də ümumilikdə qurultayın faydası və zəruriliyi barədə ümumi fikirlər səslənir.

Həmin gün İrəvan qubernatoru V.F.Tizenqauzenin rəhbərliyi altında köç məsələlərinə baxılması üzrə və əhali tərəfindən tarla işlərinin maneəsiz həyata keçirilməsinin təmin olunması üzrə komissiyaların işi yekunlaşır və müvafiq qərar layihələri hazırlanıb qurultayın sədarətinə təqdim olunur. Bu qərar layihələrində tarla işləri və köç zamanı hökumət və əhali tərəfindən görüləcək tədbirlər qrafik üzrə tənzimlənir və tərəflər üzərinə müəyyən öhdəliklər qoyulur. (Komissiyaların protokolu və qeyd olunan layihələrin mətni “Kavkaz” qəzetinin 10 mart 1906-cı il tarixli sayında çap olunmuşdur).

**5 mart** axşam saat 9-da qraf və qrafinya Vorontsov-Daşkovların dəvəti əsasında canişinlik sarayının Bəyaz zalında qurultay nümayəndələrinin, öz xanımlarıyla birlikdə dövlət məmurlarının və gürcü zadəganlarının iştirakı ilə qəhvəiçmə mərasimi keçirilir. Mərasimdə kapelmeyster (dirijor) Maşnerin rəhbərlik etdiyi hərbi orkestrin ifasında səslənən klassik musiqi əsərlərinin sədaları altında qeyri-rəsmi şəraitdə müəyyən məsələlər barədə fikir mübadiləsi aparılır.

**6 martda** qurultayın son iclası keçirilir. İclasda canişin İ.Vorontsov-Daşkov geniş nitq söyləyib, qurultayın işində sülhün əldə olunması naminə daha çox real tədbirlər planı hazırlanacağını gözlədiyini təəssüflə açıqlayır və bir daha qurultay nümayəndələrini nüfuzlarından istifadə edərək, öz soydaşlarına təsir göstərməyə çağırır. Qurultayın açılış iclasında olduğu kimi bu dəfə də canişinin çıxışından sonra arximandrit Y.Muradyanın dilindən onun ünvanına tərif və təşəkkür dolu sözlər yağdırılır.

Daha sonra canişinin qurultayda önə sürülən rəy və təkliflər əsasında qəbul etdiyi aşağıdakı qərarnaməsi oxunur:

1) Cari ildə köç prosesinin tənzimlənməsi və əhalinin tarla

işləri ilə məşğul olmasının təmin olunmasına dair komissiyaların qərarları təsdiq olunsun;

2) Canişin yanında erməni və müsəlmanlardan seçilmiş sülhməramlı məşvərət şurası təsis edilsin;

3) Eyni əsaslarla qubernatorlar və qəza rəisləri yanında barışdırıcı komissiyalar yaradılsın.

Qərarnamədə eyni zamanda qurultay zamanı müzakirə edilib irəli sürülmüş digər məsələlərin (müsəlmanların hüquqlarının digər xalqlarla bərabərləşdirilməsi, yolların təhlükəsizliyin təmin olunması, polis idarələrinin yenidən təşkilatlandırılması və s.) də həll olunması üçün canişin tərəfindən təxirəsalınmaz tədbirlərin görüləcəyi qeyd olunur.

Qərarnamənin 2-ci bəndinə uyğun olaraq, canişin şurası yanında xüsusi məşvərət şurasına general-leytenant Y.D.Malamanın təklifi ilə müsəlman nümayəndələrdən Əlimərdan bəy Topçubaşov, Əsildar bəy Qazanalipov, Allahyar bəy Zülqədərov, İbrahim bəy Vəkilov və Məmməd bəy Şahmalıyev – üzv, Adilxan Ziyadxanov, Mustafa bəy Eminov və Məhəmməd ağa Şahtaxtinski – namizəd, ermənilərdən isə A.A.Kalantar, S.S.Arutyunov, A.İ.Xatisov, Q.N.Stepanov və L.İ.Quliyev – üzv, L.D.Sarksyan, A.B.Arakelyan və A.Z.Saruxanyan – namizəd seçilirlər[1]. Bu məşvərət şurası qurultaydan sonra mütəmadi olaraq toplanır və sülhün bərqərar olması üçün görüləsi zəruri tədbirlər üzərində işləyirdi (Qeyd olunan toplantılar barədə ətraflı məlumat üçün bax: "Tiflisskiy listok" qəzetinin 1906-cı ilin aprel-may sayları (№ 64, 72, 81, 102, 109)).

Qurultayın sonunda azərbaycanlı nümayəndələrin adından İsrafil Hacıyev söz alıb bunları söyləyir: "Buradan gedərkən hamımız səmimiyyətlə ümid edirik ki, qraf Vorontsovun həyata keçirəcəyi tədbirlər nəticədə dayanıqlı sülh, tam sabitlik və yeniləşmiş həyat gətirəcək, axıdılmış qanların yerinə qızılgüllər bitəcək. Ancaq bir halda ki, bizim yeniləşməmiz əsasən təhsil sayə-

[1] "Novoye obozreniye", 1906, 14 (27) mart.

sində mümkün olacaq, onda qoy bu qızılgüllər buketi Qafqazda ali təhsil müəssisəsi olsun, hansı ki, hazırkı canişin qraf Vorontsov-Daşkovun zamanında açılmalıdır. Qoy əlahəzrət bu ali təhsil müəssisəsini açsın və bu müəssisə onun Qafqazda insani-maarifpərvər fəaliyyətinin canlı abidəsi kimi burada qalsın."

İ.Hacıyevin bu çıxışı sürəkli alqışlarla qarşılanır.

Bundan sonra (saat 16:35-də) Yakov Malama qurultayın işini bitmiş elan edir.

Qurultay sona yetdikdən sonra Tiflis mətbuatında onun mahiyyətinə və nəticələrinə həsr olunmuş geniş yazılar dərc edilir. "Kavkaz" qəzetində yayımlanmış belə yazılardan birində qurultayda iştirak edən müsəlman nümayəndə heyətinin tərkibinə toxunularaq, onun dar dünyagörüşlü dini fanatiklərdən deyil təhsilli ruhanilərdən, mətbuat təmsilçilərindən, vəkillərdən, pedaqoqlardan, məmurlardan və digər mədəni peşə sahiblərindən ibarət olduğu vurğulanır və qurultayın iclaslarında müsəlman nümayəndələrin ağızlarından Avropa təhsili almış insanların bütün milli, dini, iqtisadi, mədəni və dövlət məsələlərinə geniş və humanist baxışlarını əks etdirən nitqlərin səsləndiyi ifadə olunurdu[1].

Qurultayda müzakirə olunmuş və ortaq məxrəcə gəlinərək qəbul olunmuş qərarlar, o cümlədən köç prosesi xüsusi nəzarətə götürülür. 1906-cı ilin yazında Borçalı qəza rəisi Tiflis qubernatoruna müraciət edib, ondan yay mövsümünün əvvəlində yaylaqlara köçün başlanması ilə əlaqədar qəzaya 30 polis mühafizəçisinin göndərilməsinə qərar verməsini xahiş edirdi. O, müraciətində qubernatora qəza ərazisində 11 müvəqqəti yay postu qoyulması üçün ümumilikdə 54 mühafizəçi, daha güclü nəzarətin təşkil olunması üçün isə 177 mühafizəçinin tələb olunduğunu da bildirirdi[2].

* * *

---

[1] "Kavkaz", 1906, 9 mart (№ 56).
[2] "Tiflisskiy listok", 1906, 14 aprel (№ 80).

1906-cı ilin mart-aprel aylarında dövlət tərəfindən erməni-azərbaycanlı silahlı münaqişəsinin nizamlanması ilə bağlı görülən tədbirlərlə yanaşı, müsəlmanlara təhsil hüquqları verilməsi ilə bağlı da bir sıra addımlar atılır, bu yöndə bəzi yasaqlar aradan götürülür. Rusiya Xalq Maarifi Nazirliyi bütün təhsil dairələrinin müdirlərinə müsəlmanların təhsil müəssisələrində tədrislə məşğul olmalarına və tələbə təqaüdü almalarına qadağa qoyan bütün inzibati qərarların ləğv olunduğu barədə bildiriş göndərir[1].

Sülh qurultayına paralel olaraq, 3 mart 1906-cı ildə Tiflisdə qızlar üçün Müqəddəs Nina təhsil müəssisəsində canişinin xanımı qrafinya Y.A.Vorontsova-Daşkovanın maddi vəsaiti ilə inşa edilmiş müsəlman ibadətxanasının və ümumi sayı 50 nəfərdən ibarət olan müsəlman tələbələr üçün ilahiyyat və ana dilinin tədris olunacağı ayrıca sinfin açılış mərasimi keçirilir. Qrafinya Y.A.Vorontsova-Daşkova, Tiflis qubernatoru baron P.A.Rauş-fon-Traubenberq və azərbaycanlı ziyalıların, o cümlədən qurultay nümayəndələrinin iştirak etdiyi tədbirdə Müqəddəs Nina məktəbinin I sinif şagirdi Səlimə Terequlova qrafinyanı salamlama nitqi söyləyir və müsəlman cəmiyyətinə göstərdiyi qayğıya görə ona təşəkkür edir. Ardınca xüsusi sinifdə ana dili və ilahiyyat fənlərinin tədrisi üçün dəvət olunmuş müfti Hüseyn Əfəndi Qayıbov çıxış edib ibadətxananın və özəl sinfin yaranma tarixindən danışır və onların müsəlmanlar üçün əhəmiyyətini dəyərləndirir. Sonra çıxış üçün söz qrafinyanın özünə təqdim edilir. Canişinin xanımı nitqində müsəlman tələbələr üçün ibadətxananın açılması ilə bağlı sevinc hissi keçirdiyini bildirir və bunun gələcəyin anaları olan müsəlman qızlarının dini ruhda tərbiyə olunmalarına zamin yaradacağına əmin olduğunu ifadə edir. Tədbirdə iştirak edən azərbaycanlı ziyalılardan Əhməd bəy Ağayev və Əlimərdan bəy Topçubaşov çıxış edərək, müsəlman qadınlarının ictimai fəaliyyətdən uzaq düşməsinin İslam dini ilə heç bir əlaqəsi olmadığını və müsəlmanlığın yayıldığı ilk əsrlərdə müsəl-

[1] "Tiflisskiy listok", 1906, 22 mart (№ 64).

man qadınlarının ictimai həyatda böyük rol oynadıqlarını ifadə edirlər. Bu çıxışlardan sonra Y.A.Vorontsova-Daşkova Bakı müsəlman qadınlarının xeyriyyə cəmiyyətinin təbrik teleqramını oxuyur. Elə bu cəmiyyətin adından da canişinin xanımına nəfis tərtibatlı Qurani-Kərim hədiyyə olunur. Şəriət müəllimi Hüseyn əfəndi Qayıbova isə tələbələrə paylaması üçün Əhməd bəy Ağayevin müəllifi olduğu “İslam dinində və İslam aləmində qadın” kitabçaları təqdim olunur[1].

“Tiflisskiy listok” qəzeti 14 aprel 1906-cı il tarixli sayında Cənubi Qafqazın müsəlman əhalisini ən çox narahat edən problemin təhsil, xüsusilə də qızlar üçün təhsil müəssisələrinin açılması problemi olduğunu, bu məqsədlə təhsil müdirinin müavini L.Q.Lopatinskinin sədrliyi ilə xüsusi komissiyanın yaradıldığını və canişin tərəfdən bu komissiyanın aşağıda adları çəkilən üzvlərdən ibarət siyahısının təsdiq olunduğunu yazırdı:

Cənubi Qafqaz müftisi Hüseyn əfəndi Qayıbov, Cənubi Qafqaz şeyxülislamı axund Əbdüssəlam Axundzadə, canişin yanında xüsusi tapşırıqlar üzrə məmurlar − kumık əsilli Əsildar bəy Qazanalipov və Allahyar bəy Zülqədərov, Qafqaz hərbi dairəsinin qərargahının tərcüməçisi Mirzə Şərif Mirzəyev, Tiflisdə müsəlman xeyriyyə cəmiyyətinin sədri İbrahim ağa Vəkilov, milis praporşiki Nadir bəy Yadigarov, Tiflisdə müsəlman məktəbinin müdiri İbrahim bəy Terequlov, Kutaisin müvəqqəti general-qubernatoru, general-mayor Maqsud Əlixanov-Avarskinin[*] arvadı Zərribəyim xanım Əlixanova, xan arvadı Nisə xanım Qaffari-İbrahimbəyova, dul qadın Həmidə xanım Davatdarova (Cavanşir), Zaqafqaziya Qızlar İnstitutunun müfəttişi P.E.Melger və Qafqaz muzeyinin direktoru A.N.Koznakov.

I gildiyalı Bakı taciri Hacı Zeynalabdin Tağıyev sözügedən komissiyaya fəxri sədr seçilir. Canişinin köməkçisi Nikolay

---

[1] “Novoye obozreniye”, 1906, 5 (18) mart; “Kavkaz”, 1906, 5 mart (№ 53).

[*] Qeyd edək ki, M.Əlixanov-Avarski 3 iyul 1907-ci ildə Gümrüdə daşnak terrorçuları tərəfindən öldürülmüşdür − F.V.

Aleksandroviç Sultan-Gəraydan bu barədə yazılı məlumat alan Z.Tağıyev cavab məktubu göndərib ona göstərilən yüksək ehtirama görə təşəkkür edir və bu fikirləri söyləyir:

> "Mən həmişə hesab edirdim və bu gün də qəti şəkildə öz dəyişməz qənaətim üzərində dururam ki, diyarımızın yalnız təhsilli və ciddi maarifləndirilmiş müsəlman anaları bizim müsəlmanları avamlıq və gerilik azarından xilas edəcəkdir. Mənim bu qənaətim İslamın və onun böyük müəlliminin həqiqi ruhu ilə uyğunlaşır. Bu əsaslara daim riayət edərək, mən imkanım daxilində onları həm sözdə, həm də işdə öz dindaşlarımın şüuruna yeridirdim. Ancaq İslamın özünə əlverişsiz və düşmən olan elə tarixi şərait yaranırdı ki, bu istiqamətdə bir nəfərin cəhdləri yetərsiz idi. Vəzifə səlahiyyətinə malik olan və əhalinin ehtiyaclarına həssaslıqla yanaşan, onları razı salmaq üçün və iş naminə formallıqlardan əl çəkməyə hazır olan şəxslərin təşəbbüsü lazım idi.
>
> Müsəlman qadınların təhsili məsələsində ilk növbədə iş xatirinə ümumi faydasız şablonları inkar etmək gərəkirdi, heç olmasa ilk zamanlarda məktəb quruluş və təşkilinə görə müsəlmanların əsrlərdir formalaşmış düşüncəsinə çox toxunmayan, onlar üçün mümkün və məqbul olmalıydı, bir sözlə məktəbi bir qədər islamlaşdırmaq lazım idi, ancaq heç kəs buna cürət etmirdi və şablon qələbə çalırdı. Bəzən hətta ayrıca şəxslərin bu yöndə səyləri də bu şablonda dağılırdı və müsəlmanların xalq təhsili və mədəni inkişafı işi onların və dövlətin böyük ziyanına donma nöqtəsində qalırdı"[1].

* * *

1906-cı ilin yaz aylarında mətbuatın gündəmini məşğul edən məsələlər sırasında rus çarı II Nikolayın 11 dekabr 1905-ci ildə verdiyi fərmana əsasən, Rusiyanın ilk qanunverici nümayəndələr məclisinə – Dövlət Dumasına keçirilən seçkilər də önəmli yer alırdı. Həmin dövrdə Tiflis quberniyasında da seçkilərə ciddi hazırlıq görülürdü.

[1] "Tiflisskiy listok", 1906, 14 aprel (№ 80).

7 may 1906-cı ildə şəhər başçısı v.i.e. knyaz Vasiliy Çerkezovun sədrliyi ilə Tiflisin hər 10 məhəlləsinin seçki komissiyasının üzvlərinin iclası keçirilir. Tədbirdə məhəllə seçki komissiyalarına sədrlər seçilir; azərbaycanlıların yaşadığı VI məhəllənin seçki komissiyasının sədri vəzifəsi Rəşid bəy Axundova* etibar edilir[1]. Tiflisin müsəlman əhalisi seçkiçilər (Dumaya deputatların seçilməsini təşkil edənlər) qismində fəaliyyət göstərmələri üçün Tiflis quberniyasının şiə məclisinin sədri Hacı Axund Mövlazadə, poruçik Hüseyn bəy Yadigarov və müəllimlər − Baxşəli bəy Məhərrəmbəyov və Ələddin əfəndi Sübhanqulovun adlarını təqdim edir[2].

Tiflis quberniyasının 26 may 1906-cı ildə keçirilmiş seçki yığıncağında təsdiq olunmuş seçkiçilərin siyahısında müsəlmanlardan O.U.Sadıqov (savadlı, əkinçi − Borçalı qəzası üzrə), M.A.Pəhləvandov (iri torpaq sahibi, milis praporşiki, savadlı − Axalkələk qəzası üzrə), M.Mövlud-oğlu (iri torpaq sahibi, "tatarca" təhsilli − Axalsıx qəzası üzrə) və L.Adəm-oğlunun (iri torpaq sahibi, türkcə təhsilli) adlarına rast gəlinir[3].

"Tiflisskiy listok" qəzetinin 1906-cı ilin 10 iyun sayından ədəbiyyatşünas-publisist Hüseyn bəy Minasazovun Tiflis seçkiçilər komissiyasının üzvü olduğu bəlli olur (Qeyd edək ki, "Tiflisskiy listok"un 9 mart 1906-cı il tarixli 54-cü sayında H.Minasazovun "Rusiyada müsəlman məsələsi və V.İ.Çerevanski" başlıqlı irihəcmli məqaləsi çap olunmuşdur).

"Tiflisskiy listok"dan daha 2 məlumat:

- İranın Kəlküttədəki baş konsulu Mirzə Mahmud-xan Müfəhhümus-Sultan bu ölkənin Tiflisdəki baş konsulu vəzifəsinə təyin edilir və 1906-cı ilin aprel ayının ortalarında yeni vəzifəsi-

---

* Rəşid bəy Axundov (1854-1909) − dramaturgiyamızın banisi Mirzə Fətəli Axundzadənin oğlu, yol mühəndisi, tərcüməçi, bir müddət Qafqaz Dəmir Yolları İdarəsində işləyib, 1905-ci ildə quberniya katibi olub.

[1] "Tiflisskiy listok", 1906, 9 may (№ 97).

[2] "Tiflisskiy listok", 1906, 30 aprel (№ 91).

[3] "Tiflisskiy listok", 1906 (№ 105).

nin icrasına başlaması üçün Hindistandan Tiflisə gəlir. Mirzə Mahmud-xan Avropada ali təhsil almışdı və İranın Vyanadakı elçisinin qardaşı idi. İranın Tiflisdə baş konsulu vəzifəsini müvəqqəti icra edən İsmayıl xan isə bu ölkənin Aşqabaddakı siyasi agentliyinin idarəçisi vəzifəsinə təyin olunur[1].

- Müsəlman qəssabları rəhbərliyə müraciət edərək sallaqxanalarının olmadığını bildirir və təkidlə VI məhəllədə onlara ayrıca sallaqxana açmalarını xahiş edirlər. Məsələ ilə əlaqədar poruçik Hüseyn bəy Yadigarov şəhər rəhbərliyinə özünün sözügedən məhəllədə yerləşən və sallaqxana üçün münasib olan torpaq sahəsini almağı təklif edir[2].

* * *

Bir sıra mühüm tədbirlərin görülməsinə baxmayaraq, Cənubi Qafqazda milli zəmində qeyri-stabillik 1906-cı ilin oktyabrına qədər davam edir. Tiflis şəhərində də açıq döyüşlər baş verməsə belə, örtülü qarşıdurma və ümumi gərginlik səngimir. Bunu o dövrün Tiflis mətbuatında və arxiv sənədlərində əks olunmuş kriminal xronika da təsdiq edir:

- 28 aprel 1906-cı ildə günorta saat 1-də Malakov qardaşlarının Tünd cərgələrdə yerləşən mağazasının qarşısında Məşədi Hüseynəli Adıgözəl oğlu adlı bir azərbaycanlı revolverdən atılan güllə ilə öldürülür. Cinayətkar hadisə yerindən qaçıb gizlənir. İstintaq tədbirləri nəticəsində caninin Malakov qardaşlarının mağazasından atəş açdığı və bu zaman onun yanında mağaza sahiblərindən başqa tacir Torobobçev, Xorsin Martirosyan və Yegişe Şinarakyants adlı şəxslərin də olduğu müəyyən edilir. Qubernatorun göstərişi ilə adları çəkilən adamların hamısı həbs olunur[3].

- Həmin gün günorta saat 3-də VI məhəllədə yerləşən Mirzoyev küçəsində, Şahnazarovun evinin yanında iki nəfər namə-

[1] "Tiflisskiy listok", 1906, 23 aprel (№ 85).
[2] "Tiflisskiy listok", 1906, 10 iyun (№ 121).
[3] "Tiflisskiy listok", 1906, 30 aprel (№ 91).

lum şəxsin Qurban Cəfər oğlu adlı azərbaycanlını revolverlə güllələmək cəhdinin qarşısı yalnız həmin anda yolla keçən İlo Abzisenidze və Simon Tsiklaurinin müdaxiləsi nəticəsində alınır. Cinayətkarlar qaçıb gizlənirlər, adları çəkilən xarpuxlu gürcülər isə həyatını xilas etdikləri Qurban Cəfər oğlunu Vorontsov küçəsinə qədər ötürürlər[1].

- 4 iyuna keçən gecə Tiflisdə, Meydan məhəlləsində anlaşılmazlıq nəticəsində güclü atışma baş verir və yalnız güclü tufan-ildırım nəticəsində dayanır[2].

- 27 iyun günorta saat 2-də VII məhəllədə revolver və xəncərlə silahlanmış üç şəxs cənubi azərbaycanlı Həşim Fəttah oğlunu qarət edib, 100 rublunu və metal saatını əlindən alır, sonra da göyə 2 atəş açaraq qaçıb gizlənir[3].

- 24 iyul 1906-cı ildə axşam saat 5 radələrində Tiflis-Qarayazı yolunun 3 verstliyində öz aralarında ermənicə danışan dörd silahlı cinayətkar Tiflisdən kəndlərinə dönən Qarayazı nahiyəsinin sakinləri Musa Məmməd oğlunu və Alməmməd Alı oğlunu qarət edir; onları revolverlərlə hədələyib arabadan endirir və 52 rubl dəyərində mallarını və 78 rubl pullarını əllərindən alıb Mantaşovun malikanəsində gizlənir. Bu hadisədən 2 saat sonra həmin ərazidə şəhərdən öz evinə qayıdan başqa bir qarayazılı – Qaracalar kəndinin sakini Rəsul Bayramov qarət olunur. Cinayətkarlar onun mal-qarasının satışından əldə etdiyi 100 rubl pulunu alır və yenə də Mantaşovun malikanəsi istiqamətində qaçıb gizlənirlər[4].

- 1906-cı il avqust ayının 4-də gecə Tiflisdə, Avlabar məhəlləsində ilk azərbaycanlı sosial-demokratlardan olan Əziz Məhəmmədoğlu adlı nüfuzlu şəhər sakini ermənilər tərəfindən vəhşicəsinə öldürülür və cəsədi tanınmaz hala salınır. Bu barədə Ömər Faiq Nemanzadə "Ümid" imzası ilə "İrşad" qəzetinin 12

[1] Yenə orada.
[2] "Tiflisskiy listok", 1906, 10 iyun (№ 121).
[3] "Tiflisskiy listok", 1906, 29 iyun (№ 136).
[4] "Tiflisskiy listok", 1906, 31 iyul.

sentyabr 1906-cı il tarixli 214-cü sayında çap etdirdiyi "Əzizin cənazəsi" adlı məqaləsində yazırdı:

"Müsəlman sosial-demokratlarından ən qeyrətli, fail və iş görənlərdən Əziz Məhəmmədoğlunu avqustun 4-cü gecəsi erməni məhəlləsi Avlabarda vəhşicə öldürüb yolun kənarına tulluyublar.

Mərhum qayət şəci, beş-on məlunu birdən əzəcək igidlərdən olduğundan, gecənin hansı vaxtında olursa, Avlabardan keçib xidmət etdiyi sallaxanaya gedərdi. Qətl olunan gecə də yalnızca Avlabardan keçib sallaxanaya gedirmiş. Nəşinin tapıldığı yerdə qan əsəri olmadığından görünür ki, mərhum özgə tənha bir yerə bir bəhanə ilə aparılıb, beş-on adam birdən üstünə tökülüblər.

Mərhumun xəncərlər ilə başını, döşünü, böyürlərini deşik-deşik ediblər. Qulaqlarını kəsib öldürəndən məlunə aparıblar.

Əziz Məhəmmədoğlu qəssab idi. İşini namus və halal ilə görməklə bərabər camaat işinə də əl qatıb füqəraya kömək edərdi. Savad və elmsizliyi ilə bərabər qayət həmiyyətli, qanacaqlı, fəqir və kasıblar üçün fədakaranə çalışan igid bir cavan idi. Öz məsləki olan sosial-demokratlıq yolunda həqq ilə çalışıb, özlərini hamı Tiflis camaatına tanıtmış, şəci, riyasız, qorxusuz, doğruçu, insaniyyətli nadir bir vücud idi.

Mərhum axır vaxtlarda Tiflis hamamlarında çalışan fəqir və kasıbların məvaciblərini artırıb bir qədər insanca məişət etmələrinə artıq mərtəbədə kömək edirdi. Və qoymurdu ki, özgələrin alın təri ilə keçinməyə öyrənən müftəxor xozeynlər əmələ və fəqirlərə zülm etsin"[1].

Əziz Məhəmmədoğlunun cənazəsi 8 avqustda Mixail (Mixaylovski) xəstəxanasından qaldırılıb müsəlman qəbiristanlığına gətirilir və burada məzarı üstündə edilən çıxışlardan sonra torpağa tapşırılır.

- Qafqaz Polis müdirinin Tiflis Mühafizə Şöbəsinə yazdığı 26 avqust 1906-cı il tarixli, 6038 saylı «tam məxfi» və «təcili»

[1] Ö.F.Nemanzadə. Seçilmiş əsərləri (hazırlayan: Ş.Qurbanov), Bakı, 2006, s.115-116.

qrifli məktubunda erməni-azərbaycanlı münaqişəsindən bir neçə ay əvvəl Naxçıvan sakini Hacı Mir Bağırın guya ki, Tiflisdə hökumət əleyhinə ideyalar səsləndirdiyi və bir din adamı olaraq müsəlmanlar arasında nüfuzundan istifadə edərək 10-12 nəfər müsəlmandan ibarət komitə yaratdığı barədə məlumat verilirdi. Mənbədə Hacı Mir Bağırın Tiflisdə qırğın baş verən zaman İran konsulluğunda daldalandığı və buradan ermənilər əleyhinə təbliğatyönlü fəaliyyət apardığı, buna görə ondan konsulluğu tərk etmək tələb olunduğu və nəticədə geri Naxçıvana qayıtdığı da qeyd olunurdu.

GMTA-da «Naxçıvan şəhərinin sakini Hacı Mir Bağır tərəfindən «Ümummüsəlman komitəsinin Tiflis şöbəsinin» yaradılması» başlıqlı dosyedə saxlanılan məktubda polis müdiri Hacı Mir Bağırın yenidən Tiflisdə peyda olub «Ümummüsəlman komitəsinin Tiflis şöbəsi» adlı bir təşkilat yaratdığını qeyd edərək yazırdı: “Bu günlərdə tatarca intibahnamələr çap edib və komitə adından İran təbəəli tacirlərə paylayıbdır. İntibahnamələrdə məqsədlər üçün pul toplanması yazılıbdır. Onun bu intibahnaməni verdiyi şəxslərdən tacirlər – Naxçıvan sakini Qulu və VI məhəllədə yaşayan İrəvan sakini Kərimin adı bəllidir”.

Nəticədə “Tiflis şəhərinin baş mollası” olan və Məşədi Əli Cəfərov adlı şəxsin Nəbatat bağı yaxınlığında yerləşən evində yaşayan Hacı Mir Bağır Metex həbsxanasına salınır. Onun yaşadığı evdə aparılmış axtarış zamanı heç nə tapılmır. Məktubda adı keçən naxçıvanlı Qulu Naxacan oğlu Zəkiyev də həbs olunub Metex türməsinə salınır[1].

---

[1] GMTA, f. 83, s.1, iş № 252.

# VI Bölüm

## 1905-1906-CI İL HADİSƏLƏRİ YAZARLARIMIZIN GÖZÜ İLƏ

1905-1906-cı illərdə Cənubi Qafqazda baş vermiş erməni-azərbaycanlı münaqişəsi, o cümlədən Tiflisdə cərəyan etmiş dəhşətli hadisələr həmin dövrdə yaşamış və bu etnik münaqişənin canlı şahidi olmuş Məmməd Səid Ordubadi (1872-1950), Mir Möhsün Nəvvab Qarabaği (1833-1918), Ömər Faiq Nemanzadə (1872-1937) kimi görkəmli Azərbaycan-Türk yazarlarının əsərlərində və xatirələrində də geniş əks olunmuşdur.

M.S.Ordubadi özünün bu qanlı münaqişəyə həsr etdiyi "Qanlı sənələr" əsərində göstərirdi ki, iğtişaşların 4 əsas səbəbi var: "1. Erməni Daşnaksütyun komitəsinin müstəbid bir idarə üsulunu təşkil etdiyidir ki, Qafqazda bir sıra qanlı terrorlar oynadı; 2. Məhəlli hökumət məmurlarının müharibə zamanlarında etinasızlığıdır; 3. Müsəlmanların elmsizliyi və müasir işlərdən bixəbər olmalarıdır; 4. Ermənilərin avtonomiya – idarə muxtariyyəti həvəsində olmalarıdır." Ordubadinin qeyd olunan əsərində Qarabağda baş verən erməni vəhşilikləri bu şəkildə ifadə olunurdu:

> "...Ermənilərin necə ki, məlumdur, ən əsas fikirləri müsəlmanları qovub yerində Ermənistan təşkil etmək idi. Gəncə quberniyasının Cavanşir uyezdində (qəzasında – *F.V.*) 1905-1906-cı illərdə qəflətən baş verən erməni-müsəlman davasına gəlincə isə, ermənilər müharibə tədarüklərini yerbəyer eləmişdilər. Erməni səngərləri nizamla qurulurdu. Bizim müsəlmanlar isə ermənilərin işinə barmaqarası, lağlağı bir nəzərlə baxırdılar.
>
> 1905-ci ilin 3 oktyabr tarixində Sırxavənddə meşədən şeypur səsi eşidilir. Ardınca erməni silahlı dəstələri kəndə yaxınlaşır, kəndi atəşə tuturlar. İslamlar ailələrini götürüb meşəyə qa-

> çanda dörd yüz erməni atlısı onları təqib edib tələfata uğradır. Bu atlılar Hamazasp adlı ermənininin komandası altında kəndi büsbütün dağıdırlar. Sırxavənd kəndi insan cəsədləri ilə dolub qanlı çalalar əmələ gəlmişdi.
>
> 1905-ci ilin 27 noyabrında Dəmirli faciəsi zamanı müsəlmanlar yüzdən çox can tələfatı verdilər. Hacıqərvənd, Çıraqlı, Dəmirli, Pürxüd, Ümidli kəndləri yandırılıb müsəlman əhalisi qırıldı.
>
> Bəşər tarixinə nəzər salsaq görərik ki, indiyə qədər heç bir xalq qadın tayfasına bu qədər cəfa etməmişdir ki, ermənilər Ümidli qadınlarına etdilər. Bir ananın gözü qabağında 3-4 balasını öldürüb, ananı bihörmət etdilər.
>
> 1906-cı ilin başlanğıcında ermənilər Xaçın dərəsindəki Şıxavənd kəndini, daha sonra isə Papravənd kəndini işğal edib yandırır, əhalisini gülləboran edirlər".
>
> "Qanlı sənələr"də 1905-ci ilin noyabrında Tiflisdə baş vermiş hadisələrə də qısaca toxunulurdu.

Fövqəladə istedadı ilə seçilib gözəl şair, rəssam, xəttat və musiqişünas olan M.M.Nəvvab "1905-1906-cı illərdə erməni-müsəlman davası" adlı tarixi əsərində Qafqazda baş vermiş bütün münaqişələrin əsas səbəbkarının ermənilər olduğunu vurğulayıb, bu çərçivədə istisna təşkil etməyən və ilk olaraq Bakı şəhərindən öz əsasını götürən 1905-1906-cı illər erməni-azərbaycanlı ixtilafının səbəblərini açıqlayaraq yazırdı:

> "Əvvəla bunu bilmək lazımdır ki, İrəvan şəhərinin erməniləri çox kinli, ədavətli, təkəbbürlü, xudpəsənd* və xəmirləri fitnə-fəsad ilə yoğrulmuş adamlardır. Hansı vilayətdə ki, bunlar tapılır, mütləq orada bir ədavət və iğtişaş olacaq. Qafqaz vilayətlərində nə qədər iğtişaş və münaqişələr baş verirdisə, onların birinci səbəbkarı İrəvan erməniləri olurdu.
>
> Bir gün Bakıda olan İrəvan erməniləri şəhərdə iğtişaş salmağa cəhd göstərirlər. Belə ki, özünü hamıdan qoçaq və igid hesab edən həmin ermənilərdən biri (M.Yenqayev – *F.V.*) bir

* xodpəsənd – farsca "özündən razı" (F.V.).

müsəlman öldürür. Ondan sonra lovğalanaraq hər yerdə özünü tərifləyir və gördüyü cinayətlə fəxr edirdi. Bir gün o, küçədə getdiyi yerdə 18 yaşlı Bakı camaatından gənc bir oğlan (Bala ağa Məmməd Rza oğlu – *F.V.*) onun qarşısına çıxıb deyir:

– O erməni qoçağı sənsən?

Erməni cavab verir:

– Qoduq, mənəm!

Oğlan bu cavabı eşidən kimi tapançanı çıxarıb, ermənin bədəninə üç güllə yeridərək öldürür. Ermənilər həmin müsəlman oğlanı tutub, döyə-döyə gətirib divanxanaya verirlər. Divanxanada oğlanın üstünü yoxladıqdan və dəfələrlə danışdırdıqdan sonra zindana göndərirlər. Ermənilər divanxanada həmin oğlanı danışdıran məmura rüşvət verib razı saldıqdan sonra onun bir də divanxanaya gətirilib sorğu-sual edilməsini tələb etdilər. Onlar məmurun qarşısında belə şərt qoydular ki, oğlanı məmurun yanına erməni əsgərləri gətirsin. Elə ki oğlanı məmurun yanına gətirdilər, dedi ki, mən bütün həqiqətləri açıb danışmışam. Sən isə bunların hamısını yazdın. İkinci dəfə məni buraya gətirməyə nə ehtiyac vardı? Məmur hirslənərək oğlanın boynuna yumruq vurub əmr etdi ki, onu həbsxanaya aparsınlar. Oğlan məmura yalvarıb xahiş etdi ki, onu erməni əsgərləri ilə göndərməsin, çünki onlar məni yolda öldürəcəklər. Məmur ona qulaq asmayıb, zindana aparmağı əmr etdi. Həmin İrəvandan olan erməni əsgərlər (N.Arutyunyants və K.Babakov – *F.V.*) isə oğlanı çəkə-çəkə aparıb, dar bir küçədə yerə yıxdılar və süngü ilə dəlik-deşik edib öldürdülər. Sonra isə məmura bildirdilər ki, qaçmaq istəyirdi, biz də öldürdük".

M.M.Nəvvab əsərinin "Tiflis şəhərində erməni-müsəlman davası" bölümündə bir-iki cümlə ilə Tiflisdə yaşanan toxunub, Borçalı azərbaycanlılarının cəsarətli davranışlarını belə təsvir edirdi:

"...Erməni tayfası yenə dinc dura bilməyib, hazırlıq gördükdən sonra qəflətən müsəlmanların üstünə hücum çəkdilər. Müsəlmanların bu hücumdan xəbəri olmadığından ermənilərə layiqli cavab vermək üçün yanlarında silah və sursat yox idi. Əh-

valatdan xəbərdar olan gürcülər tüfəng və patronla müsəlmanlara kömək etdilər. Müsəlmanlar tanınmış bir şəxsin imarətinə girərək evi özləri üçün səngərə çevirdilər və ermənilərlə atışmağa başladılar. Müsəlmanlar iki gecə-gündüz ermənilərlə atışdılar.

Tiflisdə baş verən bu əhvalatdan ətraf müsəlman kəndlərinin camaatı xəbərdar olan kimi min atlı cəm olub müsəlmanların köməyinə gəldilər. Namestnik (canişin – *F.V.*) kəndlərdən gələn köməkdən xəbərdar olub əmr verdi ki, atla şəhərə girmək qadağan olunsun. Odur ki, müsəlmanlar şəhərin ətrafından atlarını geri – kəndlərə qaytararaq özləri piyada Tiflis şəhərinə daxil oldular. Onlar salavat və nərə çəkərək ermənilərin üzərinə hücuma başladılar. Bir gecə-gündüz vuruşmadan sonra çoxlu erməni qırıldı. Qalanları isə qaçıb aradan çıxdılar".

Əsərinin "Erməni tayfasına nəsihətlər" başlıqlı bölümündə isə Nəvvab ermənilərdən törətdikləri zülmün səbəb və məqsədini soruşur, eyni zamanda özü bu sorğuyu cavablandırmağa çalışaraq erməni xasiyyətini və utopik düşüncə tərzini obrazlı şəkildə üzə qoymağa nail olur:

"Əvvəla, bu tayfadan (erməni) sual edirəm ki, bu qədər mərdüməzarlıq və nahaq qanlar tökməkdə, mülklərin və malların talan və tarac edilməsində və yanıb xarabazarlığa çevrilməsində səbəb və mətləbiniz nədən ibarətdir?

Əgər məqsədiniz padşahlıq və kral olmaqdırsa, sizin bu təbiətinizlə və insafsızlığınızla heyhat ağla sığan şey deyil. Ağıllı və kamallı insanın sizin haqqınızda düşüncəsi belədir ki, belə səfeh hərəkətlərlə sizin tayfaya nəinki padşahlıq, heç koxalıq və kəndxudalıq da yaraşmır. Bu, dəfələrlə mötəbər dəlillərlə sübut olunmuşdur.

Birincisi budur ki, Allah-təala zalıma iqtidar və ixtiyar verməz. Əgər pişiyə qanad versəydi, quşların toxumunu yer üzündən kəsərdi. Hərgah dəvəyə və filə qanad versəydi, tamam damlar dağılardı.

İkincisi, özünüzə məlumdur ki, bundan əvvəl erməni tayfası çox idi. İlan kimi çölü yumşaq, içi zəhri-həlahil olduğundan, bas-

> dığını kəsdiyindən, mürüvvətsizlikdə həddini keçdiyindən və başqa xalqlara rəhm etmədiyindən, o qədər belə insafsızlıq və zülmkarlıqla məşğul olduqlarından hansı millətin əlinə düşürdülərsə, əməllərinə görə onlara layiq cəza verirdilər".

Ahıska əsilli tanınmış publisist və ictimai xadim Ömər Faiq Nemanzadə Tiflisdə azərbaycanlı qırğınlarının ən şiddətli vaxtında şəhər küçələrini qarış-qarış gəzib insanlarla görüşür, onları sülhə təşviq etməyə çalışırdı. Ö.Faiq baş verənlərin arxasında hökumətin, çar Rusiyasının dayandığını düşünürdü. Onun bu mövqeyi ilə bağlı Dr. T.Cəfərov "1905-1906-cı il Tiflis hadisələri Ömər Faiq Nemanzadənin gözü ilə" başlıqlı məqaləsində yazır: "Məhz bu yanlış düşüncənin girovuna çevrilən Ömər Faiq çox-çox sonralar öz səhvlərini anlamağa çalışmışdır və aldadıldığını zənn etmişdir"[1].

Nemanzadə Tiflisdə gördüyü dəhşətli hadisələri "Qafqazdan İstanbula xatirələr" əsərində geniş canlandırmışdır. Xatirələrində bu hadisələrin ləzgi paltarlı 3 nəfərin faytonla erməni məhəlləsindən Azərbaycan türklərinin sıx yaşadığı Şeytanbazara gəlib, buradakı "Roza" lokantası önündən keçərkən havaya atəş açmaları səbəbindən başlandığını vurğulayan Ömər Faiq bu zaman ailəsi ilə erməni məhəlləsində (Sololakda – *F.V.*), Naqornı küçəsində "Qeyrət" mətbəəsi ilə bir binada yerləşən evində olduğunu qeyd edir və şəhərdə qırğının başlandığını şiddətli tüfəng səslərindən duyduğunu, bunun qarşısının alınması üçün dərhal ya türk məhəlləsinə getməyə, ya da sosial-demokrat tanışları ilə görüşməyə can atdığını və bu işdə ona iki erməni qonşusunun yardımçı olduğunu ifadə edərək aşağıdakıları yazırdı:

> "...İki qonşu erməni ilə birlikdə hncakistlərlə ("Hnçak" erməni sosial-demokrat partiyasının üzvləri ilə – *F.V.*) görüşmək üzrə Voronsov körpüsünə doğru getdik. Mənim başımda şapka və yoldaşlarımla rusca danışdığım üçün mənim türk olduğumu kimsə anlamırdı. Yolda bir para silahlı ermənilər o yan-bu yana qaçırdı. Həyəcana düşmüş camaat körpüyə doğru axırdı. Biz də

[1] "Xalq qəzeti", 2010, 14 mart.

axan bu insan selinə uyub körpüyə yaxınlaşdıq. Körpünün üstü o qədər dolmuşdu ki, sanki Tiflis qopmuş buraya yığışmışdı. Dalda olanlar öndəkiləri itələyir, aralarına soxulmaq, suya doğru baxmaq təlaşını göstərirdilər. Bu vaxtda mən və yoldaşlarım da camaatın böyük təlaş və həyəcanla görmək istədikləri vaqiyəni görmək marağına düşdük. Mən yoldaşlarımla bir az daha irəli keçib körpünün barmaqlarına yaxınlaşdım və hər kəsin təlaşla baxdığı səmtə baxdım. Baxdım, amma çaydakı faciəni gözlərimlə görəndə Qafqazın mədəni mərkəzində bulunduğuma inanmaq istəmədim. Çaydakı faciə və bu faciəyə tamaşa ilə zövq alan camaatın halı mənə ingivisyon və Neron tamaşalarını xatırlatmaqdan geri durmadı.

Voronsov körpüsündən keçən türk hamballarını (iranlı həmşərilər) yaxalayıb bağırda-bağırda sürüyüb körpünün kənarına gətirir və buradan çaya tullayırdılar. Peska-Voronsov məhəllələrindəki mazutlarda işləyən türk əmələlərini (fəhlələrini – *F.V.*) gizləndikləri yerdən çıxarıb xəncərlə yaralaya-yaralaya Kürün kənarındakı dəyirmanların hündür yerlərinə gətirir və oradan aşağıya çaya tullayırdılar. Suya atılan biçarələr boğulmamaq üçün var gücü ilə çalışır, kənara doğru yaxınlaşırdı, lakin kənardakı vəhşi ovçuların yağdırdıqları güllələrlə yaralanır, təkrar suya batırdılar. Bir az sonra üzə çıxıb yenə əl-ayaq çarpır, üzməyə çalışırdılar. Lakin yenə güllə yağışına tutulub batır, axırda görünməz olurdular. Bir faciə qurtulmaq üzrə o biri yandan təzəsi tullanır... İkinci, üçüncü, dördüncü pərdə başlanırdı. Pərdələrin axırlarında suların qanlı dalğaları arasında qarışıb gedən cansız, meyitlərin yerinə camaat təzə canlı lövhələr, mənzərələr görmək istəyirdi. Mən qabaqca güman edirdim ki, bu minlərlə tamaşaçıların içindən bir dəstə insaflı insan çıxar, bu əl-ayaqsız, bu təqsirsiz əməkçilərin işgəncələrlə öldürülmələrinə razı olmaz, bu vəhşiliyə, bu mədəniyyət ləkəsinə, bu yırtıcılığa mane olar. Lakin, qorxularındanmı, şaşırdıqlarındanmı, hər nədənsə, kimsədə bir cürət, bir tərpəniş görə bilmədim. Sanki hamı yaxalanan adamın suya nə cür atılacağını, suda yaralı vücudu ilə nə cür çırpınıb çabalayacağını, yağan qurşunla-

rın ona nə cür dəyəcəyini, dəyəndən sonra necə bir işgəncə ilə boğulacağını təkrar-təkrar görmək şadlığında olmaq istəyir. Mən burada daha uzun səbr edə bilmədim. Bütün Tiflis yerindən qopmuş kimi tamaşada, kimi cəbhədə, kimi boğuşmada, kimi evində qorxuda. Düşündüm ki, mən belə bir vaxtda hara gedib kimi tapa biləcəyəm. Yoldaşlarımı çağırıb bir az kənara çəkildim. Bu sırada mən yoldaşlarıma:

– Bu qədər camaat içində bir sosialist, bir hncakist və ya bir insaf əhli yoxmudu ki, bu vəhşətə mane ola.

Yoldaşlarım gözlərini qayğı ilə mənə çevirib:

– Əli silahlı canavarların üzlərini görmürsənmi?! Elə zəhərlənmiş, qudurmuş, qızarmışlar ki, bunları sözlə, propaqanda (təbliğat – *F.V.*) ilə dayandırmaq qabil deyil. bir söz deyərsən, boş yerə qurban olub gedərsən. bu silahlı yırtıcıları ya silah gücü ilə dayandırmaq, ya da başçılarını tutub suyu bəndindən kəsmək lazımdır.

– Mən sosialist erməni-gürcü yoldaşlarımı belə bir vaxtda yerlərində tapa bilməyəcəyimi düşünüb onları axtarmaqdan vaz keçdim. Yenə türk məhəlləsinə getmək – işi gözlə görmək və sonra lazımi tədbirlərdən yapışmaq istədim. Qonşu yoldaşlarım məni hüduda qədər gətirəcəklərdi. Voronsov körpüsündən qayıdıb Peska küçəsinə döndük. Köhnə ticarət məktəbinin qarşısında hamam səkisi kənarında dalında palanı bir iranlı hanbalın qanlar içində yatdığını görüb keçdik. Peskada xeyli irəliləmişdik ki, uzaqdakı Tumanovski küçəsindəki 1 nömrəli evdə məşhur Georgiaşvili evinin yaxınlığında bir evin gülləyə basıldığı, erməni silahlılarının o tərəfə yüyürdükləri gözümüzə sataşdı. Biz istədik ki, o tərəfə gedək, lakin sonra düşündüm ki, yollarda belə kiçik hadisələr üçün qalsaydım uzun çəkərdi. Buna isə vaxt yox idi. Qulaqları tutan şiddətli atışma səsinin gəldiyi tərəfə – Şeytanbazara yetişməyə tələsirdim.

Cürbəcür vəhşiliklərin şahidi olaraq uzun əngəl, həyəcan və təlaşlardan sonra Peskanı keçib Metex qalasının altına çatdıq. Lakin, hünər buraya qədər gəlmək deyil, bundan sonra dava hüdudunu salamat keçməkdir. Erməni yoldaşlarım isə bundan bir ad-

dım da irəli gedə bilməzdilər. Onsuz da Şeytanbazar tərəfindən yağan güllələr bu tərəfdə kimsəni salamat qoymazdı. Bir müddət gizləndiyimiz divarın arxasında qaldıq. Nə edəcəyimizi şaşırdıq. Xeyli əziyyətdən sonra erməni yoldaşlarım ilə birlikdə hüduddakı erməni dəstələrinin başçılarını tapdıq. Mən dava tərəfdarı olmadığımı, ümumiyyətlə hər iki tərəfi barışdırmaq üçün o tərəfə keçmək istədiyimi bildirdimsə də inanmadılar.

Erməni yoldaşlarımın uzun danışıqları, anlatmaları, zamin olmaları, hətta ailəmizin ermənilər içində olduğunu bildirmələri nəticəsində mənim o tərəfə keçməmə güc-bəla ilə razı oldular. Bununla erməni silahlılarının hücumundan, güllələrindən qurtuldum. Lakin hər iki tərəfdən yağan güllələr altında o tərəfə nə cür keçib qurtulmalı? Bəla burasındadır.

Yaxşı ki, bu sıralarda atışmalar gah şiddətlənir, gah kəsilirdi. Mən bu kəsişmələrdən istifadə edərək divar dibləri ilə yavaş-yavaş irəlilədim. Hüdud ağzındakı silahlı türklərə səsimi eşitdirdim. Bir az sonra gələn rüsxət səsləri arasında o tərəfə keçdim. Keçən kimi məni alıb Paronbəyov karvansarasına apardılar. Orada isə İsmayıl bəy, Əlibala, Məşədi Əli kimi bəzi başçıların istintaqlarına məruz qaldım. Onlar məndən ermənilərin qüvvələrini, gizli hücum nöqtələrini, yığıncaq yerlərini xəbər aldılar. Mən də "bilmirəm"ə əlavə olaraq qonşu davasının axırı peşmançalıq olacağına və onlarla aramızda dava ilə həll ediləcək heç bir ciddi ixtilafımız olmadığına, bu qırğını çıxaranın erməni-türk olmayıb, məhz hökumətin özü olduğuna dair çox söz söylədim... Ətrafıma uzun diqqət etdim ki, bəlkə bir tanış ziyalı görəm, söz anladam, heç kimi görə bilmədim. Məgər bu vaxtda ziyalılar qorxularından evlərində oturub, dişarı çıxmağa cürət edə bilməmişlər. Ricamın qəbul edilmədiyini görüncə buradan çıxıb özgə yerlərə baxmaq, başqalarını görmək üzrə idim ki, olduğumuz Paronbəyov karvansarasının divar və pəncərəsinə dolu kimi güllə yağmağa başladı. Hər kəs əl-ayağa düşüb gizlənməyə, silahlılar sipər arxasına keçib cavab verməyə tutuşdular. Meydanda, yolda bir adam da olsa qalmadı. Bir para silahlılar karvansaranın damına çıxıb ocaq buxarlarını özlərinə si-

pər qayırıb oradan erməni məhəlləsini atəşə tutdular. Bu şiddətli atışma bir-iki saata qədər davam edib sakitləşdi. Bu arada gördüm ki, divarlar xəlbir kimi deşilmiş, pəncərələr tökülmüş, keramitlər parçalanıb dağılmış, yaralılar qanlarını silir, bağlamağa şey axtarır. Ara xeyli sakitləşəndən sonra buradan mütləq çıxmaq, özgə yerlərin vəziyyətini görmək, bəzi yoldaşlarla görüşmək istədim. Bu sırada bir para ziyalıların, o cümlədən Ləlinin* məscid nömrələrində olduqları xəbərini aldım. Karvansaranın divarlarının dibi ilə sürünə-sürünə məscidə çatdım. Amma qapını açdırmaq çox çətin oldu. Çünki bura tam hüdud üzərində idi, hər dəqiqə hücum gözlənilirdi. Min bəla ilə qapını açdırıb içəri girdim. Oraya girər-girməz atışma yenidən alovlandı. Qapılar daha möhkəm bağlanıb, dalları odun və dəmirlərlə bərkidildi. İçəridə olanların gizlənmək üçün bura qaçdıqları gözümə sataşdı. Təhlükə və qorxulu hallara düşmüş bir para zəif insanların aldıqları vəziyyəti görüb təəccüb etdim. Mehmanxana olan binanın qapı-pəncərələri və divarları qayət möhkəm idi. Oraya zorla girməyin qolay olmadığını bildikləri halda çoxunun rəngi qaçmış, bucaqlara soxulmuş. Tir-tir titrədiklərini görüncə təəccüb daha da artdı. Doğrusu acığım gəldi. Hələ zahirdə igid, qorxmaz, heybətli görünən ləzgilərin, ümumiyyətlə dağlıların burada gördüyüm nümunələri bunlar haqqında indiyə qədər bəslədiyim müsbət düşüncələrimi alt-üst etdi. Gözlərimə baxan səfil vəziyyətlər, əzgin çöhrələr ölüm qorxusu ilə varlıqlarını itirmiş, kiçilmiş, alçalmış vücudlar, qulaqlarıma gələn iniltilər, yalvarışlar, dualar, məni o qədər şaşırtdı ki, tapmaq istədiyim ziyalıları, Lələni də unutdum. Yerə sərilib Həzrət Abbası çağıran biçarələrin yanına gedib onlara acıqlandım. Buranın salamatlığını, bu dərəcədə qor-xmağa lüzum olmadığını anlat-

---

* Ləli (Mirzə Əli xan Şəmsü-hükəma) – (1845-1907) – Maarifpərvər ziyalılardan biri, şair və həkim. Əslən irəvanlı olan Ləli İranda mədrəsə qurtarmış, ərəb və fars dillərini mükəmməl bilmiş, Tehranda həkimlik sənətinə yiyələnmişdir. Müxtəlif ölkələrdə səyahətdə olmuş, ömrünün axırlarında Tiflisdə yaşamış və burada vəfat etmişdir − (Prof. Dr. Şamil Qurbanov, bundan sonra *Ş.Q.*).

dım. Bu sırada pəncərələrin sınıb şax-şuxla tökülmələri, keçən güllələrin tap-tup səsləri məni yalançı çıxaracaqdı. Bir az sonra mehmanxana qapısının dişarıdan döyüldüyünü duyub yaxın getdim, qulaq verdim. Gələn səsləri tanıyan kimi oldum. Tez yuxarı çıxıb pəncərənin deşiyindən baxdım. Gördüm ki, bizim mətbəə mürəttibləridir. Dərhal enib açmaq istədim. Lakin bir çox qorxaqlar ətrafımı sarıb buna mane oldular. Öz rahatlıqları xətrinə qapıda inildəyən, bizdən kömək diləyən yaralılara əl uzatmaq istəmədilər. Mən özümə tezcə tərəfdar tapmaq üçün yaxındakı nömrələrə baş vurdum. Axtardığım yoldaşlarla bərabər Ləlini də tapdım. Hamı birlikdə aşağı endik, qapını tez açıb gələnləri içəri aldıq və tezcə də qapadıq. Gələn yaralıların içində bizim öz mürəttibimiz Feyzulla Feyziyev* də vardı ki, güllə ilə qarnından yaralanmışdı. Vaxt keçirməyib gülləni çıxarmaq istədik. Lakin buraya yaxın bir həkim tapa bilmədik. Axırda çarəsiz qalaraq ürək həkimi olan şair Ləlinin yarımçıq yara həkimliyinə müraciətə məcbur olduq.

Yaranı müvəqqəti sarıdıq, heyf ki, dərin gedən güllənin açdığı yaranın təsirindən biçarə Feyzulla çox çəkmədən qucağımızda vəfat etdi. Bu yazıq o günü başındakı şapqasına güvənərək gizli bir surətdə erməni tərəfinə keçir, Naqornıdakı "Qeyrət" mətbəəsinə gedir, oradakı yoldaşlarından xəbər tutmaq istəyir, kimsəni görə bilməyincə qayıdır. Şeytanbazara qədər salamat gəlir. buradan hüdudu keçəndə türk olduğu bilinir, ermənilər tərəfindən yaralanır.

Mən, Ləli və oradakı tanış tacirlərlə qırğını dayandırmaq barəsində uzun söhbətdə oldum. Hamısı bir iş görə bilməyəcəklərindən məyus olub otaqlarında oturduqlarını və bəlkə hökumətin işə qarışıb atışmanı sakitləşdirəcəyi ümidində olduqlarını söylədilər. Mən bu tacir qafalardan bir kömək olmayacağını qanıb orada daha uzun dayanmadım. Atışma kəsən kimi sükutla qapıdan çıxıb divar dibləri ilə yenə Paronbəyov karvansarasına getdim. Orada bir neçə yaralının həkimsizlikdən can verdik-

* Seyfulla Feyziyev – "Qeyrət" mətbəəsinin mürəttibi (Ş.Q.).

lərini gördüm. Buradan da sakitcə çıxıb Şeytanbazarın daha içərilərinə getdim. Yolda bir çox müsəlmanların əldə silah sipər arxalarında oturub atışmaya hazırlaşdıqları, qəhvəxanaların, turuncu dükanlarının içərilərinin adamlarla dolu olduqları göründü. Hamamın yanındakı qəhvəxanaya girdim, silahlı-silahsız ağzına qədər adamla dolu idi. Söhbətlərinə diqqət etdim. Biri Əlibalanın qoçaqlığından, o biri İsabəyin güllə atmasından, daha o biri yekə ermənini nə cür yaxalayıb suya atdıqlarından danışırdı. Qəhvəxana qarışqa kimi qaynayır, kimi çıxır, kimi gəlib təzə xəbər gətirirdi. Burada bir neçə tanış cavan gözümə sataşdı. Bunları yanıma çağırıb:

– Görürsünüz, hər iki tərəfdən əlsiz-ayaqsız qırılır. Əsl yanğına səbəb olanlar heç də görünməyir. Bu mənasız qırğının axırı nə olacaq? Vəhşicə qırılıb-qırılıb, yenə bir gün gələcək korpeşiman, utana-utana qonşu-qonşunun üzünə baxacaq. Axı ya onların, ya bizim istədiyimiz nədi? Nədən ötrü dava edirik? Əlbəttə ki, bilmirsiniz, çünki arada bir iş yoxdu ki, biləsiniz.

Cavanlardan biri :

– Biz nə edək, davanı onlar çıxartdılar. Burada bizim axırımıza çıxmaq istəyirlər. Onlar bizdən mədənidirlər. Qonşu davasının pisliyini, xeyirsizliyini onlar bizdən daha qabaq başa düşüb etməyəydilər. Hanı, onlarda barışmaq istəyən, bir söz deyən varmı?

Mən:

– Yox, yanılırsınız, davanı nə onlar çıxartdı, nə də biz? Bunu çıxaran ancaq çar hökumətidir...

Artıq axşam yaxınlaşmışdı. Türk-erməni məhəllələrinin arasından keçən Kür çayının qızıl rəngini parladan günəş işığı yavaş-yavaş sönür, ortalıq qaranlıqlaşırdı. Mən daha küçələrdə dolaşmayıb İsmayıl Həqqi Həsənzadəgilə* gedib bir çox tanışla-

---

* Dövrünün tanınmış ziyalılarından biri olan İsmayıl Həqqi Həsənzadə (1882 – 1938) "Molla Nəsrəddin" jurnalında mürəttib işləmiş, eyni zamanda Tiflis Türk Teatrında aktyorluq etmişdir (İ.Həqqi barədə ətraflı bax: F.Valehoğlu. Türklük ideologiyası və İsmayıl Həqqi, "Türk eli" dərgisi, 2010, dekabr, № 19, s. 29-31) – *F.V.*

rı onlara yığmaq, orada kiçik bir təşkilat düzəldib barışdırmaq işinə başlamaq xəyalına gəldim.

Yolda dəstə-dəstə gəzən silahlıları, küçələrdə lazımlı yerdə yerləşdirilən qaravulları, tutulan hündür yerlərdəki nişançıları görüncə bu tərtibin özbaşına olmadığını, yaxşı-pis bunların bir mərkəzə, bir təşkilata tabe olmaq ehtimalını düşündüm. Çünki ictimaiyyət tarixinin belə vaxtlarda zamana görə bir mərkəzin və ya bir komandanın vücuduna olan ehtiyacını yüzlərcə misallardan bilirdim. Buna görə mən də bu işlərdə labüd olan bir mərkəz və ya komandan axtarmaq fikrinə düşdüm. İsmayıl Həqqigilə getməyi sonraya saxladım. Soruşa-soruşa, axtara-axtara Voronsov küçəsinin aşağısına doğru endim. Axırda 47 nömrəli iki mərtəbəli böyük evə bir cüt silahlının girib çıxdıqları gözümə dəydi. Lakin bu tanımadığım evə birdən-birə girmək istəmədim. Bir az dayandım. Təsadüfən buraya gələn bir iki ziyalı cavan tanışla bərabər girdik.

İçəri girib vəziyyəti elə bir halda gördüm ki, ev yiyəsi ilə rəsmi tanış olmamağın lüzumsuzluğu öz-özündən anlaşıldı. Bu, hər yanı ipəkli örtülərlə, qiymətli xalılarla, qızıl zərli mebellərlə bəzədilmiş zalda bir çox zabitlər, bəylər, ağalar, ruhanilər, Şeytanbazar qoçuları vardı. Kimi ayaqda həyəcanlı danışır, kimi tələsik yazı yazır, kimi də mollalarla idi. Bura zabit Hüseyn bəy Yadigarovun evi idi...

Burada hökumət vədləri ilə zəhərlənmiş beyinlərin mahiyyətlərini, hallarını görüncə barışmaq barəsində söz açmağı artıq bildim. Buna görə burada çox dayanmayıb çıxdım.

Güllə tutmayan içəri, dar küçələrə özümü Sumbatov küçəsindəki Ağa Yəhyanın evinə çatdırdım. Mən oraya gedən və qayıdan vaxtlarda Avlabar tərəfindən türk məhəlləsinə yağan güllələr gah ora, gah bura dəyirdi. Türklər tərəfindən erməni bazarına, "Xarpuq" səmtinə atılan güllələrin səsindən qulaqlar tuturdu.

Günəş batdığı halda hələ ağzıma bir şey almamışdım. Susuz yanırdım. Ağa Yəhyagildə bir az yeyib-içdim...

O günü axşam üstü "Naqornı"da buraxdığım ailəmin yanı-

na gedəcəyimə söz verdiyim yadıma gəldi. Lakin, bu vaxtda, bu qaranlıqda hara getmək mümkündü? Çarəsiz olaraq bu gecə türklər tərəfində qaldım. Bu qaldığımdan istifadə edərək türkləri görməyə qərar verdim. Lakin gecə gəzmək çox təhlükəli idi. Olduğum və gedəcəyim küçələrin heç birində işıq yox idi. Avlabar tərəfindən gələn düşmən güllələrinə nişan olmamaq üçün bütün işıqlar söndürülmüş, pəncərələr qapanmışdı. Özümü güc bəla ilə İsmayıl Həqqi Həsənzadənin evinə yetirdim və oraya yaxın olub sosialist adlanan Əşrəf Yüzbaşevlə* dərzi Vəlini və mürəttibimiz Məmməd Hüseynlə** müəllim Baxışəlibəyi*** çağırtdırdım. Aranı barışdırmaq xüsusunda onlarla uzun-uzadı müzakirədə olduq. Mən öz növbəmdə propaqanda və rica ilə bir iş görülməyəcəyini və mümkün olsa belə, ancaq bir neçə qonşu millət üzvlərindən ibarət bir qüvvət – bir təşkilat vasitəsi ilə ola biləcəyini anlatdım. Axırda sosial-demokratlara müraciətlə bir propaqanda komissiyası ilə gürcü və rus əmələlərindən ibarət bir silahlı dəstənin istənilməsinə qərar verdim.

Bu gecə üst paltarlarımızı çıxarmayıb uşaqlar kimi gah yuxuluyur, gah da atışma səsləri ilə tezcə oyanırdıq. Bu gecə Avlabar tərəfindən atılan bir-iki güllə də olduğumuz evin pəncərə çərçivəsindən keçib yanı başımızda döşəməyə sancılmışdı.

Səhər qaranlığında İsmayıl Həqqi və başqa yoldaşlar ilə birlikdə Botaniçeski sad (Nəbatat bağı – *F.V.*) tərəfindən erməni məhəlləsinə, oradan da sosial-demokratların mərkəzi idarələrinə getdik, əhvalatı anlatdıq. Onlar da biz düşündüyümüz kimi düşündüklərini və bu iş üçün hökumətin rüsxəti ilə dəmir yolu əmələlərindən 100 nəfərdən ibarət bir dəstə hazır etdiklərini xəbər verdilər. Propaqanda komissiyasına gürcülərdən Jordaniya və ermənilərdən Jerzekyan (İndi şura Ermənistanda komissar-

* Əşrəf Yüzbaşov (1880 – 1938) – Azərbaycanda sovet hakimiyətinin qələbəsi uğrunda fəaliyyət göstərən mübarizlərdən biri (Ş.Q.).

** Məhəmməd Hüseynov – "Qeyrət" mətbəəsinin mürəttibi (Ş.Q.).

*** Çox güman ki, Qori seminariyasının məzunu, müəllim Baxşəli bəy Məhərrəmbəyov nəzərdə tutulur – F.V.

dır), türklərdən də mən seçildim. Bu komissiyada iranli bir yoldaş daha vardı ki, onun fədakarlığını, insanlığını unutmaq heç olmaz. O da Setrak Vanovoryan (balıqçı dükanında əmələ) idi.

Silahlı əmələ drujinası öz komandası ilə bu komissiyanın ixtiyarına verilmişdi. Drujina öz vəzifəsini görmək üçün qırığının üçüncü günü Şeytanbazara – hüdud ağzına gəlib dayandı. Hər iki tərəfin atışmasına mane olmaq vəziyyəti aldı...

Mən gəldiyimin dördüncü günündə də Naqornıya, ailəmin yanlına gedə bilmədim...

Beşinci gün beş-on drujina nəfəri ilə birlikdə Naqornı küçəsinə gedib ailəmi gətirdim. Bu vaxtda xəbər tutdum ki, Mirzə Cəlil birinci gecə axşamdan mətbəəni Tumanovski küçəsinin qurtaran yerindən David (Şeyx Sənan – *F.V.*) dağının ətəyində təkcə duran rus ovçusunun evində saxlayırmış (məşhur sosial-demokrat G. Curciaşvilinin evinin yaxınlığında).

Mən ailəmi türk məhəlləsinə, Ağa Yəhyanın evinə gətirdim ki, onun dərdindən qurtarıb daha ciddi çalışım. Lakin bu düşüncədə çox aldanmış, gəldiyimiz gündən bir gecə də rahat ola bilməmişdik. Olduğumuz ev yüksək və görkəmli olmasına görə Avlabarın gülləsindən qurtara bilmirdi. Bundan başqa yanıbaşımızda başlanan yanğınlar bizi hər tərəfdən qorxudurdu. Birinci yanğın ilə qırğının ikinci pərdəsi başladı. Uzaqdan-uzağa güllə yağışı yağdırmaqla bir birlərinə beyinsiz, qudurmuş, vəhşi düşmənlər bu səfər güllə hücumuna yanğın hücumunu da artırdılar. Ermənilər birinci yanğının təsiri ilə araya hərci-mərçilik, pərişanlıq düşdüyünü və bu surətdə türk cəbhəsinin zəiflədiyini, mənəviyyatının qırıldığını anlayaraq bütün gücləri ilə bir neçə yerdən türk məhəlləsinə od vurmağa çalışırdılar və bir neçə gün sonra ermənilər Xarpuq tərəfindən enib Surp Sərkis küçəsində olan Hacı Hüseyin Bağırovun böyük evini odladılar. Yekə evi yanıb kül olunca öz başına buraxdılar. Bu sırada dəstəsi ilə köməyə gələn Borçalı Şamil də orada ikən vuruldu.

Yanğın yalnız yaxdığı evlə qalmır, çıxardığı uzun qırmızı dili ilə ətrafı həyəcan, qorxu və təhlükəyə salırdı. Bu sıralarda ətraf evlərdəki qocalar, qadınlar, cocuqlar haraya qaçacaqlarını şaşırıb,

güllə və bomba atəşlərindən, yanğının dəhşətindən, zərərindən qorxmağa başladılar. Buna görə də silahlıların bir çox cəbhəni buraxıb ailələrini qorumaq qeydinə qaldılar. Mən özüm də o günlərə qədər drujinalarla birlikdə gah erməni tərəfindən keçib türk tərəfinə gəlirdim, hər iki tərəfi barışdırmağa çalışır və bu surətlə az-çox aranı sakitləşdirirdik. Lakin yanğından ürküb küçələrə tökülən cocuq və qadınların fəryadı, öz başına buraxılan yanğınların alovlarla göylərə qalxdığını görüncə özgə işlərimi buraxıb bunların dərdinə qalmağa məcbur oldum. Hələ bu günün axşam və gecəsi səhərə qədər bir dəqiqə rahatlanmayıb bir neçə yoldaşla küçələrə tökülən biçarələrə rəhbərlik edib boş olan Çitakov fabrikası binasına gətirib yerləşdirməklə məşğul olduq.

Heç yadımdan çıxmaz: o gecə yanğın yerlərindən toplanan yüzlərcə ailəni Çitakov fabrikası binasına gətirərkən Avlabar tərəfindən yağan güllələrin vıyıltısı ilə gah bu yana, gah o yana qaçıb gizlənir, ayın buluda girməsini gözləyirdik. Ay buluda girib ortalıq qaranlıqlaşan kimi sevinir, yollarımızı dəyişdirib, irəliləyirdik. Ay çıxan kimi yenə gülləyə tutulur, divar yarıqlarında, qapı girintilərində, döngələrdə gizlənirdik. O gecə bir kilometrlik yeri ancaq dörd-beş saata keçə bildik. Uşaqlar soyuqdan, qorxudan ağlaşa-ağlaşa, qocalar düşə-qalxa səhərə qədər gah bu bucaqda, gah o döngədə, özümüzü güllə yağışından saxlayırdıq. Səhərə yaxın min bəla və müsibətlə Çitakova çatdıq. Bizdən sonra yenə bir çox qafilələr gəlib doldu. Burada ağlaşan körpələrin səsi, yolda uşağını itirmiş anaların fəryadı ilə qarışıq ürəkləri dəlirdi.

Bu gün və gecələrdə çəkdiyim əziyyəti ömrümdə çəkməmiş və görməmişəm desəm, yalan olmaz. Gündüzlər axşama qədər gah barışdırmaq propaqandası ilə məşğul olur, gah gizlənənləri qurtarmaq üçün təhlükəli yerlərə yüyürürdük. Üçüncü gün atışmadan qaçarkən qaloşları itirmiş, nazik tuflilərlə qalmışdım. Gecələri isə üst paltarı ilə bir neçə saat dovşan kimi yuxular, çox vaxt yanğın bəlasına qarşı səhərə qədər ayıq qalardıq. Çox vaxt yeməyə vaxt tapmaz və ya yeməyə bir şey tapmaz, palçıq və soyuqda gəzə-gəzə yorulardıq.

Tiflis şəhəri biri böyük, o biri çox kiçik olmaq üzrə ikiyə bölünmüşdü. Bu iki düşmən cəbhənin hüdud xətti: Orta çala körpüsünü Şah Abbas məscid körpüsünə və buradan Şeytanbazar meydanını ortadan yararaq hüduda qədər uzanan xətt idi.

Erməni hücumçuları erməni dükan və bazarlarında nə qədər çuval varsa hamısını zorla alıb torpaq, qum ilə dolduraraq erməni bazarında qat-qat səngərlər yaratdılar.

Atışmanın əvvəlindən axırına qədər erməni hücumçuları silahlı olaraq dəstə-dəstə, şəhərin ən böyük və ən izdihamlı küçə və caddələrində hökumət idarələri və adamlarının gözləri qabağında əsgər bölükləri kimi azad və rahat bir tərəfdən o biri tərəfə keçir, istədikləri hərbi hərəkətdə olurlardı. Tiflis türkləri isə açıq sürətdə Borçalıdan atlı dəstələr, köməkçilər çağırırlardı. Hətta bu dəstələrə hökumət ordusundakı türk və gürcü zabitləri rəhbərlik edirlərdi. Voronsov küçəsindəki zabit Yadigarovun evi bu gələnlərin, bu hücumların ştabı idi. "Botaniçeskisad"ın şəhər tərəfindəki bürcləri – divarları Borçalıdan gələn dəstələrin səngəri idi. O yüksək yerlərdən erməni məhəllələrini, "Sulalak"ı, hətta namestnik Voronsov-Daşkov sarayının yaxınlığındakı "Yerevanski" meydanını da gülləyə basırlardı. Qafqazın bu böyük mədəni mərkəzi qəsdlə hər iki millət canavarlarının əllərinə buraxılmışdı. Deyəsən o günlərdə Tiflisdə nə hökumət vardı, nə də əsgər və polis...

Tiflis kimi böyük bir şəhərdə, Qafqazın mərkəzində yaşayan iki millətin bir-birlərini ən azad bir surətdə vəhşicə qırmaları, tüfəng, bomba səsləri ilə bütün şəhərin həyəcan və qorxu içində olması, şəhərin mükəmməl yanğın dəstəsi olduğu halda, göylərə qalxan yanğın alovlarının saatlarca deyil, günlərcə öz başına buraxılmaları hər kəs kimi hökumət və şəhər idarəsinin də tamaşası oldu. Qırılanların, yanğınların gün-gündən artması bir-iki gün deyil, on gündən artıq davam etdi. Hətta hökumətin şəhər idarəsinin xəyanəti, alçaqlığı o dərəcədə idi ki, buradan Afrikadakı müharibə yaralılarına qırmızı xaç yardımı götürdüyü halda, öz şəhərində, yanıbaşında yaralanan biçarələri qəsdlə həkimsiz, dərmansız, sarğısız buraxıb, heyvan kimi yiyəsiz qı-

rılmalarına aşikar surətdə kömək edirdi.

Hər iki tərəf bir yandan, günlərcə döyüşə-döyüşə, boğuşa-boğuşa, yorulmuş canavarlar kimi artıq haldan düşmüş, gücdən qalmış, digər yandan kiçik bir qrupun hər iki tərəfə hər gün elədiyi propaqanda sayəsində peşimanlıq üz vermiş kimi idi.

Konsullar, xaricilər, işin iç üzünü düşünən ziyalılar hökumətin fırıldağını, şeytanlığını, alçaqlığını tamamilə anlamışlardı. Lakin bu anlayışlar nə dərəcədə olursa-olsun hökumət qaba, alçaq və vəhşi hiylə və fitnəsilə yüzlərcə günahsızların qanını tökdürmüş, öz fırıldağını yerinə yetirmişdi. Hökumət bu zaman da öz şeytan hərəkətilə bir neçə ovunu birdən vurmuş, erməni-türk düşmənçiliyini istədiyi kimi dərinlətmiş, inqlab qığılcımlarını uzun zaman basdırmış, hürriyyət və inqlab tərəfdarlarının səslərini boğmuş bir qəhrəman vəziyyətində qalmışdı. Meydana gətirdiyi bu böyük qırğınla guya öz murdar məramına çatmış kimi görünürdü. Halbuki, həqiqətdə bu kimi vəhşi, alçaq fitnələrlə öz ölümünü yaxınlaşdırır, tələsdirirdi. Axmaqlığa baxınız ki, qırğını meydana çıxaranlar artıq hər kəsə məlum ola-ola hökumət özünü bilməməzliyə, korluğa vurur, ovunu yaralayıb, əzişdirib, qüvvətdən salıb; üstünü ağac və kolla örtəndən sonra uzaqdan qarovulluğunu çəkən ayı kimi sakit dururdu. Hökumət vəhşi planını yerinə yetirib, istədiyi qədər qanlar axıtdırıb, evlər dağıtdırıb, ailələr söndürəndən sonra, sakitlikdən fəaliyyətə keçdi.

Qırğının 13-cü günü (belə yadıma gəlir) türk-erməni məhəllələrinə güclü əsgər göndərildi. Hər iki tərəfdə toplar qoyuldu. Bir tüfəng belə açılmaması əmri verildi. Hər iki tərəf qoyun kimi tabe oldu. Aradakı o şiddətli atışma, boğuşma o dəqiqədən kəsildi. Ortada bir tək silahlı da olsa görünmədi. Hər yanda sakitlik başladı.

O gün, bəli, həmən o gün ki, hələ tökülən qanlar qurumamış və iniltilər azalmamış, Kür çayının qırmızılığı getməmiş, yaralıların fəryadı, yanan evlərin dumanı kəsilməmiş, balalarını itirən anaların göz yaşları qurumamış, su üzündə gəzən meyitlər toplanmamış, yanğınlardan qaçıb küçələrdə ac, çılpaq qalan-

> lar evlərinə qayıtmamış, yurdsuz qalanlar sığınacaq bir daxma tapmamışdılar. Hökumət türk-erməni camaatını – minlərcə insanları öz ruhaniləri ilə bərabər zorla türk məhəlləsinin aşağısında olan geniş Qarpız meydanına yığdı"[1].

1 dekabrda azərbaycanlı və erməni ziyalılarının sülh razılaşmasından sonra hər iki tərəfin nümayəndələrinin bu xəbəri xalqa çatdırmaq üçün azərbaycanlı və erməni məhəllələrinə üz tutması və Qarpız meydanındakı mitinq barədə ətraflı yazmışıq. Münaqişənin başlanmasında təxribatçılar, "aravuranlar" günahlandırılıb, artıq hər şeyin arxada qaldığı və qarşıdurmanın sona yetdiyi bəyan edilən bu mitinqdə Ömər Faiq də söz alır və xalqa müraciət edərək deyir:

> " – Qardaşlar! Mən uzun danışmayacağam. Ancaq rica edirəm mənə diqqətlə qulaq asınız, deyəcəyimi başa düşünüz! On gündən artıqdır, türk və ermənilərin bir-birlərini necə qırdıqlarını, bir-birlərinə necə sağalmaz yaralar vurduqlarını gözlərinizlə gördünüz. Bu qədər uzun zamanda heç bir kimsənin barışdırmağa gəlmədiyini və bu qanlı qırğının öz başına buraxıldığını bilirsiniz. Şükür, uşaq və ya dəli deyilsiniz, bu gün əsgər və ya polis gəlməklə dava o dəqiqə kəsildi. Bu gün hökumət adamları buraya gəlib sizə barışın dedi, siz də canınıza minnət bilərək barışdınız. Təkrar edirəm, cocuq deyilsiniz! Bu işləri beyninizə vurunuz, bir az fikir ediniz. Fikir edəndə anlayacaqsınız ki, bu davanı salan əsl "şeytan"lar kimlərdir? Burada hökumət də, ruhanilər də dedilər ki, davanı salan "şeytan"dır. Bu çox doğrudur. Əlbəttə və əlbəttə bu davanı salan "şeytan"dır, lakin həm də şeytanların ən murdarı, ən zalımıdır. Lakin aydın və yəqin bilmirsiniz ki, o şeytan kimdir və adı nədir? Mən burada sizə o şeytanı göstərəcəyəm və adını da açıq deyəcəyəm. Bu halda mənə diqqət ediniz, qulaq asınız!
>
> Bu sözləri deyəndən sonra bir az dayandım. Camaatın bü-

[1] Ö.F.Nemanzadə. Xatirələrim (hazırlayan: Şamil Qurbanov), Bakı, 1985, s. 90-107.

tün nəzəri-diqqətini özümə cəlb etdim və qəsdlə bir az sakit durub camaata doğru diqqətlə baxdım. Bu sırada hər kəs maraqlanıb şeytanın əsl adını eşitmək üzrə sükuta getmişdir ki, birdən:

– O məlum şeytan – hökumətin özüdür! Deyib kürsüdən aşağıya enib camaatın içinə qarışdım və yavaşca aradan sivişib qaçdım. Hökumət nümayəndəsi nə dediyimi tərcümandan duyub məni tutmaq tədbirini edincəyə qədər mən gözdən uzaqlaşdım. Tənha yollarla İsmayıl Həqqigilə can atdım. Tutulacağımı bildiyim üçün ertəsi gün erkəndən vağzala getdim. Batuma gedən qatara mindim. Xaşuri stansiyasında enib öz kəndim olan Azqura yetişdim. Burada bir az qalandan sonra Axalsix şəhərinə getdim. Burada Tiflis qırığınına dair uzun hekayələr, aranı vuruşdurucu yalan-yanlış xəbərlər duydum. Duydum ki, buradakılar da araya qırğını salan əsl "şeytanı" tanımırlar. Buna görə qorxdum ki, 1905-ci ilin fevralında Bakıda başlanan faciənin az vaxtda özgə yerlərə keçməsi kimi, Tiflisdən sonra türk-erməni qırğınının ən müsaid yeri isə Axalsix şəhəri ilə böyük Azqur kəndi idi. Çünki buralarda türklərlə ermənilər qarışıq yaşadıqları kimi, hər iki tərəf qüvvətli idi. Vəziyyəti bu cür şübhəli görüncə bir neçə gün burada qalıb Tiflisdə keçən qanlı faciəni olduğu kimi anlatdım və oraya qırğın salan şeytanın mütləq hökumət olduğunu canlı dəlil və şahidlərlə başa saldım. Çoxu alverçi olan şəhər erməniləri işin həqiqətini başa düşməklə bərabər, aranı pozacaqları təqdirdə aylarca müştərisiz, qazancsız qalacaqlarını düşünüb elə bir ehtimala yol verməyəcəklərinə söz verdilər. Mən buranı arxayın görüb Azqura getdim..."[1]

Yeri gəlmişkən qeyd edək ki, 1906-cı ilin aprel ayında Tiflisdə nəşr olunmağa başlanmış və səhifələrində Ö.Faiqin də yazılarına sıx rastlanan "Molla Nəsrəddin" satirik, populyar jurnalı da öz səhifələrində 1905- 1906-cı il hadisələrinə yer ayırmışdı.

[1] Yenə orada, s. 108-109.

# VII Bölüm

## GÜRCÜ VƏ ERMƏNİ QƏZETLƏRİNİN SÖZ ATIŞMASI

Güney Qafqazda millətlər arasında düşmənçilik toxumunun səpilməsində, xüsusən də 1905-ci il qırğınlarının başlanıb yayılmasında erməni qəzetləri az rol oynamırdı. "Daşnaksutyun"tək erməni partiyalarının ideoloji funksiyalarının daşıyıcıları olan ermənidilli dövri yayım orqanlarının səhifələrini təxribatyönlü və başqa millətlərə, xüsusən də azərbaycanlılara və gürcülərə qarşı kin və nifrət dolu məqalələr "bəzəyirdi". Erməni mətbuatının neqativ rolu barədə uzun müddət Türkiyənin şərqində yerləşən şəhərlərdə Rusiyanın vitse-konsulu vəzifəsində çalışmış saray müşaviri V.Mayev-ski 1906-cı ildə yazırdı: "...Erməni məsələsində erməni mətbuatının oynadığı roldan bir neçə kəlmə demək istəyirəm. Mətbuatın alçaqcasına səyi sayəsində erməni xalqı heç vaxt öz təşviqatçılarının törətdiklərini düzgün başa düşmür. Məhz mətbuatın sayəsində erməni məsələsindəki həqiqət, həqiqət işığına yol açıb keçmək mümkün olmayan sıx yalan təbəqəsi ilə örtülmüşdü!"[1].

XIX əsrin sonlarında və XX əsrin əvvəllərində qeyri-sağlam erməni siyasi fikrinin əsas mərkəzi olan Tiflisdə yayımlanan və daşnak ideologiyasının yaradıcılarını öz qoynunda bəsləyən "Mşak" ("Zəhmətkeş"), "Nor-Dar" ("Yeni əsr"), "Arşaluys" ("Şəfəq") və digər erməni qəzetləri yuxarıda qeyd olunan ümumi kontekstdə xüsusi yer tuturdu. Bu qəzetlərdə dərc olunan tənqidi məqalələrdən azərbaycanlılarla yanaşı gürcülərə və "Tsnobis purtseli", "İveriya", "Moqzauri" kimi gürcü mətbu orqanlarına da

---

[1] V.F.Mayevski, göstərilən əsəri.

çox pay düşürdü. Gürcü qəzetlərinin və ziyalılarının erməni qəzetlərinin tənqid hədəfinə çevrilmələri onların 1905-ci il erməni-azərbaycanlı münaqişəsi zamanı obyektiv mövqe tutmaları və çəkinmədən baş verənlərin əsl səbəbkarı kimi erməniləri göstərmələri ilə bağlı idi. Maraqlıdır ki, gürcü qəzetləri erməni qəzetlərində yazılan özlərinə yönəlik tənqidi məqalələri tərcümə edib bütövlükdə öz səhifələrində çap edir və "mehriban qonşularının" əsl niyyətini bu şəkildə ifşa edirdilər. Belə məqalələrdən biri 1905-ci ildə "Mşak"da yayımlanmış və gürcü dilinə tərcümə olunub bütövlükdə "İveriya" qəzetində çap olunmuş "İnanaqmı" başlıqlı məqalədir. Biz də öz növbəmizdə həmin məqaləni azərbaycancaya çevirərək olduğu kimi təqdim edirik:

> "Ermənilərin indiki fəlakətinə şübhəsiz ki, mətbuat böyük diqqət ayırır. Bu günə qədər biz gürcü mətbuatının tutduğu mövqe barədə heç nə deməmişdik. Bizim oxucularımız yalnız onu bilir ki, gürcü mətbuatı dostcasına hərəkət etmir, tərəfsizliyini də saxlaya bilmir. İndi isə biz gürcü mətbuatı haqqında ikicə kəlmə söz deməyi lazım bildik. Sadəcə publisist səmimiyyəti ilə məsələni ümumi şəkildə müzakirə etməyə çalışacağıq, daha onun hansısa tərəfini yox.
>
> Gürcü mətbuatı ermənilərə həmişə böyük diqqət ayırırdı. Bu təbii ki, onun öz işidir, biz yalnız onu bilirik ki, gürcü mətbuatında gözlənilməz və qeyri-adi heç nə yoxdur. Bizim hörmətli qonşularımız ermənilərə qarşı 10-15 il bundan əvvəl davrandıqları kimi davranırlar. Doğrudur, bu gün gürcü mətbuatı bir az başqa dildə danışır, gürcü mətbuatının başqa xasiyyəti var, ancaq zamanlar və allahlar dəyişsə də, gürcü mətbuatı ermənilərə qarşı öz fikrini müsbət mənada bu gün də dəyişməyib. Bundan qabaq "Tsnobis purtseli" ermənilərə hücuma keçib demişdir: Ermənilər elə bilirlər ki, biz onlarla düşmənçilik edirik. Bizim – bu qəzet yazır – ermənilərin və tatarların toqquşmaları ilə bağlı ürəyimiz ağrıyır, əvvəllər də ağrıyırdı, ancaq ermənilərə kömək edə bilməyəcəyik, çünki görürük ki, bütün bu bədbəxtçiliklər erməni burjuaziyasının günahıdır. Demişik, indi də

təkrar edirik, onlar Qafqaz demokratiyasının qarşısında cavabdeh olacaqlar.

Bu sözlərlə qəzet, şübhə yox ki, oxuculara bir daha özünün radikal yönünü göstərmək istəyir. Ancaq bu parlaq sözlərin və gözəl frazaların əsas mənasını anlaya bilməyəcəklər, biz hər halda kimin günahkar olduğunu aydınlaşdırmalı və təsdiq etməliyik.

Uzun zamandır, "Tsnobis purtseli"nin yuxarıda qeyd olunan sözlərini gürcü publisistlərinin hamısı təkrar edir. Bu sözlər stereotipdir, bu sözlər müzakirənin o formasıdır, hansını ki, yalnız proletarlar* və onların klassik maraqlarını qorumağa and içmişlər deyil, eyni zamanda şovinistlər də, məsələn rotmistr** Boris Esadze*** kimi şovinistlər də əllərində tuturlar.

Söz ermənilərə gələndə hər bir gürcü yazarı dəhşətli dərəcədə radikal olur. "İveriya" da, "Moqzauri" də belə davranır. Onlar əmin edirlər ki, sadə erməni xalqını çox istəyirlər, amma hər şeydə erməni burjuaziyası və ziyalılarını suçlayırlar və birini yaralamaqla iki iş görürlər: bir tərəfdən müasir radikalizmin sözsüz mübarizləri kimi çıxış edirlər, digər tərəfdən köhnə sifətlərini saxlayırlar. Bəli, köhnə yollarını saxlayırlar. Bir neçə il əvvəl, Veliçkonun****şahlığı dövründə knyaz İlya Çavçavadze – gürcü milliyyətci və şovinist düşüncəsinin köhnə və görkəmli nümayəndəsi, – ermənilərə qarşı elə ittihamlar irəli sürdü ki, Veliçko Saquramo (İ.Çavçavadzenin doğma kəndi – *F.V.*) cəngavərinin alnından öpdü. Bu "cəngavərin" "tanınmış" əsərlərini gürcü şovinistləri tez-tələsik rus dilinə tərcümə etdilər. Biz

---

* proletar – fəhlə sinfinin nümayəndəsi (*F.V.*).

** rotmistr – çar Rusiyasının ordusunda atlı qoşun hissəsində və jandarmeriyada kapitana bərabər zabit rütbəsi (*F.V.*).

*** Əslən Kutais quberniyasından zadəgan nəslindən olan Boris Spiridonoviç Esadze (1864-1914) tanınmış qafqazşünas-hərb tarixçisi, rus hərbi-tarix cəmiyyətinin üzvü, Qafqazda nəşr olunan "Kavkazskaya armiya" ("Qafqaz ordusu") adlı ilk hərbi qəzetin redaktoru-naşiri olub – *F.V.*

**** Şair, publisist və ictimai xadim, 1896-1899-cu illərdə "Kavkaz" qəzetinin redaktoru-naşiri Vasili Veliçko (1860-1903) nəzərdə tutulur – *F.V.*

artıq milliyyətci sayıqlamanın bəzi nümunələrini bilirik. Zati-müqəddəsləri knyaz ermənilәri oğru və soyğunçu elan etdi. O deyirdi, ermənilər həyasızdır, onlar Gürcüstana giriblər, gürcülərin çörək loxmasını əllərindən alırlar və buradan getməyi də düşünmürlər. Amma eyni zamanda bacarıqlı bir siyasətçi kimi bəyan edir ki, onun sözləri erməni xalqına aid deyil, hansına ki, oradaca öz simpatiyasını bildirir. Knyazın qarşısında günahkarlar qismində erməni ziyalıları durdu. O zaman burjuaziya barədə söz də yox idi. Həm də bank işçisi burjuaziyanı danlaya bilərdi? Çavçavadze belə hərəkət etsə, bu ona bənzəyərdi ki, o iki əli ilə özü-özünə sillə vurub. Və ya o zaman "elmi sosializm" harada idi?

Çavçavadzenin yanaşması öz yerini ikinci, yeni nəslə buraxdı. Bu yeni nəsil suçlular skamyasında erməni ziyalılarından başqa erməni burjuaziyasını otuzdurdu, ondan müasir demokratiyanı öyrənməyi tələb etdi. Bəs necə, proletariatın maraqlarını başqa cür necə qorumaq olar? Amma bir hadisə gürcü radikallarının demokratlığını tam aydınlığı ilə üzə çıxardı.

Qara dəniz sahillərində uzun müddət ərzində Osmanlıdan qovulmuş ermənilər işləyirdilər. Onlar həqiqi proletar idilər. Onların özlərinə məxsus olan torpaqları yox idi. Onlar öz alın tərləri və qanları ilə mülkədarların ciblərini qalınlaşdırırdılar. Knyaz Qolitsın Qafqaz ermənilərindən qopartmağa bir şey tapmayanda bu bədbəxt köçkünlərə əl uzatdı. On minlərlə proletarı öz arvad-uşaqları ilə Şimal okeanının sahillərinə göndərmək istəyirdi; onlar rəhm edilmələrini xahiş etdilər. Onların xahişi Qafqaz ali hakimiyyətinin qapılarına çatdı. Sonra, bu zaman gürcü radikalları nə etdi? Bir qışqırıq, vay-şüyən qopartdılar ki, Gürcüstan gürcülər üçün olmalıdır. Bu sözlər yalnız "İveriya" və Boris Esadze üçün deyil, həm də "Tsnobis purtseli" üçün də şüar oldu, hansı ki, yuxarıda qeyd olunan biabırçılıqdan sonra da demokratiya adı ilə erməni burjuaziyasının başına od yağdırdı. Bu qəzet knyaz Qolitsının proqramının həyata keçirilməsini tələb etdi. Qara dəniz sahilindən gəlmiş gürcülər ermənilərin oradan köçürülməsini arzu etmədilər, çünki onlar gürcülər

üçün qızıl mədəni idilər. Bax məhz bu "Tsnobis purtseli"nin demokratlığının saxtalığını təsdiq etdi. Yuxarıda qeyd olunan knyazoğulları erməni tütünçülərinin maraqlarını elə qorumağa başladılar ki, elə bil istedadlı iqtisadçı öz maraqlarını qoruyur...

Rotmistr Esadze şəxsi dişləri ilə qorudu erməni tütünçülərini və oradaca qana bulaşmış ağzı ilə özünü erməni fəhlə-xalqının müdafiəçisi və dostu elan etdi; ancaq bundan əvvəl ermənilərə Ararat dərəsini göstərirdi və ora köçməyi məsləhət görürdü.

Gördüyünüz kimi, Çavçavadzenin qrupu ilə müasir "demokratlar" arasında heç bir fərq yoxdur.

1895-96-cı illərdə Osmanlıdan qaçmış ermənilərin bir hissəsi Rusiyanın təbəəliyini qəbul etdi, ancaq knyaz Qolitsın onlara elə şərtlər qoydu ki, onlar yalnız 20 ildən sonra torpaq əldə edə bilərdilər. Beləcə proletarlar yığını əmələ gəldi, hansı ki, bu gün də bizim ölkənin müxtəlif yerlərində evsiz-eşiksiz yaşayır. Bu yığın kəndlilərə xidmət edir, icarə ilə torpaq götürür və bununla bir loxma çörək əldə edir. O, bütün növ vergiləri ödəyir və əsgər gedir, amma mülkiyyət almaq hüququ yoxdur. Bu bədbəxtliyi onların başına Qolitsının sonsuz-sərhədsiz erməni nifrəti gətirdi. Bu yaz Tiflisdə erməni deputatları toplandı və petitsiya tərtib etdilər. Bu petitsiyanın bir maddəsi bədbəxt proletarlara aid idi. Deputatlar Cənubi Qafqazda bu proletarlara torpaq verilməsini xahiş edirdi, ancaq gürcü mətbuatı bu fəhlələrə və proletarlara qarşı yenə səs-küy qopardı. Gürcü mətbuatı erməni ziyalılarına və burjuaziyasına yalnız ona görə hücum etdi ki, onlar bu güruhun insan hüquqlarını tələb etdi. Sehrbaz kəndirində kəlləmayallaq fırlanan gürcü mətbuatı Qolitsının "insanpərvərliyinin" möhkəm dayağı idi; o, bu ermənilərə torpaq verməməyi tələb etdi.

Osmanlıdan qaçan ermənilər çox təhlükəli idilər, ona görə ki, onlar bir zamanlar qafqazlılara məxsus olan torpaq yerlərini onların əllərindən aldılar. Bu istiqamətdə Suvorin, Veliçko və gürcü publisistləri arasında səmimi həmrəylik mövcuddur. Yazdılar, qışqırdılar, kiridilər. Sonda məlum oldu ki, erməni ziyalıları və burjuaziyası demokratiyanın və proletariatın düşmənləridir yalnız

> ona görə ki, bu yazıq bədbəxtlər üçün torpaq istəyiblər. Gürcü publisistlər proletariatın dostlarıdırlar, ona görə ki, onlar tələb edirlər ki, torpaq və susuz qalmış ermənilər əsgər getsin, xərclərini versinlər, amma onlar üçün bir loxma çörək verəcək torpaqları olmasın. Bu hadisələr müasir demokratiyanın ardıcıllarının xronikasına yazıldı"[1].

Bir qrup gürcü vətəndaşının "Tsnobis purtseli" qəzeti vasitəsilə 1905-ci ilin noyabr ayında Tiflisdə azərbaycanlılara qarşı həyata keçirilən zorakılıqlarda və vəhşiliklərdə "Daşnaksutyun"un fəaliyyətinin təhqiq olunması barədə siyasi təşkilatlara müraciətinə "Mşak" və "Nor-Dar" qəzetlərində gürcülərin ünvanına söylənən təhqiredici məqalələrlə münasibət bildirilir. "İveriya" qəzeti bununla bağlı başqa bir sayında dərc etdirdiyi "Qədim atalar sözü və yeni zaman" sərlövhəli yazıda bu təhqiramiz məqalələrdən sitatlar gətirərək ermənilərin əsl simasını gürcü oxucusuna göstərməyə çalışmışdır:

> "Kim bilmir ki, yeni zaman qədim fikirləri və baxışları pozur və adamlarda yeni düşüncə və anlayışları inkişaf etdirir. Yəqin ki, bir çox qədim atalar sözünün bu gün vaxtı ötmüş, əsassız deyimlər hesab olunması bu mühitlə izah olunur.
>
> Məhz bir qədim gürcü atalar sözü, hansında ki, "Vicdan da yaxşı şeydir" sözləri əks olunurdu, belə bir bəxtlə üzləşibdir. Bu qədim deyim tamamilə bu günkü yeni zamanı əhatə etmir və ona görə də bəzi jurnalistlər heç düşünmürlər ki, bu gün köhnə sadəlövhlüklə yoğrulmuş bir kimsə onlara bu qədim "Vicdan da yaxşı şeydir" atalar sözünü deyə bilər. Düşünmürlər ona görə ki, onlar üçün vicdan köhnəlmiş duyğudur və bu gün bu duyğu mədəni insanlar üçün məcburi deyil.
>
> Hər gün erməni burjua-şovinist qəzetlərində açıq şəkildə sərgilənən və heç bir cür haqq qazandırıla bilməyən hərəkətləri bu şəkildə deyil də, başqa cür izah etmək qeyri-mümkündür.

[1] "İveriya", 1905, 13 oktyabr (№187).

Orada demək olar ki, hər gün elə mənasız şeylər dərc olunur ki, sağlam düşüncəli adam onu oxuyanda heyrətlənər və bunları yazanın hərəkətində tərbiyəli sima görməz. Bu milliyyətçi şovinizmlə dolu olan mənasız yazılarda adicə tərbiyə və təmkin deyil, balaca düşüncə və taktiki ağıl da tapılmır.

Ermənilərin iştahaları artmış burjua-klerikalları* özlərinə qonşu xalqları elə sözlərlə qonaqlayırlar, onlara elə ədəbsiz adlar qoyurlar ki, bizim burjuaziya mənəviyyatını yaxından tanımayan çox oxucumuz, qeyd olunan bədii söz yığınının həqiqi mahiyyətini nəinki təsəvvür etməyəcək, onu sadəcə heç dərk edə bilməyəcəkdir.

Siz yəqin ki, xatırlayırsınız, bundan əvvəl gürcü vətəndaşlarının bir qrupu qəzetdə məktub dərc etdirdi və Tiflisdə baş vermiş qırğının səbəblərinin araşdırılmasını və günahkarların cəzalandırılmasını tələb etdi. Bu qrup məktubla üç inqilabçı partiyanın təşkilatlarına yazılı müraciət etdi və işin təhqiq olunmasını xahiş etdi: "Biz – Tiflisdə yaşayan gürcü vətəndaşlarının bir qrupu sizə – yuxarıda qeyd olunan təşkilatların komitələrinin üzvlərinə müraciət edirik:

1) Sizin üzvləriniz arasından seçilmiş komissiyada 22, 23 və 24 noyabrda Tiflisdə baş vermiş erməni-tatar qırğınının səbəbləri ciddi təhqiq olunsun;

2) "Daşnaksutyun" təşkilatının fizionomiyası və bu işdə fəaliyyəti təhqiq olunsun və aşkarlansın;

3) Tələb edirik, bu utancverici və barbar qırğında iştirak edənlər müəyyən edilsin və belə şəxslər xalqın müstəqil təşkilatları tərəfindən cəzalandırılsın".

Gördüyünüz kimi, bu məktubda hansısa, hətta çox həssas bir ermənini təhqir edən və incidən elə bir şey yoxdur. Qırğının ilk günlərində şəhərdə elə tükürpərdici hadisələr baş verdi ki, "Tsnobis Purtseli" qəzeti "Daşnaksutyun" partiyasına açıq

* klerikallar – klerikalizmin (ölkənin siyasi və mədəni həyatında dini təşkilatların hakimiyyətini möhkəmlətməyə çalışan siyasi cərəyanın) tərəfdarları (*F.V.*).

məktubla müraciət ünvanladı və ondan bir neçə barbar işinin törədilməsində iştirak edənlərin bu partiyanın adı ilə hərəkət etmələrinə görə cavab tələb etdi. Sonra bu partiya bəyan etdi ki, düzdür, orda-burda bizim partiyanın adı ilə vəhşiliklər törədiblər, ancaq bizim buna heç bir aidiyyatımız yoxdur və bunun araşdırılmasını biz də istəyirik. Gürcü vətəndaşlarının bir qrupu da elə bunu tələb edirdi, – qırğında "Daşnaksutyun" partiyasının üzvlərinin həqiqi fəaliyyətinin aşkar olunmasını tələb edirdi, çünki "Tsnobis Purtseli"nin gördüyü və buna görə də məktubda çap etdirdiyi faktları "gürcü vətəndaşları" da Tiflisdə görmüşdülər. Qeyd olunan "qrup" eyni zamanda səbəblərin və suçluların tapılmasını da tələb edirdi.

Zənnimcə bu istəkdə pis və pislənəcək heç nə yoxdur. Amma erməni şovinistlərinin xoşuna yalnız onların şovinizmini – milliyyətçilik iştahalarını bəyənənlər gəlir, bəs necə, yoxsa gürcü vətəndaşlarının bir qrupunun müvafiq istintaq aparılması barədə tələbini xoşlaya bilərlərmi?! Bu qrup şifahi şəkildə tatarlar tərəfindən Tiflisin dinc sakinlərinə hücum edilməsini bəyan etməyib, bəs necə, yoxsa "Mşak"ın, "Nor-Dar"ın redaksiyası qarşısına toplaşmış kütlə onları necə bağışlaya bilərdi!

"Nor-Dar" nə soyumadı, nə də istilənmədi və məktubun müəlliflərini vicdansız adlandırdı. Alın, xahiş edirik dadına baxın: "Bəli, cənablar, – yazır bu qəzet, – iştirakçılar (qırğında) tatarlar idi, – 10 ay ərzində erməni xalqını utanmadan soyan bu tatar güruhu. Bəli, soyğunçuluqlar Bakıda, Naxçıvanda, Şuşada, Gəncədə, Zaqafqaziya dəmir yolunda və sonuncu Tiflisdə oldu. Bunu görmək üçün insanda dürüstlüyün heç olmasa axırıncı zərrəsi olmalıdır, hansı ki, sizdə çatmır, hörmətli gürcü vətəndaşları!"

"Nor-Dar"ın "üslubu" belə imiş; "Mşak" da ondan geri qalmır. Qeyd olunan vətəndaşların məktubu ilə bağlı "qəhrəman dovşanlar" barədə, hansıların ki, sən demə uzun qulaqları var imiş, müdrik bir müzakirə açır. Dovşanın uzun qulaqları var, – "Mşak" aşkar edib, – bu qulaqları gizlətmək mümkün deyil. Səs salar-salmaz dovşan o saat qulaqlarını oynadır və bu qorxaq hey-

vanın hissiyyatı o saat aşkar olunur. İndi biz də səs salırıq – dovşanlar o saat qulaqlarını oynadır, − dovşanlar çox qorxaqlarmış. Kimdir bu dovşanlar? – qəzet sual verir və özü cavab verir: bunlar "İveriya" və "Vozrojdeniya"da yuxarıda qeyd olunan məktubu dərc etdirən gürcü vətəndaşları və başqalarıdır. Qəzet hər bir məsuliyyətdən uzaq öz yazısını belə tamamlayır: "Dovşanlar... səs salınması yetər ki, həmişəlik qaçıb dağılsınlar..."

"Nor-Dar" növbəti nömrəsində yenidən bu mövzuya qayıdır və gürcülər barədə bu cür inci sözlər yazır: "Gürcülərin qabaqcıl zümrəsi öz ziyalılarının simasında gürcü və rus hərfləri ilə nəşr olunan gürcü qəzetlərində ermənilərin quduzlaşmış əleyhdarı və tatarların tərəfdarıdırlar. Gürcülərin bütün qrupları arasında dolaşın, bilin Tiflisin küçələrində və bulvarda onlar ermənilər və tatarlar arasında baş vermiş qırğının səbəbləri barədə nə danışırlar. Qeyd olunan qəzetlərdə yerləşdirilmiş arayış və yazıları oxuyun, sülh yaradılması üçün bir yerə yığılmış qadınların toplantısına girin (3 dekabr 1905-ci ildə Tiflisdə azərbaycanlılar istisna olmaqla müxtəlif millətləri təmsil edən qadınların erməni-azərbaycanlı münaqişəsinə həsr olunmuş toplantısı nəzərdə tutulur − *F.V.*), bilin nə danışırlar gürcü qadınları, onların üzlərinə, alovlanmış gözlərinə baxın – və siz anlayacaqsınız gürcü erməniyə qarşı necə açıq qarşıdurma ilə təchiz olunub...

Biz gürcülərdən tələb edirik, heç olmasa indi iç üzlərini açsınlar və aşkar desinlər, ermənilərdən nə istəyirlər. Biz isə deyərdik ki, gürcülər bir gün belə, ermənilərin bugünkü durumunda olsalar ermənilər nəinki gürcülərə qarşı çıxmazdı, əksinə onların arxasında olardı və gürcüləri öldürənlərin əleyhinə durardılar. Sizin hərəkətlərinizi, gürcülər, vaxtı gələndə heç bir həqiqi erməni, heç bir qürurlu erməni unutmayacaq. Bunu yaxşı yadınızda saxlayın".

"Mşak"da və "Nor-Dar"da bu cür hədələrlə bitən nə bir, nə də iki yazı çap olunub. Bu cür yazıları oxuyub qeyri-ixtiyari özümüzdən soruşuruq: "Doğrudanmı bu cür "həqiqi ermənilər" tamamilə yaddaşlarını və öz xalqının real durumunu anlama qabiliyyətini itiriblər? Yoxsa doğrudanmı bu heyrətli dərəcədə

kor olmuş adamlar bu cür yazılar və danışıqlarla, bu cür lovğalıq və təxribatlarla öz altlarını qazdıqlarını və oturduqları budağı kəsdiklərini görmürlər?"

Ancaq özümüz-özümüzə də bir neçə sual verməliyik. Təəssüf ki, gerçəklik göstərir ki, suallarla ifadə olunmuş fikirlər tam həqiqətdir və bu cür "həqiqi ermənilər"in həmrəy yaşamaq üçün yola gətirilməsi heç zaman mümkün deyil.

Və bizə bu cahil və avam adamlara bu sözləri deməkdən başqa bir şey qalmır: Davam edin, cənablar, başınıza heyfiniz gəlməyənə qədər!"[1].

"İveriya" qəzetində yayımlanmış "Anlaşılmayan hadisə" sərlövhəli məqalədə də ermənilərdən ibarət qaragüruhun "Tsnobis purtseli" qəzetinin redaksiyası önündə törətdikləri vəhşilik qınanır və erməni şovinistlərinin anlaşılmaz tutumundan söz açılır. Məqalədə həmçinin, xarici mətbuatın obyektivliklə uzlaşmayan ermənipərəst mövqe tutduğuna diqqət çəkilərək, erməni mətbuatının radikal ritorikası, xüsusilə də "Mşak" qəzetində çap olunan müharibə çağırışlı intibahnamələr məzəmmət edilir:

"Erməni-tatar düşmənçiliyinə və savaşına baxanda bizi bir şey heyrətləndirir və anlaya bilmirik: erməni şovinistləri xalqı sakitləşdirmək və rahatlamaq əvəzinə hər şeydə və hər yanda özününkülərin hərəkətlərini ört-basdır edəndə və heç olmasa hamının gözü qarşısında baş vermiş və gizlədilməsi mümkün olmayan hadisələri belə, qəti şəkildə qınamağa cəhd göstərməyəndə hansı fikirləri əllərində rəhbər tuturlar. Biz başa düşürük ki, hansısa şovinist özününkülərdə kifayət qədər güc gördükdə, bu gücə ümid edərək başqa millətlərlə uyğunlaşmağa və razılaşmağa cəhd etmir. Belə olan halda o, ağılla olmasa da heç olmasa real gücünü ölçüb-biçməklə düşünməlidir ki, güc onun tərəfində olsa məqsədinə nail ola bilər.

Ancaq ermənilərlə bağlı vəziyyət elə deyil. Onlar bütün Qafqazboyu elə məskunlaşıblar ki, demək olar ki, heç bir yanda bü-

[1] "İveriya", 1905, 10 dekabr (№223).

töv ərazini tutmayırlar və başqa millətlərlə, xüsusilə də tatarlarla qarışıq yaşayırlar. Nə sayca, nə də ərazi yığcamlığı baxımından ermənilər müsəlmanları üstələmirlər. Bununla yanaşı, ermənilər əsasən ticarət və istehsal ilə məşğul olan xalqdır. Onlara sülh və liberal-burjua ictimai düzəni lazımdır. O da məlumdur ki, ermənilər və tatarlar arasında bu barbar müharibə ermənilər üçün hər bir tərəfdən zərərlidir. Əgər kimsə ağlını tam olaraq itirib məsələnin həllini silaha etibar etsə, onda onlar üçün çox aydın olmalıdır ki, silah işlətməyin nəticəsi çoxsaylı tatarların məğlubiyyəti və ermənilərin qələbəsindən ibarət olmayacaq.

Burada elə sadə qərar-nəticə lazımdır ki, onu hamı başa düşsün və ona görə də erməni şovinist-burjua düşərgəsini xalqı sakitləşdirməyə cəhd göstərməsinə inandıra bilmədiyimizə heyrətlə təəccüblənirik.

Biz Qafqazın müxtəlif yerlərində baş vermiş və hazırda da baş verən qırğın barədə indi heç nə deməyəcəyik. Ancaq Tiflis nümunəsi gözümüz önündədir. Burada biz tamaşaçı idik və bilirik ki, burada, Tiflisdə heç bir panislamist erməniləri qırmağa başlamayıb. Tiflis tatarlarının erməniləri qırmaq üçün böyük istəyi hətta olsa belə, onlar burada o qədər azdırlar ki, heç buna cəhd göstərməzdilər, çünki şübhəsiz, sayca və daha güclü rəqib qarşısında uduzardılar. Bizdə burjuaziyanın ədalətsevərlik təcrübəsi var və bilirik ki, tezliklə xarici jurnal-qəzetlərdə oxuyacağıq: Tatarlar Tiflisdə erməniləri qırmağa başlayıb, ancaq bu cür "yazılmış tarix" nə təzə, nə də köhnədir, və bu, bizə öz gözümüzlə görüb qulağımızla eşitdiklərimizi unutdura bilməz.

Erməni güruhunun Tiflisdə nə bir, nə də iki barbarlıq törətdikləri hər bir şübhənin kənarındadır. Elə tatarları öldürdülər ki, onların heç bir silahı yox idi, heç nəyə qarışmırdılar, – bir-iki quruş qazanmaq üçün çiyinlərini çaydan və lavaşla yükləyib küçələrdə gəzirdilər. Misal üçün, srağagün "Tsnobis purtseli"nin redaksiyasının önündə ermənilər mənfurca iki tatar fəhləsini öldürdülər, hansıların ki, heç bir silahı yox idi, heç kəsə təhlükə törətmirdilər, – əksinə, vəhşiləşmiş qaragüruhdan qaçıb gizlənirdilər, öldürdülər və onların cəsədini Kürə atdılar. Re-

daksiyanın demək olar ki, bütün üzvləri bu dəhşətli hadisəni seyr edirdilər və bu günahsız qurbanları həmişə özlərini vardövlətli və mədəni hesab edən adamlardan qoruyub gizlədə bilmədilər.

Təkrar edirik ki, bu cür faktlar Tiflisdə nə bir, nə də iki dəfə baş veribdir. Və bu zaman erməni jurnal-qəzetləri nə edir? Hansı dildə danışır erməni mətbuatı? Təəssüf ki, bu mətbuatda nadir olmayan hallarda birbaşa təxribat xarakterli yazılar dərc olunur. Bu qəzetlər nəinki biz qeyd etdiyimiz iyrənc hadisələr barədə cınqırını belə çıxarmır, nəinki özlərininkilərin törətdikləri barbarlıqları qınamır, əksinə elə yazılar dərc edirlər ki, bu yazılar xalqı həyəcanlandırır və milli mübarizə üçün müharibəyə çağırır: Qafqazın başqa yerlərində tatarlar bizi qırıb, burada, Tiflisdə isə biz çoxluqdayıq və... Bax bu tipli məktublarda gizlənmiş fikir budur.

Bu yöndə erməni şovinist burjuaziyasının və ruhanilərinin leyb-orqanı olan Mşak" qəzeti xüsusi enerji ilə fəaliyyət göstərir..."[1]

"İveriya"nın müxbiri P.Surquladze də qanlı Tiflis hadisələrində erməni milliyyətçi şovinizmi və ruhaniyyətini ittiham edirdi:

"Uzun müddətdir ermənilərin bir hissəsi, erməni "ziyalıları" tez-tez təkrar edirlər: Biz ermənilər, mədəni xalqıq, biz xristianıq, biz sivilizasiyaların avanqardıyıq, müsəlman ölkələrinə işıq saçırıq, ancaq müsəlmanlar bizi təqib edirlər, qırırlar. Əlbəttə mən müsəlmanlara haqq qazandırmıram, bilirəm ki, bizim qonşu ölkələrdə onların çoxu ruhanilərin təsiri altında əl-qolları bağlı, şüursuz və inkişaf etməmişdirlər. Bilirik ki, insanlar kar olan yerdə hər cür bədxahlıq yuva salır. Ancaq kim ki, həqiqət axtarır, kimin ki, şüuruna qaranlıq çökməyib, o, ermənilərin yuxarıda qeyd olunan yalanına aldanmaz, onlara haqq qazandırmaz. Və əgər yenə də onlara haqq qazandırmaq istəyində olsa belə, həyatın və faktların özü buna əsas verməz, çünki faktlar tamamilə bunun əksini göstərir. Mənim qarşımda öldürülmüş tatar, hansının ki,

[1] "İveriya", 1905, 1 dekabr (№ 216).

heç bir silahı yox idi, hansı ki, qardaş gülüşü ilə ətrafında olanlara yalvarırdı, bu gün də gözlərimin önündədir, stəkanla çay satan tatarın cəsədi günahsız qan töküldüyü üçün fəryad edir...

Millətlər arasında qisas, nifrət, onları bir-birinə qarşı təhrik etmək – bax milliyyətçi şovinizmin ideya qılınc-qalxanı nədir. Hər şey mənə və başqasına heç nə, bax bunların şüuru nədir. Bunun nəticəsi qırğındır. Sonra, bu ideyaların daşıyıcıları kimlərdir? Onların mənbəyi haradadır? Bu, bugün hamı üçün bəllidir, bu, bəşəri hadisədir. Öz ziyalıları ilə birlikdə burjuaziya – bax kim milliyyətçi şovinizmi tərbiyə edir. Buradaca ona ruhaniyyət əlavə olunur. Xüsusi şərtlər altına salınmış ermənilərin ruhaniyyəti milli rəqabət hisslərinin cücərdilməsində fanatik qüvvələrdən geri qalmır. Bəli, bu qüvvələr xalqı vicdansızlaşdırır. Onlar erməni xalqını ideya məngənəsinə bağlayıb və özünün köləsi vəziyyətinə salıb. Onlara əsrlərboyu xalqı istismar etmələri yetmədi... Bir şüurlu fəhlənin sözlərini deməsəm olmaz. On iki il idi ki, mətbəədə işləyirdik, – dedi o, – və bu müddət ərzində yanımızda dura biləcək və bizimlə bir yerdə xalqın azadlıq hərəkatı üçün çalışa biləcək bir erməni dost tapa bilmədik.

Bəli, bu bəyanat diqqətəlayiqdir. Bu, bizə ermənilər arasında xalqa düşmən kəsilmiş qüvvələrin necə güclü olduğunu göstərir. Və bax məhz buna görə milliyyətçi şovinizmin bayraqdarları xalqı elə bir küncə salıblar ki, onu oradan çıxarmaq böyük əmək və ayıqlıq tələb edir. Ehtiyatlı olun, xaşal qarınlı varlılar! Hərəkətlərinizə fikir verin! Ehtiyatlı olun, siz – keşişlər! Bilin ki, xalq bu gün və ya sabah sizin "fəaliyyətinizi" qiymətləndirəcək. Erməni xalqı, sən isə bil ki, bugünkü dar vəziyyətdən intiqam deyil, yalnız birlik çıxaracaq. Yalnız zəhmətkeşlərə qarşı qardaşlıq və sevgi sənə qüvvə yığıb, səndə sənin kimi əziyyətə qatlaşmış qardaşlarına və başqa millətlərin fəhlələrinə qarşı cücərdilmiş düşmənçilikdən və qisasdan aralaşmağa güc verəcək. Bil ki, yalnız birlik, bütün məzlumların birliyi sənin vətəndaş azadlığını və hər cür zorakılığın qarşısının alınmasını təmin edəcək!"[1]

[1] "İveriya", 1905, 27 noyabr (№ 213).

## Tiflisin bəzi küçə, prospekt və meydanlarının XX əsrin əvvəllərindəki və indiki adları[1]

Abbasabad meydanı – Lado Qudiaşvili meydanı
Abbasabad döngəsi – Boris Kuptin küçəsi
Avcala küçəsi – Davit Quramişvili prospekti, Davit Saracişvili küç., Tsotne Dadiani küç., Q.Çitaia küç.
Avcala meydanı – Qiorqi Çitaia meydanı
Baryatinsk küç. – Qiorqi Çanturiya küç.
Başkeçid küç. – Tanziya küç.
Borçalı küç. – Firdovsi küç.
Böyük Vank küç. – Qiorqi Atoneli küç.
Cvaris-mama küç. – Yerüsəlim küç.
Davit küç. – Besiki küç.
Didube küç. – Davit Kipiani küç.
Erməni küçəsi (erməni bazarı bu küçədə idi) – Kote Apxazi küç.
Əli Tağızadə küç. – İ.Qrişaşvili küç.
Əli Tağızadə dön. – Firdovsi küç.
Gəncə küç. (Saburtalo məhəlləsində) – Lukiane Tabukaşvili küç.
Gəncə döngəsi (Avlabar məh.) – İ.Alixanyan küç.
Göyçə küç., Vank küç. – Sevan küç.
İrəvan meydanı – Azadlıq meydanı
Qarpız ("Arbuznı") meydanı – 300 araqviyalılar bağının yerində olub.
Y.Qolovin prospekti – Şota Rustaveli pr.
Kviraçxlov küç. – Nino və İlya Nakaşidzelər küç.
"Kiroçnaya" küç. – Kote Marcanişvili küç.
Kukia dön. – Vladimir Kankava küç.
Metex yoxuşu – Metex küç.
Mixail pr. – David Ağmaşenebeli pr.
Mirzoyev küç. – Nikoloz Kumsiaşvili küç.
Muxran küç. – Barataşvili küç.
Naxçıvan küç. – Aleksandr Aladaşvili küç.

[1] Tiflis (Küçələr, prospektlər, meydanlar) – Ensiklopediya, Tiflis, 2008 (*gürcücə*).

Nersesov küç. – Pxovi küç.
Noraşen küç. – Qriqol Xandzteli küç.
N.Palavandov küç. – "Qutnis" küç.
İ.Panaseviç küç. – Nino Çxeidze küç.
Petxain küç. – Betlem küç.
Petxain, I yoxuş – Betlem yoxuşu
Petxain II yoxuş – Askani küç.
Riğe küç. – Kosta Xetaqurov küç.
Rus ("Russkaya") küç. – Vladimir Vekua küç.
Seyidabad küç. – Yakov Tsurtaveli küç.
Seyidabad, II döngə – Şavnabad küç.
"Serebryannı" küç. – "Vertsxlis" (Gümüş) küç.
Sioni küç. – II İrakli küç.
Soğanlıq dalanı – Mose Xoneli küç.
"Soldat" (Əsgər) bazarı – Qriqol Orbeliani meydanında olub
Solomon küç. – Aleksandr Düma küç.
Sumbatov küç. – Mirzə Fətəli Axundov küç.
Surp-Qarapet yoxuşu – Yelene Axvlediani yoxuşu
Surp-Sarkis küç. – İoseb Qrişaşvili küç.
Şərab yoxuşu, Böyük Siracxana küç. – D.Meqreli küç.
Şuşa küç. – Qertsel Baazov küç.
Tatar meydanı – Qorqasal meydanı
Tatar döngəsi – Mirzə Şəfi küç.
Tovuz küç. – Qiorqi Merçuli küç.
Vağzal küç. – Tamar-Mepe (Çariça Tamar) küç.
A.Velyaminov küç. – Şalva Dadiani küç.
M.Vorontsov küç. – Vaxtanq Qorqasal küç.
M.Vorontsov meydanı – Zaarbryuken meydanı
A.Yermolov küç. – Şio Çitadze küç.
Yerüsəlim dön. – Davit Baazov küç.
Zaqatala küç. – Axmeta küç.
Zurabaşev küç. – Viktor Corbenadze küç.

# NƏTİCƏ

1905-1906-cı illərdə Cənubi Qafqazın müxtəlif şəhər və bölgələrində erməni-azərbaycanlı iğtişaşları XX əsrdə bu regionda ilk qanlı qarşıdurma olmaqla yanaşı, sonrakı dövrlərdə də təkrarlanmış erməni-azərbaycanlı münaqişələrinin əsasını qoymuşdur. Əslində 1905-1906-cı illərdə cərəyan etmiş hadisələri araşdırmaqla Qafqazda erməni məsələsinin kökünə və səbəblərinə dair çox mühüm nəticələrə gəlmək mümkündür.

Tədqiqat işində arxiv sənədlərinə və Tiflisdə yayımlanmış dövri mətbuat orqanlarına istinad edilərək, 1905-1906-cı illərdə Tiflis quberniyasında baş vermiş erməni-azərbaycanlı qarşıdurmasının araşdırılmasına cəhd göstərilir və aşağıdakı önəmli nəticələrə gəlinir:

- 22-30 noyabr 1905-ci ildə Tiflisdə baş vermiş toqquşmaların əsas səbəbkarının ermənilər olduğu bir neçə mənbədən təsdiqlənir;
- Bəlli olur ki, Tiflis ermənilərindən fərqli olaraq, bu şəhərin azərbaycanlı sakinləri milli zəmində qarşıdurmanın qarşısının alınması üçün xüsusi komissiyalar yaratmış, tez-tez toplantılar keçirmiş, bir sözlə əllərindən gələni əsirgəməmişlər;
- Hökumət qüvvələrinin dəyib-toxunmadığı erməni silahlı dəstələri Tiflis küçələrində olduqca sərbəst idilər və şəhərin əliyalın azərbaycanlı-müsəlman sakinlərini (hətta bəzən gürcüləri və rusları da) böyük-kiçik demədən əllərinə keçən istənilən yerdə və günün istənilən çağında min bir əzabla qanlarına qəltan edirdilər;
- Tiflisdə soydaşlarına qarşı törədilən vəhşiliklərə ətraf bölgələrdə yaşayan azərbaycanlılar (qarapapaqlar) biganə ya-

naşa bilməyirlər. Bir tərəfdən onlar Borçalı və Qazax qəzalarında, Tiflis qəzasının Qarayazı nahiyəsində süvari dəstələr yaradıb Tiflisə göndərir və bu süvarilər hökumət qüvvələri tərəfindən yaradılan bütün sədlərə və maneələrə rəğmən, müxtəlif yollar və vasitələrlə Tiflis azərbaycanlılarının imdadına yetişməyə müvəffəq olur. Digər tərəfdən isə həmin bölgələrdə "Daşnaksutyun" kimi terrorçu-şovinist təşkilatların büdcəsinin doldurulmasına xidmət edən erməni mülkədarlarının və sahibkarlarının mal-mülkü hədəfə alınır. Qarapapaqlar qeyd olunan aksiyaları Tiflisdəki soydaşlarının qisasını almaq üçün etdiklərini açıq bəyan edirdilər. Bu, Borçalı-Qazax və Tiflis azərbaycanlıları arasında nümunəvi həmrəylik göstəricisi idi;

- Tiflis quberniyasında ermənilərin mülklərinin talanı ilə bağlı açılmış cinayət işlərinin çoxu şahid ifadələri yetərsizliyindən heç kəs cəzalandırılmadan bağlı elan edilir. Çünki ermənilərdən başqa (ermənilərin ifadələri onların etnik münaqişə tərəflərinin biri olmaları səbəbindən qərəzli hesab edilib çox zaman nəzərə alınmırdı) şahid qismində dindirilən heç bir millətin nümayəndəsi – nə yerli gürcülər, nə yerli ruslar və təbii ki, nə də yerli azərbaycanlılar bu hadisələrdə iştirak edənləri tanımadıqlarını bildirirdilər. Bu fakt isə Borçalıda ermənilər istisna olmaqla, digər xalqlar arasında həmrəyliyin göstəricisi idi;
- Dəqiq sayları bəlli olmayan və müxtəlif mənbələr tərəfindən 1000, 1300, 1500, hətta 2000 olduğu göstərilən qarapapaq atlılarının Tiflisə daxil olub, vaxt itirmədən Şeytanbazarda ön müdafiə xəttində döyüş mövqeyi tutması qüvvələr nisbətinin dəyişməsinə və ermənilərin üstünlüyünün aradan qaldırılmasına səbəb olur, eyni zamanda hökuməti sülh yaradılması üçün qəti tədbirlər görməyə vadar edir.
- Ermənilərin Tiflisdə törətdikləri hədsiz qəddarlıqlara gürcü ictimaiyyətinin nümayəndələrinin və gürcü mətbuatının reaksiyası sərt idi. Onlar əsas günahı "Daşnaksutyun"

partiyasında görürdülər. Münaqişə zamanı gürcülərin tutduğu obyektiv mövqe erməniləri qıcıqlandırır və bu, erməni mətbuatının səhifələrində özünün əksini tapırdı.

- Bu münaqişədə gürcü ictimaiyyətinin pozitiv mövqeyi erməni silahlı dəstələrinin azərbaycanlılara qarşı törətdikləri cinayətlərə qarşı susqun qalmayıb öz etiraz səsini ucaltması ilə yanaşı, münaqişə tərəfləri arasında sülhün bərqərar olması istiqamətində fəaliyyətlərlə də müşahidə olunurdu. Knyaz general İvane Çavçavadzenin başçılığı altında gürcü zadəganlarından və ziyalılarından ibarət nümayəndə heyətinin Borçalı qəzasına sülhməramlı səfəri qeyd olunanların ən bariz təcəssümüdür;
- Tiflis qırğınları nəticəsində azərbaycanlıların canlı itkisi ermənilərə nisbətdə xeyli çox olmuşdur. "Kavkaz" qəzetinin 1905-ci il dekabr saylarından 22 noyabrdan etibarən təzahür edən qanlı olaylar nəticəsində Tiflisin müsəlman qəbiristanlığında 42 müsəlmanın dəfn olunduğu bəlli olur (Sonradan bu siyahıya Zaqafqaziya şeyxülislamı Axund Əbdüssəlam Axundzadənin Tiflis hadisələri zamanı aldığı sinir sarsıntısından təqribən 3 ay sonra dünyasını dəyişən 18 yaşlı qızı da əlavə olunur. Şeyxülislamın özü isə qanlı olaylar nəticəsində ağır xəstələnib vəzifəsini icra etmək gücündə olmur və başqası ilə əvəzlənir). Eyniadlı qəzet qırğın günlərində Tiflisin Mixail xəstəxanasına 39, Xarpux müalicəxanasına isə 300 yaralı müsəlmanın gətirildiyini yazırdı. Əslində yaralı müsəlmanların sayı göstəriləndən xeyli çox idi. Çünki Tiflis müsəlmanları hökumətə etimad etmirdilər və buna görə öz yaralılarını dövlət xəstəxanalarına aparmayıb ev şəraitində müalicə edirdilər;
- Ermənilərin hələ XX əsrin əvvəllərindən gerçəkləşdirdikləri əsas məqsəd Qafqazın ən böyük xalqı olan azərbaycanlıları fiziki cəhətdən məhv etməklə etnik təmizləmələr aparmaqdan ibarət idi, buna görə də 1905-1906-cı illər hadisələri zamanı onlar dinc və günahsız azərbaycanlıları

vəhşicəsinə qətlə yetirirdilər;

- 1905-1906-cı illərdə qeydə alınmış qətliam faktları ermənilərin XX əsrdə Qafqazda baş vermiş kütləvi qətllərin ilk müəllifləri olduğunu və onların Qafqaz coğrafi məkanına, mentalitetinə yad bir etnik ünsür olduğunu təsdiqləyir;
- 20 fevral 1906-cı ildə rus çarının Qafqazdakı canişininin rəhbərliyi altında işə başlamış sülh məclisində Ə.Topçubaşov, Ə.Ağayev, M.Şahtaxtinski, Q.Qarabəyov, İ.Hacıyev kimi tanınmış ictimai xadimlərimizin və ziyalılarımızın kəskin nitqləri, eləcə də qətiyyətli mövqeləri nəticəsində ermənilərin destruktiv fəaliyyəti və törətdikləri qırğınlar siyasi cəhətdən ifşa olunmağa başlandı;
- 1905-1906-cı illər hadisələrinin Cənubi Qafqazda yaşayan bütün azərbaycanlıların, o cümlədən Tiflis və Borçalı azərbaycanlılarının milli şüurunun oyanmasına müəyyən təsiri oldu.

# BİBLİOQRAFİYA
## I. Arxiv sənədləri

Gürcüstan Milli Tarix Arxivi (GMTA)
1. fond 2, siyahı 1, iş 1968, 2237, 2594, 2630.
2. fond 17, siyahı 2, iş 557, 562, 563.
3. fond 83, siyahı 1, iş 28, 32, 252.
4. fond 115, siyahı 1, iş 516, 517, 518, 519, 521, 522, 524, 525, 1012, 1044; siyahı 2, iş 4.
5. fond 153, siyahı 1, iş 1060.
6. fond 1105, iş 55.

## II. Dövri mətbuat

*Rus dilində:*

1. «Баку», qəzet, 1905-1906.
2. «Возрождение», qəzet, 1905-1906.
3. «Кавказ», qəzet, 1905-1906.
4. «Кавказский рабочий листок», qəzet, 1905.
5. «Каспий», qəzet, 1905-1906.
6. «Новое обозрение», qəzet, 1905-1906.
7. «Тифлисский листок», qəzet, 1905-1906.

*Gürcü dilində:*

1. «İveriya», qəzet, 1905-1906.
2. «İsari», qəzet, 1908.
3. «Tsnobis purtseli», qəzet, 1905-1906.

## III. Ədəbiyyat

*Azərbaycan dilində:*

1. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası, 2 clddə, I cild, Bakı, 2004.
2. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası, 2 cilddə, II cild, Bakı, 2005.
3. Afad Qurbanov, Bakı, 2010.
4. Arzumanlı V., Mustafa N. Tarixin qara səhifələri. Deportasiya. Soyqırım. Qaçqınlıq, Bakı, 1998.
5. Cəfərov T. 1905-1906-cı il Tiflis hadisələri Ömər Faiq Nemanzadənin gözü ilə, "Xalq qəzeti", 2010, 14 mart.
6. Əzizov E. «DİFAİ»: XX əsrin əvvəllərində erməni-azərbaycanlı münaqişəsinin ilkin tarixi şərtləri və səbəbləri, Bakı, 2009.
7. Hacıyev D. 1905-ci il inqilabı və Azərbaycan mədəniyyəti. "S.L.Kirov adına ADU-nun elmi əsərləri" jurnalı, 1955, № 10.
8. Hacıyev F. Ermənilərin Cənubi Qafqaza kütləvi köçləri və 1905-ci ildə törətdikləri qətliamlar barədə (Gürcüstan arxiv mənbələri əsasında), "Diplomatiya aləmi", 2010, № 27, s. 40-44;.mfa.gov.az/files/file/Diplomatiya%20Alemi%2027.pdf
9. Hacılar V. Borçalı Mehralı bəy tarixi həqiqətlərdə, Tiflis, 2001.
10. Hacılar V. XIX yüzillikdə Borçalıda qaçaqlıq hərəkatı, Tiflis, 2003.
11. Qasımov M. Birinci rus inqilabı və "Molla Nəsrəddin" jurnalında onun ideyalarının əksi. Bu kitabda: Azərbaycan EA Tarix və Fəlsəfə İnstitutunun əsərləri, XX cild, 1955.
12. Quliyev V. Azərbaycanda erməni zülmü, Bakı, 1999.
13. Mahmudov Y., Mustafazadə T., Məmmədov S., Nəcəfli G., Mustafa N. İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi, Bakı, 2010.
14. Məmmədli Ş. Alın yazımız, Tb., 1997.
15. Məmmədzadə M. B. Milli Azərbaycan hərəkatı, Bakı, 1992.
16. Mustafa N. 1905-1906-cı illərdə İrəvan Quberniyasında azərbaycanlıların soyqırımı, "Xalq qəzeti", 2005, 27 mart № 68.
17. Nemanzadə Ö.F. Xatirələrim (hazırlayan: Qurbanov Ş.),

Bakı, 1985.

18. Nemanzadə Ö.F. Seçilmiş əsərləri (hazırlayan: Qurbanov Ş.), Bakı, 2006.

19. Nəvvab M. M. 1905-1906-cı illərdə erməni-musəlman davası, Bakı, 1993.

20. Ordubadi M.S. Qanlı illər (1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi), Bakı, 1991.

21. Ulu baban kim olub?, I kitab, Bolus-Kəpənəkçi kəndi (hazırlayan: Hacılar V.), Tiflis, 2005.

22. Ulu baban kim olub?, II kitab, Darvaz kəndi (hazırlayan: Hacılar V.), Tiflis, 2006.

23. Urud M. Zəngəzur, Bakı, 2005.

24. Valehoğlu F. Qarapapaqlar və onların XIX əsr hərb tarixi, Bakı, 2005.

25. Valehoğlu F. Pəmbək, Zəngəzur, Dərələyəz və Güney Borçalıda türk qətliamları, "Qarapapaqlar", 2010, № 3 (33), s. 21-23;

26. Valehoğlu F. Türklük ideologiyası və İsmayıl Həqqi, "Türk eli" dərgisi, 2010, dekabr, № 9, s. 29-31;.turansam.org/turkeli9.pdf

27. Valehoğlu F. 1905-ci ildə gürcü və erməni qəzetlərində söz atışması, "Qarapapaqlar" dərgisi, 2012, № 5 (57), s. 17-26.

28. Valehoğlu F. Qafqaza kütləvi erməni köçləri Gürcüstan arxivlərində, "Türk eli" dərgisi, 2012, fevral, № 12, s. 11-14.

29. Valehoğlu F. 1905-ci ildə Tiflisdə Türk-erməni qırğını (Arxiv sənədləri və 1905-ci il dövrü mətbuat yazıları əsasında), "Qarapapaqlar", 2011, № 6 (48), s. 16-24; 2011, № 7 (49), s. 16-24; 2011, № 8 (50), s. 18-23; № 9 (51), s. 36-42.

30. Valehoğlu F. 1905-ci ildə Borçalıda xalq hərəkatı, "Qarapapaqlar", 2012, № 1 (53), s. 17-26; 2012, № 2 (54), s. 16-23.

31. Valehoğlu F. 1906-cı ildə Tiflisdə türk-erməni sülh qurultayı və sonrakı durum, "Qarapapaqlar", 2012, № 3 (55), s. 12-18; 2012, № 4 (56), s. 12-19.

32. Valehoğlu F. Qafqaza kütləvi erməni köçləri Gürcüstan arxivlərində, "Türk eli" dərgisi, 2012, fevral, № 12, s. 11-14;.uluturk.info/photos/TURKELI_XII.pdf

33. Valehoğlu (Hacılar) F. Cənubi Qafqaza böyük erməni köçü ilkin mənbələrdə, "Elmi araşdırmalar", AMEA-nın nəşri, V/2009, s. 209-213.

34. Valehoğlu-Hacılar F. Qərbi Azərbaycanda kütləvi türk qətlləri, "Elmi araşdırmalar", AMEA-nın nəşri, VII/2010, s. 120-123.

35. Vəkilov M. Birinci rus inqilabı və Azərbaycanda mədəni oyanış. "Azərbaycan" jurnalı, № 3, Bakı, 1956.

36. Rəsulzadə M.Ə. Azərbaycan Cumhuriyyəti, Bakı, 1990.

37. Rüstəmxanlı S. Difai fədailəri, Bakı, 2010.

38. Sabutay. Qori seminariyası, gürcü eqosu və Qafqazda Azərbaycan missiyası, «Mədəniyyət», qəzet, 2008, 27 sentyabr, s. 7.

39. Seyidzadə D. Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar, Bakı, 1998.

40. Suleymanova S. Azərbaycanda ictimai-siyasi hərəkat (XIX yuzilliyin sonu - XX yuzilliyin əvvəlləri), Bakı, 1999.

41. Zeynaloğlu C. Muxtəsər Azərbaycan tarixi, Bakı, 1992.

*Rus dilində*

1. Алексеев А. Манифест 17 октября 1905 г. и политическое движение, его вызвавшее, М., 1915.

2. Алексеев С. Самодержавие и либералы в революции 1905-1907 гг., М.-Л., 1925.

3. Алибегов И. Елизаветпольские кровавые дни перед судом общества, Тифлис, 1906;

4. Алиева И. Политическое и социально-экономическое положение азербайджанцев Тифлисской губернии (1846-1917), Баку, 2009.

5. Армяно-татарская резня 1905—1906 годов. Материал из Википедии-свободной энциклопедии; http: //. ru.ikipedia.org/iki/

6. Асадов С. Историческая география Западного Азербайджана, Баку, 1998.

7. Атаев Т. Первые армяно –азербайджанские столкновения http://baku-mir.livejournal.com/52674.html

8. Ахмедов А. Азербайджанские тюрки в революции 1905 г., Баку, 2002.

9. Багирова И. Гуммет. Панорама Азербайджана, 1991, № 19, май-июнь.

10. Багирова И. Политические партии и организации Азер-

байджана в начале XX века 1900-1917. Баку, "Елм", 1997, № 19, май-июнь.

11. Багирова И. Политические партии и организации Азербайджана в начале XX века. 1900 – 1917, Баку, 1997.

12. Вамбери Г. Культурное движение среди русских татар, СПб., 1912.

13. Величко В. Кавказ. Русское дело и междуплеменные вопросы, СПБ, 1904.

14. Гогитидзе М. Генералитет из Грузии, 1-я книга, Тб., 2007.

15. Горький М. О кавказских событиях, Тифлис, 1936.

16. Гусейнов Р. Очерки революционного движения в Азербайджане. Вып. I. Революция 1905-1907 гг., Баку, 1926.

17. Дашнаки (Из материалов департ амента полиции), Баку, 1990.

18. Жвания Г. Большевистская печать Закавказья накануне и в период первой русской революции, Тб., 1958.

19. Ибрагимов З. Азербайджан в годы первой русской революции. Глава в кн.: История Азербайджана, т.2, Баку, 1960.

20. Исмаил-Заде Д.И. И.И.Воронцов –Дашков, Наместник Кавказский // Россия и Кавказ: сквозь два столетия М., 2001.

21. Кавказский календарь на 1905 год, Тифлис, 1904.

22. Кавказский календарь на 1915 год, Тифлис, 1907.

23. Каневский Я. Эмин-Ага Борчалинский (Воспоминания бывшего разбойника), Тула, 1915.

24. Коган И. Карательные экспедиции 1905-1906 гг., М., 1925.

25. Кричинский А. Очерки русской политики на окраинах, Баку, 1919.

26. Маевский В. Армяно-татарская смута на Кавказе, как один из фазисов армянского вопроса, Тифлис, 1915.

27. Маккарти Дж. И К. Тюрки и армяне: Руководство по армянскому вопросу (Пер. с англ), Баку, 1996.

28. Мархулия Г. Армянская национальная идея и конфликты на Кавказе, Тб., 2010.

29. Мустафаев Р. Преступления армянских террористических и бандитских формирований против человечества (XIX-XXI вв.), Баку, 2002.

30. Наджафов И. История армянского национализма в Закавказье в конце XIX – начале XX века, Баку, 1993.

31. Нуриев Дж., Нуриева Ш. Тайны истории фальсификации, Баку, 2010.

32. Пономарев К. Кавказский пролетариат и армяно-татарская война. В журн.: "Образование", СПб., 1906.

33. Пясковский А. Революция 1905-1907 гг. в России, М., 1966.

34. Рустамова Дж. Национальная буржуазия в период Азербайджанской Демократической республики, Баку, 2007.

35. Свентоховский Т. Русский Азербайджан 1905-1920. Формирование Национального самосознания в мусульманском обществе; http://.kitabxana.org/site/sventoch.htm

36. Сеидзаде Д. Из истории азербайджанской буржуазии в начале XX века, Баку, 1978.

37. Сеидзаде Д. Азербайджанские депутаты в Государственной думе России, Баку, 1991.

38. Старосельский В. Кавказская драма, СПб., 1906.

39. Старцев Г. Кровавые дни на Кавказе, СПб., 1907.

40. Файгл Э. Правда о терроре. Армянский терроризм − истоки и причины, Баку, 2000.

41. Шафиев Ф. Истоки армяно-азербайджанского конфликта: события 1905- 1906 годов / Журнал “Ирс-Наследие”, 2008, № 4 (34), с. 49-52.

42. Шехтман П. Пламя давних пожаров, журнал “Pro Armenia” (Москва), №№ 9-10, 1992, №№ 1, 2, 1993; http://.armenianhouse.org/ shekhtman/docs-ru/result.html

*Türk dilində*

1. Baykara H. Azerbaycan İstiklal Mucadelesi tarihi. Istanbul, 1975.

2. Mehmetzade M.A. Milli Azerbaycan hareketi. Ankara, 1991.

3. Paşayev Atahan. Ermenilerin Azerbaycan Halkına karşı toprak iddiaları. Soykırım ve Tehcirleri (XIX.-XX. Yüzyıl), 2011.

4. Sertçelik S. Rus Arşiv Belgeleri İşığında Ermeni Soykırımı, Ankara, 2004.

5. Valehoğlu F. Cavahet Karapapakları, "Bizim Ahıska" dərgisi, 2008, № 9;.ahiska.org.tr/?page_id=42

6. Valehoğlu F. Birinci Rus Devrimi ve Güney Kafkasyada XX Yüzyılın İlk Ermeni-Türk Münakaşası, TEKE Uluslararası Türkçe Edebiyat Kültür Eğitim Dergisi, Sayı: 1/1 2012 s. 275-283; http://.tekedergisi.com/Makaleler/1355100777_18VALEHO%c4%9eLU.pdf

7. Valehoğlu-Hacılar F. Rus İşgali Sonrasında Azerbaycan Topraklarında Ermeni İskanı, KÖK Sosyal ve Stratejik Araştırmalar Dergisi, Ermeni Araştırmaları II, Cilt XII, Sayı 2 (Güz 2010), ss. 35-44; http://.koksav.org.tr/arsiv/201012206.pdf

*İngilis dilində*

1. Mammadli A. İncomers. A true history of Armenians, Baku, 2008.

2. The Armenian Question Basic Knoledge and Dokumentation / Editor: Ömer Engin Lütem, Ankara, 2009.

3.Villari L. Fire and Sord in the Caucasus, London, T.F.Unin, 1906;.armenianhouse.org

*Gürcü dilində*

1. Axuaşvili İ. (Muxateli). Tiflis merləri, onlar kimdir?!, Tiflis, 2008.

2. Çavçavadze İ. Ermən i alimləri və fəryad edən daşlar, Tiflis, 1994.

3. Kartli-Kaxetiyanın zadəganları, Tiflis, 2005.

4. Tetvadze Ş., Tetvadze O. Gürcüstanda ermənilər, Tiflis, 1998.

5. Tiflis (Küçələr, prospektlər, meydanlar) – Ensiklopediya, Tiflis, 2008.

# KİTABIN İÇİNDƏKİLƏR

Ön söz *(Yaqub Mahmudov)* .......... 3

*REDAKTORDAN* .......... 10

GİRİŞ .......... 13

**I Bölüm**

BİRİNCİ RUS İNQİLABI VƏ İLK QANLI ERMƏNİ – AZƏRBAYCANLI MÜNAQİŞƏSİ .......... 17

**II Bölüm**

QƏRBİ AZƏRBAYCANDA QƏTLİAMLAR .......... 28

**III Bölüm**

TİFLİS QIRĞINLARI .......... 34

**IV Bölüm**

BORÇALIDA XALQ HƏRƏKATI .......... 116

**V Bölüm**

SÜLH QURULTAYI (20 fevral – 6 mart 1906-cı il) .......... 158

**VI Bölüm**

1905-1906-CI İL HADİSƏLƏRİ YAZARLARIMIZIN GÖZÜ İLƏ .......... 194

**VII Bölüm**

GÜRCÜ VƏ ERMƏNİ QƏZETLƏRİNİN SÖZ ATIŞMASI .......... 213

Tiflisin bəzi küçə, prospekt və meydanlarının XX əsrin əvvəllərindəki və indiki adları .......... 226

NƏTİCƏ .......... 228

BİBLİOQRAFİYA .......... 232

FƏXRİ VALEHOĞLU

# TİFLİS QUBERNİYASINDA AZƏRBAYCANLILARA QARŞI 1905-ci il KÜTLƏVİ QIRĞINLARI

Texniki redaktoru və kompüter tərtibatçısı: *Paşa Saatov*
Korrektorlar: *Gültəkin Həbibli, Günay Rəhimova*

*Kitabın üz qabığında gürcü rəssamı*
*Badri Raminaşvilinin rəsmindən istifadə edilmişdir.*

Formatı: 60x84 $^{1}/_{16}$. F.ç.v. 15.

Turxan Nəşriyyat-Poliqrafiya Birliyi